SƏDAQƏT KƏRİMOVA

YOL AYRICINDA

Bakı – 2022

Redaktor: Mehriban Cəfərova

Sədaqət Kərimova
Yol ayrıcında (roman) – Bakı, nəşriyyatı, 2022, – 264 səh.

Tanınmış şair, yazıçı, jurnalist Sədaqət Kərimovanın imzası oxuculara yaxşı tanışdır. Bədii əsərlərini Azərbaycan və ləzgi dillərində qələmə alan müəllifin bir sıra kitabları rus və türk dillərinə də tərcümə olunaraq nəşr edilib. «Yol ayrıcında» S.Kərimovanın sayca 31-ci kitabıdır. İnsanın mənəvi dünyasında baş verən mürəkkəb proseslərdən bəhs edən eyniadlı roman səlis dili, maraqlı təhkiyə forması, orijinal mövzusu, dramatik süjet xətti və yaddaqalan obrazları ilə seçilir.

MÜƏLLİF HAQQINDA

Sədaqət Qayınbəy qızı Kərimova 1953-cü ilin martın 30-da Azərbaycan Respublikası Qusar rayonunun Qələcuq kəndində anadan olmuşdur. 1969-cu ildə Qusar şəhər 1 saylı orta məktəbini bitirmişdir. Həmin il Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərindən "Azərbaycan gəncləri" qəzetində əxlaq mövzusunda çap etdirdiyi silsilə məqalələri ilə tanınmışdır.

Universiteti bitirdikdən sonra "Sovet kəndi" qəzetində müxbir, "Həyat" və "Azərbaycan" qəzetlərində şöbə müdiri, "Günay" qəzetində baş redaktorun müavini olmuşdur. 1997-ci ildən bu günə kimi üç dildə çıxan "Samur" qəzetinin baş redaktorudur. Ləzgi, Azərbaycan və rus dillərində çap olunmuş 8 minə yaxın məqalə, oçerk, korrespondensiya, zarisovka, esse və felyetonların müəllifidir.

Sədaqət Kərimovanın ləzgi, Azərbaycan və türk dillərində 30 nəzm və nəsr kitabı çapdan çıxmışdır. "Səssiz haray" adlı povest və hekayələrdən ibarət ilk kitabı 1989-cu ildə "Yazıçı" nəşriyyatında işıq üzü görmüş və müəllifinə böyük uğur gətirmişdir. "Bir yaz gecəsi" (1991) adlı ikinci nəsr kitabı da oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. "Qərib quşun nəğməsi" müəllifin azərbaycanca ilk şeirlər kitabıdır. Ləzgi dilində ilk kitabı olan, 1995-ci ildə "Azərbaycan" nəşriyyatında işıq üzü görmüş "Ləzginka çal, qardaşım" adlı

şeirlər toplusu şairə ləzgi oxucularının böyük məhəbbətini qazandırmışdır. İki il sonra onun ləzgi dilində "Köklənsin dünyamız "Ləzginka" üstə" adlı şeir və poemalardan ibarət ikinci kitabı nəşr olunmuşdur.

S.Kərimovanın "Hal" (1993) romanı Azərbaycan ədəbi mühitində əlamətdar hadisə kimi qeyd olunmuş, bu əsər haqqında mətbuatda onlarca resenziya çap olunmuşdur. Yazıçının "Qürub" (2000) adlı povest və romanlar toplusu haqqında isə respublika qəzetlərində 54 resenziya çap olunmuşdur.

Müəllifin oxucu sevgisi qazanmış kitabları arasında ləzgi dilində qələmə alldığı "Soyuq günəş" adlı povest və hekayələr kitabı xüsusi yer tutur. Onun uşaqlar üçün yazdığı "Günəş gülür" və "Leyin nağılı" adlı kitablarından Azərbaycanın ləzgi dili tədris olunan məktəblərində sinifdən xaric oxu kitabı kimi geniş istifadə olunur.

Ləzgi və Azərbaycan dillərində qələmə aldığı "Qusar, qusarlılar" ensiklopedik toplusu S.Kərimovanın tarixçi, dilçi, jurnalist, tərcüməçi, fotoqraf kimi tədqiqatları ilə maraqlıdır. Həmin kitab ləzgi-azərbaycan və azərbaycan-ləzgi dilləri sahəsində çalışan peşəkarlar üçün əsl tapıntıdır.

Onun ləzgi dilində "Dil haqqında ballada" adlı seçilmiş şeirlərdən və poemalardan ibarət, "İtən gündəlik" adlı roman və povestlərdən ibarət kitabları, Azərbaycan dilində "Ağ qəm" adlı povest və romanlar toplusu oxucular tərəfindən sevilən nəsr əsərləri sayılır.

S.Kərimovanın azərbaycan dilində qələmə alınmış "Qürub", "Ayı yağışı", "Özgə ağrısı" kitabları da oxucuların dərin rəğbətini qazanmışdır. Müəllifin bir sıra nəzm və nəsr əsərləri rus dilinə tərcümə olunmuş, "За семью горами", "Блажная", "Медвежий дождь", "Когда грустят горы", "Дум моих узоры" adları ilə nəşr olunmuşdur. Onun "Soyuq günəş" romanı isə türk dilinə tərcümə edilərək, "Ləzgiyə" adı ilə Türkiyədə

çapdan çıxmışdır.

Sədaqət Kərimova ssenari müəllifi və rejissoru olduğu qısametrajlı və tammetrajlı sənədli, sənədli-musiqili və bədii filmləri ilə də tanınır. 2004 və 2008-ci illərdə o, "Mənim doğma elim" adlı iki musiqili-sənədli film yaratmışdır. Ləzgi xalqının mədəniyyətinə və etnoqrafiyasına həsr olunmuş hər biri iki saatlıq həmin filmləri müəllifin musiqisi müşayiət edir, kadrarxası sözləri də özü səsləndirir. Bu filmlər ləzgi dilində həmin formatda və üslubda yaradılmış ilk filmlər kimi tarixə düşmüşdür. Sonralar S.Kərimova "Dil haqqında ballada", "Mahi dilbər" filmlərini yaratmışdır.

Sədaqət Kərimova 2020-ci ildə ssenari müəllifi, bəstəkar və prodüser kimi yaratdığı "Soyuq günəş" filmini YouTube kanalında yerləşdirmişdir. Filmi ləzgi, Azərbaycan, rus və ingilis dillərində bu günə kimi 11 milyon insan izləmişdir.

2022-ci ildə isə onun ssenari müəllifi, rejissoru və bəstəkarı olduğu, öz vəsaiti ilə ərsəyə gətirdiyi "İtən gündəlik" bədii filmi Youtube istifadəçilərinin ixtiyarına verilmişdir. Film tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

REDAKTORDAN

Sədaqət Kərimova zəhmətkeş və məhsuldar qələm sahiblərindəndir. Onu jurnalist, yazıçı, şair kimi sevirlər. Azərbaycan ədəbiyyatının və jurnalistikasının görkəmli nümayəndələrindən olan Sədaqət xanımın yaradıcılığı olduqca geniş, çoxşaxəli və rəngarəngdir. O, həm də bəstəkar kimi qəlblərə yol tapıb. Bir insanın küllən yaradıcı olması, bütün varlığı ilə ahəng kəsb etməsi qeyri-adi hadisə kimi izah edilməlidir. Onun zahirən incə varlığında böyük bir potensial qüvvə, güc vəhdət təşkil edir. Toxunduğu mövzular o qədər dərindir ki, bu dərinliyə baş vurmaqdan qorxmursan. Əksinə, o dərinliyin içində əriyib, ona qarışırsan. Çünki yazıçı öz əsərlərində hər kəsin demək istədiyi, ancaq deyə bilmədiyi həzin, lirik, bəzən də mübhəm duyğulara, həssas mətləblərə toxunur.

Sədaqət Kərimovanın əsərlərində həm qadın, həm də kişi xarakterləri olduqca düzgün, sərrast, həddindən artıq dolğun və həssas tərəflərindən, panoramik formada açılır. O, qadın kimi hiss edirsə, kişi kimi düşünür, başqa sözlə desək, yaratdığı xarakterlərə birtərəfli yanaşmır, həm həssas, həm də soyuq ağıl və iti analitik düşüncə ilə yazır. Ona görə də onun əsərlərini oxumaq maraqlıdır. Onlar insanı düşünməyə vadar edir. Kimin haqlı, kimin haqsız olduğuna qərar vermək istəyirsən.

Bütün əsərlərində həyatın özünü yaradır Sədaqət xanım. Sevinci-kədəri, ədaləti-haqsızlığı, sevgisi-nifrəti ilə həyatın

özünü yaradır. Olduğu kimi. Sadə və konkret. Ancaq bu ilk baxışda sadəliyin içindən mürəkkəblik doğulub oxucunu sarsıdır. O, sözünə boyaq vurmur, əndrəbadi abstrakt təxəyyüllə oxucusunu dağa-daşa salmır. Əksinə, oxucu əsərdə özünü tapır, onun üçün ən maraqlı olan birini, öz taleyini görür. Ona görə də ürəyindən tikan çıxır. Qəhrəmanın timsalında həyatının ən yaralı, ən dərin ağrılarını yaşayır. Sonra isə dərin xəyallara dalır. Budur Sədaqət xanımın sözünün qüdrəti.

Milliyyətcə ləzgi olan bu qələm sahibi üç dildə – ləzgi, Azərbaycan və rus dillərində yazdığı əsərləri ilə Azərbaycan ədəbiyyatının, jurnalistikasının, mədəniyyətinin inkişafında böyük xidmətlər göstərib. Dövlətin fəxri adına – "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" (2006) adına layiq görülüb. Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" (1984) və Həsənbəy Zərdabi adına (1991) mükafatlarının laureatı olub. "Azərbaycan gəncləri", "Sovet kəndi" kimi dövrünün məşhur qəzetlərinin əməkdaşı kimi uzun illər çalışıb, qələmə aldığı aktual yazılar peşəkarlığı və sanbalı ilə yadda qalıb. Sonralar "Azərbaycan" qəzetində şöbə müdiri, "Günay" qəzetində baş redaktorun müavini kimi məsul vəzifələr tutub. 1997-ci ildən ləzgi, Azərbaycan və rus dillərində nəşr olunan "Samur" qəzetinin baş redaktorudur. O, 8 mindən artıq publisistik yazının və 30 bədii kitabın müəllifidir.

Yazıçının şərəfli həyatına nəzər saldıqca düşünürsən: necə olub ki, bu zərif xanım, gözəl həyat yoldaşı, qayğıkeş ana öz həyatına bu qədər böyük yaradıcılığı da sığdıra bilib? Onun "Səssiz haray", "Bir yaz gecəsi", "Hal", "Soyuq günəş", "Ayı yağışı", "Qürub", "Ağ qəm", "Özgə ağrısı" adlı nəsr, "Qərib quşun nəğməsi", "Qəlbinə boylan, insan" adlı şeir kitablarının hər biri o qədər güclü ədəbi siqlətə, poetik gücə malikdir ki, bu onları oxuduqdan sonra nəinki təsirindən çıxmaq, bir daha heç vaxt unutmaq olmur. Niyə? Nədir Sədaqət

Kərimovanı bu qədər sevdirən? Çünki onlar oxucuya həmdərd olur, doğmalaşır. Təsadüfi deyil ki, çoxsaylı oxucuları öz təəssüratlarını yazaraq məktublarda ona təşəkkür edib, əsərlərinin qəhrəmanlarını özlərinin prototipi hesab ediblər. Yazıçı üçün bundan böyük xoşbəxtlik olarmı?

Sədaqət Kərimova sosial şəbəkələrdə, "Youtube" platformasında izlənən filmləri ilə, şəxsi saytından oxunan əsərləri ilə milyonlarla baxış və rəy toplayaraq daha geniş tamaşaçı və oxucu kütləsinə təsir göstərməyi bacarıb. Onun ssenari müəllifi, bəstəkarı və prodüseri olduğu, 2018-ci ildə öz şəxsi vəsaiti hesabına çəkdirərək 2021-ci ildə tamaşaçıların mühakiməsinə verdiyi "Soyuq günəş" bədii filmini bu günə kimi ləzgi, Azərbaycan və rus dillərində 11 milyon insan izləyib. Filmlə bağlı müsbət rəyləri, tamaşaçı təəssüratlarını oxuduqca, bu fikirlərin səmimiyyətinə şübhən qalmır, insanı gözləri yaşardacaq qədər riqqətə gətirməyi bacaran müəllifə rəğbət bəsləməyə bilmirsən.

Sədaqət xanım elmi fəaliyyətlə də məşğul olur. Mənsub olduğu ləzgi xalqının tarixini, etnoqrafiyasını, adət-ənənələrini, folklorunu uzun illərdən bəri tədqiq edir. Onun 700 səhifə həcmində olan "Qusar, qusarlılar" (2011) ensiklopedik toplusunda rayonun, onun kəndlərinin tarixi və görkəmli şəxsiyyətləri barədə olduqca maraqlı məlumatlar toplanıb.

Müəllifin 500-dən çox ləzgi bayatısını toplayaraq 2017-ci ildə "Mənim şair xalqım" adı ilə ləzgi dilində nəşr etdirdiyi kitabı Azərbaycan EA-nın Folklor İnstitutunun diqqətini cəlb etdiyindən S.Kərimovaya bayatıları Azərbaycan dilinə tərcümə etməyi tövsiyə edən institut rəhbərliyi onu həmin layihəni həyata keçirməyə ruhlandırıb və kitabı nəşr edib.

Sədaqət Kərimovanın tanınmış yazıçı-jurnalist Müzəffər Məlikməmmədovla bir yerdə tərtib etdiyi "Ləzgicə-azərbaycanca lüğət" və "Azərbaycanca-ləzgicə lüğət" kitabları müəlliflərin illər boyu çəkdiyi böyük zəhmətin bəhrəsi və bu sahədə

ilk böyük tədqiqat işidir.

Sədaqət Kərimovanın həyatı və yaradıcılığı haqqında bir neçə kitab nəşr edilib. Onlardan biri də əməkdaşı olduğum M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən çap edilən və bu sətirlərin müəllifinin tərtibçisi olduğu "Sədaqət Kərimova" biblioqrafik göstəricisidir. Vəsait Azərbaycan və Dağıstan ədəbiyyatının tanınmış nümayəndəsi, şair, yazıçı və publisist Sədaqət Kərimovanın həyat və yaradıcılığının 1966-2014-cü illərini əhatə edir. Kitabda eləcə də onun həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin yazıçı haqqında fikirləri, əsərləri, həyat və yaradıcılığı haqqında zəngin material toplanıb.

Sədaqət xanım bəstəkar ürəkli şairdir. 2018-ci ildə işıq üzü görən "Mənim mahnılarım" adlı kitabına sözlərinin və musiqisinin müəllifi olduğu yüzdən çox mahnı mətni və notları daxil edilib. O, 1976-cı ildə yaratdığı "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblına 20 il rəhbərlik edib, 40-dan çox ləzgi xalq melodiyasını yenidən işləyib, bundan başqa xoreoqraf kimi "Qarılar", "Şən qızlar", "Qu quşları", "Dem", "Kəpənəklər" və s. rəqslərini yaradıb.

Sədaqət Kərimovanın əsərlərində insan münasibətləri, ülvi sevgi hissləri, əsl insani keyfiyyətlərin heç zaman öz qiymətini itirməyəcəyi barədə qiymətli mülahizələr leytmotiv təşkil edir. Sədaqət xanım bəşəri düşünür, bəşəri yazır. Onun əsərlərini oxuyanda qəhrəmanların həyatına, taleyinə biganə qala bilmirsən. İnsanın ən dərin hiss və duyğularını dilləndirməyi bacaran bu qələm sahibi qadın qürurunun, qadın haqlarının müdafiəçisidir. O, yaratdığı mənfi obrazları ilə oxucunu düşündürür, onların fonunda müsbət qəhrəmanını ideallaşdırır, bir növ əsl insan obrazı formalaşdırır. Onun müsbət qəhrəmaları zəngin daxili aləmi olan, təmiz, saf insani keyfiyyətlərə malik insanlardır. Həyat onları sınaqlara çəksə də, taleyin zərbələrindən

əzilsələr də qürurlarını, insanlıqlarını itirmirlər. Əksinə, öz əqidələrinə sadiq qalırlar. Cəmiyyətdəki naqisliklərі, mənfilikləri göstərib, əsl insan obrazının bunların fövqündə dayandığını sübut edən yazıçının mənfi obrazlarını tərbiyələndirməsi də diqqəti cəlb edir.

Onun rəngarəng obrazları kənd mühitindən və ya böyük şəhərin ziyalı təbəqəsindən çıxsalar da, müsbət qəhrəmanların əsas xüsusiyyətləri eynidir: doğruluq, təmizlik, ülvi və saf məhəbbət. Elə bu təbiətləri də onları fədakarlıqlar etməyə sövq edir və nəticədə taleyin zərbələrinə məruz qoyur. Bəzən onların taleyinə acıyırsan, çünki belə insanlar üçün dünyada yaşamaq olduqca çətindir. Ancaq yazıçı o saflığın işığında qəhrəmanına və onun timsalında yaxşı insanlara hörmət, ehtiram və rəğbət aşılayır, bir növ insanlığa xidmət edir.

Sədaqət Kərimova qadın zərifliyi ilə qadın qüdrətinin vəhdətini öz qələmi ilə olduqca təbii təsvir edir. İllərlə iztirab və məşəqqətlərə qatlaşan, böyük səbri və dözümü olan qadının nəyə qadir olduğunu inandırıcı boyalarla göstərir. Əsərlərində bəzən cəmiyyətin qiymətləndirmədiyi fədakar insanların daxili aləmlərini sənətkarlıqla yaradır. Qadın sevgisini gözəl xarakterizə edən müəllifin müxtəlif sosial təbəqələrə məxsus olan qəhrəmanının, yaşından asılı olmayaraq məhəbbəti özünəməxsusdur, əsrarəngizdir. Onları bir qayə birləşdirir – sədaqət!

Sədaqət xanım Şərq qadınının, müsəlman qadınının yaşadığı cəmiyyətdə bəzən öz sevgisini ürəyində boğmağa, bəzən qovuşa bilmədiyi ilk məhəbbətini bütün ömrü boyu ağır yük kimi daşımağa məcbur olduğunu olduqca təsirli şəkildə qələmə alır. Onun qadın qəhrəmanı sevgisi uğrunda hər əzaba qatlaşan, həqiqətən sevməyi bacaran, öz sevgisinə xəyanət etməyən, vəfalı, qürurlu qadındır.

Yazıçının yaradıcılığından qırmızı xətt kimi keçən mövzu mənəvi saflığa çağırışdır. Yatmış vicdanları oyatmaq, mənfi

qəhrəmanı tərbiyələndirmək, itirdiyi vicdanı yenidən qazandırmaq, yaxşının qarşısında pisi utandırmaq onun tərənnüm etdiyi mövzulardır.

Qələmə aldığı hadisələr tarixin müxtəlif dövrlərində, fərqli siyasi rejimlərin zamanında baş verir. Məsələn, "Soyuq günəş" romanında hadisələr Böyük Vətən müharibəsi illərində cərəyan edirsə, "Ayı yağışı" romanı Sovet dövrünün jurnalistika sahəsindəki hadisələri, orada baş verən prosesləri, insan münasibətlərini göstərir. "Ağ qəm" povesti Sovet rejiminin süqutundan sonra qazanılan müstəqilliyin ilk illərində yaşanan iqtisadi çətinlikləri, mənəvi faciələri, ziyalı insanların sarsıntılarını əks etdirir. Özü də elə təsirli əks etdirir ki, əsəri oxuduqca həmin dövrün təzadlı və çətin ictimai-siyasi hadisələrinin cəmiyyətə, insanların həyatına və taleyinə gətirdiyi mənəvi ağrıları iliklərinə qədər hiss edirsən.

Oxuculara təqdim edilən "Yol ayrıcında" romanı Sədaqət Kərimovanın növbəti irihəcmli əsəridir. İnanırıq ki, oxucular onu bəyənəcək, əvvəlki əsərlərdə olduğu kimi təsirlənəcəklər. Yazıçı bu əsərində də əhdinə sadiq qalaraq, əqidəsini itirməyən, vicdanlı və sədaqətli qəhrəman obrazı yaratmağı bacarıb. Hər əsərində yazıçının özündən bir parça əlavə etdiyini hiss edirsən. Bu əsəri də istisna deyil. Uzun illər nəşriyyatda çalışan, müxtəlif insanlarla qarşılaşan yazıçı bu əsərində də yalnız təxəyyülünə söykənməmiş, həyatda baş verən, bu sahənin insanlarının tez-tez rastlaşdıqları bəzi nöqsanları, qüsurları, naqisliklərі bədii şəkildə ortaya qoymuşdur.

Qrafomaniya kimi mənəvi bəlaya qarşı üsyan olan bu əsər olduqca maraqlı və bütün dövrlər üçün aktualdır. Başqasının əməyini mənimsəyərək şöhrət qazanmaq istəyən istedadsız qələm sahiblərini ifşa edən, həmin problemi qabardan yazıçının bu əsərini oxuyub ona haqq qazandıranlar çox olacaq. Romanda istedadlı insanların əməyini istismar edərək öz adına

çıxan, qrafomaniya azarına mübtəla olan, vicdanını və əqidəsini itirən insanlarla yanaşı, eyni zamanda əsl istedad sahibləri, sevgisi uğrunda fədakar olanlar, həyatda şərəflə yaşayanlar da təsvir olunur. İstedadlı insanların bəzən kölgədə qalmasına gətirib çıxaran sosial və ictimai bəlalar göstərilir.

Əsərdə ailədaxili münasibətlər, cəmiyyətdəki çatışmazlıqlar, insan hissləri və sevgi duyğuları sadə, oxunaqlı, axıcı dillə təsvir olunur. Sovet dövrünün Bakısı, köhnə küçələr, məhəllələr xatırlanır, dövrün ictimai, iqtisadi problemlərinə toxunulur. Yazıçınınn yeri gəldikcə lirik şeirlərə müraciət etməsi əsərin dəyərini artırır, oxucunun ruhunu oxşayır. Əsərdəki bədii priyomlardan biri də yerində işlənən məktublardır. Onlar qəhrəmanın xarakterini açmaqla yanaşı, əsərin bədii-estetik siqlətini artırır. Məktub yazmaq kimi yadırğanmış, sıradan çıxmış bir adətin gözəlliyini xatırladır.

İnanırıq ki, yazıçının böyük məhəbbətlə, sevə-sevə qələmə aldığı "Yol ayrıcında" romanı oxucuların böyük marağına səbəb olacaq və öz aktuallığını heç zaman itirməyəcək.

Müəllifə yeni-yeni yaradıcılıq uğurları arzu edirik.

Mehriban CƏFƏROVA

I FƏSİL

YOL AZAN MƏKTUB

AZAD SƏNƏTKAR

O tuz-otuz beş yaşlarında dolubədənli, göyçək bir qadın bayaqdan pafosla, ucadan şeir oxuyurdu. Onun cır səsi qulaq deşirdi. "Gənc şair" kimi televiziya tamaşaçılarına təqdim edilən qonaq şeirlərini oxuyandan sonra aparıcı onun poeziyasını ürəkdolusu tərifl ədi.

Qadının görkəmi ilə oxuduğu şeirlər heç cür uyuşmurdu. Bu, diqqətini cəlb etdi. Üzündən harınlıq və meşşanlıq yağan qadının şeirləri nədənsə ona qeyri-səmimi göründü və ürəyində "gənc şair"ə acığı tutdu. Niyə? Ömründə ilk dəfə gördüyü bu adam ona neyləmişdi ki? Heç nə! Amma buna baxmayaraq, kefi pozuldu.

Ümumiyyətlə, son vaxtlar televiziya ekranından öz şeirlərini oxuyan adamların sayının artdığını, onlardan çoxunun istedadsız olduğunu müşahidə etdiyindən bu verilişdən zəhləsi gedirdi. Ekrandan baxan qadın isə digər həmkarlarından bir az da irəli getmişdi. O, əlindəki vərəqlərdən öz şeirlərini düz-əməlli oxuya da bilmirdi. Əslində, Sahili təbdən çıxaran, əsəbiləşdirən də onun bu höccələməsi idi. Təkcə bu deyildi. Bəs nə idi?

Fikrini cəmləşdirib şeirlərə qulaq kəsildi: eşitdikləri ovqat şeirləri idi, sözlər, qafiyələr, fikirlər də yerli-yerində. Adamın hisslərini tərpədən, həddindən artıq zərif, incə duyğular

vardı misralarda. Amma onların müəllifinin ekrandakı qadın olduğu inandırıcı görünmürdü. O, özgə paltarı geyinmiş adama oxşayırdı. Yanğı dolu misraları gözlərinin içində boşluq olan bu qadın yaza bilməzdi. Maraqla qulaq asmağa başladı:

Az istədim, çoxum getdi,
Kaman çəkdim, oxum getdi,
Gecəm getdi, yuxum getdi,
Bu sınaq nə sınaq imiş?

Birdən ürəyi əsdi, tanış misralar onu titrətdi. Ona elə gəldi ki, damarlarındakı qan dondu. Elə bil bədəni keyidi, hissləri korşalan kimi oldu. Əzalarını qəribə bir süstlük bürüdü. Bir an sonra yenidən beyninə aydınlıq gəldi. Bayaqdan onu haldan çıxaran, əsəblərini tarıma çəkən səbəbi axır ki, tapdı: indicə ekrandan eşitdiyi qəlbini titrədən sətirlər İncinin idi, buna heç bir şübhə ola bilməzdi. Bəs onlar niyə başqasının dilindən səslənirdi? İncinin şeiri ilə bu qadının nə əlaqəsi vardı?

Aparıcı dilləndi:

– Ülkər xanım, olduqca təsirli, kövrək şeirləriniz var. Yəqin ki, tamaşaçılarımız da bəyəndilər. Kitab çap etdirmək fikriniz varmı? İndi hər əlinə qələm alan kitab çap etdirir. Belə gözəl şeirləriniz ola-ola nə əcəb bu vaxta kimi onların nəşri barədə düşünməmisiniz?

"Şair" cavab verdi:

– Oxucularımı sevindirmək istəyirəm. Mən şeirlər kitabımı artıq çapa hazırlamışam, bir ay ərzində nəşr olunacaq. Onu da deyim ki, bu, sayca dördüncü kitabımdır. Bundan əvvəl nəsr və elmi-tədqiqat kitablarım çapdan çıxıb.

Bu "çoxşaxəli yaradıcılığı" olan xanımın təvazökarlıqdan və səmimiyyətdən uzaq sözləri Sahili cin atına mindirdi. İş

yoldaşı Qabil müəllimin sözləri yadına düşdü: "Allah belələrini də yaradır ki, yer üzü boş qalmasın".

– Yəqin ki, şeirlərinizin içində özünüzün ən çox sevdiyiniz biri olmamış deyil. İstərdik ki, verilişimizin sonunda onu bizim tamaşaçılarımız üçün oxuyasınız.

– Böyük məmnuniyyətlə. Şeir "Çalma, aman, bu kamanı" adlanır.

Çalma, aman, bu kamanı,
Saxla, dondur bu zamanı,
Dağıt, ərit bu dumanı,
Belə səssiz ağlama gəl,
Göz yaşını saxlama gəl.

Sahil həyəcandan nə edəcəyini bilmədi. Bu da İncinin şeiri idi, onu əzbər bilirdi. Aparıcı "gənc şairə" böyük səxavətlə yaradıcılıq uğurları arzulayırdı. Sonra üzünü ekrana tutub dedi:

– Hörmətli tamaşaçılar, bugünkü qonağımız istedadlı gənc şair Ülkər Nikbin idi. Siz onun təzə şeirlərini dinlədiniz. Bununla da "Gənc istedadlar" adlı növbəti verilişimiz sona çatdı. Rəy və təkliflərinizi gözləyirik.

Hirsindən coşan Sahil məlumat bürosuna zəng çalaraq, televiziyanın ədəbiyyat redaksiyasının nömrəsini istədi. Redaksiya ilə əlaqə saxladı:

– Axşamınız xeyir. Mən sizin verilişin daimi izləyicilərindənəm. Xahiş edirəm mənə Ülkər Nikbinin telefon nömrəsini verəsiniz. İndicə onun haqqında verilişə baxırdım, şeirləri çox xoşuma gəldi. İstəyirəm onu şəxsən təbrik edim.

Dəstəkdəki səs gülə-gülə cavab verdi:

– Ülkər xanım buradadır, dəstəyi ona verirəm, özü ilə danışsanız yaxşı olar.

Sahil "gənc şair"ə özünü təqdim etdikdən sonra onunla görüşüb söhbət etmək istədiyini bildirdi, iş yerinin ünvanını

və telefonunu verdi.

Bir saatdan sonra Sahilin iş otağının qapısı döyüldü. Son dəbə uyğun geyinmiş yaraşıqlı bir qadın içəri daxil oldu. Bu, Ülkər Nikbin idi. Otağa bahalı fransız ətrinin xoş qoxusu yayıldı. Sahil onun həyatda ekranda göründüyündən daha gözəl olduğunu öz-özünə etiraf etdi. Qadın gülümsədi:

– Gördüyünüz kimi, mən dəvətinizi qəbul edib gəldim. İlk dəfədir ki, akademiyanın binasında oluram.

Sahil ona oturmaq üçün yer göstərdi:

– Gəlin tanış olaq, mən Sahil Hüseynovam. Bu institutda şöbə müdiri işləyirəm, ədəbiyyatçıyam. Sizin şeirlərinizin poetik ruhu xoşuma gəldi. Yəqin yaradıcılıqla çoxdan məşğul olursuz.

– Çoxdan deyəndə ki, iki ildir şeir yazıram. Amma ümümiyyətlə, yazı-pozu ilə altı ildir məşğul oluram. Artıq üç kitabım çapdan çıxıb.

– Nə yaxşı!

– Bir kitabım elmi-publisistik oçerklərdən ibarətdir, ikisi nəsr əsəridir.

– Altı ildə üç kitab? Pis deyil! Görürəm məhsuldar işləyirsiz. Bəs nə əcəb bu vaxta kimi şeir kitabınızı çap etdirməmisiz? Şeirləriniz çox ürəyəyatımlıdır.

– Doğrudan deyirsiz? Siz məni çox sevindirdiz! Bu yaxınlarda nəhayət ki, şeir kitabım da işıq üzü görəcək. Bilsəniz onu necə gözləyirəm! Heç o biri üç kitabım çap olunanda belə səbirsiz olmamışam.

– Siz filoloqsuz?

– Xeyr, mən mühəndisəm. Poeziya hobbimdir.

– Harda işləyirsiz?

– Mən azad sənətkaram, evdə yazıb-yaradıram.

– Yanınızda şeirlərinizdən varmı?

– Var, istəsəniz onlardan sizinçün oxuya bilərəm.

– Çox şad olaram.

Qadın çantasından vərəqlər çıxarıb oradan bir şeir oxumağa başladı. Bayaq ekranda olduğu kimi, bəzən sözləri səhv deyir, sonra səhvini düzəldirdi. Bunun da İncinin şeiri olduğunu biləndə Sahil daha özünü saxlaya bilmədi:

– Ülkər xanım, şeirlər gözəldir, buna söz ola bilməz. Amma gərək boynunuza alasız ki, onları siz yazmamısız.

Sahil bu sözləri təmkinini pozmadan dedi. Söhbətin istiqamətinin birdən-birə bu cür dəyişəcəyini heç cür gözləməyən Ülkər pərt oldu:

– Bu nə deməkdir? Nə haqla mənə böhtan atırsız?

– Mən böhtan atmıram, həqiqəti deyirəm. Siz oğrusuz! – Sahil səsini qaldırdı. – Bilmirəm, bu şeirlər əlinizə hardan və necə keçib, amma mən bunu belə qoya bilmərəm. İstəyirsiz, onların kimə məxsus olduğunu da deyim. Şeirlər İnci Mehdiyevanındır. Bəlkə düz demirəm?

Ülkər Nikbin həyəcandan qızarıb nə edəcəyini bilmədi. Nəhayət, özünü ələ alıb dedi:

– Məni təhqir etdiyinizə, mənə böhtan atdığınıza görə sizi məhkəməyə verəcəyəm!

– Zəhmət çəkməyin, Ülkər xanım, məhkəməyə özüm gedəcəyəm, ədəbi oğurluq etdiyinizi aləmə car çəkəcəyəm. Özgənin zəhmətini mənimsədiyinizdən hər kəsin xəbəri olacaq. Mən İncinin şeirlərini əzbərdən bilirəm. İstəsəniz birini deyə bilərəm:

Kimə ərz eləyim, kimə söyləyim,
Mən belə deyildim, belə deyildim.
Səni görən kimi bir yaz günündə
Kövrək budaq kimi elə əyildim,
Mən belə deyildim, belə deyildim.

Sahil İncinin qələmindən çıxan, özünün çox sevdiyi bu şeiri axıra qədər əzbərdən dedi. Ülkərin təəccübləndiyini görəndə soruşdu:

– Həyəcanınızdan məlum olur ki, bu şeiri də kitabınıza salmısız, elə deyilmi?

– Hə, – Ülkər bunu güclə eşidiləcək səslə, könülsüz dedi.

– Oğurluq – oğurluqdur. Ev yardın, ya özgə şeirini mənimsədin, fərqi yoxdur. Nə qədər ki, gec deyil, belə şeylərdən uzaq olun, – bu sözləri Sahil qarşısındakı gözəl xanıma canıyananlıqla dedi. – Adam inana bilmir ki, sizin kimi gözəl və cazibədar bir xanım şöhrət naminə belə saxta işlərlə məşğul ola bilər.

Qadın pərt halda ona baxır, deməyə söz tapmırdı. Handan-hana ayağa qalxıb, özünə haqq qazandırmaq üçün dedi:

– Elə bilirsiz tək mən belə edirəm? Guya şeir, hekayə satanlar azdı ki? Puluna minnət!

– İnci öz şeirlərini sizə neçəyə satıb?

– Onu özümüz bilərik, sizə dəxli yoxdur.

– Onun telefon nömrəsini verə bilərsizmi?

– Neynirsiz ki?

– O, mənim tələbə yoldaşımdır.

– Necə tələbə yoldaşısız ki, telefonunu məndən soruşursuz?

– Xahiş edirəm. Evini dəyişəndən sonra onu görməmişəm.

– Xahiş-zad lazım deyil, onsuz da verən deyiləm. Bu qədər vaxtımı almağınız, məni təhqir etməyiniz kifayət deyilmi?

– Bu söhbətin burda qalmasını istəyirsizsə, mənə İncinin telefon nömrəsini verin.

– Məni hərifləyə bilməzsiz. De yaxşı, sağ olun, mən getdim, – deyib, "şair" tələsik addımlarla otaqdan çıxdı.

Qapı Ülkərin arxasınca örtüləndən heç bir dəqiqə keçməmiş qonşu şöbənin əməkdaşı Yusif içəri girdi. O, gülə-gülə:

– Xeyir ola, bu "məşhur şair" burda nə gəzirdi? – deyə soruşdu.

– Sən onu hardan tanıyırsan? – Sahil təəccübləndi.

– Onu tanımayan var ki? – Yusif güldü.

– Necə bəyəm?

– Hansısa qəzetin guya ştatdankənar müxbiridir. Getmədiyi idarə, döymədiyi qapı, işlətmədiyi fənd yoxdur. Gözəlliyini də ki, gördün də. Elə gözəlliyinə görə kimlərsə ondan ötrü kitab nəşr etdirir.

Sahil Yusifə qulaq asır, amma onu eşitmirdi. Bayaq qonağının dilində səslənən, bir vaxtlar eşitdiyi tanış, doğma misralar onun xəyalını uzaqlara aparmışdı.

Dolub, yenə daşır mənim dərd kisəm,
Düz yolum tükənib, tapılmır kəsəm,
Azalıb dərd bilən, çoxalıb küsən,
Bəlkə bu qismətə qane olmalı?

"İnci Bakıdadır. Mənimlə eyni şəhərdədir. Kim bilir, haçandan burdadır, mən isə bundan xəbərsizəm. Mənim İncim! O, hardasa yaxındadır".

Qulağına uzaqlardan doğma bir səs gəldi: "Sən mənim sevincsiz həyatımda, qaranlıq gecədə nur saçan yeganə ulduz kimi parladın. Bilirəm ki, bu ulduz həmişəlik deyil. Bir gün o, başqa bir həyatı ömürlük işıqlandıracaq, özü ulduzlar aləmi yaradacaq. Ancaq mən, uşaqlıqda göydə özümə ulduz seçdiyim kimi, bu ulduzlara baxıb qüssəli bir sevinclə sevinəcəyəm".

Sahil çoxdan onu tərk edib getmiş xatirələrin qoynuna düşmüşdü. Doğma bir səs qulağına pıçıldayırdı: "Heç vaxt heç kəsi çox sevmə, yoxsa ona çatmazsan".

O səs sanki qəlbində səslənirdi: “İllər keçəcək. Hər şey dəyişəcək, çox şeyi unudacaqsan, elə məni də. Günlərin bir günü ötən xatirələrə boylanmağa ehtiyac duyacaqsan. Bax, o zaman ürəyinin əlçatmaz bir guşəsində məni arayacaqsan. Sənin üçün nə qədər dəyərli olduğumu, həyatında nə cür rol oynadığımı o zaman başa düşəcəksən. Amma gec olacaq, çox gec!”

Ürəyi sızıldayırdı. Uzun illər əvvəl olduğu kimi.

HƏSRƏT

Həmin gün axşam işdən çıxanda evə piyada yollanmışdı. Tələsmədən, gəzə-gəzə Hüsü Hacıyev küçəsi ilə üzüyuxarı qalxmışdı. Baksovetin qarşısındakı poçta çatanda təəccüblənmişdi: bura niyə gəlib? Axı belə bir fikri yox idi. Bəlkə içəri girsin? Məktub olub-olmadığını yoxlasın? Eh, bunun nə mənası vardı? Onsuz da yaxşı bilirdi ki, məktub yoxdur. Ona kim yazacaqdı ki?

Bu fikirdən qüssələnmişdi. “Görəsən dünyada məktub gözləməkdən gözəl nə var?” – deyə düşünmüşdü. “Hər məktubu yox, üstündə “tələb olunanadək” sözləri yazılmış, istədiyin, dünyalar qədər sevdiyin adamın məktubunu. Bilirsən ki, onu heç kəs, heç zaman oxumayacaq, o, məhz sənə ünvanlanıb. Hər şeyi dillə demək olmur, elə incə mətləblər var ki, onları yalnız məktubda yazmaq olar”.

Şəhərin mərkəzində, Bakı Soveti binasının qarşısındakı dördmərtəbəli qədim evin birinci mərtəbəsində yerləşən bu poçt onun üçün dünyada ən əziz yer, məktub paylayan şöbənin işçisi, ortayaşlı sarışın, gülərüz qadın – Zemfira xanım isə ondan ötrü dünyanın ən hörmətli adamı idi. O qədər bura gəlib-getmiş, o qədər məktub almışdı ki! Qadın onu dərhal

tanıyar, uzaqdan dostcasına gülümsəyərdi.

O qədər sevinci, kədəri, həyəcanı, ürək çırpıntısı bu poçtla bağlı idi ki! Buradan uşaq kimi sevinə-sevinə çıxdığı vaxt da, qoca kimi ayaqlarını güc-bəla ilə arxasınca sürüyə-sürüyə uzaqlaşdığı zaman da olmuşdu. Bəzən məktubu oxuduqdan sonra qanad açıb uçmaq, bəzən isə elə küçədəcə hönkürüb ağlamaq istəmişdi.

Hərdən işdən çıxanda yerli-yersiz poçta girər, bilə-bilə ki, məktub yoxdur, onu iki gün əvvəl alıb, hələ heç cavabı gedib sahibinə çatmayıb, yenə də pasportunu çıxarıb göstərər, "sizə məktub yoxdur" sözlərindən sonra təəssüflə buranı tərk edərdi. Bu poçt binası onun həyatının ayrılmaz hissəsinə çevrilmişdi. Bura həyəcanlarının ünvanı idi.

Bir dəfə Zemfira xanım onu məzəmmət etmişdi:

– Cavan oğlan, siz ki, dünən məktub almısız.

Bu sözlərdən utanıb, çıxıb getmək istəyəndə qadın üzrxahlıqla onu geri çağırmışdı. Sən demə, ona yenə məktub varmış. Sahil sevinclə zərfi onun əlindən alıb, "çox sağ ol" deməyi də unudub çölə çıxmışdı. Elə küçədəcə məktubu oxumağa başlamışdı. Onda necə də xoşbəxt idi! Yaxınlıqdakı gül dükanından bir dəstə nərgiz alıb geri qayıtmış, onu qadına bağışlamışdı. Zemfira xanım həsədlə ona "deyəsən xoşbəxt məktubdur", – demişdi.

Nə vaxt olmuşdu bunlar? Ürəyi haçan sevincdən coşub-daşmışdı? Onda uşaq kimi atılıb-düşmək, fərəhini yoldan ötənlərlə paylaşmaq istəyirdi. Onda o, göyün yeddinci qatında idi. Aldığı məktubdan başqa heç nə barədə düşünə bilmirdi.

Hə, çoxdan yolunu buralardan salmırdı. Poçtun yanından keçməyə ürək etmirdi. Qorxurdu ki, xatirələr yaxasından yapışıb qopmaz, ürəyinin ağrısı çoxalar, dincliyini itirər. Daha

buraya gəlməyin mənası da yox idi, ona heç kəs məktub yazmır, o da heç kəsdən məktub gözləmirdi. Həm də, çox şeylər kimi, məktub yazmaq da get-gedə dəbdən düşürdü.

İndi budur, təsadüfən, özündən asılı olmadan ayaqları onu darta-darta poçta gətirib çıxarmış, qapını açıb içəri girmişdi.

Son beş il ərzində burada demək olar ki, heç nə dəyişməmişdi. Hər şey necə idisə, eləcə də qalmışdı. Bircə o xoşsifət qadın – Zemfira xanım bir qədər yaşlaşmışdı. Amma üzündə yenə həmişəki mehriban təbəssüm vardı.

– Hüseynov, bu neçə ildə hardasız? Sizə məktub var. – Qadın gülə-gülə ona baxmışdı.

– Nə? Mənə məktub var? Ola bilməz! Səhv etmirsiz ki? – Bu sözləri Sahil az qala çığıraraq elə demişdi ki, digər şöbələrin işçiləri də başlarını qaldırıb təəccüblə ona baxmışdılar. Bu çığırtıda ümid, sevinc və təəssüf bir-birinə qarışmışdı. Sahil həyəcanla qadına baxır, məktubu haçan verəcəyini gözləyirdi.

– Necə yəni səhv edirəm? Dostunuzun xəttini tanımıram? Neçə ildir bu məktubu saxlayıram.

"Dostunuzun". Bu söz Sahilin çox xoşuna gəlmişdi.

– Bilirdim ki, bir gün onun arxasınca gələcəksiz. – Qadın həsəd dolu baxışlarla onu süzmüş, sonra məktubu uzatmışdı. Bozarmış zərfin üstündəki tanış və doğma xətti görəndə Sahilin ürəyi əsmişdi. Heyrət qarışıq qüssəli sevinclə məktubu ondan almış, donuq baxışlarla qadına uzun, mənasız bir nəzər yetirmiş, minnətdarlıq edərək ağırlaşmış halda, tələsmədən poçtdan çıxmışdı.

Ovcunun içini yandıran zərfi açmağa nədənsə tələsməmişdi. Yaxınlıqdakı Axundov bağındakı skamyalardan birində oturmuş, bir xeyli donuxub qalmışdı. Lakin birdən yuxudan ayılan kimi olmuşdu. "Niyə sevinmirsən? Sən ki

məktub alanda yerə-göyə sığmazdın, uşaq kimi atılıb-düşər, sevincini bölüşməyə adam axtarardın. Sən ki orada yazılanları su kimi içərdin, bundan ruhuna sərinlik yayılardı. Bəs indi nə olub? Niyə məktubu açmağa tələsmirsən?" – deyə öz-özünə sual vermişdi.

Bu dəfə o, məktubdan qorxurdu. Beş illik zaman məsafəsinin o üzündən gəlmiş bu məktub ona əzab dolu qəribə, anlaşılmaz hisslər gətirmişdi. Qorxurdu ki, məktubu oxumağa başlayan kimi, göz yaşları sözünə baxmaz, yaz yağışı kimi yağıb, onu ətrafdakıların yanında xar edər. Tanımadığı, ömründə ilk dəfə gördüyü yad adamların yanında məktubu oxumağa utanırdı. Sanki yan-yörəsindən ötüb keçənlər diqqətlə ona göz qoyur, bu məktubun kimdən olduğunu başa düşürdülər. Yox, burada o, məktubu oxuya bilməyəcəkdi.

Yerindən qalxıb yolun o üzünə keçmiş, taksi ilə evinə yola düşmüşdü. Bayaqkı sakitliyi birdən-birə harasa qeyb olmuş, onun yerini qəribə bir səbirsizlik tutmuşdu. On beş dəqiqəlik yolu taksi sanki bir saata qət etmişdi.

Lift işləmədiyindən doqquzuncu mərtəbəyə piyada qalxmalı olmuşdu. Qan-tər içində mənzilinə gəlib çıxanda plaşını soyunub bir tərəfə atmışdı. Sinəsində guphagup salmış ürəyinin döyüntüləri onu hirsləndirmişdi. Zərfi ehtiyatla, əlləri əsə-əsə açıb içindən məktubu çıxarmışdı. "Salam, əziz Sahilim!" Bu sözlər ruhunu tərpətmiş, gözlərini yaşla doldurmuşdu. Məktubu burnuna sarı aparıb həmişəki kimi dönə-dönə qoxlamışdı. Güclə hiss edilən zərif, incə bir ətir gəlirdi vərəqdən. Onu oxşayıb öpmüşdü. Sonra məktubun yazıldığı tarixə baxmışdı: 15 may 1979-cu il. Düz beş il əvvəl.

Bu, son məktub deyildi, son məktub ona həmin ilin aprelin 1-də yazılmış, 7-sində gəlib çatmışdı. Həmin tarix yaxşı yadında idi. Bu məktub isə deyəsən yol azmışdı. *"Salam,*

əziz Sahilim! Hər zamanın, hər vaxtın, hər saatın, hər anın xeyir, əzizim! Salam olsun sənin dünyana! Məsafəcə məndən uzaq, məndən aralı, qəlbən isə yaxından da yaxın olan o gözəl, o işıqlı dünyana salam! Bu sözləri qısqanclıqla yazdığımı yəqin ki, başa düşürsən: axı orada indi mən yoxam. Əzizim, mən səni havaya, suya, adamlara, hər şeyə və hər kəsə qısqanıram. Neynim, mən də beləyəm.

Sahil, yalvarıram, daha heç vaxt məndən özümü necə hiss etdiyimi, günlərimin necə keçdiyini soruşma. Axı yaxşı bilirsən ki, səndən başqa, səndən ayrı mənim üçün heç nə mövcud deyil. Sən varsan – deməli Günəş çıxır. Sən varsan – deməli yaşamağın mənası var, gecə sona çatan kimi sabah açılacaq. Sən varsan – sabaha inam da var. Sən heç özün də bilmirsən ki, mənim rəngsiz, dadsız, solğun dünyama öz varlığınla necə dolğunluq, ahəngdarlıq, parlaqlıq gətirmisən. Ona görə də başdan-başa, iliklərimə kimi sənlə köklənmişəm. Bax, belə:

Ürəyimdə bir ovqat var.
Ünvanını tapammıram.
Bir muğamla köklənmişəm,
Havasından qopammıram.

Giləsində kədər donmuş
Bir cüt gözəm – qapanmıram.
Nə bir hovur dinclik bulur,
Nə bir yuxu yatammıram.

Nə əlindən qopa bilir,
Nə özümə qatammıram.
Bir dəryaya baş vurmuşam,
Nə üzür, nə batammıram.

Nə deyəsən mən atlıya,
Beşcə addım çapammıram.
Bir istəklə köklənmişəm,
Başqa heç nə yapammıram.

Eşidirsənmi? Yapammıram! Fikirlərim – sən, hisslərim – sən, arzularım – sən, ümidlərim sənsən. Sənin məktublarını az qala yüz dəfə oxumuşam. Oxunmaqdan əzik-üzük olduğunu görüb onları səliqə ilə cığala kağıza büküb gizlətmişəm. Amma müvəqqəti! Bilirəm ki, üç-dörd gün keçən kimi onları çıxarıb yenidən oxuyacağam, oxumasam, dözə bilmərəm. Sən mənim havamsan, ozonumsan. Bilirsənmi son vaxtların ozon aclığı nə ilə əlaqədardır? – Mənəvi dəyərlərin azalması ilə. İlahi duyğular, bəşəri hisslər, böyük sevgi, hər şey elə maddiləşib!

Həyatımız böyük bir mağazaya bənzəyir. Bu ucu-bucağı olmayan mağaza rəflərdən və alıcılardan ibarətdir: satanlar çox, alanlar az. Mənim kimilərinə burada yer yoxdur. Bu yeknəsəqlikdə, bu insan axınında mən əriyib itirəm. Çünki mənim varlığım bu kütləyə yapışmır, məni yad maddə kimi özündən uzaqlaşdırır. Var gücümlə hayqırmaq, car çəkmək istəyirəm, heyhat, məni görmürlər, görmək istəmirlər. Böyük bazar: satanlar, alanlar və bir də mən: əxlaqi dəyərlər, mənəviyyat, ruh, qəlb və sair bu kimi maraqsız moizələrimlə. Təsəvvür edirsənmi? Adamın lap gülməyi gəlir.

Əzizim, soruşursan ki, Bakıya haçan gələcəyəm. Düzü, dəqiq cavab verməyə qorxuram. Bilsən əgər, əvvəlki Bakı üçün necə darıxıram! Onun havası, qəribə ritmi, aydın gündüzləri, işıqlı gecələri üçün burnumun ucu göynəyir. Mən indiki Bakını sevmirəm! Sevə bilmirəm! Sevməyəcəyəm! Qəddar, amansız, soyuq, sərt Bakını! Mən hələ də ötən çağların həsrəti ilə yaşayıram. Mənim Bakıya olan məhəbbətim

sənə olan sevgimdən heç də az deyil. Hər ikiniz məndən uzaqsınız və hər ikinizi itirmişəm. Sevə-sevə! Həmişəlik! Qoy sözlərim xətrinə dəyməsin. Yalnız qiymətli şeyləri itirmək olur. Qiyməti olmayan nəyin isə itkisi dərhal unudulur, yaddaşdan silinir. Qiymətli olan hər şey səni zaman-zaman yandırır, içini ovur. Siz mənim üçün belə bir ağrısınız: Bakı və sən. Başdan-başa dükanlardan ibarət Bakı. Bağlarındakı, xiyabanlarındakı, səkilərindəki ağacları hiss olunmadan kimlər tərəfindənsə kəsilən, köhnə məhəllələrin yerində saysız-hesabsız göydələnlər tikilən Bakı. Restoranlar, kafelər, barlar şəhəri. Yox, yox, istəmirəm. Bakıya gəlmək fikrim yoxdur. Mənim öz Bakım var – sirrli, mənalı, mənəviyyatlı əvvəlki Bakı! O Bakını mən özümlə buraya gətirmişəm.

Mən tənhalığı çox sevirəm. Yadımdadır, uşaqlıqda tez-tez evdən çıxıb təbiətin qoynuna – dərə, təpə, düz, meşə – hara gəldi gedərdim. Yorulanda özüm üçün gözəl bir guşə seçib saatlarla orada oturar, gözlərimi bir nöqtəyə zilləyib xəyallara dalardım. Fikrimdə elə hey kiminləsə danışardım. Mənə elə gəlir ki, o zamanlar xəyallarımda məhz sən vardın. Hər bir insanın ömrü boyu yolunu gözlədiyi bir adam olur. Mənim gözlədiyim adam sən idin. Hə, əzizim, mən səni bu dünyanı dərk etməyə başladığım andan arzulamışam, yolunu həmişə gözləmişəm, nəhayət, tapmışam. Amma sən mənim deyilsən, məndən çox-çox uzaqsan. Mənim səndən başqa hər şeyim var, mənim səndən başqa heç nəyim yoxdur. Həyatımda işıqlı, fərəhli, mənalı nə olubsa, ancaq səninlə bağlıdır. Qalan hər şey dumanlı, kölgəli, qaranlıqdır.

Adətim üzrə hər gün mütləq hava haqqında məlumatı dinləyirəm. Mənə elə gəlir ki, havanın temperaturunun sənin əhval-ruhiyyənlə bağlılığı var. Yağış yağırsa, pərişansan, gün çıxıbsa, fikirlərin aydındır. Bu il yaz çox gecikir. Burada

indi əsl qışdır, bayırda lopa-lopa qar yağır. Bayaq həyətdə qarın altında bir xeyli yalqızca dayandım. Evimizin pəncərələrindən düşən işığın altında qar lopalarını seyr etmək elə maraqlı idi! Bilirsənmi, sən demə heç bir qar zərrəciyi formaca o birinə bənzəmir – insanlar kimi. Mən uşaqlıqdakı kimi ağzımı açıb qar dənəciklərinin dilimin üstünə düşüb necə əridiyini hiss edib bundan əylənirdim. Uşaqlıqda onların hamısının eyni olduğunu zənn edirdim. Bayaq isə ağzımda əriyən hər zərrəciyin öz dadını, öz tamını tapmağa çalışdım. Dondurmaların dadı kimi. Zahirən hamısı dondurmadır, amma çiyələklisi, moruqlusu, almalısı, portağallısı var.

Hə, bu əyləncə başımı elə qatdı ki! Əsl sənin yerindir! Heyf ki, sən indi bu gözəlliyi görmürsən. Mənim indi burada tək-tənha olmağım bu ilahi gözəlliyin qiymətini azaldır. Səni elə arzuladım! Amma heç beş dəqiqə keçmədi ki, yuxarıdan qocaların öskürək səsi gəldi. Neçə gündür xəstə yatırlar. Gündə ancaq üç-dörd dəfə yataqlarından dururlar. Mənə yük olduqlarına görə xəcalət çəkirlər. Qocalıq onları bir-birinə elə oxşar edib ki: eyni vaxtda xəstələnir, eyni vaxtda sağalırlar. Biri ağzını açan kimi, o biri onun nə istədiyini anlayır. Daha dalaşmırlar, yorulublar deyəsən.

Hiss edirəm ki, səni qəmləndirirəm. Məktubu bitirirəm. Sənin yanında olmaq, sənin nəfəsini duymaq üçün indi nələr etməzdim! Sag ol, əzizim!"

Yol azmış məktub beş ildən sonra, nəhayət, sahibini tapmışdı. Sahil bilmirdi bu vaxtsız qonağın gəlişinə sevinsinmi, ya kədərlənsinmi? Sızıltıya bənzər bir şey ürəyini halsız etmişdi. Duman gözlərinə pərdə çəkmişdi. Sonra sağ gözündəki pərdə aralanmış, oradan bir damla yaş məktubun üzərinə axıb "əzizim" sözünün mürəkkəbini qarışdırmışdı.

O, əli ilə gözünü silib məktubu bir kənara qoymuşdu. Reallığa qayıtmaq, başqa nə barədə isə düşünmək istəmiş, amma bacarmamışdı. Divanda uzanıb gözlərini bərk-bərk yummuşdu. İncinin üzünün doğmadan doğma, əzizdən əziz cizgiləri gözləri qarşısında canlanmışdı. Son illər ərzində ilk dəfə idi ki, o, olduğu kimi gözləri önündə canlanırdı.

Zaman çox şeyi dəyişmiş, Sahili də başqalaşdırmışdı. Qayğılarını artırmış, fikir və düşüncələrinin məna və məzmununa qədər hər şeyə sirayət etmişdi. "Beş il keçib!" Bu fikir onu dəhşətə gətirmişdi. "Mən sənsiz bir gün də dözə bilmərəm" deyirdi onda. Ona elə gəlirdi ki, bir gün İncini görməsə, həyatı alt-üst olar, ömrünün mənası itər, yaşamağının heç bir əhəmiyyəti olmaz.

Bəs bu beş ildə yaşamamışdımı? Əlbəttə, yaşamışdı. Yemişdi, içmişdi, işləmişdi, ev-eşik qurmuşdu, dostlarının, tanışlarının əhatəsində olmuşdu. Qışda üşümüş, yayda istidən bezmiş, payızda yağışa düşmüşdü. Bəs yazda? Bircə yazda o, nədənsə qəribsəyərdi. Burnunda daim inciçiçəklərinin qoxusu olardı. İnciçiçəkləri satılan yerlərdən tez ötüb keçməyə çalışardı. Onları görməmək üçün addımlarını yeyinlədərdi. Bu incə, zərif meşə gözəlləri onun kefini pozmasın, əhvalını dəyişdirməsin deyə yolunu başqa səmtdən salardı.

Hər il may ayı girəndən çıxana kimi onun ruhunu, duyğularını qəribə bir inciçiçəyi havası tarıma çəkərdi. Bu hava sakitcə, səssiz-səmirsiz gəlib könlünə dolar, orada aramsız çalınardı. İnciçiçəyi yağışı yağardı hər il mayda göylərdən. Bu yağışın damcıları quruyanda paltarından həmin tanış qoxu gələrdi. Elə bil Sahili cırnatmaq üçün az qala hər döngədə əllərində inciçiçəkləri olan rus qarıları qarşısına çıxardı. Zənbillərinə on-on beş qom çiçək qoyub, birini əllərində tutaraq yoldan ötüb-keçənlərə sakit, yalvarıcı səslə "İnciçiçəyi alın,

peşman olmazsız", – deyən bu qarıları görəndə elə bilərdi köhnə tanışları ilə rastlaşır.

Onu bu qarılara və onların hardansa dərib gətirdikləri çiçəklərə gözəgörünməz tellər bağlayırdı. May girəndən ona elə gələrdi ki, Bakı inciçiçəyi ətrinə bələnib.

May ayı çıxıb yayın cırhacırı başlayanda bu nağıl da bitərdi. Həyat yenidən öz axarına qayıdar, məcrasından çıxmış fikir çayları yatağına dönər, günlər, həftələr, aylar əvvəlki ahəngini alardı. Beləcə, illər keçirdi. Artıq beş il ötmüşdü.

Evdə havası çatışmadığından pilləkənləri enib həyətə düşmüşdü.

– İnciçiçəyi! İnciçiçəyi! İkicə dəstə qalıb! – Evlərinin üzbəüzündəki bağın girişində tanış qarı müştəri çağırırdı. Ondan bir dəstə çiçək almışdı. Tanış, zərif qoxu onu mütəəssir etmişdi. "İnciçiçəkləri çıxıb, deməli maydır", – deyə düşünmüşdü. Qulaqlarında İncinin doğma səsi əks-səda vermişdi: *"İnciçiçəyi görmüsənmi? Yaşıl saplaq boyunca düzülmüz ağ-gümüşü çiçəkləri. Bu balaca, zərif çiçəklərin adamı bihuş edən ətrini hiss etmisənmi? İnciçiçəyi heç bir başqa çiçəyə bənzəmir".*

"Elədir, əzizim. İnciçiçəyi heç bir başqa çiçəyə bənzəmir", – deyə ürəyində ona cavab vermişdi.

"Sən qüssəli qoxunun nə olduğunu bilirsənmi?"

İncinin doğma səsi qəmli bir musiqi kimi qulaqlarında səslənmişdi: *"Hər il yaz gələndə məktəbimizin qabağında bir qarı inciçiçəyi satardı. Mən də sevinclə ondan bir qom alıb məktəbə gedər, onu partamın altına qoyub dərslər qurtarana kimi xəlvətcə qoxlayardım. Onların ətrindən doymazdım. Bir dəfə qarıdan çiçəyin toxumunu aldım. O biri yaz bizim həyətimizdə də inciçiçəyi bitirdi. Onlara elə qayğı göstərirdim..."*

İncinin səsi uzaqdan gəlir, xatirələrində əks-səda verirdi.

"İnciçiçəyində utancaqlıqla gözəlliyindən bixəbərliyin yaratdığı təkrarolunmaz bir zəriflik var. O, ağac dibindən utana-utana sənə tərəf boylanır. Yəni ki, mən beləyəm, istəyirsən qəbul et, istəmirsən yox".

Sahil əlində tutduğu inciçiçəklərinin ətrindən doya bilmir, qüssə ilə düşünürdü ki, İnci bu zərif güllərə çox oxşayır.

Onda Sahili İncidən beş il ayırırdısa, indi onların ayrılığının yaşı iyirmi üç idi. Bu müddət ərzində Sahil ilk dəfə öz-özünə etiraf etdi ki, vaxt ötüb, zaman keçdikcə İnci ondan uzaqlaşmaq əvəzinə daha da yaxınlaşır.

AKASİYA GÜL AÇANDA

Universitetə gedən yolun hər iki tərəfində sıra ilə əkilmiş akasiya ağacları 1975-ci ilin baharını yaddaqalan edən gözəlliklərdən biri idi. Onların ağappaq çiçək salxımları elə gözəl, ətrafa yayılan ətri elə xoş idi ki, hamının diqqətini cəlb edirdi. Dayanacaqda avtobusdan düşüb tələsmədən universitet binasına tərəf gedən İnci hər gün sevə-sevə seyr etdiyi həmin mənzərənin sehrinə dalmışdı.

Dərslərin başlanmasına hələ iyirmi dəqiqə var idi. Yol boyu düzülmüş kommersiya mağazalarına gözünün ucu ilə də baxmadan onların yanından etinasızlıqla ötüb keçirdi. Bu mağazalar son bir ayda açılmışdı. Yağışdan sonra meşədə baş qaldıran göbələklər kimi bir-birinin yanında boy-boya vermiş irili-xırdalı dükanlarda nələr yox idi? Mallara elə qiymətlər qoyulmuşdu ki, dilə gətiriləsi deyildi. Amma buna baxmayaraq, bugünkü mal sabaha qalmırdı. Alıcılar satıcılardan hər şeyi hər qiymətə alırdılar.

Bu, elə dövr idi ki, adamlar yeni yaranan komisyon

və kommersiya mağazalarına etibar etmirdilər. Həmişə alverçilərdən, mağaza anbarlarından baha qiymətə mal alanlar ticarətin bu yeni növünü hələ qəbul edə bilmirdilər. Amma günlər həftələrə, həftələr aylara calandıqca Bakı da, bakılılar da yeniliyə öyrəşməyə başlayırdılar. Baş alıb gedən, sərhəd bilməyən bahalıq adamların əksəriyyətini hiddətləndirsə də, "heç olmasa istədiyimizi mağazalardan tapa bilirik", – deyənlər də var idi.

Bahalıq tədricən hamının həyatına daxil olmuşdu. O, İnciyə də öz acı tamını dadızdırmışdı. Bu, qəribə tam idi, ona həm ümidsizlik, həm narazılıq, həm də qeyri-müəyyənlik qarışmışdı. Təqaüdçü valideynlərinin hər ay ona göndərdikləri cüzi pulu çox qənaətlə xərcləyirdi. Onun tam yarısını kitablara, qələm-dəftərə, qalanını isə yeməyə sərf edir, yarıac, yarıtox dolanırdı.

Hər dəfə bu yol ilə gedib-gələndə özündən asılı olmadan dəyişir, başqalaşır, fikirlərinə bir həzinlik qarışırdı. Ürəyinə qəribə bir bədbinlik, həyatdan narazılıq hissi yayılırdı. Yanından ötüb keçən son dəbə uyğun geyinib-keçinmiş oğlan və qızların şən zarafatları da, tək-tük gözə dəyən onun kimi kasıb geyimli tələbələrin qətiyyətsiz baxışları da, bu dar küçədə maşınlarını necə gəldi sürən, özlərini gözə soxmaq üçün xuliqanlıq etməkdən belə çəkinməyən bəzi "harınlar"ın özbaşınalıqları da, onların əndazədən çıxmağına baxıb başlarını yelləyən, əllərindən bundan başqa bir şey gəlməyən universitet müəllimlərinin dilsiz etirazları da ona qəribə bir narahatlıq hissi gətirirdi.

Qəmli düşüncələrini adətən çiçək açmış akasiya ağacları yayındırırdı. Onlar İnciyə Qusarı, onun yaşıllığa bürünmüş təbiətini xatırladırdı. Universitetə çathaçatda, mağazaların yerləşdiyi uzun cərgənin qurtaracağında hər gün gördüyü,

digər ağaclardan çəhrayı çiçəkləri ilə seçilən, bununla da hamının diqqətini cəlb edən qədd-qamətli akasiya ağacını iki kişinin mişarladığını görəndə gözlərinə inana bilmədi. Daha bir dükan üçün yer hazırlanırdı. Bunu görən İnci kişilərə yaxınlaşıb təəssüflə:

– Ağacı niyə kəsirsiz? – deyə soruşdu.

– Bizə belə göstəriş veriblər, – cavan kişi etinasızlıqla cavab verdi.

– Bu cür gözəl ağacı kəsməyə əliniz necə qalxır?

– Ay qızım, biz buyruq quluyuq, nə deyirlər, onu da edirik, – yaşlı kişi bu sözləri həlimliklə dedi.

– Necə yəni buyruq quluyuq? Sizə nə desələr, onu da eləməlisiniz? – İnci etiraz elədi.

– Eh, nə qoyub, nə axtarırsan... Bir ağac kəsməklə guya nə olasıdı? – Kişi əlini yelləyib, onlardan bir qədər aralıdakı ağaca söykənib siqaret çəkən cavan, yaraşıqlı kişini nişan verdi. – Nə sözün var, odur ey, ona de, xozeynimiz odur.

İnci həmin adama yaxınlaşdı:

– O ağacı kəsməyi siz tapşırmısınız?

– Bəli, mən! Nədi ki?

– Sizə kim icazə verib ki, bu cür gözəl, sağlam ağacı mişarladırsınız?

– Bəs sənə kim icazə verib ki, mənimlə bu tərzdə danışasan? – Kişi kobudcasına onun sözünü kəsdi.

– Mən sizinlə normal danışıram. Balaca bir tikilidən ötrü o boyda ağaca əl qaldırmazlar. Mən sizdən şikayət edəcəyəm.

– Sən tələbəsən? – Kişi onun sözünü kəsdi.

– Bəli.

– Neçənci kursdasan?

– Beşincidə.

– Deməli, bu gün-sabah diplom müdafiəsi, dövlət imta-

hanlarıdır. Get başıvı aşağı sal, dərslərinlə məşğul ol.

Kişi son sözləri elə lağla dedi ki, İnci təəssüflə ona baxıb, daha heç nə demədən peşman halda yoluna davam elədi. Bir-iki addım gedəndən sonra sövq-təbii dönüb arxaya baxdı. Qrup yoldaşı Səbinə həmin yerdə ayaq saxlamışdı. Kişi İncini nişan verib Səbinəyə nə isə deyir, o da uğunub gedirdi.

İnci yeyin addımlarla yoluna davam edəndə kimsə onun qolundan yapışdı: Məryəm idi. Bu hündürboy, ağbəniz, kök qız onların qrup rəhbəri idi. Təqaüd günü o, elə qorxaq olardı ki, gəl görəsən. Bütün günü çantasını sinəsinə sıxıb gəzər, təqaüdü paylamazdan qabaq pulu dönə-dönə sayar, uşaqlara onu dəftərçəsinə qol çəkdirib sonra verərdi.

– İnci, nə yaxşı ki, sənə rast gəldim, – Məryəm təşvişlə dillənəndə İnci o saat başa düşdü ki, bu gün təqaüd paylanacaq.

– Çantan doludur? – deyə soruşdu.

– Nədən bildin? – Məryəm həyəcanlandı.

– Görkəmindən.

– Doğrudan? Neynim, yazıq canım, pulu paylayıb qurtarana kimi məni əsmə tutur. – Məryəm ağlamsındı, sonra isə özünəməxsus tərzdə, gülə-gülə İncinin qolunu sıxıb sözünə davam etdi: – Bu gecə qəribə yuxu görmüşəm. Guya bir məclisdəyəm, amma həmin məclisdən bircə o yadımda qalıb ki, qızardılmış toyuğun budunu ləzzətlə yeyirəm.

İnci uğunub getdi:

– Ac toyuq yuxusunda darı görər. Yəqin çörək yemə-misən. Vallah, mən ömrümdə belə yuxu görməmişəm.

Məryəmin dünyada ən xoşladığı şey özünün dediyi kimi, yemək idi. "Bütün günü mənə növbənöv yeməklər verələr, ayrı heç nə istəmərəm," – deyərdi. Tənəffüs olan kimi bufetə qaçar, o biri tənəffüsdə isə "Ay İnci, acından ölürəm, gedək

mənimlə", – deyib darta-darta onu yenidən özü ilə bufetə aparardı. İnci yemək istəməsə də, heç nə demədən ona yoldaşlıq edərdi. Dərslərdən sonra Məryəm adəti üzrə güzgülənər, səbirlə üz-gözünü qaydaya salar, İnci də onun haçan bəzənib qurtaracağını gözləyərdi. Elə bu hövsələsinə və etibarına görə Məryəm onun xətrini dünyalar qədər istəyirdi.

Onlar auditoriyaya girəndə Bahadır zarafatla:

– Antonimlər gəldi, – deyəndə uşaqlar gülüşdülər. Ucaboy, dolubədənli Məryəm balacaboy, çəlimsiz Bahadırın qulağından yapışıb onu məzəli tərzdə otaq boyu gəzdirəndə, mehriban təbiətli, zarafata zarafatla cavab verməyi bacaran Bahadır isə müti halda başını aşağı salanda qəhqəhə qopdu. Məryəm onun iri burnuna işarə elədi:

– Axır ki, bir gün burnun qapı arasında qalacaq, – dedi.

Otaqda yenidən gülüş qopdu.

"Antonimlər"in qəribə tarixçəsi var idi. Birinci kursun ilk günlərinin birində müasir Azərbaycan dili dərsində Aydın müəllim "antonimlərə misal göstərin" deyəndə Bahadır:

– Misal üçün, Məryəmlə İnci, – demişdi. Auditoriyanı gülüş səsi bürümüşdü. O vaxtdan bu iki qızın adı "antonimlər" qalmışdı.

– Ay uşaqlar, muştuluğumu verin, dərs olmayacaq! – Səbinə qaça-qaça içəri girəndə auditoriya sevinc səsləri ilə doldu.

Boş keçən dərs saatları onların sevimli vaxtı idi. Bu zaman hamının kefi kökələrdi. Hər şeydə bir məzə, bir yumor axtarardılar. İndi də bir anın içində sanki hamı uşaqlaşdı.

Bahadır müəllim stolunun arxasına keçib adəti üzrə nağara çalmağa başlayanda Etibar onun qabağında dayanıb boğazını arıtladı, sonra isə məzəli səslə zəngulə vurmağa başladı. Muğamatdan təsnifə keçdi, nəhayət, qoşduğu "blatnoy" mahnını oxuyanda otağı gülüş səsləri bürüdü.

– Siz niyə gülürsüz? Mənim heç gülməyim gəlmir. – Uşaq sifətli, ucaboy, arıq Ramiz sözünü tamamlamamış auditoriyada bayaqkından da güclü qəhqəhə qopdu.

– Ay Ramiz, əgər sən belə nadir istedada tükünü də tərpətmədən qulaq asa bilirsənsə, onda dahisən, – deyə Məryəm səsləndi.

– Bəs necə? Mən dahiyəm də, – Ramiz yarızarafat, yarıciddi cavab verdi.

– Dahi heç vaxt deməz ki, mən dahiyəm, – deyə Esmira onların söhbətinə qarışanda Ramiz ciddi halda dedi:

– Təvazökarlıqdan deməz. Mənim isə sizə ürəyim yanır, ona görə deyirəm. İstəyirəm indidən biləsiz ki, dahi ilə bir qrupda oxuyursuz. Baxın ha, birdən düşünülməmiş hərəkətə-zada yol verərsiz, dahilər belə şeyləri bağışlamazlar.

– Ramiz, səni gələcəkdə adi adam kimi təsəvvür edə bilmirəm. Mənə elə gəlir ki, gələcəkdə doğrudan da dahi olacaqsan, – Məryəm ona sataşdı.

– Məryəm, sən istəyirsən ki, məni tərifləməklə özün haqqında müsbət rəy yaradasan. Ancaq üz vurma, onsuz da sən məndən ötrü mənfi obrazsan, – Ramiz bunu deyib özündən razı tərzdə gülümsədi. Məryəm isə əllərini şappıldadıb:

– Ay Ramiz, – deyə uğunub getdi.

Ramiz İncinin partasına yaxınlaşıb ciddi halda ondan soruşdu:

– İnci, sən necə, inanırsanmı ki, mən gələcəkdə dahi olacağam?

– 0,5 faiz, – deyə İnci ona zarafatla cavab verdi.

– Çox nahaq, gərək buna 99 faiz inanasan, – Ramiz bunu adət elədiyi soyuqqanlılıqla deyib auditoriyadan çıxdı. Ancaq bir azdan qayıdıb heç nə olmamış kimi yenidən İnciyə yaxınlaşdı:

– Bilirsən mən nə istəyirəm?
– Nə?
– İstəyirəm ki, birdən-birə dahi olum. Səncə ola bilərəmmi?
– Hə.
– Nəyə görə deyirsən?
– Sənin belə qəribə adam olmağına görə.
– Ürək-dirəyə görə çox sağ ol. – Nə vaxt ciddi danışdığı, nə vaxt zarafat etdiyi bilinməyən Ramiz belə deyib auditoriyadan çıxdı.

Səbinə bayaqdan nə isə yazdığı dəftəri qatlayıb partanın üstünə qoydu və yerindən qalxıb Etibarın yanına keçdi. Bir azdan onların arasında söhbət elə qızışdı ki, ətrafdakıları da unutdular.

Ən maraqlısı Bahadırla Fatmanın növbəti "tamaşa"sı idi. Bahadır Fatmaya yaxınlaşıb onun əlindəki sarı qızılgülə işarə ilə məzəli halda soruşdu:

– Gözəlim, lütfən söylə görüm, bu çiçəyi sənə kim bağışlayıb?

– Gözəl bir oğlan, əzizim, – Fatma da eyni tərzdə ona cavab verdi.

– Ah, sən bu laqeydliyinlə məni öldürəcəksən. – Bahadır əllərini sinəsində çarpazlayıb məcnunanə görkəm aldı.

– Allah xatirinə, ölmə, məni işə salarsan. Məgər görmürsənmi bu, sarı güldür? Axı sarı gül ayrılıq rəmzidir.

– Demək sən vəfasız deyilsən…

– Bəs necə! Mən o gözəl oğlana dedim ki, ey cavan, sən çox göyçəksən, mənim məhəbbətimə layiqsən. Lakin əfsus ki, mən könlümü başqasına vermişəm. O da cavabında mənə bu sarı çiçəyi verib getdi.

Bahadırla Fatma bir-birinə baxıb gülüşdülər. Bahadır çiçəyi onun əlindən alıb soruşdu:

– Fatma, bunu mənə bağışlayarsanmı?

– Məmnuniyyətlə bağışlayardım. Ancaq bu, ayrılıq gülüdür. İstəmirəm sənə ayrılıq vəd edim.

– Sən onun sarılığından qorxma. Ləçəkləri sarı olsa da, uclarında qızartı var. Bu, o deməkdir ki, ayrılıq öz nəğməsini oxuyub qurtarsa da, ümid yeri var. Ləçəklərdəki bu xəfif qızartı ümiddir. Sən bu sarı çiçəklə mənə ayrılıq vəd etsən də, mən onun bu məsumanə qızartısından ümid umacağam. Sənin əlini öpmüş bu çiçəyi qoxladıqca ondan sənin ətrini alacağam.

– Bəsdir artistlik elədin, – deyə bayaqdan Səbinə ilə mübahisə edən Etibar Bahadıra sataşdı.

Bahadır da Səbinəyə işarə ilə zarafatla cavab verdi:

– Bunu başqasından eşitsəydim, təəccüblənməzdim. Ancaq indicə eşqin göylərinin yeddinci qatında qanad çalan adamdan belə sözlər eşidəndə təəccüblənməyə bilmirəm.

– Tss! – Səbinə barmağını dodaqlarına apardı. – Bir az yavaş danışın. Rəva görməyin ki, xoşbəxt sevgililər sizin səsinizdən narahat olsunlar, – deyib nə haqdasa maraqla söhbət edən Esmira ilə Ramizi göstərdi.

Bayaqdan dəftərçəsində qeydlər edən İnci başını qaldıranda Səbinənin üç rəfiqəsini başına yığıb nə isə danışdığını, hərdən ona tərəf baxıb güldüyünü görəndə ürəyi qısıldı. Sonra Səbinə hamının eşidə biləcəyi səslə dedi:

– Xəbəriniz varmı, ay uşaqlar, şəhərimizdə təzə nəzarətçi peyda olub.

Səbinə daşı İncinin bostanına atırdı. Bu qız nədənsə birinci kursdan onunla yola getmirdi. Gündə bir paltar geyinən, universitetə bilik qazanmaq üçün yox, öz gözəlliyini, dəbdəbəli pal-paltarını, bər-bəzəyini nümayiş etdirmək üçün gələn Səbinənin sevimli peşəsi onu-bunu sancmaq idi. Bu

xasiyyətini bildiyindən İnci ona əhəmiyyət vermədi. Çantasından kitab çıxarıb özünü məşğul kimi göstərdi. Səbinə, İlahə, Mehparə və Rəfiqə arabir ona sarı baxır, sonra yenə bayaqkı kimi pıçıldaşırdılar.

– Özünü gör necə eşitməzliyə vurur! – Bu dəfə Səbinə daha ucadan dilləndi, amma İnci yenə özünü o yerə qoymadı.

– İnci, səninləyəm! – Səbinə gəlib düz onun qabağında dayandı.

– Mus-mus deyincə, Mustafa desənə! – İnci sakit səslə dilləndi.

– Əmioğluma niyə sataşırdın?

– Başa düşmədim.

– Burda başa düşməməli nə var ki? Gedib xalxın oğlunu sorğu-suala çəkmisən ki, niyə ağacı kəsirsən.

– Əvvəla, alnında yazılmamışdı ki, o, sənin əmioğlundur. Sonrası da ki, düz eləmişəm. Bir dükandan ötrü o cür gözəl ağacı kəsməzlər.

– Deyən lazımdır, axı kimsən, səni kim vəkil edib ki, camaata ağıl öyrədirsən?

– Mən xalqın nümayəndəsiyəm.

– Nə? Xalqın nümayəndəsi? – Səbinə qəhqəhə çəkdi. – Əcəb maraqlı sözlərdir. Heç bilmirdik xalqın nümayəndəsi ilə bir qrupda oxuyuruq.

– Görürəm, bu gün sancağın işsiz qalıb, sancmağa adam tapmamısan. – İnci təmkinini pozmadı.

Səbinə əllərini belinə qoyub nə isə demək istəyirdi ki, İnci ona imkan vermədi:

– Bəsdir, qurtardıq, mənim vaxtım yoxdur! – Onun bu sakit qətiyyətindən özünü itirən Səbinə deməyə söz tapmadı. Elə bu vaxt auditoriyaya girən Sahil keçib İncinin yanında oturdu, onunla hal-əhval tutmağa başladı.

– Yanıb tökülürəm, vallah, gör bu cüllüt Sahilin saqqızını necə oğurlayıb. Ovsunlayıb da gədəni! – Səbinə bu sözləri İlahəyə yavaşca dedi. Amma bunu İnci də, Sahil də eşitdi. Hər ikisi pərt oldu.

Həmin gün dərslərin sonuna kimi İnci Sahillə kəlmə də kəsmədi. Gözünün ucu ilə də olsun ona baxmadı. Sahil də onu danışdırmadı. Hər ikisi özünü günahkar hiss edirdi.

İnci adəti üzrə Məryəmi universitetin yaxınlığında yerləşən evlərinə kimi ötürəndən sonra yataqxanaya yox, şəhərə səmt aldı. Yolun kənarında onu Sahil gözləyirdi.

– İnci, hara belə?

– Şəhərə.

– Bayaqdan səni gözləyirəm.

– Məni? Niyə?

– Elə-belə.

Onlar bir xeyli dinməz-söyləməz yeridilər.

– Gəl burda oturaq, – deyə Sahil Akademiya bağının girişindəki skamyanı göstərdi. Onlar yanaşı oturdular. Bu vaxt bir dəstə qız səs-küylə, deyə-gülə onların yanından keçirdi. Onlardan biri:

– Bəxtəvər, gör bu sir-sifətlə nə gözəl oğlanı toruna salıb, – dedi. O biri qızlar da dönüb baxdılar.

Bu sözləri hər ikisi eşitdi. Onların təsiri o qədər böyük idi ki, pərtlikdən heç biri danışa bilmədi. İnci bu gün ikinci zərbə idi ki, alırdı. Sahil də tutulmuşdu. Danışsa, sözlərinin İncinin xətrinə dəyə biləcəyindən ehtiyat edirdi. Qızın oturuşundan, baxışlarından elə qüssə yağırdı ki, bu, istər-istəməz ona da sirayət etdi. İncinin gözündən bir damla yaş diyirlənib yanağı boyu axmağa başladı. Sahil heç nə demədən barmaqları ilə yaşı sildi. İnci onun bu hərəkətindən kövrəlib ayağa qalxdı:

– Sahil, xahiş edirəm, məni ötürmə, – dedi. Sahili belə donmuş halda qoyub tələsik addımlarla bağdan uzaqlaşdı.

İnci gedir, gözlərindən aramsız olaraq yaş axırdı. Gözəl olmadığını o, özü də bilirdi. Amma kifir də deyildi. Sadəcə, boy-buxunlu, gözəgəlimli, yaraşıqlı Sahilin yanında çəlimsiz, sısqa görünürdü. Bunu çoxları ona hiss etdirmişdi. Lakin bu fikir heç vaxt onu belə ağrıtmamışdı. Heç kəs bunu onun başına belə insafsızcasına qaxmamışdı! Ürəyində özünə qəti söz verdi ki, oğlanı birdəfəlik yadından çıxaracaq.

İnci çıxıb gedəndən sonra Sahil xeyli vaxt oturduğu yerdən qalxa bilmədi. Sonra nə fikirləşdisə, qaça-qaça gedib özünü bayaqkı qızlara çatdırdı. Həmin sözləri deyən qızın qarşısını kəsib, qəzəblə soruşdu:

– Sən özünü gözəl hesab edirsən, hə?

Qız özünü itirib heç nə deyə bilmədi. Rəfiqələri də çaşqın halda ayaq saxladılar.

– Səndən soruşuram, bəlkə elə bilirsən çox gözəlsən? Sənin kimi qəlbsiz, kobud adam özünü gözəl hesab edirsə, başa düşmürəm kifir kimdir. Tanımadığın, ömründə ilk dəfə gördüyün adamı ilan kimi çalıb gedirsən, heç fikirləşmirsən də ki, sözlərin onun ürəyini ağrıda bilər.

Qız, deyəsən, günah iş tutduğunu başa düşmüşdü. Rəfiqələrindən biri onu çətin vəziyyətdən qurtarmağa çalışdı:

– Bağışlayın, Elza o sözləri fikirləşmədən dedi.

– Dərd də orasındadır da. Tanımadan, bilmədən bir günahsız adamı yaralayıb getdi. Sifətdən gözəl olan hər kəs gözəl sayılmır.

Sahil yenə nəsə demək istədi, lakin sonra fikrini dəyişdi, pərt olub deməyə söz tapmayan qıza acıqla baxıb, əlini yelləyib getdi.

***

Axşam yataqxanada seminar tapşırıqlarını yazıb qurtarandan sonra İnci şahidi olduğu xoşagəlməz hadisəni təfərrüatı ilə qələmə aldı. Ağacları kəsib yerində ticarət obyekti tikdirməyin şəhərdə dəbə çevrildiyi haqqında məqalə yazdı. Səhər onu "Şəhər həyatı" qəzetinin redaksiyasına təqdim etdikdən sonra universitetə yollandı.

Bir gün sonra İncinin auditoriyaya girməsi ilə Səbinənin onu acılaması bir oldu:

– Bədniyabətlər olmaya da!

İncinin bu sözlərə məhəl qoymadığını görəndə Səbinə onun partasının qabağında dayanıb qəzəblə düz gözlərinin içinə baxdı:

– Hə, nə oldu, ürəyin soyudu?

– Nə olub, bəlkə mənə də deyəsən? – İnci təmkinini pozmadı.

– Məndən soruşursan? Gör özünü necə bilməzliyə qoyub.

Nə baş verdiyindən xəbəri olmayan İncini Bahadır vəziyyətdən qurtardı. Ona "Şəhər qəzeti"nin yeni sayını uzadıb Səbinəyə acıq verirmiş kimi dedi:

– Halal olsun sənə, İnci! Hər şeyi düz yazmısan.

"Özbaşınalıq" sərlövhəli məqaləsinin belə operativ dərc olunacağını gözləməyən İnci sevinclə onu oxumağa başladı.

Bir azdan otaqda məqalənin müzakirəsi başlandı. Hamı İncini müdafiə edir, illər boyu yetişdirilmiş qədd-qamətli ağacların insanların tamahının güdazına getməyinin qarşısını almağın vacibliyindən danışırdı. Əmisi oğlunu müdafiə etdiyinə görə danlanan Səbinə uşaqların tənbehlərinə tab gətirə bilməyib susmaq məcburiyyətində qaldı.

Dərslərdən sonra qrup yoldaşları ilə bir yerdə akasiya ağacının kəsildiyi ərazidən keçən İnci iki gün əvvəl onu acılamış

həmin adamın yolun kənarında dayanıb qəzəblə baxdığını gördü. Yanından ötəndə kişi ucadan dedi:

– Hə, nə oldu? Pisliklə nə qazandın? Sən yazdın deyə işlər düzəldi? Bax, indicə bir ağac da kəsmişik. Get, əlindən gələni beş qaba çək!

İncigil yerdəki akasiya ağacını yalnız indi gördülər. Üstü ağappaq çiçəklərlə dolu ağacın görkəmi ürək ağrıdırdı. Tələbələrlə bərabər, yoldan ötüb keçənlər də təəssüflə bu mənzərəyə baxır, deməyə söz tapmırdılar. İnci dözə bilmədi:

– Siz nə qəddar adamsız!

Bahadır da qəzəbini boğa bilmədi:

– Artıq tamah baş yarar. El malına yalnız sizin kimi tamahkar adam bu cür qəsd edə bilər...

Bir az aralıda dayanmış milis işçisini görəndə hamılıqla ona yaxınlaşıb şikayət etdilər. 40-45 yaşlarındakı həmin adam tövrünü də pozmadan onlara cavab verdi:

– Belə şeylərlə biz məşğul olmuruq. Biz cinayət törədiləndə onu araşdırırıq. Gedin təbiəti mühafizə cəmiyyətinə müraciət edin.

– Bəs bu cinayət deyilmi? Təbiətə bu cür qəsd etmək necə adlanır? – uşaqlar heç cür sakitləşə bilmirdilər.

Onların həyəcanla hadisəni müzakirə etdiklərini görən yaşlı bir kişi tələbələrə yaxınlaşıb yavaşca dedi:

– Ay uşaqlar, görürəm haqsızlığı götürə bilmirsiz. Amma hər şeyi ürəyinizə salmayın. Fikir verməyin, yoxsa başınız ağrıyar. Bunun xozeyini var, xozeyinin də xozeyini. Pul verib iş gördürürlər. Heç kəsə heç nəyi sübut edə bilməyəcəksiniz.

O, belə deyib getdi. İncigil onları uzaqdan lağla süzən Səbinənin qohumuna təəssüflə baxıb peşman halda yollarına davam etdilər.

ŞEİR SEVDASI

Qrupun sakit, nəzərə çarpmayan, amma savadlı tələbələrindən olan İncinin bütün qiymətləri "əla" olsa da, o, hamının nəzərində varlığı hiss olunmayan qız idi. Amma ikinci kursun əvvəllərində baş verən bir hadisə ona olan münasibəti tamamilə dəyişdi. Filologiya fakültəsində Məhəmməd Füzulinin yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecədə əzbərdən ən çox qəzəl deyən tələbələrə mükafatlar veriləcəkdi.

Təşkilatçılardan biri Bahadır idi. Həmin gecə onun kamançanı ustalıqla dilləndirməsi hamını heyran etdi. Tələbələr qəzəl oxuduqca o, gözlərini yumub muğamdan muğama keçirdi. Kamançadan ətrafa həzin melodiyalar yayıldıqca qəzəl demək istəyənlərin sayı artırdı. Lakin əzbərdən üç qəzəldən artıq deyən olmadı.

İncinin ayağa qalxdığını görəndə əvvəl hamı təəccübləndi. Ancaq elə ki, o dindi, ətrafa sükut çökdü. Füzuli qəzəllərinin dərinliyi ilə əruz vəzninin gözəl ahəngi bir-birinə qarışaraq onun dilində elə təsirli, elə məlahətli səslənirdi ki, nəinki tələbələr, hətta müəllimlər də heyran qaldılar. İnci qəzəldən qəzələ necə keçdiyini hiss etmirdi. Həzin kaman və zərif qız səsi birləşərək dünyanın ülvi və əbədi hissi olan məhəbbətdən, onun ürək titrədən, qəlb göynədən şirin əzablarından söz açırdı. Qəzəllərin sayını hamı çoxdan itirmişdi. 10 idimi, 13 idimi, bu, vacib deyildi. Vacib o idi ki, Füzulinin məhəbbət dünyasını o gecə İnci kimi heç kəs göstərə bilmədi.

– Münsiflər heyətinin yekdil qərarı ilə İnciyə gecənin birinci mükafatı verilir. İkinci və üçüncü mükafatlar isə ləğv

olunur. – Aparıcının bu sözlərindən sonra gurultulu alqışlar qopdu. Bu, elə-belə qələbə deyildi.

Həmin gündən tələbələrin İnciyə münasibəti tamam dəyişdi. O da elə bil bir az başqalaşdı, utancaqlığı, adamayovuşmazlığı bir qədər keçdi. İndi uşaqlar ondan tez-tez şeir deməsini xahiş edirdilər. Qızın qeyri-adi yaddaşı hamını heyrətləndirmişdi. O, seminarlara hamı kimi hazılaşmırdı. Auditoriyada müəllimlərdən eşitdikləri dərhal yaddaşına həkk olunurdu. İncinin qəzəl sevgisinə ən çox Sahil heyran idi, çünki özü də şeir vurğunu idi. O vaxtdan tənəffüslərdə növbə ilə şeir demək onlarda adət halını aldı. Biri başlayır, o biri ardını deyirdi. Bəzən əruzdan heca vəzninə keçirdilər.

Sahil üçün bu şeirləşmə həm də ona görə maraqlı idi ki, İnci tanınmış şairlərin şeirləri adı altında arabir öz şeirlərini də deyirdi. Sahil onun fəndini başa düşsə də, ozünü bilməzliyə vurur, ehtiyat edirdi ki, bu sirrin üstünü açsa, qız utanar. İncinin şeirlərindən çox xoşu gəlirdi. Onun maraqlı poetik dünyası var idi. Şeir yazan, poeziya vurğunu olan Sahil özü də hiss etmədən onun ruhunun, təbinin heyranına çevrilmişdi. Bir könüldən min könülə bu şair qəlbli qıza vurulsa da, bunu bildirməyə ürək eləmirdi. Qızın ciddiyəti onu qorxudurdu.

Qrupda İncinin şeir deməsinə lağ edənlər, ağız büzənlər də var idi. İncinin zarafatla "kvartet" adlandırdığı qrup yoldaşları – Səbinə ilə onun üç rəfiqəsi: İlahə, Rəfiqə və Mehparə onun bunu gözə girmək üçün etdiyini dilə gətirir, tez-tez qıza söz atırdılar. İnci isə xasiyyətcə bir-birinə çox oxşayan, onu "kəndçi" adlandırıb, özlərini kübar göstərməyə çalışan bu şəhərli qızlardan incimirdi. Amma tələbə yoldaşlarının hamısı ilə qaynayıb-qarışsa da, nədənsə bu dörd qıza yovuşa bilmirdi. Səbinə ilə tez-tez mübahisə etsə də, o biriləri ilə

salamdan başqa kəlmə də kəsməmişdi.

Onların İncini sevməməsinin əsas səbəbi dövrlə ayaqlaşa bilməməsi idi. Geyimi ilə dünyagörüşü bu meşşan təbiətli qızları açmırdı. Onlar üçün həyatın mənası dəblərdən, sərgüzəştlərdən, gəzintilərdən ibarət idi. İncinin gecə-gündüz dərs oxumasına, qiymətli vaxtını kitabxanalarda keçirməsinə lağ edir, onu kinayə ilə "şair" adlandırır, hərdən ona atmaca atmaqdan özlərini saxlaya bilmirdilər:

– Özünü öldürmə, onsuz da imtahanlardan eyni qiymətlər alacağıq, – deyib onu cırnatmağa çalışırdılar.

Əslində düz deyirdilər. Amma İnci üçün bunun heç bir əhəmiyyəti yox idi.

– Kimin qabında nə varsa, onu gələcək göstərər, – deyirdi.

Belə vaxtlarda Sahil kədərlə düşünürdü ki, gələcəkdə Səbinə kimiləri üçün yaxşı maaşlı, rahat iş yerləri tapılacaq, onlar hər şeylə təmin olunacaqlar. İnci kimilərinə isə həyatda saysız-hesabsız çətinliklərlə üzləşmək qalacaq.

***

Akademiya bağında baş verən hadisədən sonra Sahil çox dəyişmişdi. Adətən deyib-gülən, zarafatlarından qalmayan o, son vaxtlar kefsiz gəzir, heç kəsə qaynayıb-qarışmırdı. Bu, qrup yoldaşlarının nəzərindən yayınmırdı. Ondan nə baş verdiyini, qanının niyə qara olduğunu soruşanlara könülsüz halda "heç nə olmayıb" deyə cavab verirdi.

Son xoşagəlməz hadisədən sonra Sahil İnciyə yaxınlaşmağa ürək eləmirdi. Nədənsə həmin qan qaraldan sözlərə görə özünü günahkar hesab edirdi. İnci də öz növbəsində Sahilin bu qəribə əhvalını, onun soyuqluğunu öz bildiyi kimi yozur, başqa cür mənalandırırdı. Ona elə gəlirdi ki, bağdakı qızın sözləri Sahilin gözlərini açıb, onun İncidən zəhləsi

gedir.

Düz bir həftə Sahil xəstə yatdı, universitetə gəlmədi. İnci heç vaxt özünü həmin həftədəki kimi kimsəsiz hiss etməmişdi. Kim bilir, neçənci dəfə öz-özünə etiraf edirdi ki, ömrünün bütün gözəlliyi Sahilin varlığı ilə, onun yaxınlığı ilə bağlıdır.

Cümə günü dərslərdən sonra İnci çəkinə-çəkinə Bahadıra təklif etdi:

– Gəlsənə, bir yerdə Sahilə baş çəkək.

– Mən onsuz da hər gün onlara gedirəm. Amma sənin xətrinə yenə gedərəm, – deyə Bahadır razılıq verdi.

Onlar universitetdən çıxıb Sahilin Sovetski məhəlləsində kirayədə qaldığı evə yollandılar. İncini görəndə Sahil özünü itirib tez-tələsik çarpayısını qaydaya saldı, stolun üstündəki qabları mətbəxə daşıdı. Bütün bu işləri görüb qurtarandan sonra İnciyə stul göstərdi:

– Xoş gəlmisən, İnci, bağışla ki, bir az səliqəsizlikdir.

O, sanki Bahadırı görmür, onu eşitmirdi, fikri yalnız İncinin yanında idi. Çoxdan bəri üzü gülməyən dostunun halındakı bu dəyişiklik Bahadırın nəzərindən yayınmadı. O, Sahilin parıldayan gözlərinə baxıb düşündü: "Olmaya İnciyə vurulub?" Ancaq onları bir-birinə yaraşdıra bilmədi, ona görə də bu fikrindən daşındı.

– Gedim çayla içməyə bir şey alım, – deyib otaqdan çıxdı.

Sahil sanki bunu gözləyirdi. O, sevinc dolu gözlərini İnciyə zillədi:

– Mən indicə sənin haqqında düşünürdüm. İnan mənə, İnci, gözlərimi yumub yerimdə uzanmışdım. Birdən burnuma sənin vurduğun həmin o ətir dəydi: "İnciçiçəyi" ətri. Adını düz dedimmi? Təsəvvür etdim ki, indicə möcüzə baş verəcək, gözlərimi açanda qarşımda səni görəcəyəm. Elə də oldu. Nə yaxşı ki, gəldin!

Sahilin bu səmimi etirafı necə də gözəl idi! İnci onun diqqətcilliyinə məəttəl qaldı. Vurduğu ətrin adını necə də yadında saxlayıb. İnci Sahillə ikilikdə, bu qədər yaxın oturduğuna inana bilmirdi. Bu, ondan ötrü böyük səadət idi. Özünü onun qıvrım saçlarında əl gəzdirməkdən güclə saxladı. Birdən fikrindən utanıb pörtdü. Onun sakitliyi Sahilə də sirayət etdi. O da birdən susdu, sanki bildiyi bütün sözləri deyib qurtarmışdı.

Bu dəfə sükutu İnci pozdu:

– Sənə nə olub, Sahil?

– Məgər bilmirsən?

– Nəyi?

– Mən həmişə səni düşünürəm. – Sahil bu sözləri ehtiyatla dedi.

İnci eşitdiklərinə mat qaldı. Ona elə gəldi ki, yuxudadır, bir azdan oyanacaq. Amma yox, bu, yuxu deyildi. Həmin sözləri ona Sahil deyirdi. Bunun səmimi etiraf olmasına şübhə yox idi. İnci xoşbəxtlikdən quş olub uçmaq istədi. Lakin bu, bircə an çəkdi, o, xəyaldan reallığa qayıtdı.

– Sən nə danışırsan, Sahil? Nə dediyini özün başa düşürsənmi?

– Heç nə demə, İnci. Mənim üçün dünyada heç kəs sənin yerini verə bilməz. Əvvəllər elə bilirdim ki, bu, məndə ötəri hissdir. Amma vaxt keçdikcə başa düşdüm ki, mən sənsiz yaşaya bilmərəm.

O, İncinin əllərini köksünə sarı apardı. Ürəyi sinəsində elə guphagup salmışdı ki, İnci ona inanmaya bilmədi. Əlləri özündən asılı olmayaraq, Sahilin qumral, qıvrım saçlarında gəzdi. Oğlanın gözləri İncinin ondan bir baxışlıq məsafədə olan dodaqlarında dondu. Bu vaxta kimi onların bu qədər gözəl olduğunun fərqinə varmamışdı. Onlar tər qızılgül

ləçəklərinə bənzəyirdi. Sahil qəfil hərəkətlə İncini bağrına basdı, dodaqlarını onun dodaqlarına yaxınlaşdırdı. Bu gözlənilməz təmasdan qızın bədənini indiyə kimi ona tanış olmayan şirin, bihuşedici bir hiss bürüdü. Sahilin dodaqlarından onun dodaqlarına sanki alov yayıldı. Alov onu yandırdıqca bədəni halsızlaşır, Sahilin qolları arasında əriyib itmək istəyirdi. Sahil, İncinin çöl çiyələyi dadı verən dodaqlarından doya bilmirdi. Qəfil gəlmiş xoşbəxtlik, başgicəlləndirici yaxınlıq onlara hər şeyi unutdurmuşdu. Bayır qapısının açılıb örtülməsi onları reallığa qaytardı.

Dəhlizdə ayaq səsləri eşidiləndə, diksinib bir-birindən qopdular. Bahadır gəlməsəydi, kim bilir, bu xoşbəxtlik dolu anlar nə qədər davam edəcəkdi. Tortla içəri girən Bahadır qapının ağzında duruxub qalmışdı. O, gah yanaqları pörtmüş İnciyə, gah da otaqda gülməli şəkildə vurnuxan dostu Sahilə baxır, nə edəcəyini bilmirdi. Onu bu vəziyyətdən Sahil çıxardı:

– Bəh-bəh-bəh, tortla çay içəcəyik. Gedim çay qoyum.

***

Təqaüdə bir neçə gün qalmış bütün tələbə yataqxanaları kimi, universitetin 4 nömrəli qızlar yataqxanası da öz kasıb həyatını yaşamağa başlayırdı. Qızların ərzaq ehtiyatı kimi pulları da qurtarırdı. Belə vaxtlarda adətən 6 nömrəli otağın qızları ciblərində, çantalarında qalan qəpik-quruşu ortalığa töküb sayır, çörəyin pulunu ayırıb, qalanını bərabər şəkildə aralarında bölürdülər.

Dolubədənli, totuq-motuq Aybəniz hər dəfə ümid edirdi ki, aclıq ona xeyir verəcək, o, artıq çəkisinin heç olmasa bir-iki kilosunu ata biləcək.

İnci otaqlarındakı qazanların qapaqlarını qaldırıb onları

bircə-bircə yoxladı, çörəkdən başqa yeməyə heç nə tapmadı.

– Aybəniz, pendirimiz də qurtarıb? – deyə ümidsizcəsinə otaq yoldaşından soruşdu.

– Hə, – Aybəniz dərindən ah çəkdi.

– Gedim, görüm mətbəxdə nə bişirirlər, – deyib İnci otaqdan çıxdı.

Mətbəxdə beş-altı qız vurnuxur, arıq, balacaboy Nərminə isə onları cırnadırdı:

– Qızlar, sizinçün nə bişirim: dolma, bozbaş, düşbərə?

– Nə olub, mədən şirə buraxır? – deyə onlardan biri İncidən soruşdu.

– Yox, nə danışırsız, mən orucam, bu saat qabağıma dünyanın min cür naz-nemətini töksələr, gözümün ucuyla da baxmaram. – İnci bunları elə məzəli tərzdə dedi ki, qızlar gülüşdülər.

– İnci, ay İnci, tez gəl, 7-ci otaq səni gözləyir, dadlı yeməklər var. – Zemfiranın səsi dəhlizi başına aldı. İnci sevinclə mətbəxdən çıxdı.

– Bəs oruc idin? – Nərminə onun dalınca söz atdı.

– Sabah qəza orucu tutaram, – deyə İnci güldü.

– Quba almasına, Gəncə balasına, Apelsinə atəşin salamlar! – İnci hay-küylə 7-ci otağa girdi.

– Salam, İnci! Keç otur, sənsiz yemək bizə nuş olmaz, – deyə Zemfira şirin Quba ləhcəsində dilləndi.

– Ay aman, camaat acından ölür, bunlar plov yeyirlər, – İncinin ağzı sulandı. Tez divarı döyüb otaq yoldaşını səslədi: – Aybəniz, bura gəl, eşidirsənmi, tez özünü çatdır!

Onun divarı döyməsi ilə Aybənizin özünü çatdırması bir an çəkdi. Hamı yeməyə girişdi.

– Bacım oğlunun ad günü idi, indicə onlardan gəlirəm. – Zemfira gülümsədi. Sonra isə:

– Qoy xəbər alım, bəlkə yenə ac var, – deyib qapıya çıxıb:

– Qızlar, kim acdırsa, gəlsin 7-yə, – deyə səsləndi.

– Siz yeyin, biz görməmiş deyilik, – Nərminə mətbəxdən Şəki ləhcəsində məzəli halda cavab verdi, qızlar gülüşdülər.

– Hardasan, İnci? Neçə gündür görünmürsən... – Amaliya İncini söhbətə tutdu.

– Mən görünürəm, siz görmürsüz... – İnci söz altında qalmadı.

– Necə görünsün yazıq, acından ayaq üstə dura bilir ki? – Şərqiyə dilləndi.

Yataqxanada elə adam yox idi ki, İnci ona ləqəb qoymasın. Bu ləqəblər elə tez vətəndaşlıq hüququ qazanırdı ki, qızların əsl adları az qala unudulurdu. Zemfira Quba alması, Amaliya Gəncə balası, Şərqiyə Apelsin idi.

Qızlar yeyib doyandan sonra Şərqiyə onlara pürrəng çay süzdü. İnci zarafatla əl çalıb, kefi kök halda səsləndi:

– Rəqqasələr gəlsin!

Zemfira da himə bənd imiş kimi, 8-ci otağın sakini, göbək rəqsi ilə yataqxanada məşhurlaşmış ucaboy, gözəl qız olan Tahirənin yanına qaçdı. Heç beş dəqiqə keçməmiş Tahirə göbəyi açıq, ayağı yalın, belinə güllü şal bağlamış halda otağa girdi. Gözəl səsi ilə yataqxanada tanınan Amaliya "Şələbiya" adlı məşhur ərəb mahnısını oxuyur, Şərqiyə stolda qaval çalır, Tahirə isə sındırırdı. O, rəqs elədikcə qapqara, uzun, qalın saçları nazik belinə sarılırdı. Tahirə göbəyini elə ustalıqla oynadır, bədəninin əzalarını elə əsdirirdi ki, qızlar gülməkdən qəşş edirdilər.

Rəqs başa çatanda Tahirə təzim edib gəldiyi kimi sakitcə çıxıb getdi. Bütün bunlar elə tez, elə təbii baş verdi ki, qızlar bir xeyli uğunub getdilər.

– Ölməyəsən, İnci, neçə gündür harda itmisən? Darıxıb

ölürdük səndən ötrü, – deyə Quba alması onun üzündən öpdü.

Apelsin:

– Yəqin dövlət əhəmiyyətli məsələlərlə məşğul idi, – dedi.

– Molla aşı gördü, "Yasin" yadından çıxdı, – İnci bunu deyib ayağa durdu. Qızlara yemək-içməyə görə minnətdarlığını bildirib qapıdan çıxmaq istəyirdi ki, qəfildən üstünə çilənən soyuq sudan diksinib qışqırdı. Dəhlizdə bir-biri ilə sulaşan Elza ilə Nurlanə ondan üzr istədilər.

– Sizi görüm evdə qarıyasız! – Quba alması İncinin acığını onlardan çıxdı.

Bütün günü suquşu kimi su ilə oynayan bu iki qızın ikinci mərtəbədə sulamadığı adam qalmamışdı. Danlaqlar, xahişlər, yalvarışlar fayda vermirdi. Onların mübahisələri bir qayda olaraq bir-birinin üstünə su atmaqla bitirdi. Hər dəfə də təsadüfən kimi isə isladırdılar. Artıq buna hamı kimi İnci də adət etdiyindən sakitcə otağına keçib paltarını dəyişdi.

Otaq yoldaşı Aybənizin yaxın rəfiqəsi, biologiya fakültəsinin tələbəsi Afaq da içəridə idi. O, son vaxtlar tez-tez cavan, savadlı və eyni zamanda fağır bir müəllimdən söhbət açırdı. Bunu bildiyindən İnci:

– Alim oğlanın kefi necədir? – deyə ondan soruşdu.

– O, ağıllı bir qız axtarır, evlənmək istəyir, – deyə Afaq ciddi halda cavab verdi.

– Yəqin ki, bir ağıllı qız da indi onu axtarır. Kim bilir, bəlkə də heç zaman bir-birini tapmayacaqlar.

İnci bu sözləri kədərlə dedi. Elə bu vaxt Afaqın otaq yoldaşı Ceyran da içəri girdi. Bu kifir qızın olduqca gözəl xasiyyəti var idi. Şux zarafatlarına görə yataqxanada hamı onun xətrini istəyirdi. Öz adı onu həmişə cinləndirərdi:

– Bilmirəm, mənə ad qoyanda atamla anamın kələyini kim

oğurlayıb. Yazıq ceyran bilsəydi ki, adını mənə qoyacaqlar, ceyran olmaqdan vaz keçərdi, – deyərdi.

Afaq rəfiqəsinin toyundan yenicə qayıtmış Ceyrandan soruşdu:

– Yazıq Mehriban getdi, hə?

– Yazıq niyə olur, yazıq olsaydı ərə gedərdimi? – Ceyran cavab verdi.

– Ərə getmək nə vaxtdan xoşbəxtlik sayılır, ay Ceyran? – Afaq güldü.

– Elə deyirsən ki, elə bil səni heç istəyib eləyən yoxdur, – Aybəniz üzünü Ceyrana tutdu.

– Əlbəttə, yoxdur. Eh, əzizim, Allah gözəllik paylayanda mən yolda qalmışam, oğlanlar isə gözəl qız axtarırlar, – Ceyran belə deyib köks ötürdü.

Bir azdan onlar çıxıb gedəndə İnci üzünü Aybənizə tutdu:

– Sən də bizim Məryəm kimi düşünürsən. O, özü tox olanda təsəvvür edə bilmir ki, kimsə ac ola bilər, hətta deyəndə ki, "Məryəm, mən acam", təəccüblənib: "Sən acsan? Mən toxam", – deyə cavab verir. Sən də onun kimi elə bilirsən ki, bütün qızları sevənlər var. Niyə inanmırsan ki, Ceyranı sevən yoxdur?

– Axı o, ağıllı, savadlı qızdır.

– Ağıl, savad kimə lazımdır?

– Dostlara, qohumlara, tanışlara.

– Adam gözəl olanda bu keyfiyyətlərə fikir verirlər.

Ortalığa sükut çökdü. Bir azdan İnci dilləndi:

– Aybəniz, sən gözəl olmaq istərdinmi?

– Bilmirəm.

– Amma mən istərdim.

– Sənə nə olub ki?

– Mənə nə olmayıb ki? – İnci bu sözləri elə kədərlə dedi

ki, Aybəniz təəccüblə ona baxıb heç nə demədi.

İnci çarpayısına uzanıb, üzünü divara çevirərək gözlərini yumdu. Yalnız indi Sahilin sözlərini ürəyində təhlil etməyə başladı. Etirafı bu gün ona qəribə gəlirdi. Nədənsə indi, üstündən bir neçə gün keçəndən sonra onun sözlərinin səmimiliyinə inana bilmirdi. Onun İncini sevməsi mümkün olan şey deyildi. Kimə desəydi, buna inanmazdı. Ucaboy, yaraşıqlı, gözəl-göyçək Sahil qrupda da, fakültədə də hamının nəzər-diqqətini cəlb edirdi, qızlar onunla söhbət etməyi, zarafatlaşmağı xoşlayırdılar. O qədər gözəl qızın içindən necə olmuşdu ki, İncini seçmişdi?

O, bunları düşündükcə ümidsizlik içində çırpınırdı. Bəzən ürəyinin dərinliklərində onun səmimi etirafına inanırdı, amma sonra özünü Sahillə müqayisə edir, ona yaraşmadığını düşünəndə əl-ayağı yerdən üzülür, həyat eşqi sönürdü. Gözəl olmaması fikri heç vaxt indiki kimi ona əzab verməmişdi. Həyatında ilk dəfə eşitdiyi sevgi etirafı ona sevincdən çox ümidsizlik və sonsuz həyəcan gətirmişdi. Bu, qəribə hiss idi, onu gah sevinc bürüyür, gah kədərə qərq edir, gah güldürür, gah ağladırdı. Gecələr yuxusunu, gündüzlər isə dincliyini əlindən alırdı. O, Sahili həm görmək istəyirdi, həm də ondan qaçırdı. Həm ondan yaxınlıq, doğmalıq gözləyirdi, həm də bunlardan qorxurdu.

İncini başqalarından fərqləndirən çox şey var idi. Ondan ötrü maddi dünyanın bir o qədər əhəmiyyəti yox idi. Onu yalnız mənəvi aləm maraqlandırırdı. Bəzənmək, kimlərəsə xoş gəlmək, kimlərəsə yarınmaq kimi adi şeylər onun təbiətinə yad idi. Yemək-içmək ondan ötrü həmişə ikinci dərəcəli idi. Bunlara məqsəd kimi yox, yaşamaq üçün vasitə kimi baxırdı.

Bakıda yaşadığı bir neçə il ərzində o, başqa qızlar kimi

ola bilməmişdi. Ənlik, kirşan, dodaq boyası nə olduğunu bilmirdi. Kimdənsə, nədənsə çəkindiyi üçün yox, marağı olmadığına görə bunları qəbul edə bilmirdi. "Heç bir bərbəzək insanı Allahın yaratdığından gözəl göstərə bilməz", – deyirdi.

İlk vaxtlar tələbə yoldaşları onun bu qəribəliklərini qəbul edə bilmirdilər. Bəziləri bunu özünü gözə soxmaq, nəzər-diqqəti cəlb etmək, başqalarından seçilmək kimi başa düşürdülər. Lakin zaman ötdükcə bunun heç də belə olmadığı hər kəs üçün aydın oldu. Əvvəl İnci ilə təmasdan qaçan, söhbətdən yayınanlar da getdikcə ona bağlanırdılar.

İncinin ədalətliliyi, yalana qarşı barışmaz olması hamının diqqətini cəlb etmişdi. Qızı yaxından tanıdıqca çoxları onun cazibədar olduğunu kəşf edirdi. Bu kəşf idi İncini Sahilə başqalarından fərqli şəkildə tanıdan, sevdirən. Qızın uzun, sıx kirpiklərlə dövrələnmiş iri qara gözləri çox gözəl idi. "Sənin gözlərinin qara məxməri var", – deyə Sahil tez-tez onunla zarafatlaşırdı. Sahil onların dərinliyinə, mənalılığına aşiq idi. İncinin gözlərinə baxdıqca baxmaq istəyirdi. Lakin bir şey var idi ki, bu gözlər ona çox vaxt qəm gətirirdi. Təkcə gözləri yox, ümumiyyətlə, İncinin bütün varlığı kədər yayırdı. O, nədən danışsa da sonunda bir bədbinlik, bir həzin ovqat olurdu. Sahil onun bu xasiyyətinə öyrəşmiş, "hər sevincin sonu kədərdir", – deyən İncinin fəlsəfəsi ilə çoxdan razılaşmışdı.

Qıza müasir görkəm verən yalnız saçları idi. Belinə çatan dümdüz xurmayı saçları ona çox yaraşırdı. Bir də, hamının etiraf etdiyi kimi, güləndə ağappaq, gözəl dişləri onun üzünə qəribə bir işıq saçırdı. Gülüş ona çox yaraşırdı, Sahil onun gülən çağına heyran idi.

İnci başqalarından natiqlik məharəti ilə də seçilirdi. Da-

nışığına heyran olmamaq mümkün deyildi. Müəllimlərini, tələbə yoldaşlarını, tanışlarını ona ən çox bağlayan da məhz nitq qabiliyyəti idi. İnci seminar məşğələlərində dərs danışmağa başlayanda, səs-küylü auditoriyada dərhal sakitlik yaranardı. Onun şeir deməsi isə bir özgə aləm idi. Əslində, İnci ilə Sahilin dostluğunun mayasında onların şeirə olan məhəbbəti dayanırdı. Yazdıqları şeirləri bir-birinə oxumaq onların sevimli məşğuliyyətinə çevrilmişdi.

Acı da olsa Sahil bir həqiqəti öz-özünə etiraf etmişdi ki, İncinin şeirlərinin dili daha zəngin, fəlsəfəsi daha dərindir. Təşbehlərinə, bənzətmələrinə, ələlxüsus rədiflərinə Sahil heyran idi. Onun şeirlərinin üstündə isə mütləq İncinin əli gəzməli idi. Qızın söz cilalamaq istedadını öz-özünə etiraf etsə də, bunu İnciyə bildirməyi özünə sığışdırmırdı. Şeirlərini İnciyə göstərməyə də bilmirdi. Yalnız üstündə onun qələmi gəzəndən sonra onları bəyənirdi.

İNCİKLİK

Beşinci kursun birinci semestrinin dərsləri başlayanda fakültəyə xəbər yayıldı ki, Sahil Hüseynovun "Sənə ithaf" adlı ilk şeirlər kitabı çapdan çıxıb. Sahil kitablarını tələbə yoldaşlarına payladıqdan sonra İnciyə pıçıltı ilə dedi: "Bunda sənin əməyin çoxdur, əzizim". İnci sevincindən quş olub uçmaq istəyirdi. Çünki kitabdakı şeirlərin əksəriyyətinin ona ünvanlandığını bilirdi. Adı çəkilməsə də, çoxu İnciyə ithaf olunmuşdu. O, Sahilin əlini bərk-bərk sıxdı:

– Bilsən necə şadam, Sahil?!

– Bilirəm, İnci.

Həmin gün hamının söz-söhbəti "Sənə ithaf" oldu. Tənəffüslərdə hamı kitabı müzakirə etdi. Dərslərdən sonra hamılıqla

“kitabı yumaq” üçün dəniz kənarına, çay içməyə yollandılar.

Yataqxanada İnci Sahilin kitabını yenidən vərəqləməyə başladı. Titul vərəqindəki “Redaktor Zümrüd Hacızadə” söz-lərinə yalnız indi fikir verdi. Televiziyanın aparıcı jurnalistlərindən olan Zümrüd Hacızadə bir neçə il əvvəl universiteti bitirmişdi. “Ömründə şeir yazmayan, redaktədən başı çıxmayan bu qızı Sahil nə əcəb öz kitabına redaktor təyin edib?” – deyə düşündü. İlk dəfə ağlına gəldi ki, əslində, kitabın redaktoru o olmqlı idi, çünki burada onun əl gəzdirmədiyi, cilalamadığı bircə dənə də şeir yox idi. Bəs niyə Sahil kitabına onu yox, Zümrüdü redaktor təyin etmişdi? Onun bu hərəkətini necə başa düşmək olar? Bu suallar onun yuxusunu qaçırdı, bütün gecəni yatağında vurnuxsa da yata bilmədi.

Səhər auditoriyada Sahilə sual verməkdən özünü saxlaya bilmədi:

– Sahil, məni başa sal görüm, Zümrüd Hacızadənin sənin kitabına nə dəxli var?

Birbaşa verilən bu sualdan tutulan Sahil tələsmədən cavab verdi:

– Zümrüd televiziyanın ədəbi verilişlər proqramında işləyir. O, bizim ikimizə də lazım olacaq. Onu özüm redakor təyin elədim ki, gələcəkdə bizi öz verilişlərinə dəvət etsin.

İnci eşitdiklərinə inanmadı. Sahilin cavabı ona qeyri-səmimi göründü. Bunu sevdiyi, göylərə qaldırdığı adamın dediyinə inanmaq istəmədi:

– Axı sənin şeirlərini mən redaktə etmişəm, Zümrüd yox. Niyə məni deyil, onu redaktor təyin etdin?

İncinin onu bu cür divara dirəyəcəyini ağlına gətirməyən Sahil qızı inandırmağa çalışdı:

– Burda imza məsələsi rol oynayır. Sən hələ tanınmırsan

axı. Zümrüdü isə bütün respublika tanıyır.

İnci eşitdiklərindən sarsılıb nə deyəcəyini bilmədi. Qızın xətrinə dəydiyini anlayan Sahil onun könlünü almaq üçün mülayimcəsinə dedi:

– Düşündüm ki, sən mənim kitabıma redaktor olmaq istəməzsən, axı mənə çox doğmasan.

– Səhv eləmisən, Sahil. Əksinə, sənin kitabının redaktoru olmaqdan qürur duyardım, – deyə İnci qəlbindəkiləri dilə gətirdi. Sahilin pərt olduğunu görüb daha söhbəti uzatmadı. Amma ilk dəfə Sahildən incidi. Bir-birini tanıdıqları dörd ildə ilk dəfə ürəyində qəribə bir inamsızlıq baş qaldırdı. Ona şübhə qarışmışdı. Bu hissi etiraf etmək son dərəcə ağır idi. Özündən çox inandığı, canından artıq sevdiyi bir insana qarşı içində doğulan şübhəni uzaqlaşdırmağa çalışsa da, buna gücü çatmadı.

Sahil şeir kitabını çapa hazırladığını hamıdan, hətta İncidən də gizlətmişdi. Yay tətili günlərini Gəncəyə getmədən Bakıda keçirmişdi. Sahilin uğurlarına İnci qədər sevinən var idimi? Hər şeirini, hər misrasını sevən, tez-tez onları əzbərdən deyən, Sahili kitab nəşr etdirməyə ruhlandıran İnci deyildimi? Bəs nə baş vermişdi ki, nəşr söhbətini ondan gizlətmişdi? Bəlkə İnciyə sürpriz etmək istəmişdi? Amma yox, belə sürpriz olmazdı. "Vəzifəsinə görə kimisə redaktor seçmək kimi cılız fikir görəsən onun ağlına haradan gəlib?" Bu suala heç cür cavab tapa bilmirdi.

Həmin hadisə onların münasibətlərinə bir qədər soyuqluq gətirdi. Bu barədə daha söz salmasalar da, hər biri öz-özlüyündə dərk edirdi ki, gözəgörünməz bir qüvvə onları bir-birindən ayırmağa çalışır. Əvvəlki kimi mühazirələrdə eyni parta arxasında otursalar da, seminarlarda birlikdə iştirak etsələr də, Sahil adəti üzrə hər gün İncini yataqxanayacan

ötürsə də, aralarına qəfil girən bu incikliyin qarşısında aciz idilər. Nə baş vermişdi? Neçə ilin dostluğu nəyin güdazına gedirdi? Kim idi müqəssir? Bu suallar hər ikisinin rahatlığını pozsa da, münasibətlərini aydınlaşdırmağa heç biri ürək eləmirdi.

Günlər keçdikcə baş verənləri həm İnci, həm də Sahil bildikləri kimi dəyərləndirməyə başlamışdı. İnci özünə təlqin etmişdi ki, Sahil heç zaman ona qarşı səmimi olmayıb, bu sevgi nağılını İnci uydurub. Yarlı-yaraşıqlı Sahilin onun kimi cılız bir qızı sevməsi inandırıcı deyil. Əslində, bunun belə olduğunu ürəyi ona hər an pıçıldayırdı. İliklərinə qədər vurğun olan, sevgisi uğrunda hər cür fədakarlığa hazır olan biri kimi o, çox zaman hissə qapılaraq arzularını reallıq kimi qəbul etməli olurdu.

Ondan fərqli olaraq, Sahilə son vaxtlar elə gəlirdi ki, İnci ürəyində onun uğurlarına sevinmir. "Paxıllıq" sözünü o, fikrinə gətirməyə belə qorxurdu. "Mənə həsəd aparır", – deyə bəzən öz-özünə pıçıldayırdı. Bəzən İncinin gözlərindən süzülən soyuq ifadə onu belə düşünməyə vadar edirdi.

Bu qeyri-müəyyənlik özləri də hiss etmədən onları bir-birindən uzaqlaşdırırdı. Ancaq bir şey vardı ki, heç biri bu ayrılığı qəbul etmək istəmirdi. İki sevən insanın birdən-birə bu cür uzaqlaşmasından ağır nə ola bilərdi? Hər ikisi özünü günahkar hiss etsə də, heç biri ilk addım atmağa ürək eləmirdi. Digərinin onu başa düşməyəcəyi fikri hər ikisinə əzab verirdi.

Bir məsələdə fikirləri üst-üstə düşürdü: əvvəlki tək yaxın ola bilməyəcəkləri kimi, ayrı qalmağa da taqətləri çatmayacaqdı. Sevgi hər ikisinin ürəyində rişə salmışdı. Onu oradan qoparıb çıxarmağa heç birinin qüvvəsi çatmırdı.

Bir dəfə Sahilin mühazirə əvəzinə şeir yazdığını görən

İnci gözünün ucu ilə onun qarşısındakı vərəqə baxdı. Orada bir bənd yazılmışdı:

Sənə "get" söyləyim? Birdən gedərsən...
Gedişin yandırar, yaxar qəlbimi.
Sənə "qal" söyləyim? Birdən qalarsan...
Könlümü çalarsan bir kaman kimi.

Bu sözlərdə hər şey var idi: peşmanlıq, etiraf, nigaranlıq, həyəcan, qorxu. Onların içindəki sevgini hiss etməmək mümkün deyildi. İnci ürəyinə xoş bir duyğunun yayıldığını hiss etdi. Bu bir ay ərzində onu yetim uşaq kimi dünyadan küsdürən, hər şeydən soyudan Sahil yenidən içindəki köksövü alovlandırmışdı. "Sən məni unutsan, mən ölərəm, Sahil" deyə ürəyində pıçıldadı. Həmin hisslə şeirin ardını yazıb ona qaytardı:

Ürəyim "qal" deyir, dilim "get" sənə,
Getsən hicranına dözə bilərəm?
Çaşıb "getmə" desəm, inanma mənə,
Qalsan, vüsalından bezə bilərəm.

Sahil çoxdan belə sevinməmişdi. "Çoxdan" əslində zaman etibarı ilə bir o qədər də böyük vaxt deyildi. Onların incikliklərinin üstündən cəmi bir ay keçirdi. Amma bu, Sahildən ötrü olduqca böyük müddət idi: bir ay bir il qədər uzun çəkmişdi. Yanında oturan qaragöz qızdan bütün həyatının asılı olduğunu, onsuz bircə gün də yaşaya bilməyəcəyini öz-özünə etiraf etdi.

Həmin gün universitetdən çıxıb bir yerdə şəhərə gəzməyə yollandılar. Dəniz kənarında katerlə gəzintiyə çıxdılar, bulvarda attraksionlara mindilər, küçələri dolaşdılar. Sanki bir ayın ağrı-acısını canlarından bir gündə çıxarmağa çalışırdılar.

İnci Sahilə ilk dəfə öz ailəsindən danışdı. Onu tanıdığı bu

illər ərzində qız ilk dəfə ona bu barədə söhbət etdi:

– Uşaqlıqda anamı elə çox istəyirdim... Yadımdadır, bostandan qayıdanda içi dolu çantanı özüm götürərdim. Balaca, çəlimsiz boyum üçün çanta böyük olsa da, ayağıma dolaşsa da, onu anama verməzdim. Axşamlar anam paltar yuyanda suyu həyətimizdəki arxa özüm daşıyardım. Vedrə ağır olduğundan həyətin ortasında sudan bir az yerə tökərdim ki, yolun qalan hissəsində yüküm yüngül olsun. Gözümdən yuxu tökülə-tökülə anamın paltar yuyub qurtarmasını gözləyərdim. Qardaşım Adil anadan olanda mənim səkkiz yaşım var idi. Anam hər gün körpəni dalıma şəlləyər, deyərdi, get oyna. Mən küçədə oynayan uşaqlara kənardan tamaşa edərdim. Bu maraqlı tamaşanın arasında birdən belimdən aşağı su sızdığını hiss edərdim. Qaçıb evdə anama xəbər verəndə o, gülə-gülə "eybi yox, quruyar" deyərdi. Paltar əynimdəcə quruyardı.

Adilin iki yaşı tamam olanda Eldar doğuldu. Balaca İnci elə bil çoxdan böyümüşdü. Gecələr anamın bircə kəlməsi ilə yerimdən qalxar, soyuq otaqda büzüşə-büzüşə nöyüt lampasını yandırar, çay qızdırardım. Anam uşağın pal-paltarını dəyişər, onu yedizdirər, arıq və cılız İnci isə üşüyə-üşüyə otaqda vurnuxardı. Mən belə uşaq olmuşam. Amma anam qədrimi bilmədi, sevgimi qiymətləndirmədi, ürəyimə çalın-çarpaz dağ çəkdi. Öz xudpəsəndliyinə mənim uşaqlığımı qurban verdi.

Gözümü açandan onunla atamı daim dava-dalaşda görmüşəm. Atam Böyük Vətən müharibəsinin iştirakçısı idi. Bir il alman faşistlərinin əsir düşərgəsində olmuşdu. Orada keçirdiyi fiziki və mənəvi sarsıntılar onun əsəblərini pozmuşdu. Bəzən heç nədən özündən çıxır, hisslərini cilovlaya bilmirdi. Deyingən təbiətli anam isə onu sakitləşdirmək

əvəzinə qızışdırardı. Evimizdən həmişə söyüş səsi gəlib. Valideynlərim elə bil söyüş söyməkdə yarışırdılar. Mən çox vaxt onların səslərini eşitməmək üçün həyətimizdəki köhnə tikiliyə qaçar, qulaqlarımı bərk-bərk qapayardım. Amma nə qədər çalışsam da, bəzi səslər gəlib mənə çatar, az qala qulağımı deşərdi. Bunların mənə necə təsir etdiyini, ürəyimi necə yaraladığını, orada necə dərin şırımlar açdığını heç biri düşünməzdi.

Mən xasiyyətləri bu qədər bir-birinə uyğun gəlməyən başqa iki adam tanımıram. Valideynlərimin yanaşı oturub səmimi söhbət etdikləri yadıma düşmür. Qonşuda, qohum-əqrəbada səmimi ailələr görəndə paxıllıqdan gözlərim yaşarardı. Bizimkilər isə üç uşağı düşünmədilər. Məktəbi bitirən kimi Adil əsgərliyə getdi. Rusiyada hərbi xidmətini başa vurandan sonra daha geri dönmədi, evlənib orada qaldı. Eldar da eynilə onun kimi elədi. Mən onları heç vaxt qınamamışam. Yaxşı ki, vaxtında canlarını qurtardılar, çünki ailə qurub bizim evimizdə yaşaya bilməzdilər. Anamgillə yola getmək olardı?

Beləcə, zəhərlədilər bizim həyatımızı. Mən elə bilirdim ki, ömrümdə heç kəsi sevə bilmərəm. Elə zənn edirdim ki, sevgi hissim korşalıb. Onlar mənə heç vaxt heç kəsdən inciməməyi, heç kəsdən heç nə ummamağı öyrətdilər. Məndə özümə inamsızlıq yaratdılar. İndinin özündə də hərdən mənə elə gəlir ki, həyatda məndən eybəcər, məndən lazımsız adam yoxdur. Həmişə qəşəng paltarların, gözəl çiçəklərin, qiymətli hədiyyələrin mənim üçün olmadığını düşünmüşəm.

Nərgiz adlı bir rəfiqəm var idi, məndən dörd yaş böyük idi. Universitetə qəbul olduğum il onun toyu oldu, şəhərə köçdülər. Nərgiz hamilə olanda elə bil beş-altı uşaq anası idim. Ona hər gün baş çəkər, gəzməyə çıxarar, evdə kömək

edər, ad günlərində hədiyyələr alardım. Lakin o, mənim doğulduğum günü bilmirdi. Nərgiz dərzidir, özünə növbə-növ paltarlar tikir. Amma bir dəfə də olsun mənə nə isə tikməyib. Heç yadımdan çıxmaz, atam mənə çəhrayı rəngli don alan gün Nərgiz bizdə idi. Paltar elə xoşuna gəldi ki, onu geyinib güzgü qabağında fırlanmağa başladı. Ona çox yaraşdığını görüb o saat donu Nərgizə bağışladım. O, sevinclə donu məndən alıb getdi.

Mənim antonimim Məryəm də Nərgiz kimidir. İkimiz yanaşı yol gedəndə hamının ona baxdığını düşündüyündən fikri çaşır, yanında adam olduğunu unudur. Birdən dayanıb o yan-bu yana boylanır, yadına düşür ki, mən də varam. Düzünü axtarsan, dostlarımın hamısı xətrimi istəyib. Tez soyumaq mənim təbiətimdəndir. Dost bərkə-boşa düşər, büdrəyər, səhv edər. Mən isə həmişə böyük alov, böyük ürək, böyük məhəbbət arzulamışam. Mənim istəyim də, nifrətim də həmişə ifrat dərəcədə olur. Mənimçün orta həddyoxdur. Əgər sevirəmsə, bütün dünyanı unuduram. Başqa heç nəyin mənimçün əhəmiyyəti olmur.

Əslində, bir çox dostlarımdan soyumağımın bir səbəbi də sənsən, Sahil. Sən mənim üçün başqa planetdən, başqa aləmdən gəlmiş sirli bir məxluqsan. Mənim təmkinimə təəccüb etmirsənmi? Sənə deyilən hər sözdən için-için sızlayıram. Sənə zillənən hər baxışdan alovlanıram. Bu bir ayda dəli kimi olmuşdum. Sən universitetdən qızlarla bərabər çıxıb gedəndə evlərin dalında gizlənə-gizlənə sizi izləyirdim. Bu günlər özümə bir daha etiraf etmişəm. Mən hər şeyə dözə bilərəm, hər ağrını çəkə bilərəm, hər cür ayrılığa qatlaşa bilərəm. Bunlara gücüm də, iradəm də çatar. Təkcə sənin ayrılığına dözə bilmərəm. Sən varsansa, yanımdasansa, mən də varam. Sən olmayandan sonra mənimçün bu dünyada heç

nəyin əhəmiyyəti yoxdur.

İnci qəhərin boğazını acışdırdığını görüb susdu. Sahil deməyə söz tapmırdı. Eşitdikləri onu göyün yeddinci qatına qaldırmışdı. Çoxdan özünü belə xoşbəxt hiss etməmişdi. O, pencəyinin düymələrini açıb İncini köksünə sıxdı. Dənizdən əsən soyuq payız rüzgarı onları üşütmürdü. Əl-ayaq yığışmış sahil bağına bir-birinə sarılıb skamyada oturmuş bu iki gənc xoşbəxtlik gətirmişdi. Sahil İncinin saçlarını qoxlamaqdan doymurdu.

Onlar daha danışmırdılar, indi bu iki gəncin ürək sözlərini odlu dodaqları deyirdi. Sahil uzun kirpikləri ilə üzünü qıdıqlayan bu zərif qızın onun qəlbinə necə hakim olduğu, onsuz yaşaya bilməyəcəyi barədə düşünür, amma bu xoşbəxtliyin nədənsə sevincdən çox qüssə daddığını öz-özünə etiraf edirdi. İncinin də eyni hissləri keçirdiyindən xəbəri yox idi. Sahilə dəlicəsinə vurulduğu gündən qızın ürəyində gizli bir qorxu cücərirdi. Bu səadətin uzun sürməyəcəyi fikri vaxtsız qonaq kimi tez-tez onun rahatlığını əlindən alırdı.

İncini yataqxanaya yola salıb kirayədə qaldığı evə qayıdan Sahil yerinə uzanıb bayaqkı görüşü beynində təhlil etməyə başladı. Düşüncələrin yuxusunu qaçırdığını görəndə kitab şkafından ilk əlinə keçən kitabı götürdü. Arasından yerə dörd qatlanmış vərəq düşdü. Onu qaldıranda, İncinin məktubu olduğunu gördü.

Bu məktubu İnci bir neçə ay əvvəl, dördüncü kursu bitirib Qusara yay tətilinə yola düşəndə yazmışdı. Sahil onda ilk kitabını çap etdirmək üçün Gəncəyə getməyib şəhərdə qalmışdı. Məktubda yazılanları yaxşı xatırlayırdı. Bu, İncinin ilk məktubu olduğuna görə yadında qalmışdı. Onu alanda necə sevinmişdi! Məktubun arasından stolun üstünə düşən qurumuş çöl çiçəklərini dönə-dönə qoxlamış, sonra yazılanları

ruhuna çəkmişdi. Bu, doğrudan belə idi. O, İncinin hər məktubunu sadəcə oxumamış, qəlbinə hopdurmuşdu.

"Salam, Sahil!

Artıq dörd gündür evdəyəm. Uzun, darıxdırıcı dörd gün... Bu dörd gündə neçə dəfə kövrəlmişəm, neçə dəfə ürəyim səndən ötrü uçunub. Mənə nə olub? Niyə doğulub boya-başa çatdığım doğma evdə qərar tuta bilmirəm? Görəsən qarşıdakı altmış gün necə dözəcəyəm? Kaş buradakı qüssəli günlərimi sənə təsvir edə biləydim: bezdirici isti, yorucu ev işləri, üzücü tənhalıq. Bilirəm, soruşacaqsan ki, bəs atamla anam? Normal insan valideynlərinin yanında özünü normal hiss etməzmi? Haqlısan. Yazıqlar məndən ötrü əldən-ayaqdan gedirlər. Arıqlığım hər ikisinə dərd olub. Bilmirlər mənə necə qulluq eləsinlər. Mən onların yeganə ümid yeriyəm axı. Qardaşlarımdan ümidlərini üzüblər. Başa düşüblər ki, Adillə Eldar vətənə qayıtmayacaqlar. Əvvəllər bu fikri heç cür qəbul edə bilmirdilər, amma həyat insanı hər şeyə öyrədir: ən doğma, ən əziz insanların ayrılığına da.

Bura gələndən bir daha dərk etmişəm ki, mən hər şeyə dözə bilərəm, bircə sənin ayrılığına yox. Altmış gündən sonra səni yenidən görəcəyimə əmin olmasam, ürəyim dayanar.

Hər gün səni yuxuda görürəm. Ötən gecə də görmüşəm. Qoy o yuxunu sənə yazım. Guya bağdayam. Bir sarıköynək başımın üstündə cəh-cəh vurur. Birdən... kiminsə gülləsi quşu yerə sərir. Sonra ağacların arasından bir ovçu çıxıb onu yerdən qaldırmaq istəyəndə mən ondan cəld tərpənib quşa tərəf qaçıram. Bir də görürəm ki, yerdəki sarıköynək sənsən. Gözlərimdən yaş sel kimi axır. Quşu basdırıram. Ancaq birdən görürəm ki, baş daşına mənim adım yazılıb. Guya ölən mənəm. Gecə yarısı öz ağlamaq səsimə oyanmışam. Yuxunu yozmaq istəmirəm, bundan çox qorxuram. Birdən düşər-düşməzi olar.

Səni elə görmək istəyirəm... Görəsən bu ayrılığa dözə biləcəyəmmi? Bəs bir il sonra, universiteti bitirib hərəmiz bir yana gedəndə nə olacaq?"

Sahilin gözləri yaşardı. "İnci məndən ötrü əzab çəkəndə mən gizlincə kitabımı çapa hazırlayırdım. Oğru kimi, qorxa-qorxa... Niyə axı? Məni kim məcbur edirdi?" Birdən utandı, özündən zəhləsi getdi: "Bilsən sənin sevdiyin necə cılız adamdır, ona nifrət edərsən, İnci!" – deyə pıçıldadı və bu pıçıltıdan diksindi.

TƏYİNAT

İnci universiteti bitirib təyinatını Qusara aldı. Kafedra onu və Sahili institutda saxlamaq haqqında qərar çıxarsa da, İncinin aspiranturaya qəbul olunmasından ötrü vəsatət qaldırsa da, o, valideynlərinin təkliyini nəzərə alıb rayonu seçdi. Sahil üçün qızın bu gedişi olduqca ağrılı oldu. Ən gözəl xatirələri ilə bağlı olduğu, hər gün görməyə adət etdiyi bir adamdan birdən-birə, həm də sevə-sevə ayrılmaq çox çətin idi. Sahilin evlənmək təklifindən İnci bir neçə dəfə ustalıqla yayınmışdı. Son dəfə o, bu barədə söz salanda İnci:

– Kirayədə yaşayırsan, qazandığın da ki, qəpik-quruşdur. Nə tələsiklikdi? 23 yaşın yenicə tamam olub. Hələ bir az böyü, ərsəyə çat, – deyib onun sözünü zarafata salmışdı.

– Mən heç, mən gözləyərəm, sən qarıyacaqsan, – deyə Sahil də gülə-gülə cavab vermişdi. – Bizim tərəflərdə 23 yaşlı qız qarımış sayılır.

– Mənim 23 yaşım gələn il olacaq. Deməli, hələ bir ilim var. – İnci qəhqəhə çəkmiş, sonra isə qarşıdakı ayrılığın əzabını indidən çəkən Sahili sakitləşdirməyə çalışmışdı:

– Əslində ayrılıq ikimiz üçün də faydalıdır. Bir-birimizi

daha dərindən anlamaq, hisslərimizdən baş çıxarmaq imkanımız olacaq. Yaxınlıq bəzən uzaqlıq yaradır. Uzaqlıq isə əksinə, alov kimidir, külək zəifini söndürür, güclüsünü daha da gücləndirir.

İncini avtobusla rayona yola salıb qayıtdığı günü yaxşı xatırlayırdı. O gün Bakı ona o qədər soyuq, adamlar o qədər yad görünmüşdü ki, bundan ürəyi sıxılmışdı. İsti avqust axşamı nədənsə onu üşüdürdü. Özünə heç cür yer tapa bilmirdi. Yanından keçib gedən adamları görmür, ətrafdakı səs-küyü eşitmirdi. İncinin onun həyatında əvəzsiz rol oynadığını bütün varlığı ilə hiss edirdi.

Bu halı nə həmin gün, nə növbəti, nə də sonrakı günlər keçib getmədi. Nə ilə məşğul olsa da, əlini nəyə uzatsa da, xəyalında İncinin surəti canlanırdı. Ona bu qədər yaxından, bu qədər möhkəm bağlana biləcəyini ağlına gətirməmişdi. Yatsaydı, yuxusuna da girməzdi ki, bu dərəcədə ondan asılı ola bilər. Amma həqiqət belə idi. Bunu başqalarından gizlətməyə çalışsa da, özündən gizlədə bilməyəcəkdi.

Ayrılanda söz vermişdilər ki, darıxan kimi məktub yazacaqlar. İnci Baksovetdəki, Sahil isə Qusarın mərkəzindəki poçtun "Tələb olunanadək" şöbəsinə yazacaqdı. İncigilin evləri poçta yaxın idi, məktubları oradan götürəcəkdi.

Vədlərinə əməl edirdilər. Həftədə bir dəfə bir-birinə məktub yazmayanda, dözə bilmirdilər. Sahildən ötrü İncinin məktublarını oxumaqdan maraqlı heç nə yox idi. Onları gözəl bir nağıl, təsirli bir hekayə kimi oxuyurdu. Bir dəfə oxumaqla doymur, təkrar-təkrar onlara qayıdırdı. Məktubları nömrələməyi də unutmurdu, onları bir-birinin arxasına tikib, altdan aldığı tarixi də qeyd edirdi. Bu, sevimli məşğuliyyətinə çevrilmişdi.

İlk məktubu İnciyə o yazmışdı. İlk etiraf ona məxsus

idi. İncini yola salıb evə qayıdan kimi kağız-qələm çıxarıb ürəyini ora boşaltmışdı:

"Salam, əzizim İnci! Səni aparan avtobus avtovağzaldan aralananda elə bildim ki, ürəyim dayanacaq. Sənə necə bağlı olduğumu mən o ana qədər belə dərindən hiss etməmişdim. O vaxta kimi elə bilirdim ki, bu, adi məhəbbətdir, hamının başına gələn, insanları doğmalaşdıran, sonu evlənmək olan adi insani hisslərdir bizi yaxınlaşdıran. Amma abtobus tərpənəndə anladım ki, ayrılıb gedən tək sən deyilsən, ürəyimin bir parçası, varlığımın bir hissəsidir.

Mənim İncim! Mənim zərif, həssas, duyğulu, səmimi, mehriban dostum! Mənim qəribəm! Mənim sadəlövhüm! Mənim yeganəm! Sən məndən məsafəcə uzaqlaşdıqca, qəlbən mənə daha da yaxınlaşırdın. Sənin üzünün hər bir cizgisi, hər hərəkətin, hər sözün xəyalımda təkrar-təkrar canlanır, səni mənə daha da doğmalaşdırırdı. Heç bilmirəm bu ayrılığa dözə biləcəyəmmi? Sənsiz həyatımın nə qədər mənasız olduğunu bu günkü qədər heç zaman dərk etməmişəm. Qorxuram başıma hava gələ..."

Daha nələr yazdığını xatırlamırdı. Amma bircə o yadında idi ki, səhər tezdən məktubu götürüb poçta getmiş, sifarişlə yola salmışdı ki, ünvanına gecikmədən çatsın.

Cavab bir həftədən sonra gəlmişdi. Məktub gələnə kimi özünə yer tapa bilmirdi. Nə işləyə bilir, nə gözünə yuxu gedirdi. Nəhayət, cavab alanda onu həyata bağlayan həmin məktubu dönə-dönə öpüb bağrına basmışdı.

O vaxtdan İncinin məktubları onun üçün hava və su kimi idi. Onlarla yaşayır, onlarla nəfəs alırdı. Məktublarda yazılanları az qala əzbər bilirdi. Bəzən ona elə gəlirdi ki, İncinin özündən daha çox məktublarına bağlanıb. Bu məktublar onun ruhunun qidasına çevrilib. Onlardan təsəlli, yaşamaq

üçün güc, qüvvə alır.

İncinin yazdıqları başqalarının hal-əhval sorğularına bənzəmirdi. Bu məktublar İncinin özü kimi təkrarsız, qəribə idi.

İkinci məktub

"Salam, Sahilim! Salam mənim ayrılığım! Səni bir zamanlar burda qoyub getdiyim xatirələrimdə axtarıram, dostum! Bilirsənmi, rayonda böyümüş adamların çoxu üçün uşaqlıq xatirələri bir qayda olaraq, meşədə qıvrım saçlı ağacların arasında, sakit, əldən-ayaqdan uzaq bir yerdə öz gözəllikləri ilə adamı ovsunlayan təbiət lövhələri ilə bağlıdır. Uşaqlıqda adama elə gəlir ki, bu meşə həmişə olacaq, bu ağaclar daim bizi əhatə edəcək, bu təbiət bizə hər zaman sevinc bəxş edəcək. Amma illər keçdikcə ürək ağrısı ilə müşahidə etməyə başlayırıq ki, haçansa meşəyə yaxın, lap yaxın olan yol əvvəlkindən xeyli uzanıb. Bir vaxtlar sıx və keçilməz olan meşənin o başından qonşu kəndlərin evlərinin damları görünür.

Buraya gəldiyim gün ilk hiss etdiyim bu oldu. O günə kimi fikir verməmişdim ki, meşə evimizdən bu qədər uzaqlaşıb, oradakı ağaclar bu qədər seyrəlib. Meşədə gəzə-gəzə sənin indi məndən nə qədər uzaqda olduğunu düşünürdüm. Bu illər ərzində sənə olan bağlılığım mənə bu haqda düşünmək imkanı verməmişdi. İnana bilməzdim ki, bu, haçansa baş versin. Arzularım gerçəkliyə yer qoymamışdı. Amma indi dərk etməyə başlayıram ki, biz – insanlar əslində heç nəyi həll etmək gücünə malik deyilik. Bizim yerimizə hər şeyi Allah həll edir. Hə, əzizim, inanmaq istəyirəm ki, bizi ayıran Allah yenidən qovuşduracaq..."

Təyinat yerində – bir vaxtlar oxuduğu məktəbdə ədəbiyyat müəllimi işləməyə başlayan İnci özü ilə buraya yeni nəfəs, yeni ruh gətirmişdi. Daim uşaqların əhatəsində

olan bu gənc qızın məktəbdə əsl yaradıcılıq əhval-ruhiyyəsi yaratdığını müəllimlər də hiss etməyə başlamışdı. Gəldiyi bir aydan onun yaratdığı ədəbiyyat dərnəyi iyirmidən çox şagirdi birləşdirirdi. Uşaqların arzusu ilə tezliklə dram dərnəyi də yaradıldı.

İncinin universiteti bitirib evə qayıtması atası Fizəddinlə anası Düriyyəni çox sevindirirdi. Rusiyada yaşayan, vətənə ildə-ayda bir dəfə bir neçə günlüyə gələn oğullarından ümidlərini üzən bu iki ahıl insan bütün olan-qalan məhəbbətlərini İnciyə salmışdı. Son illər bir-biri ilə yarışırmış kimi tez-tez xəstələnən onların qəlbində İnci qayıdan gündən sanki yenidən həyat eşqi qaynamağa başlamışdı. Düriyyə əvvəlki həvəslə mətbəxdə lövbər salmışdı. Fizəddin isə evlərinin böyründəki dəmirçi budkasının qapısını yenidən açmışdı. Qonşular bunu görüb şad olmuşdular. Budkadan çəkic səsi eşidiləndə hamı rahatlıqla nəfəs alırdı. Şəhərdən fərqli olaraq rayonda belə idi. Birinin dərdi hamının dərdinə çevrilir, birinin sevinci hamının sevinci olurdu. İncinin qayıdışının valideynlərinə necə böyük təsəlli olduğunu görən qonum-qonşu ürəkdən sevinirdi.

Üçüncü məktub

"Salam, mənim Sahilim! Necəsən? Bu gün rayona qayıtmağımdan bir ay ötdü. Təsəvvür edirsənmi? Bir ay. Bir aydır səni görmürəm. Arada istəyirdim Bakıya gəlim, sənə surpriz edim, amma işin çoxluğundan vaxt tapıb gələ bilmədim. Burada az qala dustaq həyatı yaşayıram: evdən məktəbə, məktəbdən evə. Bunlardan başqa getməli yerim yoxdur. Nə mənim yanıma gələn var, nə də mən gedirəm. Bir adam yoxdur ki, onunla qəlb söhbəti edə bilim. Axşam işdən qayıtmaq mənim üçün elə ağır olur ki... Tək-tənha qaranlıq məhəllələrdən keçəndə özümü dünyada ən yalqız, ən kimsəsiz adam

kimi hiss edirəm. Bircə məktəbdə özümü normal hiss edirəm. Deyəsən şagirdlərimin etibarını qazanmağa nail olmuşam. Uşaqlardan biri dəftərlərimi götürür, biri mənə təbaşir gətirir, o biri jaketimi tutur. Sevimli şagirdlərim çoxdur, özləri də elə qəşəngdirlər ki... Burada mənim Sahilim də var. Eynən sənə oxşayır. Onun adını çəkə bilmirəm, o saat səsim titrəyir. Təsəvvür edirəm ki, sən uşaqlıqda eynən onun kimi olmusan".

Dördüncü məktub

"Mənim Sahilimi zorla əlimdən aldılar, o biri sinfə düşdü. İki gün sinfimdən getmək istəmirdi, axırda direktor gəlib zorla apardı. Bu gün mən öz sinfimdə dərs keçirdim, hava bürkü olduğuna görə otağın qapısını açıq qoymuşdum. Birdən gördüm ki, Sahil dəhlizdə dayanıb. Mən uşaqlara sual verəndə o da əlini qaldırır. Bunu görəndə məni gülmək tutdu, onu içəri dəvət etdim. "Burda neynirsən?" – deyə xəbər aldım. Cavab verdi ki, müəllimdən icazə alıb bayıra çıxıb. Sevinclə sinifdə oturdu, amma bir azdan onun yadına saldım ki, getmək vaxtıdır. Çox könülsüz getdi.

Məndən olsa, hər gün sənə məktub yazaram. Bütün günü fikrimdə səninlə söhbət edirəm. Ev işlərini könülsüz görürəm. İstədiyim odur ki, məni tərpətməsinlər, dindirməsinlər, xəlvət bir yerdə oturub gözlərimi yumum, səni düşünüm.

Rəfiqələrimin, tay-tuşlarımın hamısı ərə gedib. Bircə sinif yoldaşım Mahirə subay idi. Bir həftədən sonra onun da toyudur. Qonşuların gündə birinin evində toydur. Son vaxtlar rayonda qızları məktəbi bitirən kimi nişanlayırlar. Hər yanda toy əhval-ruhiyyəsi var, təkcə bizim evdə elə bil həyat dayanıb. Anamgil mənə baxıb gizlin-gizlin köks ötürür. Onlar məni qarımış hesab edirlər. Vaxtında məni ərə vermədiklərinə görə özlərini qınayırlar. Hə, əzizim, belə-belə işlər.

Hər gün təqvimə baxıram: bir də səni nə vaxt görəcəyəm? Mənim yeganə sevincim!"

Beləcə məktublaşa-məktublaşa ayları yola vermişdilər. Hər ikisi bu ayrılığa çətinliklə dözürdü. Mək-təblərdə yay tətili başlananda İnci bir həftəliyə Bakıya getməyi planlaşdırdı. Deyilən vaxta bir neçə gün qalmış Sahil telefonda ona işlədiyi elmi-tədqiqat institutunda kiçik elmi işçi yeri açıldığını, oraya namizədlər arasında İncinin adının da olduğunu bildirdi.

– Sənin kimi savadlı adam adi müəllim işləməməlidir. Sənin elmə xeyrin daha çox dəyə bilər, – deyə onu dilə tutdu.

– Bəs anamgil? Axı yaşlaşıblar, qayğılarına qalan bir adam olmalıdır, – deyə İnci qəti qərara gələ bilmirdi.

Bir dəfə necə oldusa, atasına bu təklif barədə danışdı. Fizəddin dərhal qızını tərəddüddən qurtardı:

– Sənə o cür yer təklif edirlər, sən isə hələ fikirləşirsən. Bizə görə özünü qurban verməyəcəksən ki! Get işlə, elmlə məşğul ol. Qoy bizim nəsildən də bir adlı-sanlı adam çıxsın. Biz də fəxr edək ki, qızımız alimdir.

– Ata, bəs sizə kim baxacaq?

– Sən tələbə olanda bizə kim baxırdı? Qocalıb əldən düşməmişik ki... Bir-birimizi yola verərik. Bizə görə sən elmi atmamalısan!

Atasının sözlərini anası da təsdiqlədi. O da qızının elmlə məşğul olmasını arzuladığını dedi. Həmin söhbətdən sonra İnci sevincindən quş olub uçmaq istəyirdi. Lakin onun getməsi xəbəri məktəbdə çoxunu pərişan etmişdi. Bir ilin içində o, burada az qala çevriliş etməyə nail olmuşdu. Yuxarı siniflərin şagirdləri ona bənzəməyə, ondan nümunə götürməyə çalışırdılar. İncinin dərsləri elə maraqlı, elə canlı keçirdi ki, müəllim yoldaşları növbə ilə gəlib açıq dərslərində

iştirak edirdilər.

Rayon təhsil şöbəsinin müdiri Əhməd Əhmədov onun uğurlarını eşidib məktəbə gəlmiş, İnci ilə yaxından tanış olmuşdu. Gedəndə "Sənin təcrübəni bütün məktəblərdə yayacağıq", – demişdi. Belə müəllimi əldən buraxmaq insafsızlıq olardı. Amma İnci qərarını vermişdi. O, universitetdə təhsil aldığı illərdən bəri maraqlandığı Dağıstan şairlərinin ləzgi və Azərbaycan dillərində yaradıcılığı ilə bağlı mövzu ətrafında elmi axtarışlar aparmaq arzusunu gerçəkləşdirmək istəyirdi. Həm də bu, ona Sahillə eyni şəhərdə, eyni institutda, eyni iş yerində çalışmaq imkanı verəcəkdi. Hər gün onu görəcək, səsini eşidəcək, varlığını duyacaqdı.

QƏFİL QƏRAR

Sentyabrın 1-də İnci Bakıda olmalı idi. Bundan ötrü bir neçə gün əvvəl şəhərə gedib kirayə ev axtarmaq qərarına gəldi. Xalası qızı Rüxsarə öz evinə yaxın məhəllədə, özü demiş, "Sovetskinin düz göbəyində" – Tolstoy küçəsində ona kirayə ev tapmışdı. Əslində Sovetskidə qalmaq onun öz arzusu idi, Sahilin qaldığı evə yaxın olmaq istəyirdi. İkinci mərtəbədə yerləşən, mebeli bir çarpayıdan, paltar şkafından, yazı stolundan, iki stuldan və qab-qacaq yığmaq üçün köhnə kamoddan ibarət olan bu balaca otaqda nə yerə döşəməyə palaz, nə də stolun üstünə sərməyə müşəmbə var idi, bunları özü almalı idi. Qaz sobası və əlüzyuyan dəhlizdə idi. Evin yeganə üstünlüyü iri pəncərəsi idi. "Evdə tapılacağam məgər?" – deyə ürəyində öz-özünə təskinlik verdi. "Axşama kimi işdə, sonra da kitabxanada və ya arxivdə olacağam. Evə ancaq yatmağa gələcəyəm".

Yol çantalarının içindəki pal-paltarı yerbəyer edib rahatlaşandan sonra dünən bazardan aldığı almaları ayrıca bir çantaya yığıb Sovetskinin o biri başına – Sahilin qaldığı məhəlləyə yola düşdü. Qarşıdakı görüşün təsiri ilə ürəyi uçunurdu. Sevinc qarışıq həyəcan bütün varlığını bürümüşdü. "Birdən evdə olmadı?" – deyə özündən soruşdu, o saat da sualına cavab verdi: "Səhər saat 11-də evdə olmayıb harda olacaq? Bu gün bazardır, indi evdə dincəlir".

İnci Sahilin onu görəndə nə hala düşəcəyini, necə sevinəcəyini təsəvvür edəndə ürəyi nanə yarpağı kimi əsirdi. O, getmir, uçurdu. Fərəhi köksünə sığmırdı. Düz bir il bu görüşün həsrəti ilə yaşamışdı. Bir il arzularının zirvəsi Sahili görmək, ona sarılmaq olmuşdu. İndi bu arzusu gerçəkləşəcəkdi. Özünə söz vermişdi ki, daha nişan söhbətini uzatmayacaq, Sahil ona bu təklifi edən kimi razılaşacaq. "Yoxsa doğrudan da qarıyıb evdə qala bilərəm", – deyə öz-özünə gülmüşdü. "Sahilin kirayədə qaldığı ev gen-boldur, həyəti də var. Orada rahatlıqla ikimiz yaşaya bilərik", – deyə fikirləşmişdi.

İnci yol boyu xəyalında Sahilin otağını bəzəyir, orada səliqə-sahman yaradırdı. "Nişanı gecikdirməyə dəyməz. Nişandan dərhal sonra toy çaldırarıq. Atamgil yox deməzlər, əksinə, sevinərlər, mən sarıdan ürəkləri arxayın olar".

Sahilin qaldığı evə çatanda ehtiyatla, səs salmadan həyətə girdi, oradan sol tərəfə, tut ağacının kölgəsindəki boz tikiliyə sarı addımladı. Onun iki pəncərəsi küçəyə açılırdı. Taxta arakəsmə tikilini yanındakı evlərdən ayırırdı.

Sahili evdə qəfil haqlayıb sevindirmək fikri ilə ayaq barmaqlarının ucunda açıq qapıya yaxınlaşan İnci içəridən səslər gəldiyini eşidib ayaq saxladı.

– Ay bala, bu gen dünyada o qara-qura qızdan başqa adam tapmadın? Maşallah, gözəl-göyçək, yaraşıqlı oğlansan, kimin

adını tutsan, oynaya-oynaya sənə gələr.

Yaşlı qadın səsindən onun Sahilin anası olduğunu anlamaq çətin deyildi.

– Ana, niyə elə deyirsən? Sən İnciyə mənim gözümlə bax.

– Oğlum, həyat uzundur. Ömür yoldaşı ömür boyu gözünün qabağında olacaq. Ona görə də elə bir qız seçməlisən ki, gələcəkdə ondan bezməyəsən, gözəlliyindən doymayasan.

– Gözəllik hər şey demək deyil, ana. Adam gərək onu başa düşən, anlayan biri ilə ailə qursun.

– Sahil, oğlum, məni yaxşı dinlə. Uzaqdan da olsa, İncini hamımız görmüşük. Amma onu nə atan, nə qardaşın, nə də bacıların bəyənib. Qohum-əqrəbada o qədər gözəl qızlar var ki! Sən onları qoyub tanımadığın rayondan, tanımadığın ailədən qız seçmisən. Özü də necə qız! Qaraca, sür-sümük...

İnci həyətdən necə çıxdığını, yolla necə yeridiyini, evə necə qayıtdığını bilmədi. Heysiyyatı təhqir olunmuş, qüruru tapdanmış qız düşünmək, nəticə çıxarmaq iqtidarında deyildi. Ayaqları onu apardığı kimi də geriyə qaytardı. Balaca, dar otağında çarpayıya uzanıb gözlərini tavana zilləyən İnci ümidsizliyin gətirdiyi kədərin içində çabalayır, xilas yolu axtarırdı. Sevdiyi, həsrətində olduğu gözəl Bakı bir illik ayrılıqdan sonra onu belə qarşılayırdı.

***

İncini kollektivə təqdim edən institutun direktoru Elxan Əlizadə onun savadına və zəhmətkeşliyinə güvəndiyini bildirdi. Axtarışlarının institutun fəaliyyətinə müsbət təsir edəcəyini qeyd edib, ona uğurlar dilədi.

Daha üç əməkdaşın bir yerdə oturduğu böyük otaqda İncinin masası qapının yanında idi. Bu, onun kefini əsla pozmadı. İndi belə əhəmiyyətsiz şeylər barədə düşünmək ona

gülməli gəlirdi.

Təntənəli hissə bitəndən, direktor gedəndən, şöbənin işçiləri öz yerlərini tutandan sonra Sahil İnciyə yaxınlaşıb onun əllərini ovuclarının içində sıxıb, otaqdakılar eşitməsin deyə pıçıltı ilə:

– Bilirsən sənin üçün necə darıxmışam? – dedi.

İnci əllərini geri çəkib soruşdu:

– Yaxşısanmı, Sahil?

Bu sözlərdən yayılan soyuğu Sahil o saat hiss etdi.

– Bir şey baş verməyib ki? – deyə narahatlıqla soruşdu.

– Hər şey yaxşıdır. – İnci ona etinasızlıqla cavab verib çantasındakı kağız-kuğuzu masanın üstünə yığmağa başladı. Bununla da özünün məşğul olduğunu göstərmək istədi.

Axşam iş vaxtı bitib, hamı evə gedəndən sonra Sahil otağa daxil oldu, stul çəkib İncinin böyründə oturdu.

– Bilsən sənin gəlişinə necə sevinirəm, bilsən yolunu necə gözləmişəm... Az qala saatları sayırdım. Darıxıb ölürdüm... İnan mənə... Nə yaxşı ki, gəldin.

Sahil İncinin əllərindən yapışdı. Barmaqlarının bumbuz olduğunu görüb onları nəfəsi ilə isitməyə çalışdı. Sahilin gözlərindən nigaranlıq, səbirsizlik, tələş yağırdı. İnci dinmir, cavab verib-verməmək haqqında düşünürdü. Bir hiss ona heç nə deməməyi diktə edir, başqa bir hiss isə hər şeyi olduğu kimi danışmağın vacib olduğunu deyirdi. İkinci hissinə qulaq asdı. Əllərini Sahilin ovuclarından çəkib dilləndi:

– Dünən sizə gəlmişdim.

Sahil təəccüblə ona baxıb nə isə demək istədi, İnci imkan vermədi:

– Qapının arxasından təsadüfən ananla söhbətini eşitdim. Bilirsən mən buna necə şadam? Nə yaxşı ki, həqiqəti öyrəndim. Bizim bir-birimizə yaraşmadığımızı çoxları deyib, biz

isə buna məhəl qoymamışıq. Amma ana zənni yanlış olmaz, ona qulaq asmamaq ədalətsizlikdir. Allahımdam razıyam ki, gözlərimi açdı. Sən doğmalarının əksinə hərəkət edib mənimlə evlənsəydin, bu, mənə böyük təhqir, sənə isə ömürlük qaxınc olardı.

Sahil üzünə qəfil şapalaq dəymiş adam kimi nə edəcəyini, nə deyəcəyini bilmir, heyrətlə İncini dinləyirdi. Nəhayət, qətiyyətini toplayıb dilləndi:

– İnci, sən mənim hisslərimə şübhə edirsən? Mənim sənə olan sevgimdən xəbəri olmayan varmı? Niyə xətrimə dəyirsən? Anamın dedikləri onun öz işidir. Xahiş edirəm, mənim fikrimə də hörmətlə yanaş. Bağça uşağı deyiləm ki, anamın dediyi ilə oturub durum.

– Biz səninlə nə Avropada yaşayırıq, nə də Amerikada. Biz tamam başqa cür dəyərlərə adət etmişik. Bizim üçün ailənin seçimi, doğmaların xeyir-duası önəmlidir. Məni başa düş, ailən bəyənmirsə, mən özümü güclə sənə sırıya bilmərəm. Bu gündən sonra bir də bu mövzuda danışmayaq. Mən bu izdivaca razı ola bilmərəm. Anana minnətdaram ki, mənim gözümü açdı, yoxsa məhəbbət məni kor etmişdi. Sənə xoşbəxtlik arzu edirəm. İndən belə biz səninlə ancaq iş yoldaşıyıq. Əvvəlki İnci daha yoxdur. Eşidirsənmi? Qarşındakı sənin həmkarın İnci Mehdiyevadır. Mən gedim, işim çoxdur.

İnci bunları birnəfəsə dedi. Sahil onu sözünü kəsmədən dinlədi. Sonra isə təəssüf dolu qəhərlə soruşdu:

– Nə demək istəyirsən?

İncinin cavabı gecikmədi:

– Mən qəti qərara gəlmişəm ki, səndən birdəfəlik ayrılım. Bu gündən, bu andan əvvəlki münasibətlərimizə nöqtə qoyuram.

– Nə dedin? – Sahil bunu elə soruşdu ki, öz səsindən özü qorxdu. – Sən də bu hava kimisən, gah tutulursan, gah açılırsan, gündə bir fikrə düşürsən, səni başa düşmək olmur.

– Mən əzablı bir vəziyyətdəyəm, Sahil. Dünəndən ürəyimdə bir-birinə zidd iki qüvvə döyüşür. Biri səni dəlicəsinə, ölüm ayağınacan sevir, o biri isə sənə nifrət edir. Onlar daim çarpışırlar, gah biri qalib gəlir, gah o biri. Mən ikiləşirəm, bu ikiləşmə məni öldürür. Mən hər ikisinə qalib gəlib üçüncü bir adam olmaq istəyirəm, çünki artıq ölçü hissimi itirmişəm. Bilmirəm yaxşı nədir, pis nə? Sevgi nədir, nifrət nə? Yalan nədir, doğru nə?

İnci bunları birnəfəsə dedi. Onun sarsıntısını, ürəyinin sızıltısını hiss edən Sahil də kövrəldi:

– Sən əminsənmi ki, ayrılıq yeganə çıxış yoludur?

– Hə, əminəm, özü də qəti. Bilirəm ki, bizim ayrılmağımız səni yuxudan ayıldacaq. Başa düşəcəksən ki, məni sevməkdə yanılmısan. Bizim bir-birimizə yaraşmadığımızı bircə sən qəbul edə bilmirdin. İnanıram ki, bir gün bunu sən özün də etiraf edəcəksən, ayrıldığımıza sevinəcəksən.

– Niyə belə sözlərlə ürəyimi yaralayırsan? Mən heç kəsi bu qədər sevməmişəm, heç kəs üçün belə yanmamışam. Səni unuda bilərəmmi? Yoxsa mənim sevgimə şübhə edirsən? – Sahil onu özünə sarı çəkdi. – Bəlkə səndə tilsim var?

İnci əlləri ilə onu özündən uzaqlaşdırıb soyuq təbəssümlə cavab verdi:

– Məndə tilsim olmasaydı, səni öz toruma sala bilərdimmi? Amma bir gün bu tilsim sınacaq, sən qarşındakının kim olduğunu bilib təəssüflənəcəksən.

– Bəs sən?

– Məni soruşma. Əslində məni sənə bağlayan sənin bağlılığın olub. Mənə qalsaydı, çoxdan səndən üz döndərərdim,

məni saxlayan sən olmusan. Həmişə deyərdin ki, mənsiz xoşbəxt ola bilməyəcəksən. Mən də bundan qorxurdum. Sənin fikir çəkməyini heç cür qəbul edə bilmirdim. Amma indi daha belə düşünmürəm. İndi dəyişmişəm, həyatı daha düzgün dərk etməyə başlamışam. Biz heç zaman bir yerdə ola bilmərik, heç zaman!

İnci bunları deyib, Sahilə dinməyə imkan vermədən, tələsik addımlarla otaqdan çıxdı. İnstitutun pilləkənlərini az qala qaça-qaça düşüb kitabxanaya səmt götürdü. İnnən belə onun dostu da, sirdaşı da, sevgilisi də ora olacaqdı.

İnci gedəndən sonra Sahil bir xeyli yerindəcə donub qaldı. Yalnız gözətçi Qədir dayı işıqları keçirmək üçün otağa girəndə tənbəl-tənbəl yerindən qalxdı. İnci onun qüruruna toxunmuş, qəlbini qırmışdı. Onun rəyini öyrənmədən, fikrini bilmək istəmədən özbaşına qərar çıxarmış, Sahili bir qoz qabığı qədər dəyərləndirmədən bildiyini etmişdi. Bunu bütün dərinliyi ilə dərk etdi. Bu dərketmə onu ağrıtdı. Bu ağrı ona pıçıldadı ki, dəyişmək, başqalaşmaq vaxtıdır. Özgə vaxt olsaydı, İncinin arxasınca qaçar, barışmayınca ondan əl çəkməzdi. Amma bu dəfə belə olmadı, qüruru üstün gəldi. İnciyə bərk acığı tutdu. Ürəyində "Qoy sən deyən olsun!" – deyib otaqdan çıxdı.

İnstitut binası qurtarıb park başlanan yerdə İnci qanrılıb geriyə baxdı: ətrafda ins-cins yox idi, Sahil onun arxasınca gəlmirdi. Pərtlik qarışmış peşmanlıq hissi ilə köksünü ötürüb parkdan çıxdı.

Ürəyinin hansısa guşəsində iynənin ucu boyda bir ümid var idi. Bu ümid Sahilin onun arxasınca gələcəyini, barışmaq üçün cəhd edəcəyini pıçıldayırdı. O, buna inanmaq istəyir, bunu arzulayırdı. Kim bilir, Sahil gəlsə, bəlkə də fikrini dəyişər. Amma yox, Sahil görünmürdü.

Birdən İnci nə boyda qəbahətə yol verdiyini, necə böyük səhv etdiyini bütün varlığı ilə hiss elədi. İldırım vurmuş adamlar kimi bu qəfil həyəcanın ağrısı vücudunu titrətdi. "Mən Sahilsiz yaşaya bilmərəm!" Bu fikir sanki onu ayıltdı. Gəldiyi yolu qaça-qaça geri qayıtdı. Lift işləmədiyindən pilləkənləri piyada qalxdı. Bu an qürur hissini tamamilə itirmişdi. Onun üçün bircə şey vacib idi: Sahilə çatmaq, onsuz yaşaya bilməyəcəyini etiraf etmək, dediyi acı sözlərə görə üzr istəmək. "Bu qədər ağılsızlıq olar? Səni sevən adamı heç nədən suçlayasan ki, nə var, nə var, anası nəsə deyib. Guya sabah anası ilə bir yerdə yaşayacaqsan. Hərə öz ömrünü yaşayır, ay ağılsız qız".

O, təngnəfəs halda beşinci mərtəbəyə qalxıb otağının qapısını açdı. İçəridə heç kəsin olmadığını görəndə sarsılıb divara söykəndi. Nə ağlamaq, nə də düşünmək iqtidarında deyildi. Dizləri qatlanıb yerə çökəndə "Hər şey bitdi!" – deyə öz-özünə pıçıldadı.

***

Ağır düşüncələrlə evə gedən, baş verənləri beynində götür-qoy edən, özünü döyülüb-söyülmüş uşaq kimi hiss edən, bu incikliyin təsiri ilə bütün gecəni dərin düşüncələr içində keçirən Sahil səhərə yaxın elə paltarlı halda yuxuya getdi.

Gözlərini günəşin yandırıcı şüaları qamaşdırıb oyananda artıq günörtadan ötmüşdü. Beyninin aydınlaşdığını, dünənki bədbin vəziyyətinin keçdiyini hiss edəndə sevindi. İncinin soyuq baxışları təzədən yadına düşdü. Onun sözləri təkrar-təkrar qulaqlarında səsləndi: "Bu gündən, bu andan əvvəlki münasibətlərimizə nöqtə qoyuram!" Dünən onu sarsıdan, ürək ağrısı verən bu sözlər bu gün təhqiramiz göründü. Onlarda qəribə bir özündən razılıq, özünü dartıb Sahili aşağılamaq istəyi hiss etdi. Dünən onu yandırıb-yaxan, ürəyinin

həzin tellərini titrədən həmin sözlər bu gün tamam ayrı cür təsir edirdi. Ona elə gəldi ki, İnci həmin sözləri deyəndə üzündə biganəlik, laqeydlik ifadəsi donub qalmışdı.

"Məni rədd etdi. Mənim fikrimə məhəl qoymadan öz qərarını verdi. Bunu belə asanlıqla edə bildisə, deməli İncininki məhəbbət deyildi, adicə öyrəşmə idi. Sən bir bundakı iddiaya bax, özündən müştəbehliyə bax! Demək istəyir ki, istəsəm sevərəm, istəməsəm yox! Deməli biz bu qədər dəyərsiz olduq! Hə, Sahil, sənə bu da azdır. Layiq olduğun qiyməti aldın, al payını!"

Düşüncələrinin bu məcraya yönəlməsi Sahili sevindirdi. "Qoy o deyən kimi olsun. Yollarımızın vaxtında ayrılması hər ikimiz üçün yaxşı olar. Özünü qoyub dağın başına, guya bundan yoxdur. Bir gözəlliyi olsaydı, dərd yarı idi. Anam demiş, cüllütə oxşayır".

Qüruruna toxunulmuş Sahilin ürəyində təzadlı fikirlər bir-biri ilə çarpışırdı. Bunlar inciklik və qəzəb idi. Hansının o birini sıxışdırıb aradan çıxaracağını zaman göstərəcəkdi.

"O, mənliyimi alçaltdı!" Bu fikrin verdiyi əzab bir başqa idi. Birdən Nizaminin misraları yadına düşdü: "Sev səni sevəni, yer ilə yeksan olsa da, Sevmə səni sevməyəni, Misirdə sultan olsa da". Bu misralar ona qəribə bir qətiyyət gətirdi. "Sən məndən ayrılmaq istədin. Baxaq görək, bizdən kim peşman olacaq: sən, yoxsa mən".

İncidən ayrılmağın ondan ötrü çətin olmayacağını sövq-təbii olaraq hiss etdi.

Ertəsi gün nahar fasiləsi zamanı institutun dəhlizində rastlaşan İnci ilə Sahil dilucu salamlaşıb, bir-biri ilə hal-əhval tutmadan ötüb keçəndə hərə özlüyündə digərinin baxışlarının soyuq olduğunu yəqin etdi. İnci ətrafındakılar doluxsunduğunu hiss etməsin deyə yeməkxanada nahar etməkdən vaz

keçərək, otağına döndü. İş yoldaşları yemək yeyib qayıdana kimi burada, sakitlikdə özünə gələ biləcəkdi.

Sahil isə İnciyə qarşı dünəndən ürəyində baş qaldıran fərqli hisslərin keçib getmədiyinə sevindi. İncini görəndə əvvəlki kimi ərimədiyinə görə özündən razı qaldı. Öz-özünə etiraf etdi ki, əslində, bu soyuqluğun bünövrəsi İncinin özünü haqlı, Sahili haqsız saydığı vaxtdan qoyulub. Burnunu hər yerə soxan, özünü hamıdan savadlı göstərməyə çalışan bu qız onun qanını az qaraltmamışdı. Özünü daim haqlı, Sahili isə günahkar kimi qələmə verməyə cəhd göstərməsi yadından çıxmamışdı.

Sahili ən çox hirsləndirən İncinin özünü Həbib müəllimin müdafiəçisi kimi aparması idi. Neçə ilin dostu, sirdaşı olan Sahilin deyil, həyatdan köçmüş bir qocanın maraqlarını güdməsi onu cinləndirirdi. "Beləsinə necə güvənəsən? Onunla ailə qurmaq, həyatını etibar etmək olarmı? Səni yarı yolda qoymazmı?" Sahilin ürəyinin dərinliyində çoxdan bir qorxu cücərirdi. İnci ona əl-qol atmağa, Həbib müəllimin arxivindən gen-bol faydalanmağa imkan verməyəcəkdi. Allahın öz əli ilə ona uzatdığı ruzini bu qız kəsmək istəyəcəkdi. Buna isə imkan vermək olmazdı.

Bütün bunları götür-qoy edən Sahil ayrılığa sevinirdi. Həyatın yol ayrıcında dayanmış bu savadlı və istedadlı gənci indi çoxlu həmyaşıdları kimi bircə şey maraqlandırırdı: vəzifə və şöhrət. Bunun isə qurbanlar tələb etdiyini yaxşı bilirdi. Birinci qurban İnci və ona olan məhəbbəti idi.

***

Günlər həftələrə, həftələr aylara calanırdı. İnstitutda həyat öz axarı ilə gedirdi. İnci ilə Sahil küsülü olmasalar da, salamlaşmaqdan başqa heç bir əlaqə saxlamırdılar. Onlar

rastlaşmamağa, üz-üzə gəlməməyə cəhd edirdilər. Get-gedə hər ikisi bu vəziyyətə öyrəşməyə başlamışdı. Sanki aralarında neçə ilin dostluğu, böyük məhəbbət yerli-dibli olmamışdı. Onlar işlə bağlı da bir-birinə müraciət etməməyə çalışırdılar.

Yadların doğmalaşmasında qəribə heç nə yoxdur. Lakin doğmaların yadlaşması qədər acı və əzablı nə isə təsəvvür etmək çətindir. İkisi də başa düşürdü ki, hər yeni gün onları sürətlə bir-birindən uzaqlaşdıracaq, tezliklə iki yada çevriləcəklər.

Bir dəfə axşam kitabxanadan çıxıb üzbəüzdəki bağdan keçən İncinin qulağına tanış səs gəldi. Diksinib səs gələn tərəfə baxanda Sahilin bir qızla söhbət etdiyini gördü. Yanındakı yemişan kolunun arxasında gizlənib onları izləməkdən özünü saxlaya bilmədi. Kiminsə onu görə biləcəyindən utanıb xəcalət çəksə də, oğru kimi bu cütlüyə diqqət kəsildi. Sahillə söhbət edən qızın gözəl olduğu diqqətindən yayınmadı. Ağbəniz, ucaboy olması, Sahilə yaraşdığı fikrini cəlb etdi. Onlar nədənsə danışır, arabir gülüşürdülər. Birdən qız üzünü çevirəndə İnci onun Zümrüd Hacızadə olduğunu gördü. Qızın Sahilin qoluna girdiyini, onların bağın içinə sarı getdiklərini kədərlə seyr etdi.

İnci ürəyindəki ağrını boğmaq üçün əks istiqamətə, metro tərəfə addımladı. "Özün bunu arzulamırdınmı?" – deyə öz-özünü tənbeh etməkdən başqa ayrı şeyə gücü çatmadı. Sahilin öz kitabına Zümrüd Hacızadəni niyə redaktor seçdiyi ona indi aydın oldu. Onlar elə məhrəmanə söhbət edirdilər ki, belə münasibətin qısa vaxtda yarandığına inanmaq çətin idi. "Həyatı olduğu kimi, bütün həqiqətləri ilə qəbul etmək lazımdır" – deyə İnci Sahildən ayrılmaqda haqlı olduğunu ilk dəfə ürəyində etiraf etdi.

QİSAS

Bir il hiss olunmadan keçdi. Bir gün Elxan Əlizadə İncini yanına çağırıb dedi:

– Səni şöbə müdiri təyin etmək istəyirəm.

Gözlənilməz təklifdən özünü itirən İnci soruşdu:

– Məndən nə tələb olunur?

Elxan müəllim güldü:

– Heç nə! Zəhmətkeşliyinə söz yoxdur, intizamlılığına da. Savadın da ki, hamıya məlumdur. Sənin üçün bir aylıq sınaq müddəti təyin etmişik. Sınaqdan çıxsan, əmrini verəcəyəm.

Eşitdiyi xəbər İncini sevindirdi. Zəhmətinin qiymətləndirilməsi onun üçün kiçik də olsa təsəlli idi.

Həmin söhbətdən iki həftə sonra Elxan müəllim İncinin rəy almaqdan ötrü ona verdiyi elmi məqaləni qaytararaq, orada çoxlu üslub səhvlərinə yol verildiyini, ondan belə zəif yazı gözləmədiyini sərt, bir qədər də kobud şəkildə qızın diqqətinə çatdırdı. Adətən onun yazdıqlarını tərifləyən Elxan müəllimin bu dəfə acıqla qaytardığı məqaləni gözdən keçirən İnci heç nə başa düşə bilmədi. "Üslub səhvi" kimi qabardılan, altından qırmızı qələmlə xətt çəkilən sözləri dönə-dönə nəzərdən keçirdi, amma onlarda ciddi qüsur tapmadı.

İki gün sonra Elxan müəllim onu yanına çağırıb minimum imtahanlarını niyə vaxtında vermədiyini xəbər aldı.

– İşimin çoxluğundan çatdıra bilmədim, – deyə İnci cavab verdi.

– Necə yəni çatdıra bilmədin? Sənin minimumları verməkdən vacib işin olmamalıdır. İlin sonunadək bir imtahanın da qalmamalıdır! – deyə Elxan müəllim sərt halda bildirdi.

Otaqdan çıxan İncinin arxasınca:

– Son vaxtlar səndən narazılıq edirlər, diqqətsiz olmusan, – dedi.

İnci rəhbərliyin ona qarşı münasibətinin qəfil dəyişməsinin səbəbini anlaya bilmədi.

Bir ay sonra institutun dəhlizindəki elanlar lövhəsinə yapışdırılmış əmrdən şöbəyə onun yox, Sahilin müdir təyin olunduğunu biləndə pərt oldu. Bütün günü qanı qara oldu. Şöhrətpərəstliklə xudpəsəndlik ona tamamilə yad hisslər idi. Ona qalsaydı, şöbə müdiri olmaq ömründə ağlına gəlməzdi. Əslində elmi işçi ilə şöbə müdirinin maaşları arasında cüzi fərq var idi. Şöbə müdirinə tabe olan əməkdaşların sayı cəmi-cümlətanı üç nəfər idi. Onu pərt edən Elxan müəllimin ona şöbə müdiri yerinə namizəd olduğunu şəxsən bildirib, sonra xəbərdarlıq belə etmədən başqasını həmin vəzifəyə təyin etməsi idi. Bu başqası isə Sahil idi.

Axşam evə getmək üçün yazı-pozularını səliqəyə salanda institutun kargüzarı, hamının "bibi" adlandırdığı Gülnisə xanım içəri girdi. Mehriban xasiyyəti, xoş rəftarı ilə kollektivin hörmətini qazanmış bu yaşlı qadın institutda işə düzəldiyi gündən İnciyə bağlanmışdı. Sadəliyi və səmimiyyəti ilə çoxlarından seçilən bu qızla gündə beş-altı kəlmə kəsməyəndə darıxırdı. İndi də onun kefini xəbər almaq üçün gəlmişdi.

– Qıza, yaxşısan? – Bu sualı Gülnisə xanım özünəməxsus tərzdə elə verdi ki, İnci onun üzündən "bilirəm ki, kefinə soğan doğrayıblar" cavabını oxudu. Çiyinlərini çəkib cavab vermədi.

– Qıza, sənə bir şey verəcəyəm, amma qoy heç kəs bil-məsin. – Şirin talış ləhcəsində bu sözləri deyib, İnciyə sancaqlanmış vərəqlər uzatdı. İnci öz məqaləsini o saat tanıdı.

“Ləzgi Əhmədin yaradıcılığı” adlı məqalə başdan-başa redaktə olunmuşdu: daha doğrusu, şumlanmışdı. Kotan onun hər sözündə, hər cümləsində şırımlar açmışdı. Fikirlər saxlanmaqla cümlələrin deyiliş tərzi, sinonim sözlərin işlədilməsi dəyişdirilmişdi.

– Qıza, eşit, xəbərin olsun. Sənin Akademiyanın jurnalı üçün hazırladığın üç məqaləni də Sahil bu hala salıb Elxan müəllimə verib. Haqqında mənfi rəy yaradıb. Çalışırdı ki, səni yox, onu şöbə müdiri qoysunlar. Axır ki, istədiyinə nail oldu. Dedim ki, biləsən. Yoxsa sadəlövh adamsan, kim nə desə, ona da inanırsan.

İnci daha onu eşitmirdi. İnstitut direktorunun dərkənarı olmadan elmi jurnalda məqalə dərc etdirmək olmazdı. Elxan müəllimin onun məqalələrini niyə gecikdirdiyi ona indi məlum oldu. Məqaləsinin üstündə gəzən xəttin Sahilə məxsus olduğunu bilmək çətin deyildi. Bu xətti onun qədər tanıyan var idimi? Gecələr yuxusunu, gündüzlər rahatlığını əlindən alan məgər bu xəttlə yazılmış məktublar deyildimi? Onu dünyada heç nə ilə səhv sala bilməzdi.

O, məqaləyə baxır, amma heç nə görmürdü. Gülnisə xanım sözünü deyib qurtaranda İnci əzələlərinin boşaldığını, müvazinətinin itdiyini hiss etdi. Balıq kimi sürüşüb stolun altına yıxılmağından xəbəri olmadı. Gözlərini açanda başının üstündə dayanmış ağ xalatlı həkim ona dedi:

– Bu qədər işləmək olmaz. Gör saat neçədir...

Divardakı saat səkkizi göstərirdi. Gülnisə xanım İncinin başını barmaqları ilə ovuşdurur, ona özünə gəlməkdə kömək edirdi.

– Narahat olmayın, qorxulu heç nə yoxdur, adi yorğunluqdur, – deyə ağ xalatlı qadınlardan biri İncini mehribanlıqla

süzdü.

Bir azdan həkimlər çıxıb getdilər. Gülnisə xanım günahkarcasına dedi:

– Bilsəydim ki, bu xəbər sənə belə təsir edəcək, deməzdim. Sadəcə istədim yaxşılıq edim.

İnci onu qucaqlayıb sakitləşdirdi:

– Elə demə, bibi, əksinə, sənə çox minnətdaram. Sağ ol ki, məni ayıltdın. Yoxsa bu məsələ mənim üçün sirr olaraq qalacaqdı. Tək bu yox, çox şey mənə aydın oldu. Bunun üçün sənə borcluyam. Yaxşı ki, bu halımı kimsə görmədi. Yoxsa hərə bir söz deyəcəkdi. Elə biləcəkdilər ki, paxıllıqdan ürəyim gedib.

Qaranlıq küçələrlə evə qayıdan İnci keçirdiyi sarsıntıdan hələ də özünə gəlməmişdi. O, dünyada hər şeyə inanardı, bircə Sahilin satqınlıq edə biləcəyinə, vəzifə naminə belə ucuz vasitəyə əl ata biləcəyinə yox. Bu, ağlabatmaz şey idi. Yatsa, yuxusuna belə girməzdi ki, həyatında belə bir hadisə baş verə bilər. Güvəndiyi, çox sevdiyi bir insanın belə xəyanətə yol verə biləcəyi onun üçün ağlasığmaz bir şey idi.

"Sahil niyə belə iyrənc üsula əl atsın axı? Məni savadsız kimi qələmə vermək, gözdən salmaq mütləq lazım idimi?" – İnci heç cür öz suallarına cavab tapa bilmirdi. Birdən ağlına gələn fikirdən sarsıldı. Sahil bu yolla ondan qisas alırdı. Məhəbbətdən nifrətə bir addım imiş.

Bu barədə o, heç kəsə heç nə demədi. Sahilə də bunu hiss etdirmədi. İncinin bunu bilməsindən onun xəbəri olmamalı idi.

***

– Bu gün bütün həyatını arxivlərdə keçirmiş tanınmış ədəbiyyatşünas, ömrünü başdan-başa xalqına həsr etmiş

böyük ziyalı Həbib Zöhrabbəyovun anım günüdür...

Radio dalğalarından gələn səs onu silkələdi. Diktora qulaq kəsildi. Yaşlaşıb taqətdən düşmüş iş yoldaşı, institutun kiçik elmi işçisi Həbib Zöhrabbəyovun pəjmürdə görkəmi gözləri qarşısında canlandı. Nədənsə onu yalnız belə xatırlayırdı. Yaxından tanıdığı, həmsöhbət olduğu, məsləhətlərini dinlədiyi Həbib müəllim son dəfə onun otağına girəndə yorğun, üzgün halda idi. Nimdaş kostyumunun bir düyməsi qopmuşdu. Köynəyinin yaxasının çirki aydın görünürdü. O, yaşarmış gözlərini tez-tez yaylığı ilə silirdi. Həmin gün elə kədərli idi ki, İnci ona sual verməkdən özünü saxlaya bilməmişdi:

– Sizə nə olub, Həbib müəllim? Nə baş verib? Bəlkə bir yeriniz ağrıyır?

– İçim yanır, – deyə qoca ah çəkmişdi. – Özümə yer tapa bilmirəm. Ömrümü arxivlərdə keçirdim. Yazı-pozu əlindən evə, ailəyə fikir verə bilmədim. On ildir arvadım dünyadan köçüb. O yazığa ehtiyacdan başqa bir şey yaşada bilmədim. Varım-yoxum bir qızım var, o da ki, hissiz, duyğusuz böyüdü. Ailə qursaydı, dərdim olmazdı. Bu gün sabah 40 yaşı olacaq. Sən məni doğma balamdan daha yaxşı anlayırsan, – deyə qoca kövrəlmişdi.

İnci yerindən qalxıb onun boynunu qucaqlamış, təsəlli vermişdi:

– Bu institutda çalışanların hamısı sizin övladlarınızdır, Həbib müəllim. Biz hamımız sizin öyüd-nəsihətlərinizdən faydalanmışıq. Hamımız sizə borcluyuq.

Amma Həbib müəllimin kövrəkliyi keçib getməmişdi.

– Məni yandıran bilirsənmi nədir? Arxivlərdən tapdığım qiymətli sənədlər. Məndən sonra onlara kim yiyəlik edəcək?

– deyə kişi qəhərlənmişdi. Sonra isə sözünə davam etmişdi:

– Adam cavan olanda həyatın müvəqqəti olduğunu, qocalığın bir gün hamının qapısını döyəcəyini, ölümün gözlə qaş arasında olduğunu ağlına da gətirmir. Özünü elə aparır, elə yaşayır ki, sanki heç vaxt ölməyəcək. Bir də onda ayılır ki, görmək istədiyi işlərin çoxu yarımçıqdır, həyata keçməyən arzuları qalıb. İşlərini sahmanlamaq üçün Allahdan möhlət istəyir. Allah isə deyir ki, mən sənə uzun bir ömür verdim, amma sən onun qədrini bilmədin. Sənə çoxlu vaxt verdim, sən ondan düzgün istifadə etmədin. İndi alacağın cüzi ömür payı sənə nə verəcək?

Otağa kənar şəxslər daxil olmuş, onların söhbəti yarımçıq qalmışdı. Həbib müəllim İnciyə:

– Sonra söhbət edərik, – deyib otaqdan çıxmışdı. Bir azdan Həbib müəllimin otağına gedən İnciyə onun evə getdiyini xəbər vermişdilər. Həmin gecə kişi vəfat etmişdi.

Qırxı çıxan günün səhəri onun qızı Dilarə İnciyə zəng çalmış, atasının arxivlərini satmaq istədiyini bildirmişdi:

– Rəhmətlik atam sənin xətrini çox istəyirdi. Evdə tez-tez səndən söz salar, savadlı və zəhmətkeş olduğunu deyərdi. Arxivini sənə bağışlayacaqdı, amma buna vaxtı çatmadı. Mən isə belə hesab edirəm ki, onun uzun illər boyu arxivlərdə udduğu tozun müqabilində övladı kimi mənə cüzi də olsa kompensasiya çatmalıdır.

– Atanızın arxivini instituta təhvil versəniz yaxşı olmazmı? Axı Həbib müəllimin ömrünün əlli ili bura ilə bağlıdır.

– Heç vaxt! İnstitut ona nə verdi ki? Ömrü yarıac, yarıtox keçdi. Nə özü bir gün gördü, nə də anamla mənə bir gün ağladı. İndi arxivini satıb heç olmasa borclarımı ödəyərəm. Bu, daha ədalətli olar. – Dilarə bunları ona qətiyyətlə demişdi.

İnci həmin gün onun sözlərini olduğu kimi Sahilə çatdırmışdı. Başqa kimə deyəydi? Aralarında yaranmış böyük soyuqluğa baxmayaraq, bu xəbəri Sahilə deməyi özünə borc saymışdı. Sahil əvvəl buna əhəmiyyət verməmiş, amma Həbib müəllimin uzun illik zəhmətinin bir qədirsizin əlinə keçib zay olacağından ehtiyatlanıb Dilarə ilə sövdələşməyin vacibliyini İnciyə anlatmışdı.

İki gün sonra onlar Həbib müəllimgilə gedib, orada üçlükdə söhbət edəndən sonra Dilarə onları atasının kitabxanasına – başdan-başa taxta rəflərə yığılmış kitablardan və qovluqlardan ibarət böyük otağa aparmışdı. İnci ilə Sahilin böyük maraqla qovluqları vərəqlədiyini görəndə Dilarə onları burada qoyub işə getmişdi. Bu qovluqlarda ədəbiyyat aləminə məlum olmayan xeyli qiymətli material var idi. Ərəb və fars mənbələrindən tərcümə etdiyi maraqlı sənədləri Həbib müəllim səliqə ilə ağ vərəqlərə köçürmüş, istifadə etdiyi mənbələri dəqiqliklə qeyd etmişdi. XV-XX əsrlərdə yazıb-yaratmış Dağıstan müəlliflərinin nadir əlyazmaları, Axtı, Qurah və Dərbənd cünglərindən tapılmış müxtəlif şairlərə məxsus şeirlərin yığıldığı qovluqlar səliqə ilə nömrələnmişdi.

Onlar Dilarə işdən qayıdana kimi qovluqları vərəqləmişdilər.

Sahil coşub-daşan sevincini gizlədə bilmirdi:

– Bu arxivlər bizim ikimizə də...

İnci onun nə demək istədiyini dərhal anlamışdı:

– Nə danışırsan, Sahil? Həbib müəllimin zəhmətinə şərik çıxmaq istəyirsən? Yazıq gör neçə illər boyu onları axtarıb tapıb.

– Tapmaq şərt deyil, şərt bu qiymətli materialları cəmiy-

yətə çatdırmaq, onları ümumxalq malı etməkdir, – deyə Sahil onu inandırmağa çalışmışdı.

– Həbib müəllim istəsəydi, özü çoxdan bu işin arxasınca gedərdi. – İnci onunla razılaşmamışdı.

– O, elm adamı deyildi, ərəb və fars dillərini bildiyinə görə onları tərcümə edirdi, – Sahil belə deyib, İnciyə qəti qərarını bildirmişdi. – Bilirsən nə var? Gəl səninlə bir az pul tapaq, Dilarədən qovluqları satın alaq. Sonra da yavaş-yavaş onların əsasında elmi araşdırmalara başlayaq. Burda ikimiz üçün də həm namizədlik, həm də doktorluq dissertasiyaları müdafiə etməkdən ötrü mövzular var.

İnci qulaqlarına inanmamışdı:

– Allah bunu götürərmi? Yazıq Həbib müəllimin əziyyətlərini necə mənimsəmək olar? Yox, yox, mən ömrümdə buna razı ola bilmərəm. Haram mal adamın boğazında qalar. – İnci bunları incik tərzdə demiş, sonra isə əlavə etmişdi: – Bu, ədalətsizlik olar, mən belə şeyə heç vaxt, heç bir vəchlə qol qoya bilmərəm. Bunu sənə də rəva görmürəm.

– Yaxşı, bəs sən nə təklif edirsən? – Sahil pərt olmuşdu.

– Mən təklif edirəm ki, Həbib müəllimin arxivindəki sənədlərin siyahısını tutaq, bu barədə sanballı bir məqalə hazırlayaq. Sonra da institut rəhbərliyi qarşısında məsələ qaldıraq ki, onun ərəb və fars qaynaqlarından etdiyi tərcümələrdən ibarət kitablarını çap etsin. Məncə bu, düzgün qərar olar.

– Sənin bu qədər sadəlövh olduğunu bilməzdim. İnsanlar elmi axtarışlar aparmaq üçün illər boyu mövzular axtarırlar, sən isə öz ayağı ilə gəlib səni tapmış mövzuları əldən vermək istəyirsən. Yeməyənin malını yeyərlər, biz almasaq, bir də gördün, Dilarə arxivləri Yadigar kimi birisinə satdı. Onda necə olsun?

– Mən demirəm ki, Həbib müəllimin arxiv materialları üzərində işləməyək. Amma bundan institut rəhbərliyinin, bütün kollektivin xəbəri olmalıdır. Yalan ayaq tutar, yeriməz, deyiblər. Onsuz da həqiqət əvvəl-axır üzə çıxacaq. Yaxşısı budur, mən deyən kimi edək.

Dilarə onlara arxivlərin qiymətini deyəndə hər ikisi çaşıb qalmışdı. 6 min manatdan bircə qəpik də aşağı düşməyəcəyini bildirən Dilarə İnci ilə Sahilə fikirləşmək üçün bir həftə vaxt vermişdi. "Arxivlərin sorağı ilə gəlib-gedən çoxdur. Elə sizin institutdan da neçəsi gəlmişdi. Siz almasanız, başqalarına qismət olacaq", – deyib onları yola salmışdı.

– Hərəmiz 3 min manat pul tapsaq, bu məsələ asanlıqla həll olar, – deyə Sahil ona fikrini bildirmişdi. Həmin gün də, növbəti günlər də İnci ilə Sahilin arasında Həbib müəllimin arxivləri ilə bağlı mübahisə çox olmuşdu. Altı min manat kiçik məbləğ deyildi. Onu tapmağın çətin olduğunu bilən İnci bu işdən soyumuşdu. Sahil isə həmin gündən xeyli dəyişmişdi.

Arxivlərin əllərindən çıxacağından ehtiyat edən, həm də İncinin bu sahədə ona dəstək olmayacağını anlayan Sahil, Dilarə ilə xəlvətcə görüşmüş, ona iki min manat beh verərək, yerdə qalan məbləği ödəməkdən ötrü bir həftə vaxt istəmişdi. Sonra isə Gəncəyə gedib anasını dilə tutmuşdu ki, nənəsindən qalma iri brilyant qaşlı qədim üzüyünü satsın. Qadın gecə-gündüz yazı-pozu içində eşələnən oğlunun xahişini yerə salmamış, üzüyü satıb pulunu ona vermişdi. Sahil qalan məbləği də ödəyib, arxivləri Dilarədən təhvil alaraq evinə daşımış, işdən icazə alıb bir həftə ərzində onları yerbəyer etməklə məşğul olmuşdu.

İnci bunlardan xəbərsiz idi. Valideynlərindən hal-əhval

tutmaq üçün rayona gedib bir həftə sonra oradan qayıdanda qovluqları xəbər almış, lakin Sahilin söhbətdən yayındığını görüb daha üstünü vurmamış, bu mövzuya qayıtmamışdı.

Həmin hadisədən üç ay sonra qəzetlərin birində Sahil Hüseynovun imzası ilə çap olunmuş "Nazim Axtılının yaradıcılığı" adlı məqaləni oxuyan İncinin yadına o saat Həbib müəllimin arxivi düşmüşdü. Dilarəgildə olanda həmin məqalə diqqətini cəlb etdiyindən onu sona kimi oxumuşdu. Məqalə olduğu kimi qəzetdə çap olunmuş, lakin Həbib Zöhrabbəyovun adı belə xatırlanmamışdı. Məqalədən belə çıxırdı ki, qeyd olunan məlumatlar Sahil Hüseynovun axtarışlarının bəhrəsidir.

Qəzetlə Sahilin otağına daxil olanda İnci qəzəbini güclə boğub soruşmuşdu:

– Bunu necə başa düşmək olar?

Sözünün dalını deyə bilməmiş, kövrəlib duruxmuşdu. Sahilin üzündə o vaxta qədər görmədiyi, heç zaman hiss etmədiyi yeni bir ifadə – soyuq xudpəsəndlik, özündən razılıq ifadəsi görəndə İnci sarsılmışdı.

– Nəyi soruşursan?

Sahilin etinasızlığını görəndə İncinin səbir kasası daşmışdı:

– Sən Həbib müəllimin əməyinə şərik çıxmısan!

– Onu kim dedi? Sübut edə bilərsənmi? – Bu sözləri deyəndə Sahilin səsində elə bir yadlıq var idi ki, İnci az qala qarşısındakının Sahil olduğuna şübhə edəcəkdi.

– Sənə nə olub, Sahil? Özgənin hesabına məşhur olmaq qərarına gəlmisən? Səni tanıya bilmirəm. İnsan az bir vaxt ərzində bu qədər dəyişə bilərmi? Sən günah etdiyinin fərqində deyilsənmi? Başqasının zəhmətinə belə asanlıqla yiyələnmək olarmı? İnsafın buna necə yol verir?

Sahil yerindən qalxıb onunla üz-üzə dayananda gözlərindəki şaxta İncini iliklərinə kimi üşütmüşdü. Onu tanıdığı illər ərzində Sahil heç zaman ondan bu qədər uzaq, ona bu qədər yad olmamışdı. Bu həqiqəti dərk etmək çox acı idi. İnci nə edəcəyini bilmirdi: mübahisə etsin, dalaşsın, yoxsa inciyib getsin?

Sahil onu bu ağır vəziyyətdən asanlıqla qurtarmışdı:

– Arxivlərin yalnız Həbib Zöhrabbəyovun olduğunu düşünürsənsə, yanılırsan. Əlyazmalar fonduna gedən yolu biz də tanıyırıq. Belə sözlərlə başqalarını nahaq yerə özünə güldürmə. Bəlkə paxıllıq edirsən ki, Nazim Axtılını sən yox, mən üzə çıxarmışam?

Eşitdiyi sözlərdən sarsılan İnci bürmələyib əlində tutduğu qəzeti var gücü ilə Sahilin üzünə çırpmış, sonra isə otaqdan çıxmışdı.

Sahil isə İncinin bu qəfil hərəkətindən özünü itirib bir xeyli pərt halda onun arxasınca baxmışdı.

Bu, onların son görüşü olmuşdu. Nə İnci, nə də Sahil baş vermiş bu böyük incikliyi aradan qaldırmaqdan ötrü bircə addım da atmamışdı.

Bir həftə sonra Sahil İncinin öz ərizəsi ilə işdən çıxdığını, rayona yola düşdüyünü eşitmişdi. Xəbər Sahili sevindirmiş, yaranmış gərginlik səngiyənə kimi bir-birindən ayrı olmalarının hər ikisinin xeyrinə olacağını düşünmüşdü. İncinin onu necə sevdiyini bildiyindən, ürəyinin dərinliklərində qızın incikliyinin çox çəkməyəcəyinə əmin idi.

Əvvəllər də onun sözü sərt şəkildə üzə deməsi, çoxlarını İncidən uzaqlaşdıran həqiqətpərəstliyi bəzən Sahili hirsləndirib özündən çıxarsa da, bunu hiss etdirməməyə, qızın xətrinə dəyməməyə çalışardı. Həm də onu yaxından

tanıdığından, daxili aləminə bələd olduğundan buna bir o qədər əhəmiyyət verməzdi. Qızın ətrafdakıların xoşu gəlmədiyi həmin xasiyyəti idi Sahili özünə çəkən. Başqalarına bənzəməməsi, hamı kimi olmaması idi İncini Sahilin gözündə ucaldan. Bəs birdən-birə nə baş vermişdi ki, daha onun bu xasiyyətinə dözə bilmirdi?

Sahil bu sualı özünə verməkdən qorxur, onun beynində yaranmasına da imkan vermirdi. Həmin haqlı suala cavab verməli olduğunu bildiyindən onu düşüncələrinə yaxın qoymurdu.

İncinin işdən çıxması institutda hamını təəssüfləndirmişdi. Direktordan, şöbə müdirlərindən tutmuş sıravi əməkdaşlara kimi hamı qıza bu qəfil qərarından daşınmağı, fikrindən əl çəkib işdə qalmağı məsləhət görsə də, bircə Sahil seyrçi mövqe tutmağı üstün tutmuşdu.

Hamını təəccübləndirən də elə bu idi. Bir-birini sevən bu iki gəncin qəfil soyumasının səbəbini tapa bilməyən həmkarları onların özlərinə bu barədə söz deməyə çəkinirdilər. İncinin XIX əsr Dağıstan ədəbiyyatı nümayəndələrinin Azərbaycan dilində yaradıcılığına həsr olunmuş dissertasiya işini tamamlamaq üzrə olduğunu bilən elmi rəhbəri, institutun elmi işlər üzrə prorektoru Hafiz Ələsgərov hamıdan çox narahat olmuşdu. O, istedadlı yetirməsinin elmi işini yarımçıq qoyub işdən getməsi ilə heç cür barışa bilmirdi. Lakin İnci tərsliyindən əl çəkməmiş, dediyinin üstündə durmuşdu. Bakıda, elmi-tədqiqat institutundakı işini rayon məktəbində ədəbiyyat müəllimi işinə dəyişmişdi.

NARAHATLIQ

Sahilin dissertasiya müdafiəsi gözlənildiyindən də uğurlu keçdi. Onun opponentləri – tanınmış alimlər Ramiz Heydərov və Əlövsət Mürsəlov bu elmi işin ölkənin filologiya elminə böyük töhfə olduğunu qeyd edərək dissertasiyanın özəllikləri haqqında ağızdolusu danışdılar. Müdafiədən sonrakı ziyafəti Sahil İçərişəhərdə gözəl bir restoranda verdi. Deyilən sağlıqlar, söylənən tərifl ər onu göyün yeddinci qatına qaldırdı.

Ziyafətdən sonra restoranın hesabını verən Sahil evinə – bir neçə ay əvvəl arvadı Lalə və bir yaşlı qızı Nəzrinlə bir yerdə köçdükləri yeni mənzilinə piyada yola düşdü. İçkinin və eşitdiyi tərifl ərin təsirindən pörtdüyünü hiss edir, hava almaq istəyirdi. Baş çıxara bilmədiyi qəribə bir həyəcanın bədəninə yayıldığını hiss edirdi. Həmin həyəcanın mənbəyini axtarıb tapmağa çalışsa da, heç cür buna nail ola bilmirdi. Ziyafətin sonuna yaxın birdən-birə ona sirayət etmiş narahatlığın səbəbini axtarıb tapmağa cəhd edirdi. Avtobusa minməyib, evə piyada yollanmağının da əsas səbəbi bu halı idi.

Birdən ürəyini xəfif kədər bürüdü: İnci yadına düşdü. Onu görmək üçün bədəni uçundu. Bu fikri özündən uzaqlaşdırmaq istəsə də, gücü çatmadı. Uğuruna hamıdan çox İncinin sevinəcəyinə şəkk-şübhəsi yox idi. Onunla söhbət etməyə, dərdləşməyə birdən-birə böyük ehtiyac duydu. Ondan başqa heç kəslə yaxın ünsiyyət qura bilməmişdi.

Son üç ildə həyatında çoxlu dəyişikliklər baş vermişdi. Anasının, bacı və qardaşlarının təkidi ilə uzaq qohumluqları çatan Lalə ilə evlənmiş, qızı Nəzrin dünyaya gəlmişdi. İnstitut gənc mütəxəssis kimi Sahilə üçotaqlı ev vermiş, o da

kirayəçiliyin daşını atmışdı. Xoşbəxtlik üçün daha nə lazım idi?

Amma maddi dəyərlər heç də həmişə xoşbəxtlik gətirmirmiş. Həyatın gözəlliyini artıran qəlb sirdaşı, ürək dostu imiş. O varsa, ürəyin rahatdır, yoxdursa, ürəyin həmişə sızıldayacaq. Həmin sızıltını İncidən ayrıldığı bu üç ildə ilk dəfə bütün dərinliyi ilə hiss edən Sahilə birdən hər şey əhəmiyyətsiz göründü. Təntənə ilə müdafiə etdiyi dissertasiya da, elmi jurnallarda bir-birinin ardınca dərc olunan məqalələri də, maaşının artması da.

Nə evin, nə Lalənin, nə də təzə dil açan, şirin-şirin danışan Nəzrinin onu cəlb etmədiyini kim bilir, neçənci dəfə öz-özünə etiraf etdi, bunu xudbinliyi ilə əlaqələndirdi.

İncinin xəyalını səylə özündən uzaqlaşdırmağa çalışdı, amma neynədisə də, onun gözəl, qəmli gözləri Sahildən əl çəkmədi. Nəhayət, bundan bezib Zümrüdə zəng çaldı:

– Salam, Zümrüd, necəsən? Hə, hər şey yaxşı keçdi. Qonaq istəmirsən? Hardayam? Düz evinizin qabağında.

Telefonu söndürüb cibinə qoyan Sahil tanınmış tele-jurnalist, köhnə dostu Zümrüd Hacızadənin evinin həyətinə keçdi.

***

Səhər baş ağrısından oyanıb harada olduğunu yadına salmağa çalışan Sahili uzun, güllü ipək xalatda otağa girən Zümrüd xəyaldan ayırdı. Mütənasib bədən quruluşu olan bu qızın gözəl üzü kədərli idi. O, bir qədər incik tərzdə dedi:

– Yuxuda elə hey İncini çağırırdın.

– Ola bilməz! – Sahil inana bilmədi.

Zümrüd cavab verməyib yatağı düzəltməyə başladı. Paltarını geyinən Sahil onun pəjmürdə halından qəbahətə yol

verdiyini anladı. Könlünü almaq üçün qızı qucaqlamaq istəyəndə Zümrüd əlinin yüngül hərəkəti ilə onu kənarlaşdırıb özünü məşğul göstərməyə çalışdı. Heç nə olmamış kimi:

– Gedək, çay soyuyur, – dedi.

Sahil dinmədən onun arxasınca mətbəxə keçdi. Çay içə-içə ağlına gələn ilk fikir o oldu ki, nə Zümrüd, nə də Lalə onun ruhunu İnci kimi oxşamır. Bu iki gözəl qadın ona İncini unutdura bilmir. Həmin hissi kim bilir, neçənci dəfə keçirirdi.

Birdən gecə gördüyü yuxu yadına düşdü. İnci onu ittiham edirdi:

– Sən Həbib müəllimin ruhunu incitdiyini anlayırsanmı?

Bu sözlər ona indi təsir etdi. Onların mənasını bütün dərinliyi ilə anladı. Birdən özündən elə utandı ki, nə edəcəyini bilmədi.

Çayı soyumuş, gözləri bir nöqtəyə zillənib qalmışdı. Bütün görkəmindən qəribə bir mütilik yağırdı. Onu ilk dəfə bu halda görən Zümrüd narahat oldu:

– Nə baş verib, Sahil? Niyə kefsizsən?

Sahil cavab vermədi.

– Mən səninləyəm, sənə nə olub?

– Özüm də bilmirəm mənə nə olub, – Sahil dərindən köks ötürdü.

– Laləni sevmirsən, hə?

Sahil nə hə dedi, nə yox. Zümrüd gəlib onun yanında oturub kədərlə Sahilin üzünə baxdı:

– İncini hələ də unutmamısan...

Sahil Zümrüdü qucaqlayıb ayağa qalxdı:

– Mən gedim, evdə nigarandırlar.

Qapını açıb bayıra çıxanda Zümrüd onun arxasınca sakit,

lakin amiranə səslə dedi:

– Daha bura gəlmə. Ailə qurmaq istəyirəm.

Sahil eynilə onun kimi sakit və həlim səslə cavab verdi:

– Oldu, gəlməyəcəyəm. Xoşbəxt ol!

Zümrüdgildən çıxandan sonra Sahil yol boyu yalnız bir şey barədə düşünürdü: bütün işlərini bir kənara qoyub Həbib Zöhrabbəyov haqqında kitab yazmalıdır. Yoxsa yaşaya bilməz, boynundakı ağır borc yükündən qurtula bilməyəcək.

***

İçəri girən ərinin onun sorğu-sualına cavab verməməsi Laləni özündən çıxardı. O, qəzəbini güc-bəla ilə boğub soruşdu:

– Yenə öz kefində idin, hə?

Sahil yorğun səslə cavab verdi:

– Hə, kefdə idim.

– Qalaydın da orda, niyə gəldin? – Lalə qəhərini boğa bilmədi.

– Bəsdir, yorulmuşam, imkan ver içəri keçim, – Sahil təvrünü pozmamağa çalışdı.

– Mənə bəsdir deyirsən? – Lalə özünü saxlaya bilməyib ucadan qışqırdı.

– Kəs səsini! – Sahil bağırdı.

– Mən səsimi kəsim? Bəlkə sən evinə, eşiyinə yığışasan?

– Məni hirsləndirmə!

– Mən səni hirsləndirirəm, yoxsa sən məni?

– Demədimmi mumla!

– Tərbiyəsiz!

Sahil sillənin Lalənin üzündə necə açıldığını bilmədi. Arvadının hönkürtüsünə yuxudan kal oyanan qızının ağlamaq

səsi qarışdı.

– Dəlixanaya düşmüşəm ki! – Sahil otağına keçəndə qapı arxasınca zərblə örtüldü. Qulaqlarını qapadı ki, qonaq otağındakı səsləri eşitməsin.

Bir azdan evdə sakitlik bərpa olunanda o, əynini dəyişib yazı masasının arxasına keçdi. İlk dəfə ürəyində köhnə iş yoldaşı, talesiz insan olan Həbib Zörabbəyova hörmət və ehtiram hissi baş qaldırdı. Ömrünü arxivlərdə keçirmiş bu insanın həyatı və fəaliyyəti haqqında kitab yazmaq fikri ilə qələmini işə saldı.

O vaxtdan uzun illər keçirdi. Sahil doktorluq dissertasiyası müdafiə etmişdi. Bir ay əvvəl isə ona professor vəzifəsi vermişdilər.

II FƏSİL

QRAFOMANİYA

CƏZA

Nəzrin kədərlə "Sabah ad günümdür, 22 yaşım tamam olacaq", – deyə düşündü. Telefonunu söndürdü ki, kimsə ona zəng çalıb təbrik edə bilməsin. Öz ad günlərindən zəhləsi gedirdi. Ümumiyyətlə, doğum günlərinin təntənə ilə qeyd olunması, bu münasibətlə məclislərin təşkil edilməsi, doğmaların, dost-tanışın hədiyyə dəmdəsgahı ilə səbəbkarı anması ona mənasız bir şey kimi görünürdü. "Bunu işsizlikdən fikirləşiblər. İnsanın yaşının üstünə yaş gəlməsini bayram etməsi qədər ağılsız nə ola bilər?" – düşüncəsi ilə səhər tezdən yuxudan oyanıb otağının səliqə-sahmanı ilə məşğul olmağa başladı. Qəzet evində işə düzəldiyi son iki ay ərzində mənzilini düz-əməlli yığışdırmağa vaxtı olmamışdı. Ona görə də səylə şüşələri sildi, pərdələri yuyub nəm halda asdı ki, qırışları açılsın, döşəməni təmizlədi, yay paltarlarını yığışdırıb payız geyimlərini çıxardı. Geyim deyəndə, bu, bir gödəkçədən, bir şalvardan, iki uzunqol köynəkdən və bir cüt idman ayaqqabısından ibarət idi.

Beləcə başını qarışdırırdı ki, doğmaları yadına düşməsin. Neçə vaxt idi ki, beyninin müəyyən bir nöqtəsini özünə tabe etdirməyə nail olmuşdu. Həmin nöqtə sentimental hisslərdən uzaq olmaqda ona kömək edir, ürəyində həzin, titrək duyğuların baş qaldırmamasından ötrü göstərdiyi səylərə dəstək

verirdi. Onu acizlikdən, zəiflikdən qoruduğuna görə həmin nöqtəyə borclu idi. Onun nəzərində acizlik valideynləri üçün darıxmaqdan, onları görməyə can atmaqdan ibarət idi. Bütün varlığı ilə çalışırdı ki, hər kəs, hər şey barədə düşünsə də, əzizlərini xatırlamasın. Onları gözləri önündə canlandırmağı da özünə qadağan etmişdi.

Nəzrinin doğmaları, onu tanıyanlar qızın qəribə sakitliyinə, insanlara yovuşmamasına əvvəllər təəccübləndilər, sonradan buna öyrəşmişdilər. O, öz yaşıdlarına, dost-tanışlarına əsla bənzəmirdi. Hamı kimi bəzənib-düzənməyi xoşlamırdı. Gözəllik salonları, alış-veriş mərkəzləri onu əsla cəlb etmirdi. Mağazaya adətən ən vacib bir şeydən ötrü gedirdi. Onun üçün nə yeməyin, nə geyinməyin elə bir əhəmiyyəti yox idi.

O, qəlbən özünü qocalmış hiss edirdi. İçində bir boşluq yaranmışdı. Bu boşluq heç cür kiçilmir, əksinə, gündən-günə böyüyür, dərinləşirdi. Tənhalığını və kimsəsizliyini yalnız qələmlə baş-başa qalanda, nə isə yazanda unudurdu. Əslində 22 illik həyatı boyu heç zaman xoşbəxt olmamışdı. Ümumiyyətlə, xoşbəxtliyin nə demək olduğunu təsəvvür edə bilmirdi.

Əllərini çırmalayıb təmizlik işləri ilə məşğul olan Nəzrin birdən sinəsində sızıltılı bir ağrı hiss elədi. Ürəyində nə isə elə titrədi ki, onun təsirindən taqətsiz halda divanın qabağındakı palazın üstünə çökdü. Lakin bəbəklərini ağırlaşdıran göz yaşlarını axmağa qoymadı, var gücü ilə onları geriyə, öz yerinə qaytarıb sustaldı. Bir xeyli beləcə hərəkətsiz qaldı... Amma bir azdan gücü tükəndi, gözləri daha onun sözünə baxmadı.

Başını divana söykəmiş Nəzrinin gözlərindən axan yaş qolunun üstünə axıb onu isladırdı. O, uşaq kimi için-için

ağlayır, heç cür ovuna bilmirdi.

Birdən qapının zəngi çalındı. Qəfil səsdən diksinən Nəzrin tez gözlərini barmaqları ilə sildi. Zəng səsi yenidən təkrar olunanda tənbəl addımlarla otaqdan dəhlizə çıxdı. Qapıya yaxınlaşıb gözlükdən baxanda atası Sahillə anası Lalənin kandarda dayandıqlarını gördü. Anasının əlində gül dəstəsi, atasının əlində isə böyük bir bağlama var idi.

Blokda anasının qəhərli səsi eşidildi:

– Nəzrin, ayağın altda ölüm, nə olar, aç qapını. Bağışla bizi! Nəzrin, sənsiz dözə bilmirik, niyə başa düşmək istəmirsən? Burax bizi içəri! Bu gün sənin ad günündür axı.

Atası dinmirdi. Nəzrin gözlüyü bağlayıb asta addımlarla geri qayıtdı. Anasının səsini eşitməmək üçün dəhlizlə otağın arasındakı qapını kip örtüb divanda oturdu, əlləri ilə başını tutdu. Uşaqlıqdan gəncliyinə kimi bütün həyatı kino lenti kimi gözləri önündə canlandı.

Onların ailəsi adi ailələrə bənzəmirdi. Eşitdiyinə görə, valideynləri sevərək evlənmişdilər. Bir-birinə çox yaraşırdılar. Anası gözəl olduğu qədər deyingən, atası yaraşıqlı olduğu qədər əzazil idi. Bu evin "dava gülü" idi Nəzrin. Uşaqlıqdan evlərində qalmaqal görmüşdü. Haray-həşir, dava-dalaş onların həyatının ayrılmaz hissəsi idi.

Belə həyat tərzi sanki Nəzrini vaxtından tez böyüməyə vadar etmişdi. Hər dəfə anasını ağlayan, taleyindən şikayətlənən görəndə sanki bir yaş böyüyürdü qızcığaz. Beş yaşında o, artıq anasının sirdaşı idi. Lalə heç nəyi qızından gizlətmir, əri ilə aralarında baş verən bütün narazılıqlardan onu agah edirdi. Ana-bala bəzən gizlincə Sahilin telefonundakı yazışmaları bərabər oxuyur, oradakı intim yazışmalardan bir yerdə mütəəssir olurdular. Nəzrinin gözündə atası dünyanın ən zalım, ən qəddar adamı, anası isə yer üzünün mələyi idi.

Onun zənninə görə yer üzündə anasından gözəl, ondan ağıllı, ondan rəhmli, ondan xeyirxah insan yox idi. Nəzrin hər şeyə razı idi, təki anasının üzündə kədər izləri olmasın. İlk dəfə məktəbə gedib sinif yoldaşları ilə yaxından tanış olanda qəribə hisslər keçirmişdi. Ora-bura qaçışan, oynayan, bircə an belə bir yerdə dayanmayan bu qayğısız uşaqları seyr etdikcə, özünün onlar kimi olmadığını anlamış, bu hissdən ürəyi sıxılmışdı.

Elə bir həftə yox idi ki, onların evində qalmaqal olmasın. Adətən valideynləri heç nədən mübahisə edir, gözlənilmədən aralarında gərginlik yaranır və bu, yumruq davası ilə nəticələnirdi. Ən əzablısı isə o idi ki, Lalə ilə Sahilin küsülüyü həftələrlə, bəzən aylarla davam edirdi. Belə vaxtlarda atası evdən soyuyur, işdən sonra adətən vaxtını dostları, tanışları ilə keçirirdi. Bunu o, qəsdən edirdi ki, Laləni qısqandırsın, əsəbləri tarıma çəkilsin, hirslənib özündən çıxsın.

Nəzrin belə bir ailədə dünyaya gəlmişdi. O, böyüdükcə həyata anasının gözləri ilə baxmağa başlayır, onun kimi düşünür, onun sözləri ilə danışırdı. Ailələrində daim gərginlik hökm sürdüyünə görə bir çox doğmaları və yaxınları onlardan uzaqlaşmış, münasibətləri soyumuşdu. Qohum-əqrəbaları illərlə onların evinin qapısını açmırdı. Ərlə arvad birlikdə məclislərə çox az hallarda, məcburiyyət qarşısında gedir, həmişə də dalaşıb qayıdırdı.

İllər boyu Nəzrin valideynlərinin dalaşma səslərinə oyanmağa, ağlamaqdan gözləri şişmiş halda yuxuya getməyə adət etmişdi. Fərəhsiz keçən uşaqlıq çağından onun beyninə həkk olunmuş ən acı xatirə atasının anasına əl qaldırması səhnəsi idi. Belə vaxtlarda ağlaya-ağlaya aralarına girər, onları ayırmağa çalışar, körpə əlləri ilə atasından yapışıb yalvarardı:

– Ata, nə olar, vurma anamı. Sənin əllərin ağırdır axı. Niyə

ona yazığın gəlmir? Mənim xətrimi istəyirsənsə, dəymə ona, nə olar.

Atası isə balaca Nəzrini kənara vızıldadar, qəzəbi soyuyana kimi bildiyindən əl çəkməzdi. Atasının onun yalvarışlarına məhəl qoymadığını görəndə Nəzrin özünü anasının üstünə atar, əlləri ilə onun ağzını qapamağa çalışardı:

– Ana, nə olar, sən danışma. Yalvarıram sənə, heç nə demə. Sən sussan, atam da sakitləşər. Niyə susmursan axı?

Heyhat, nə anası dilini dinc qoyar, nə də atası əzazilliyindən əl çəkərdi. Onlar yorulub əldən düşənə kimi beləcə didişər, süpürləşərdilər.

Uşaq vaxtı Nəzrin şəkil çəkməyi çox xoşlayardı. Onun şəkillərinin əksəriyyətinin qəhrəmanı qolları uzun mələk idi. Həmin mələk onun xəyallarındakı xilaskar idi. Atası əl qaldıranda mələk uzun qolları ilə anasını onun əllərindən alar, göyə, buludların üzərinə qaldırardı. Atasının hirsi soyuyanda mələk anasını yenidən yerə endirərdi.

Sahil elmi-tədqiqat institutunda çalışırdı. Lalə isə Xarici Dillər İnstitutunu bitirən kimi ərə getmiş, bircə gün də işləməmişdi. Buna baxmayaraq, onun ev-eşiklə, biş-düşlə arası yox idi. Bəzənməyi, geyinib-keçinməyi çox xoşlayırdı. Mağazaları gəzib-dolaşmaq sevimli məşğuliyyəti idi.

Nəzrini hərəsi bir cür, özünəməxsus şəkildə sevirdi. Lalədən ötrü o, təkcə övlad deyildi, həm də sirdaşı, dostu, rəfiqəsi idi. Qızı ilə nəfəs alan bu gənc qadın qəlbinin bütün məhəbbəti ilə ona bağlı olsa da, böyüyən Nəzrinin qəlb dünyasından, daxili aləmindən çox-çox uzaq idi. Orada nələrin baş verdiyi ilə maraqlanmaq heç ağlına da gəlmirdi. Körpə yaşlarından özünün saysız-hesabsız şəxsi problemləri ilə yüklədiyi bu qızcığazın kiçik ürəyində necə dərin şırımlar açıldığını təsəvvür etmirdi. Lalə sadəcə qızı ilə qürur duyur,

onunla öyünürdü.

Atası ilə münasibətləri isə bunun tam əksi idi. Sahil başqa valideynlərə əsla bənzəmirdi. Qəribə təbiəti olan bu adamın doğma qızı ilə rəftarı da qəribə idi. Nəzrin atasının onu nə vaxt qucağına aldığını, əzizlədiyini xatırlaya bilmirdi. O, məktəbdə oxuduğu illərdə bircə dəfə də olsun təhsili ilə maraqlanmamışdı.

Əla qiymətlərlə oxuyan, fənn olimpiadalarında həmişə seçilən Nəzrin üçün həyatda dərs hazırlamaqdan ürəkaçan heç nə yox idi. Çünki belə vaxtlarda evlərindəki kədər dolu havanın ağırlığı sanki bir qədər azalırdı. Qız sinifdən-sinfə keçir, böyüyürdü, amma evlərindəki ab-hava, həmin gərgin münasibətlər isə dəyişmirdi ki, dəyişmirdi. Nəzrin həyatı dərk etməyə başladıqca bu cansıxıcı mühiti qəbul edə bilmirdi.

Hər növbəti gərginlikdən sonra o, anasını danlamağa başlayardı:

– Ay ana, səndə zərrəcə qürur yoxdur. Hər gün səni təhqir edən, alçaldan biri ilə necə ömür sürürsən? Bu cür yaşamaqdan bezmədinmi?

Anası isə həmişə özünə bəraət qazandırardı:

– Elə demə, Nəzrin, hər şey sənin düşündüyün qədər asan deyil. Bilirsən ki, mən heç yerdə işləmirəm. Ayrılsaq, özümü, səni necə dolandıraram? Atanın maaşı olmasa biz batarıq.

– Cəhənnəm olsun o maaş ki, bu qədər göz yaşı, əsəb müqabilində əlinə gəlir. Ayrılsan, məcbur olub işə düzələrsən, bir təhər dolanarıq. Bir-iki ilə mən də məktəbi bitirib özümə iş taparam. Əri olmayan qadınlar acından ölmürlər ki! Ayrılın, qoy ikinizin də canı qurtarsın. Ömrünüzü dava-dalaşla çürütdünüz, – deyə o, hər dəfə anasını qınayardı. Lakin Laləni fikrindən daşındırmaq, qərarından döndərmək

o qədər də asan məsələ deyildi.

Əslində, bu illər ərzində atası ilə anası dəfələrlə ayrılmış, hətta bir dəfə Sahil ev tutub xeyli müddət tək yaşamışdı. Lakin Lalə onu yenidən evinə qaytarmışdı. Qəribə idi, bu qədər bir-birini incidən bu iki insan bir-birindən ayrı da qala bilmirdi. Onların qeyri-adi bağlılığı Nəzrini hiddətləndirir, münasibətləri ona alçaldıcı görünürdü.

Valideynləri özləri də bilmədən yeganə övladlarının xəyallarını, arzularını əlindən almışdılar. Hər növbəti davadan sonra Nəzrin öz-özünə pıçıldayırdı: "Mən heç vaxt ailə qurmayacağam! Heç zaman ərə getməyəcəyəm! Həmişə tək olacağam! İki it kimi boğuşa-boğuşa yaşamaqdansa, tənha ömür sürmək yaxşıdır". O, özü də bilmədən həyatını proqramlaşdırmışdı.

Nəzrini son illər ən çox sarsıdan valideynlərinin ondan əsla çəkinməmələri idi. Çoxdan böyümüş, institutun son kurs tələbəsi olan qızlarının yanında yenə də adət etdikləri qaydada söyüşür, hətta yumruq davasına çıxırdılar. Bu da Nəzrinin heysiyyətiına toxunur, onun mənliyini alçaldır, həyat eşqini söndürürdü.

Bir dəfə tələbə yoldaşı Aytənlə institutdan qayıdarkən təsadüfən qızın valideynləri ilə rastlaşmışdılar. Onlar təkidlə Nəzrini evlərinə qonaq aparmışdılar. Bir neçə saat onlarla bərabər olan Nəzrin oradakı əmin-amanlığı, mehribanlığı, xoş əhval-ruhiyyəni görüb sarsılmışdı. Qızının boynunu qucaqlayıb üzündən öpən, onunla dostcasına söhbət edən Aytənin olduqca səmimi və mehriban atası ilə tanışlıq isə Nəzrini necə mütəəssir etmişdisə, xeyli müddət həmin görüşün təsiri altından çıxa bilməmişdi.

Bu görüşdən sonra onsuz da az danışan, sakit təbiətli Nəzrin daha da özünə qapanmışdı. Həmin hadisə onun həyatında

qəribə bir dönüş nöqtəsi olmuşdu. Sanki dərin yuxudan ayılmışdı. Bu vaxta qədərki həyatı ona olduqca mənasız görünmüşdü. Ən əziz, ən doğma saydığı, bütün varlığı ilə bağlı olduğu valideynləri, əslində, özləri də bilmədən onun uşaqlığını məhv etmişdilər. Yeniyetməlik illəri tənhalıq içində keçmiş, gəncliyi həyəcanlı ümidsizliyə bürünmüşdü. Bəs gələcəyi? Gələcəyini düşünməkdən qorxurdu.

Təzadlı fikirlər, ağır düşüncələr içində öz fərəhsiz həyatını yaşamağa məhkum edilən Nəzrin növbəti dəfə valideynlərinin dava-dalaş səsinə yuxudan oyandı.

Qonşu otaqdan anasının tükürpədici səsi gəlirdi. O, var-gücü ilə qışqırır, qızını köməyə çağırırdı:

– Nəzrin! Köməyə gəl! Gəl məni bu alçağın əlindən al!

Yuxudan hövlnak duran Nəzrin ilk dəfə tələsmədən yerindən qalxdı, stuldan paltarını götürüb əyninə keçirdi, saçlarını rezinlə yığıb otağının qapısını açdı. Həmişə gördüyü, illərdən bəri adət etdiyi mənzərə idi: atası anasını yumruqlayır, anası isə söyüş söyə-söyə gözəl sifətini zərbələrdən qorumağa, özünü ərinin möhkəm əllərindən qurtarmağa çalışırdı.

İlk dəfə idi ki, Nəzrin qonaq otağındakı bu səhnəni soyuqqanlılıqla izləyir, anasına sarı qaçmırdı. Göz yaşları ilə, yalvarışlarla atasının əllərindən yapışmırdı. İlk dəfə idi ki, atasının endirdiyi yumruqların ağrısını öz bədənində hiss etmirdi. Adətən, belə vaxtlarda o, zərbələrin hamısını mənən özünə qəbul edər, bu yolla anasının əzablarını yüngülləşdirməyə çalışardı. Özünün və valideynlərinin təəccübünə rəğmən bu dəfə belə olmadı.

O, qapının ağzında dayanıb məhəllə uşaqları kimi əlbəyaxa olan bu iki adama nifrətlə baxır, heç nə demirdi. Daha doğrusu, deməyə söz tapmırdı. Bir xeyli beləcə soyuq

etinasızlıqla dayanıb onları süzdü və sonra var gücü, ürəyinin bütün qəzəbi ilə bağırdı:

– Bəsdir! Bəsdir daha! Canımı boğazıma yığdız! Bezdirdiz məni! Siz necə adamlarsız? Sizə nifrət edirəm! Eşidirsizmi? Nifrət edirəm! Sizi görən gözüm yoxdur!

Elə bağırdı ki, mətbəx şkafının içindəki qablar cingildədi. Bayaqdan tutaşan, bir-birinə söyüşlər yağdıran ər-arvad Nəzrinin bağırtısını eşidib heyrət içində donuxub qaldı. Onlar qorxu qarışmış heyrətlə Nəzrinə baxır, amma nə isə deməyə, onu sakitləşdirməyə cürət etmirdilər. İlk dəfə idi ki, qızlarını bu halda görürdülər. Onun az qala hədəqəsindən çıxmış, alacalanmış gözlərinə baxıb özlərini itirmişdilər.

Nəzrin bütün daxili qəzəbi ilə otağının qapısını çırpıb içəridən kilidlədi. Üzüqoylu çarpayısına sərildi. Ürəyi elə sürətlə döyünürdü ki, az qalırdı sinəsini yarsın. Gicgahları zərblə vururdu. Başının ağrısına davam gətirə bilməyib, bir azdan arxası üstə çöndü. Çarpayısı ilə üzbəüz divardan asılmış güzgüdə əksini görəndə tələşlandı: üzünə sanki qan çilənmişdi, yanaqları od tutub yanırdı.

Qonşu otağa sükut çökmüşdü. Sanki bayaqkı bağırtılar, söyüşlər orada səslənməmişdi. Nəzrin hönkürüb ağlamaq, içini boşaltmaq, sakitləşmək istəyirdi, amma bacarmırdı. Gözlərinin dibi qupquru idi, orada yaş yox idi. İlk dəfə soyuqqanlıqla öz-özünə etiraf etdi ki, bayaq döşəmədə əlbəyaxa olan kişi ilə qadın – onun valideynləri oğrudur. Onlar öz övladlarının xoşbəxtliyini oğurlayıblar.

Ürəyinin bütün telləri ilə anladı ki, onun belə bədbin, belə bədbəxt olmasının səbəbkarı onlardır. Həyatda qətiyyətsizliyinin, insanlara yovuşa bilməməsinin, daim onu müşayiət edən, qəlbən incidən inamsızlığının bünövrəsini qoyan ailəsidir. Atası ilə anası onun beynini daim qəmli fikirlərlə doldurublar,

sevinməyə, həyatdan həzz almağa qoymayıblar. Buna görə də onlar cəzalandırılmalıdır. Bu cəzanı isə onlara öz doğma övladları verəcək! Nəzrin yaşadığı bütün acıların qisasını onlardan alacaq!

Beyninə qəfil gələn bu fikir ona qəribə bir qətiyyət gətirdi. Nə fikirləşdisə, çarpayıdan qalxıb, kağız-qələm tapıb tələsik yazdı: "Məni axtarmayın! Heç vaxt! Varlığımı unudun! Sizə nifrət edirəm! Özüm öz qayğıma qalacağam. Əlvida!"

Lazımi sənədlərini, ən vacib əşyalarını idman çantasına yığıb, qapını açdı, qonaq otağındakı divanda əlləri ilə başını tutub oturmuş atasına, yerdə, xalçanın üstündə uzanıb yanıqlı-yanıqlı ağlayan anasına gözünün ucu ilə də baxmadan bayır qapısına sarı getdi. Evin açarlarını döşəməyə tullayıb, tələsik bayıra çıxdı. Dəmir qapı arxasınca çırpılanda, birdən yadına düşdü ki, bu gün 20 yaşı tamam olur. Acı qəhər boğazını acışdırdısa da, onu qəribə bir yüngüllük bürüdü. Özünü məhbəsdən azadlığa çıxmış dustaq kimi hiss etdi. Bir azdan insan selinin içinə düşdü. O, bu selin bir zərrəciyi idi.

Hara getdiyini bilmirdi. Evdən niyə və necə çıxdığını artıq xatırlamırdı. Bir anın içində qəbul etdiyi qərarın nə ilə nəticələnəcəyi, həyatını nə cür dəyişəcəyi haqqında düşünmək iqtidarında deyildi. Hələlik ağlının hökmü ilə deyil, hisslərinin təsiri altında hərəkət edirdi. Çiynindən aşırdığı çantanın ağırlığını hiss etmədən gedir, gedirdi. "28 May" metrostansiyasının yanından üzüaşağı, Səməd Vurğun bağına tərəf irəliləməyə başlayanda birdən ağlına gəldi ki, evdən çıxdığı andan fasiləsiz yol gedir.

Yorulduğunu, taqətdən düşdüyünü hiss edib bağdakı boş skamyalardan birində oturdu. Uşaqların şən səsləri ilə dolu olan bağ qələbəlik idi. Bura yaşlı, cavan kişi və qadınlarla dolu idi. Onlar iki-iki, üç-üç söhbət edə-edə, tələsmədən bağı

dolaşırdılar. Hər kəs öz aləmində idi.

Nəzrin başını skamyaya söykəyib fikirlərini cəmləşdirməyə cəhd etdi. Evdə heç nəyi dərindən düşünmədən, ölçüb-biçmədən tələsik qərar çıxarmış, öz gələcək taleyini tələm-tələsik müəyyənləşdirmişdi. Sabah nə olacağını, onu nələrin gözlədiyini dərk etmədən valideynlərini cəzalandırmaq fikrinə düşmüşdü. Ağlına da gəlməmişdi ki, əslində, bununla özünü cəzalandırır. Evsiz, işsiz, tək-tənha böyük şəhərdə taleyin ümidinə qalmağın nə demək olduğunu o, yenicə anlamağa başlayırdı. Lakin artıq geriyə yol yox idi. Ürəyində əmin idi ki, daha heç vaxt, dünya dağılsa belə evə qayıtmayacaq.

Saata baxdı: axşam saat altıya on beş dəqiqə qalırdı. Evdən çıxdığı vaxtdan altı saat keçirdi. Həyəcanlanmağa başladı. "Bir azdan hava qaralanda hara gedim? Kimim var? Kimə lazımam?" Bu suallar çarəsizliyini daha da artırır, əlacsızlığını ona dönə-dönə xatırladırdı. Burada oturmaqdan başqa ayrı çıxış yolu görmədi.

Hava tamam qaralanda, noyabr ayının soyuğu iliklərinə işləməyə başladı. Tir-tir əsdiyini görəndə birdən yadına düşdü ki, əyni nazikdir, çantasından gödəkcəsini çıxarıb geyindi. Bağın birdən-birə boşaldığını, işıq dirəklərindəki lampaların zəif közərti ilə yandığını görəndə bayaqkı sualı özünə yenidən verdi: "Hara gedim?" Öz-özünə etiraf etdi ki, getməyə yeri yoxdur. Baba, nənə sarıdan bəxti gətirməmişdi. Sahil də, Lalə də valideynlərini itirmişdilər. Qohumlardan heç biri ilə yaxın deyildilər. Bəzi qohumları ilə yalnız məclisdən-məclisə görüşürdülər.

Uşaqlıqdan özünə qapanan olduğu üçün heç vaxt yaxın rəfiqəsi olmamışdı. Dostları yalnız oxuduğu saysız-hesabsız kitabların qəhrəmanları idi. Bu qəhrəmanların sevinc

və kədərləri ilə böyüyən Nəzrini yaşıdlarından fərqləndirən o idi ki, ürəyində daim bir həyəcan, qəribə bir qorxu hissi olurdu. Əslində yaşıdları ilə yaxınlıq etməməsinin əsas səbəblərindən biri anası idi. O, özü də hiss etmədən anasının dayəsinə çevrilmişdi, uşaq kimi daim qayğısını çəkir, onu atasının yumruqlarından qoruyur, ağlayanda ona təsəlli verirdi.

Ağır düşüncələr içində olan Nəzrin üşüdüyünü görüb yorğun addımlarla dəmiryol vağzalına tərəf üz tutdu. Bilet kassalarının yerləşdiyi zal isti olsa da, burada sərnişinlərin əlindən oturmağa boş yer gözə dəymirdi. Gözləmə zalına keçib bir qədər var-gəl edəndən sonra, nəhayət, skamyalardan birində boş yer tapıb orada oturdu. Salondakı iri saatın əqrəbləri 21-i göstərirdi.

"...Üçlükdə hara isə gedirdilər. Atası ilə anasının əllərində ağır çantalar vardı. Balaca Nəzrin onların arxasınca yeriyir, yorulub taqətdən düşmüş ayaqlarını güclə sürüyürdü. O, tez-tez anasının ətəyindən yapışıb ağlamsınırdı:

– Ana, nə olar, məni qucağına götür, ayaqlarım yorulub.

Anası onu ovundurmağa çalışırdı:

– Bir az da döz, lap az qalıb, indi çatırıq.

Yol isə qurtarmaq bilmir, uzandıqca uzanır, Nəzrinin səbrini tükədirdi.

– Ana, bax, məni qucağına almasan, küçənin ortasındaca oturacağam.

Taqətdən düşmüş Nəzrin dediyi kimi də etdi. Yolun ortasında, asfaltın üstündə oturub başını dizlərinə qoyaraq hıçqırdı.

Anası ona yaxınlaşaraq öpüb oxşadı, sonra üzünü ərinə tutdu:

– Sahil, sən uşağı qucağına al, çantanı mən götürərəm.

Bunu eşidəndə Nəzrin bərkdən ağlamağa başladı:

– Səni istəyirəm, ana, səni! Məni sən qucağına götür!

Lalə onu sakitləşdirib qucağına aldı, sonra yoluna davam etdi. Nəzrin əlləri ilə anasının boynunu qucaqlayıb, başını çiyninə qoyan kimi yuxuya getdi".

... – Xanım, ay xanım!

Polis formasında, ortayaşlı bir kişi onun qarşısında dayanıb mehribanlıqla Nəzrinə baxırdı:

– Xanım, qatara gecikməmisən ki?

Nəzrin yuxudan oyanıb bomboş foyedə tək-tənha olduğunu görəndə həyəcanlandı. Saata baxdı: gecə saat 3-ə 10 dəqiqə işləyirdi. Ürəyinə bir vahimə yayıldı.

– Narahat olmayın, dayı, mənim qatarıma hələ 2 saat var, – deyə cavab verdi.

– Bir problemin yoxdur ki? – Kişi bu sözləri ürəyiyanan-lıqla dedi.

– Heç bir problemim yoxdur. Hər şey yaxşıdır. Qatarımı gözləyirəm.

– Hara gedirsən? – Kişinin sualı onu hirsləndirsə də büruzə vermədən ayağa qalxdı:

– Dedim axı, narahat olmayın. Qatarımın yola düşməyinə hələ çox var.

Polis daha heç nə demədi, başını yelləyib ondan uzaqlaşdı.

Foyedən perrona çıxan Nəzrin üzünə dəyən soyuq havadan özünə gəldi. Bayaq gördüyü yuxunun təsirindən çıxmağa başladı. Buradakı skamyaların adamla dolu olduğunu görəndə sevindi. Gurluqda özünü daha təhlükəsiz hiss etdi. Perronun qurtaracağına yaxın skamyaların birində boş yer tapıb oturdu. Bir az toxtadı. Onun yanında oturan, görkəmlərindən kənd adamına oxşayan iki qadın skamyanın üzərinə qəzet sərib yer-yemək düzərək iştahla yeyirdi. Soyutma

yumurtanın, pendirin ətri Nəzrinin burnuna dəyəndə möhkəm acdığını hiss etdi, istər-istəməz ağzı sulandı. Son dəfə haçan çörək yediyini xatırlaya bilmədi.

– Ay qızım, bizimlə bir loxma çörək ye, – deyə uzun, enli ətək geyinmiş, başına qara yaylıq bağlamış cavan qadın ona təklif etdi.

– Çox sağ olun, yemişəm, – deyə Nəzrin cavab verdi.

Nimdaş paltolu, başı çalmalı yaşlı, dolubədənli digər qadın bir dilim çörəyin üstünə pendir qoyub ərklə ona uzatdı:

– Al, bir tikə dağ aşırar.

Qadınların səmimi təklifi qızı ürəkləndirdi. Dərhal əlini çörəyə uzatdı, qorxdu ki, istəmirəm desə, ikinci dəfə ona təklif etməzlər. Pendir çörəyi elə iştahla, elə ləzzətlə yedi ki, elə bil ömründə bundan dadlı yemək dadmamışdı.

Yaşlı qadın indi də Nəzrinə soyulmuş yumurta uzatdı:

– Ye, bala, nuş olsun!

Nəzrin onu da yedi. Yalnız bundan sonra doyduğunu hiss etdi. O, minnətdarlıqla bu sadə və mehriban insanlara baxdı. İlk dəfə gördüyü bu qadınların səmimiyyəti onu mütəəssir etmişdi.

– Al, bu da su əvəzi, – kök, yaşlı qadın ona alma verdi.

Almanı da yeyib, qadınlara təşəkkür edib, oturduğu skamyada yerini rahatladı. Havadakı şaxtanı daha bayaqkı kimi hiss etmirdi. Bir azdan qadınlar çantalarını yığışdırıb, onunla sağollaşaraq perrona yaxınlaşan qatara tərəf getdilər.

Səhər saat 7-yə kimi vağzalda vaxt öldürən Nəzrin, daha burada qalmağın mümkün olmadığını anlayıb, ayaqlarını sürüyə-sürüyə yenidən şəhərə tərəf yollandı. Səhər günəşinin parlaq şüaları altında gəzə-gəzə dənizkənarı parka necə gəlib çatdığını bilmədi. Əslində, konkret olaraq hara isə getmək, nə isə etmək fikri yox idi, o, qeyri-müəyyənlik içində idi.

Tək-tük adamların gözə dəydiyi parkda bir xeyli gəzişdikdən sonra yorulub külək tutmayan, xudmani bir yer seçib skamyalardan birində oturdu. Burada ona heç kəs mane olmayacaqdı. İstədiyi qədər oturub xəyallara dala biləcəkdi. Ayaqlarının sızıldadığını hiss edib onları qatladı. Gödəkcəsinin içində büzüşüb, çiyinlərini sıxdı.

Nəzrin baxışlarını məchul bir nöqtəyə zilləyib oturmuşdu. Bomboz dənizin üzərində qanad çalan, xoşagəlməz səslər çıxaran qağayılara tamaşa edən o, zaman məfhumunu, məkan anlayışını unutmuş adamlar kimi ətrafda heç nə görmürdü. Xoşbəxtlikdən mülayim gün idi. Noyabr günəşi üzündə, bədənində gəzdikcə Nəzrin bundan xoşhal olur, gözləri xumarlanırdı.

DOĞMA RUHLAR

Lalə dizləri üstə xalçaya çöküb indicə evdən çıxan ərinin arxasınca qarğış yağdırırdı:

... – Səni görüm lənətə gələsən! Səni görüm getdiyin yerdən sağ-salamat qayıtmayasan! Səni görüm...

Onun göz yaşları yanaqları boyu axır, əllərinin üstünə tökülürdü. Saçları qarışmış, üzündəki yumruq yerləri qızarmışdı.

İnstitutdan yenicə evə gələn Nəzrin onu bu halda görüb tez çantasını divanın üstünə ataraq, soyuducuya tərəf qaçdı. Oradan buz parçaları çıxarıb dəsmala bükdü, sonra isə heç nə demədən anasının başını dizlərinə tərəf əyib, qızartıların üstünə qoydu. Anası ağlayıb-sızlayır, o isə heç nə demirdi. Nəhayət, onun umu-küsüsündən cana doyub deyindi:

– Ay ana, nə özünüz yaşayırsız, nə məni qoyursuz yaşayım. Bilsəniz, sizin əlinizdən necə zara gəlmişəm... Elə

yorulmuşam... Hər şeydən bezmişəm... Qocaltdız məni...

Belə deyib Nəzrin uşaq kimi hönkürdü. Anası başını onun dizindən qaldırıb təəccüblə qızına baxır, nəsə demək istəyir, amma deyə bilmirdi. Nəzrin isə ağlamaqda davam edirdi...

... – Qızım, sənə nə olub?

Eşitdiyi səsə yuxudan oyanan Nəzrin tanımadığı bir qadının mehribanlıqla onun əlini ovucuna alıb sığalladığını görüb duruxdu. Yerində dikəlib, özünü itirmiş halda soruşdu:

– Siz kimsiz?

Qadın gülümsəyib cavab vermədi. Sualının kobud səsləndiyini hiss edən Nəzrin bir qədər yumşaq tərzdə soruşdu:

– Mən yatmışdım?

– Hə, özün də yuxuda ağlayırdın.

– Bərkdən? – Nəzrin pərt oldu.

– Yox, güclə eşidiləcək səslə.

– Bəs siz necə eşitdiz? – Nəzrin təəccübləndi.

– Üzündə elə qəmli ifadə var idi ki... – Qadın bunları elə mülayim tərzdə dedi ki, Nəzrin utandığından nə edəcəyini bilmədi. Sakitcə:

– Ay aman, nə pis oldu! – dedi.

Qadın onun yanında oturdu. Nəzrinin çuxura düşmüş gözlərinin altındakı qara dairələrə, batmış ovurdlarına diqqətlə baxıb başını yellədi:

– Evdən getmisən, – dedi. Bu sözlər onun dilində "mənə yalan danışa bilməzsən" kimi səsləndi.

Nəzrin nə isə demək istədi, amma qadın ona danışmağa imkan vermədi:

– Heç nə demə. Üzündə hər şey yazılıb.

Nəzrin xurmayı rəngli qalın saçlarını səliqə ilə başının arxasında sancaqlamış, üzünə yüngülcə kosmetik əl gəzdirmiş bu qadına heyrətlə baxıb deməyə söz tapmadı. Qadının

cazibədarlığını ondan gələn xəfif ətrin tamamladığı diqqəti-ni cəlb etdi. O, soruşdu:

– Üzümdə nə yazılıb ki?

Qadın cavab vermək əvəzinə sual verdi:

– Niyə evdəkilərdən küsmüsən?

Nəzrin həyatında ilk dəfə gördüyü bu qadına yalan danışa bilməyəcəyini anladı, həqiqəti deməyə isə utandı. Qadın onu bu çətin vəziyyətdən qurtarmaq qərarına gəldi:

– Getməyə yerin yoxdur, eləmi?

Məhrəmanə, həm də canıyananlıqla verilmiş bu suala sə-mimi cavab verməmək mümkün deyildi.

– Elədir. – Bu sözü Nəzrin elə kədərlə dedi ki, qadın daha heç nə soruşmadı. Bayaqdan üzbəüz skamyada otur-duğu yerdən seyr edərkən onun şəhər qızlarından fərqli görkəminə, bər-bəzəksiz, sadə geyiminə diqqət yetirir, onu səhər tezdən evdən buraya gətirib çıxaran səbəbi anlamağa çalışırdı. Onunla söhbət etdikcə gözəl, qəmli gözlərindəki ifadənin mənasını özü üçün aydınlaşdırmağa səy göstərirdi. Qızı gördüyü ilk andan nədənsə onunla özü arasında qəribə bir bağlılıq hiss edir, taleyinə etinasız qala bilmirdi. Dərin sarsıntı keçirdiyini hiss edir, onu bu vəziyyətdə, tək-tənha qoyub getməyə insafı yol vermirdi.

Bir xeyli heç nə demədən, beləcə yanaşı oturdular. Bir azdan Nəzrin ayağa qalxanda qadın da onun kimi etdi.

– Bizə gedirik. Evdə məndən başqa heç kəs yoxdur. – Ami-ranə tərzdə deyilən bu sözlərdəki səmimiyyəti hiss etməmək mümkün deyildi. Nəzrin ürəyində qadına minnətdar idi.

– Çox sağ olun ki, tanımadığınız adamı evinizə dəvət edirsiz. Amma sizi narahat etmək istəmirəm. Yaxşısı budur mənə kirayə qalmaq üçün ev tapmaqda kömək edin.

– Gedək, evdə məsləhətləşib, bir qərara gələrik. Mən

şəhərin mərkəzində, Sovetski məhəlləsində yaşayıram.

Bu sözlər Nəzrinin ürəyində ümid işığı yandırdı. O, heç nə demədən qadının yanına düşdü.

Onlar avtobusdan düşüb köhnə məhəlləyə buruldular. Bir azdan dar dalandan keçib ikimərtəbəli yaşıl rəngli binaya çatdılar. Həmin binanın tinindən dönüb, alçaq daş hasarın yanında qadın cibindən açar çıxararaq ensiz taxta darvazanın, sonra isə həyətdəki birmərtəbəli evin qapısının qıfılını açıb Nəzrini içəri dəvət etdi:

– Gəl qızım, keç içəri. Əl-üzünü yu, rahatlan. Yorulub əldən düşmüsən. İndi bir yerdə çay içərik, – deyib onu dəhlizdən otağa ötürdü, özü isə mətbəxə keçdi.

Bu kiçik mənzil onun sahibinin kasıb, amma zövqlü adam olduğundan xəbər verirdi. Hər tərəfdə ürəkaçan bir səliqə-sahman var idi. Kresloda oturub maraqla ətrafı seyr edən Nəzrin minnətdarlıq hissi ilə xilaskarı haqqında düşünürdü. "Bu, Allahın möcüzəsidir, başqa cür ola bilməz", – deyə ürəyində öz-özü ilə danışırdı.

Bir azdan qadın içinə çay dəsgahı yığılmış böyük podnosla otağa daxil oldu. İçindəkiləri stolun üstünə düzüb gülümsədi:

– Evimizə xoş gəlmisən. Gəl tanış olaq, mənim adım İncidir.

– Mənimsə adım Nəzrindir.

– Çayımızı içək.

Bir azdan süfrəyə pendir, pomidor, xiyar düzən ev yiyəsi qayğanaq bişirib gətirdi. Nəzrinin iştahla yeməyə girişdiyini görüb guya duz dalınca mətbəxə keçdi. Qız yeməyini rahat yesin deyə qəsdən ləngidi. Yeyib doyduqdan sonra Nəzrin ev yiyəsi ilə birgə süfrəni yığışdırdı, qab-qacağı yuyub yerinə qoymağa kömək etdi.

– Duş qəbul edə bilərəmmi? – Nəzrin utana-utana soruşdu.

İnci ona dəsmal, xalat verib vanna otağına ötürdü. Çimib qurulanan Nəzrinin gözlərinin yumulduğunu görüb ona içəri otaqdakı çarpayıda yer saldı:

– Yorulmusan, bir az dincəl, sonra söhbət edərik, – dedi.

Nəzrin İnciyə minnətdarlıq dolu baxışlarla baxdı. İndi ona isti yorğan-döşək qədər heç nə lazım deyildi. Başını yastığa qoyması ilə yuxuya getməsi bir oldu.

İnci qızın çarpayısının yanında oturub ona diqqətlə tamaşa etdi. Bu simanın ona həddindən artıq doğma olduğunun fərqinə vardı. Qız ona kimi isə xatırladırdı. Kimi axı? Heç cür tapa bilmədi. Şirin yuxuda olan qızın qıvrım saçlarına şəfqətlə baxdı. Onu oyadacağından ehtiyat edib otaqdan çıxdı.

Nəzrin yuxudan oyananda günortadan ötmüşdü. Onun gözünə çarpayısının yanındakı stula qoyulmuş məktub sataşdı. Onu açıb oxudu. İnci xanım yazmışdı: "Nəzrin, elə şirin-şirin yatmışdın ki, səni oyatmağa qıymadım. Mən işə getdim. Axşam saat 7-də qayıdacağam. Qəlyanaltı mətbəxdədir".

Bu bir neçə cümlədən onun ürəyinə qəribə bir doğmalıq yayıldı. Xilaskarı olan bu qadın Nəzrinin kövrək, incik, yaralı qəlbinin ən həzin tellərini tərpədə bilmişdi. Heç bir təmənna ummadan qayğısını çəkən, uşaq kimi qulluğunda duran, yedirib-içirdən, təmiz yorğan-döşəkdə yatırdan, nəhayət, tanımadığı adama evini etibar edib işə gedən bu yaraşıqlı, kübar qadına qarşı onda qəribə bir maraq, sonsuz hörmət, həm də həsəd hissi oyanmışdı. Onun danışıq tərzi, səsinin ahəngi və məlahəti, səbirliliyi və təmkinliliyi qızı heyran etmişdi. "Görəsən neçə yaşı var? Ailəsi, uşaqları, əri varmı?"

Suallarına cavab tapmaq ümidi ilə yerindən qalxıb evi dolaşmağa başladı. İki balaca otaqdan, mətbəxdən və qonaq otağını əvəz edən aynabənddən ibarət bu xudmani mənzilə

artıq isnişmişdi. Şifoneri, ayaqqabı şkafını açıb baxdı: burada kişiyə və uşaqlara aid heç nə görmədi. “Tək yaşayır”, – deyə öz-özünə pıçıldadı.

Həyətə çıxanda Nəzrin oranın toz içində olduğunu görüb süpürdü. Qapının arxasına necə gəldi atılmış kərpicləri səliqə ilə üst-üstə yığıb su şırnağı ilə həyəti yudu.

Mətbəxə keçəndə qalın dəsmalın arasında hələ də isti olan dəm çaynikini, süfrəyə bükülmüş, içində südlü sıyıq olan qazanı görüb kövrəldi. Özünə çay süzüb, çox sevdiyi sıyıqdan bir nimçəyə çəkib ləzzətlə yedi. Sonra mətbəxin səliqə-sahmanına girişdi. Bu, onun xoşladığı məşğuliyyət idi. Anası həmişə deyərdi ki, əgər Nəzrinin əli mətbəxə, hamama dəydisə, deməli hər yer par-par parıldayacaq. Qab-qacağı, stəkanları soda ilə yuyub işıldatdı. Mətbəxin və aynabəndin pərdələrini hamamda yuyub həyətdəki ipdən asdı. Sonra şüşələri silib vanna otağına keçdi.

Bütün bu işləri görəndən sonra yenidən mətbəxə keçib soyuducunu açdı. Alt gözdəki dərin boşqabda çəkilmiş ət vardı. Düyüsü, soğanı, ədviyyatı vurulmuş ətin dolma üçün hazırlandığına şübhə ola bilməzdi: yanında cığala kağıza bükülmüş üzüm yarpaqları qoyulmuşdu. Nəzrin onları çıxarıb dolma bükməyə girişdi. İşini bitirib qazanı ocağın üstünə qoydu. Çayniki su ilə doldurub çay hazırlığına başladı.

Axşam işdən evə qayıdan İnci həyət qapısını açıb içəri girəndə gözlərinə inanmadı. Yuyulmuş həyət, şüşələri təmizlikdən parıldayan aynabənd, içəridən gələn dolma ətri onu kövrəltdi. Evindəki səliqə-sahmanı görüb özünü itirən qadın onun gəlişindən xəbərsiz halda mətbəxdə vurnuxan Nəzrinə baxır, bu gənc qızın ilk baxışda sakit görünən təbiətinin arxasında dərin duyğuların gizləndiyini sövq-təbii anlayırdı.

İnci xanımı görəndə Nəzrin sevinclə əllərini yana açıb onun qabağına qaçdı, boynuna sarılıb üzündən öpdü. Belə səmimi, bu cür isti görüş gözləməyən qadın kövrəlib qızın yanağından öpdü:

– Sən dincəlmək əvəzinə neyləmisən? Niyə özünü yormusan? İçəri girəndə ev-eşiyi tanıya bilmədim. İnan ki, işgüc əlindən vaxt tapıb düz-əməlli ev işi ilə də məşğul ola bilməmişəm.

Nəzrin onu dartıb otağa apardı:

– Gəlin çörək yeyək, dolma hazırdır.

Ev sahibi kimi ərklə onun gödəkçəsini əlindən alıb asılqandan asdı. Sonra süfrə salıb nimçələrə çəkdiyi yeməyi masaya gətirdi. İnci özünün sakit evinə özü ilə bərabər bir istilik, işıq və məhəbbət gətirmiş bu zərif qıza heç vaxt duymadığı, indiyə kimi ona məlum olmayan duyğularla bağlandığını hiss edir, bundan varlığına xoş bir kövrəklik yayılırdı. Düşünürdü ki, insanın ömrünü mənalı edən əsas şərtlərdən biri qəlbən, ruhən yaxın adamların həyatda bir-biri ilə rastlaşmasıdır.

Qarşısındakı bu gənc qızın öz tay-tuşlarından fərqli həyat yaşadığına şübhə ola bilməzdi. Bunu sübh tezdən onu gördüyü andan hiss etmişdi. Arıq bədəni, qəm dolu iri, gözəl gözləri olan, olduqca sadə geyimli bu qız şəxsi həyatına dair suallara könülsüz halda "hə", "yox"la cavab verməsi, daxili narahatlığını səylə gizlətməyə çalışması ilə İncinin diqqətini cəlb edirdi.

Nəzrin də öz növbəsində üzündə gənclik təravətinin izləri qalan, gözlərindən səmimiyyət yağan bu alicənab qadınla rastlaşdığına görə özünü xoşbəxt sanırdı. Ürəyində ona qarşı qəribə bir doğmalıq hissi oyanmışdı. Yağışdan qaçan adam daldalanacaq tapanda necə sevinirsə, o da eləcə sevinirdi.

İnci xanım ona nə isə bir arxayınlıq, sabaha ümid hissi təlqin edirdi.

Süfrə yığışdırılandan sonra İnci Nəzrinin yanında oturub onun əllərini ovuclarına aldı:

– Danış, Nəzrin. Hər şeyi olduğu kimi danış. Danışsan, yüngülləşərsən, inan mənə.

Bu sözləri elə dedi ki, bir anın içində Nəzrinin bütün daxili aləmi təlatümə gəldi. Bu səmimiyyət, bu canıyananlıq qəlbində bu vaxta qədər yaşamadığı, duymadığı bir arzu – boşalmaq, içindəki ağır yükdən qurtulmaq istəyi yaratdı. Boğazında düyünlənmiş qəhəri udub, qəmli həyat hekayəsini danışmağa başladı.

İnci onu dinləyir, eşitdiklərinin təsiri ilə gözləri dolub-boşalır, ağrı-acılarla böyümüş bu qızın əzablarını yüngülləşdirmək üçün təsəlliverici sözlər axtarıb tapmağın lazım olduğu barədə düşünür, amma onları tapa bilmirdi. Nəzrinlə üz-üzə oturub ona qulaq asan İncinin diqqətini birdən onun uzun, qara kirpiklərlə dövrələnmiş iri gözlərinin qeyri-adi rəngi cəlb etdi. Göy, yaşıl və qəhvəyi rənglərin qarışığından yaranmış bu qəribə çalar ona tanış gəldi.

Nəzrin uzun illər ürəyində qubar bağlayan, onu incidən həyat hekayəsini qarşısında oturub diqqətlə onu dinləyən bu xanıma danışandan sonra yüngülləşmiş kimi oldu.

İnci sağ əli ilə onu qucaqladı:

– Evdən getməyin düzgün qərardır. Orda bir az da qalsaydın, ruhi xəstəliyə tutula bilərdin. Getməyin təkcə sənin deyil, valideynlərinin də xilası deməkdir. Daha əvvəlki kimi dalaşmayacaqlar, inan mənə, çünki daha tamaşaçıları olmayacaq. Sən onların yeganə tamaşaçısı olmusan, həmişə özlərini sənə göstərməyə çalışıblar. Sən həm də bir növ hakim rolunu oynamısan. İnnən belə valideynlərin bir-birindən

bərk yapışacaqlar. Doğru sözümdür.

– Mən hər şeyi yenidən başlamaq istəyirəm, İnci xanım. Həyatı təzə səhifədən başlamalıyam. Bilirəm ki, bunu bacaracağam. Mənə kirayə ev tapmaqda kömək etsəniz, sizə minnətdar olaram.

– İnstitutu bitirməyinə nə qədər qalıb?

– Beşinci kursdayam. Bizi diploma buraxıblar. Deməli işə düzələ bilərəm.

– Bəlkə institutu bitirənəcən burda qalasan?

– Yox-yox, nə danışırsız? İstəsəm də, qala bilmərəm, mən təkliyi sevirəm.

Bu sözləri Nəzrin elə qətiyyətlə dedi ki, İnci susdu. Birdən yadına düşdü ki, bir qohumu 8-ci mikrorayondakı birotaqlı mənzilini kirayə vermək istəyirdi. Bunu ona demiş, qızı Sahibənin telefon nömrəsini də vermişdi. Ləngimədən ona zəng çaldı. Mənzilin boş olduğunu eşidəndə sevinib Nəzrinə dedi:

– Gözün aydın, ev tapıldı. Bütün şəhərdə belə ev tapmayacaqsan. Qiyməti də çox münasibdir, cəmi 100 manat. Evin sahibi xaricə gedib, o, imkansız adam deyil, sadəcə istəyir ki, evi əlindən çıxmasın, kommunal xərcləri vaxtlı-vaxtında ödənsin. Onun qızı Sahibə ayda bir dəfə özü gəlib pulu səndən alacaq.

Nəzrin haçansa bu qədər sevindiyini xatırlamırdı. O, İnci xanımın boynuna sarılıb onun üzündən öpdü. Çantasındakı sənədləri çıxarıb stolun üstündə yerbəyer edəndə arasından bir kağız İncinin yanında yerə düşdü. İnci onu yerdən qaldıranda Nəzrin təbəssümlə:

– Şəxsiyyət vəsiqəmin surətidir, – dedi.

İnci xanın vəsiqədə yazılanları ucadan oxudu:

– Hüseynova Nəzrin Sahil qızı...

Birdən səsi qırıldı. Heyrətdən böyümüş gözlərlə Nəzrinə baxdı. Elə bildi yer ayağı altından qaçdı. Uzaq illərin əks-sədası kimi gəlib qarşısına çıxmış, onun tənha həyatına özü ilə bir rəngarənglik gətirmiş bu qıza ilk baxışdan niyə bağlandığının səbəbi ona yalnız indi məlum oldu. Həyatın gözlənilməz möcüzələrlə dolu olduğuna bir daha inandı.

Xoşbəxtlikdən Nəzrin öz aləmində idi. Onun başı yol çantasını rahlamağa qarışmışdı. İnci isə Nəzrinin sarışın qıvrım saçlarına, başının sol tərəfindəki saç ayrımının gözəl dalğasına baxır, neçə gündən bəri onların niyə diqqətini cəlb etdiyinin cavabını indi tapırdı. Onun qarşısındakı bu qız Sahilin övladı idi. "İlahi, qüdrətinə şükür! Bu böyük şəhərdə bu günahsız tifili mənim qarşıma sən çıxardın".

Qadın ilk dəfə görürmüş kimi qızı başdan-ayağa süzür, onda Sahillə oxşarlıqlar axtarıb tapmağa çalışırdı. Onun burnunun quruluşunun, gözlərinin rənginin, hətta barmaqlarının uzunluğunun da eyniliyinə indi fikir verirdi.

İnci xanımın otağın ortasında donub qaldığını görən Nəzrin onun bu qəribə halını özü bildiyi kimi yozdu:

– Kefiniz mənim köçməyimə görə pozuldu? Mən tez-tez yanınıza gəlib-gedəcəyəm, sizi bezdirəcəyəm.

İnci qızı qucaqladı. Bu dəfə onu Sahilin qızı kimi bağrına basdı. Sanki Sahilin qoxusunu ondan almaq istəyirdi. Kövrəlib pıçıldadı:

– Canım mənim! Bilsən sənə necə bağlanmışam!

– Məni demirsiz! – Nəzrin bunu elə səmimi dedi ki, İncinin ürəyinə qəribə bir doğmalıq hissi yayıldı.

Ertəsi gün səhər onlar deyilən ünvana yollandılar. İçində həyat üçün vacib olan hər şeyin olduğu, ortabab təmirli bu mənzil Nəzrinin xilası idi. İnci onun qəmli gözlərində titrəşən sevinc işartılarına baxıb məmnunluqla gülümsəyirdi. Qız

əşyalarını yerbəyer edəndən sonra stolun üstünə bir zərf qoydu:

– Burda qəpik-quruş var, işləyib qazananda qaytararsan, – deyib, ona söz deməyə imkan vermədən qapıdan çıxdı.

İnci yol gedə-gedə Sahillə onun arvadının doğma evi tərk etmiş gənc övladları üçün indi nələr çəkdiklərini təsəvvür edir, onların sonsuz həyəcanlarını, ürək ağrılarını hiss edirdi. Kim bilir, indi ağıllarına nələr gəlir, hansı dəhşətli fikirlər içində çabalayırlar. Bəlkə də polisə məlumat verib, axtarış elan ediblər. Yəqin əvvəl elə düşünüblər ki, Nəzrin bir neçə saatdan sonra qayıdıb gələcək. Ağıllarına da gəlməyib ki, övladları onları bir başqa cür cəzalandırmaq qərarına gəlib. "Təcili Sahilə zəng çalıb, Nəzrinin yerini deməliyəm. Gizlətməyə haqqım yoxdur", – deyə fikirləşdi.

İş yerinə çatan kimi əlləri əsə-əsə yaddaşına həkk olunmuş tanış telefon nömrəsini yığdı. Dəstəkdə tanımadığı kişi səsi eşidildi:

– Allo! Eşidirəm.

– Mənə Sahil Hüseynov lazımdır.

– Bir dəqiqə gözləyin, indi sizi calaşdıraram.

Dəstəkdə tanış səs "Allo" deyəndə İnci titrədi. Stəkanı ağzına tutub dəyişmiş səslə dedi:

– Zəng çaldım sizə deyim ki, Nəzrin barədə narahat olmayasız. Qızınız sağ-salamatdır, kirayə ev tutub yaşayır. Ünvanını, telefon nömrəsini deyirəm, yazın. Amma sizə bir məsləhətim var, bir müddət onu narahat etməsəniz, yaxşı olar, qoyun özünə gəlsin.

– Siz kimsiz? – deyə sevinclə soruşan Sahilin səsində həyəcan vardı.

– Siz məni tanımırsız.

– Bəs telefonumu necə tapdız?

– Nəzrinin bloknotundan gizlincə yazdım. Ünvanı yazın.

İnci sözünü tamamlayıb tez dəstəyi yerinə qoydu. Dərindən nəfəs alıb, həyəcanını dağıtmağa çalışdı.

***

İnci gedəndən sonra Nəzrin stolun üstündəki zərfi açıb orada 200 manat pul görəndə kövrəldi. Cibində cəmi-cümlətanı bir manat pul olduğu yadına düşdü. Yad adama, özgə övladına bu qədər ürəyi yanan qadına ömrünün sonunadək borclu olduğunu anladı. Son bir neçə gün ərzində ilk dəfə özündə qətiyyət hiss etdi. İş tapmaq ümidi ilə telefon zənglərinə başladı. Sonra özü də hiss etmədən qələmi vərəqlər üzərində gəzməyə başladı. Hər növbəti sarsıntıdan sonra onun yeni hekayəsi yaranırdı.

Yazmaqdan yorulub eyvana çıxanda, qonşu binanın onunla üzbəüz eyvanının məhəccərinə söykənib həyəti seyr edən bir gənc diqqətini cəlb etdi. Qeyri-ixtiyari nəzərləri onun müşahidə obyektinə yönəldi. Aşağıda, onun köçdüyü binanın qarşısında dayanıb yaşlı kişidən nəyi isə soruşan iki nəfəri görəndə diksindi: onlar atası ilə anası idi.

Tez eyvanın qapısını örtüb içəri keçdi. Həyəcanını dəf etməyə çalışdı. "Yerimi nə tez bildilər? Görəsən ünvanımı onlara kim verib? İnci xanım? Yox, ola bilməz! Bəlkə polis şöbəsi yerimi öyrənib? Amma necə? Doğrudanmı bizdə polis belə çevik hərəkət edə bilər? İnandırıcı deyil. Bəs onda kim?" Yenidən İnci xanımdan şübhələndi. Onun şəxsiyyət vəsiqəsinə diqqətlə baxması yadına düşdü. Ürəyində qadından incidi, amma etdiyi yaxşılıqlarla müqayisədə bu "pislik" elə kiçik idi ki, məsələni ağartmamaq qərarına gəldi. "Onun yerində olsaydım, mən də eynilə belə hərəkət edərdim" deyə soyuqqanlılıqla özünə təskinlik verdi.

Qapının zəngi çalındı. Nəzrin yerindən tərpənmədi. Zəng

yenidən təkrar olunanda qəribə bir biganəliklə vanna otağına keçib qapını arxasınca örtdü, su kranını açdı ki, səsi eşitməsin. Bir azdan dəhlizə çıxıb gözlükdən baxdı: getmişdilər. Məmnun halda otağa qayıtdı. Sakitlik və tənhalıq onu heç vaxt indiki kimi sevindirməmişdi.

Ertəsi gün axşam yorğun-arğın evə qayıdan Nəzrin qapını açanda dünən blokda rastlaşdığı, qonşusu olan ortayaşlı qadın ona yaxınlaşdı:

– Salam, Nəzrin, mən sənin qonşunam, adım Kamilədir. Səhər anan gəlmişdi, xeyli gözləyib getdi. Bu çantanı sənə çatdırmağı məndən o xahiş etdi. – Belə deyib əlindəkini yerə qoydu, sağollaşıb üzbəüzdəki mənzilinin qapısına tərəf getdi. İçəri keçməzdən əvvəl dönüb kandardan səsləndi: – Bir şey lazım olsa, mənə de, utanma.

Nəzrin ona minnətdarlıq edib çantanı yerdən götürdü. Otaqda onu açanda səliqə ilə yığılmış pal-paltarını gördü. Anasının bu "qayğısı" onu hirsləndirdi. Soyuq biganəlik hissi yenidən ürəyini bürüdü. Keçirdiyi son sarsıntının təsiri hələ keçməmişdi. Paltarların arasında kağıza bükülmüş 300 manat pul görəndə sevinmək əvəzinə qəzəbləndi. Tez evlərinə zəng çaldı. Anasının səsini eşidən kimi birnəfəsə dedi:

– Əl çəkin məndən! Bir də məni izləsəz, pul göndərsəz, evimi dəyişəcəyəm, harda olduğumu heç zaman bilməyəcəksiz!

Dəstəyi zərblə yerinə qoyub mətbəxə keçdi. Bu gündən etibarən yeməyi özü hazırlamalı idi.

O vaxtdan iki il keçirdi. Bu müddət ərzində Nəzrin institutu bitirmiş, dörd dəfə iş yerini dəyişmişdi. Bir qədər sərt təbiəti, insanlara çətinliklə yovuşması, ən əsası isə düzgünlüyü və sözü üzə deməsi ona hər yerdə mane olurdu. Bu iki ildə onu sevindirən yeganə bir şey var idisə, o da İncinin

köməyi və qayğısı sayəsində hekayələrinin "Nəzrin" imzası ilə ara-sıra qəzet və jurnallarda nəşr olunması idi. Bu iki insanı bir-birinə bağlayan bağlardan biri hər ikisinin söz adamı olması idi.

YAZARLAR ALƏMİNDƏ

Adi iş günlərindən biri idi. Qəzet evinin birinci mərtəbəsinin girişindəki polis postunun ətrafında həmişəki mənzərə vardı. Jurnalistlərin keçib-getdiyi geniş dəhlizin sol tərəfindəki pilləkənin başında buranın daimi sakini Elnur başını dizləri üstə qoyub oturmuşdu. Son on ildə həmkarları onu daim burada görməyə adət etmişdilər. Ucaboy, yaraşıqlı, qalın qara saçları alnına tökülən bu 30-32 yaşlarında cavan oğlanın xəstə olması ilk baxışda heç kəsin ağlına gəlməzdi. Həmişə səliqəli geyinən, yanında qalaqlanmış respublika qəzetlərini hər gün bitdə-bitdə oxumaq sevimli peşəsi olan bu adamla hamı hörmətlə salamlaşır, hal-əhval tuturdu. Amma onun bu sakitliyi uzun sürmürdü.

On il əvvəl səhhətində yaranmış problemlərlə əlaqədar işdən çıxarılan Elnurda tez-tez ruhi dəyişikliklər baş verirdi. Belə hallarda o, öz-özü ilə danışır, ucadan kimləri isə söyür, əsəbiliklə siqareti siqaretə calayırdı. Bu, hamının gözü qarşısında baş versə də, onun bu halına polislərdən tutmuş nəşriyyat işçilərinə kimi hamı göz yumur, özlərini görməzliyə vururdular.

Neçə illərdən bəri tanıdıqları, demokratik fikirləri ilə seçilən, yazdığı tənqidi məqalələrlə oxucuların dərin rəğbətini qazanan bu oğlan sayılıb-seçilən jurnalist idi. Lakin on il əvvəl yazdığı hansısa məqalə kimlərinsə xoşuna gəlməmişdi. Deyilənlərə görə, onu huşunu itirənə kimi döyüb, qanına

qəltan olmuş halda evlərinin qapısı ağzına atıb getmişdilər. Özünə gələndə rabitəsiz sözlər danışmağa başlayan Elnuru sağaltmaq mümkün olmamışdı. Gəncin bu hala düşməsinin səbəbi müəmmalı qalmış, onu döyənlər tapılmamışdı.

Həmin hadisədən xəbərdar olan jurnalistlər Elnurla əvvəlki kimi, bəlkə də ondan da çox hörmət və ehtiramla davranırdılar. Ona cibxərcliyi, siqaret verənlər də olurdu. O da sakitcə bu bəxşişləri qəbul edir, öz yeni həyat tərzinə öyrəşirdi. Elnurun anası, ardınca da atası bu haqsızlığa, övladlarının başına gətirilmiş müsibətə dözə bilməyib vəfat edəndən sonra onun qayğısına korrektor işləyən bacısı Səlimə qalırdı. Əvvəlki deyib-gülən, şux zarafatları ilə tanınan Elnur xəstəlikdən sonra sakit, adamayovuşmaz olmuşdu. Bəzən o, saatlarla pilləkənin başında dinməz-söyləməz oturur, öz məzlum görkəmi ilə həmkarlarının ürəyini ağrıdırdı. Yalnız xəstəliyi şiddətlənəndə əvvəlki kimi söhbətcil və höcətkar olurdu.

Beləcə, illər keçir, çox şey dəyişir, bircə Elnurun öz iş yeri olan Qəzet evinə sevgisi azalmırdı. O, qışın iliklərə işləyən soyuğunda da, yayın dözülməz istisində də "işə çıxırdı". Müxtəlif redaksiyaların çap olunmuş qəzet və kitab bağlamalarını daşımaqla gündəlik müzdunu qazanan Elnur bir gün təsadüfən işdə olmayanda bu, hamının ümumi narahatlığına səbəb olurdu. Amma çoxlarında acı təəssüf doğuran o idi ki, son vaxtlar "dostları" onu içkiyə öyrəşdirmişdilər. Arada özləri ilə nahara aparır, "yaxşılıq" edib içki içirdirdilər ki, dərdlərini unutsun. İçəndən sonra nitqi açılan Elnura baxıb onun qəribə "natiqliyi" ilə məzələnənlər, bu gəncin həyat faciəsini dərindən hiss etməyib gülüş obyektinə çevirənlər də var idi.

Qəzet evinin girişinin ikinci daimi sakini 80 yaşlı Almurad Səfərli idi. Bir vaxtlar səs salan felyetonları və

rüşvətxorluğu ilə tanınan bu qanıacı, sərt təbiətli köhnə mətbuat işçisi bir ildən artıq idi ki, alsheymer xəstəliyindən əziyyət çəkirdi. Elə o vaxtdan da otağında üst-üstə 5-10 dəqiqə olur, qalan vaxtını isə burada keçirirdi. Onun hər gün adəti üzrə işə gələnlərlə bir-bir salamlaşıb, sonra öz ənənəvi təklifinə keçməsinə artıq hamı öyrəşmişdi:

– Gəlsənə sənə bir mükafat təşkil edək?

Almurad Səfərlini yaxından tanıyanlar bu sözlərin mənasını yaxşı başa düşdüklərindən, heç nə deməyib, gülə-gülə yollarına davam edirdilər.

Mükafat dedikdə o, bir il əvvəl vəfat etmiş Zeynal Həmidovdan qalma trafaretləri nəzərdə tuturdu. Zeynal Həmidov jurnalistlər arasında "işbaz" ləqəbi qazanmış qəribə adam idi. O, bir jurnalist təşkilatı təsis etmiş, özünü də həmin təşkilatın sədri elan etmişdi. İş-gücü şöhrətpərəst dost-tanışlarını, hətta jurnalistika ilə heç bir əlaqəsi olmayanları da "səxavətlə" müxtəlif adlarla təltif etmək, onlara mükafat "paylamaq" olmuşdu. "Mükafatçıların" ona ödədikləri 40, 50, 60 manat pulla başını girləyən bu adamın fəaliyyət meydanı son vaxtlar elə genişlənmişdi ki, onun təltif etdiyi adamların siyahıları qəzetlərdə dərc olunmağa başlamışdı. Əvvəllər buna lağ edənlər artıq heç nəyə təəccüblənmirdilər.

Həyat yoldaşı vəfat edəndən sonra Qəzet evindəki kabinetini ancaq yatmaq vaxtı çatanda tərk edən Zeynal müəllim bu doqquzmərtəbəli binadakı redaksiyaların yaşlı əməkdaşları üçün doğma adama çevrilmişdi. Şən, zarafatcıl xasiyyəti sayəsində çoxlu dostlar, tanışlar qazanmış bu adamın otağı səhərdən-axşama kimi gülüş səsləri ilə dolu olurdu. Çoxu yorulanda dincini almaq üçün onun otağına üz tuturdu, Zeynal müəllim də diqqətini heç kəsdən əsirgəmirdi. Nahar fasiləsi vaxtı bura arı pətəyi kimi qaynayırdı.

Zeynal Həmidov vəfat edəndən sonra onun mükafat trafaretləri müavini və kabinet qonşusu olan Almurad Səfərlinin əlinə keçmişdi. Amma müdirindən fərqli olaraq, müavinin tilovuna balıqlar təsadüfi hallarda düşürdü. Zeynal Həmidovun asanlıqla gördüyü işi o, çox çətinliklə davam etdirirdi. Lakin şöhrətpərəst adamlar tapılırdı. Belələri "köhnə qurd" Almurad Səfərlinin diqqətindən yayınmırdı.

Qəzet evinin tanınan simalarından biri də "Həftəbecər" adlı reklam qəzetinin naşiri Yadigar Qasımlı idi. Dövrlə ayaqlaşan, bir qədər məzəli adı olan bu qəzet hər şeydən bir az məlumat verirdi. Əslində, bunlara məlumat yox, mövzuları çimdikləmək demək olardı. Siyasətdən, iqtisadiyyatdan, mədəniyyətdən tutmuş, evdarlığa kimi müxtəlif mövzularda yazılar dərc edən qəzet öz gəlirini əsasən alqı-satqı elanlarından çıxarırdı.

Jurnalistika ilə heç bir əlaqəsi olmayan bu adamın qəzet nəşr etməsi çoxlarında təəccüb doğururdu. Başdan-başa dil xətaları, qrammatik və üslub səhvləri ilə dolu olan "Həftəbecəri"i heç kəs ciddi çap orqanı kimi qəbul etmirdi. Amma Yadigarı bir çox qəzet və jurnal redaktorlarından fərqləndirən bir cəhət var idi: biznes adamı olduğuna görə onun üçün yaradıcılıqdan daha çox biznes maraqları üstünlük təşkil edirdi. Yalnız qazanc məqsədli məqalələr hazırlayan qəzetin kollektivi "Həftəbecər"in səhifələrində reklam, elan və başsağlığı yerləşdirməklə dolanırdı. Dövrün nəbzini tutmağı bacaran Yadigarın "Həftəbecər"i heç kəsin gözləmədiyi halda bir il ərzində ən yüksək tirajlı qəzetə çevrilmişdi. Artıq burada gedən səhvlərə, qüsurlara əhəmiyyət verən yox idi. Respublikanın hər yerindən qəzetə elanlar axışırdı.

Maraqlısı bu idi ki, Yadigar yalnız naşir olmaqla kifayətlənmirdi. O, qarşısına yazıçı olmaq, məşhurlaşmaq məqsədi

qoymuşdu və bu məqsədinə doğru inamla irəliləyirdi. Artıq bir neçə kitabı işıq üzü görmüşdü. Onun janrı bilinməyən "əsərlərinin" redaksiya kollektivinin birgə əməyinin məhsulu olduğu haqqında həmkarları arasında gülməli rəvayətlər dolaşırdı. Eynilə danışdığı kimi, nala-mıxa vura-vura yazan Yadigar Qasımlının böyük bir konveyerin məhsulu olan "nəsr yaradıcılığı" haqqında "maraqlı" xəbərlər tezliklə onun redaksiyasından kənara sızmağa başladı.

Artıq neçə gün idi ki, Yadigar Qasımlının beynində növbəti "əsəri" cücərirdi. Əslində cücərən əsər özü yox, onun gələcək taleyi idi. O, çox təsirli olmalı, çap olunduqdan sonra respublikada səs-səda doğurmalı idi. Janrını əvvəlcədən müəyyənləşdirmişdi: roman. Həcminin bir o qədər böyük olmayacağını dəqiq bilsə də, əsər mütləq roman janrında qələmə alınmalı idi. Kimdi onu janrı düzgün seçməməkdə qınayan? İndi belə şeylərə əhəmiyyət verən var ki? Əsas odur ki, beynindəkiləri tez-tələsik vərəqlərə köçürsün, əməkdaşları onları nizama salsın, o da çapı gecikdirməsin və tezliklə kitabının təqdimatını keçirsin.

Tezlik onun həyat şüarı idi. Hər işi sürətlə, çevik görməyi xoşlayan Yadigar Qasımlı axşamdan köməkçisinə – institutu yenicə bitirib onun yanında işə düzəlmiş Nəzrinə zəng çalıb, səhər saat 9-un yarısında, həmişəki vaxtdan yarım saat tez işdə olmasını dönə-dönə tapşırdı. Ona əsər diktə edəcəyini söylədi. Nəzrini işə götürəndə, əsas vəzifəsinin redaktorun əsərlərini kompüterdə yazmaq və onları redaktə etmək olduğunu izah etmişdi. Nəzrindən tələb olunan o idi ki, adətən Azərbaycan və rus dillərini qarışdıra-qarışdıra, tez-tez və rabitəsiz danışan redaktorun cümlələrini dil və üslub baxımından qaydaya salsın.

Səhər Yadigar Qasımlı otağa girəndə Nəzrinin artıq

kompüterin arxasında oturduğunu görüb sevindi:

– Bax, diqqətli ol ha, bu, bizim sənlə ilk yaradıcı işimizdir. Cəldliyin və söz ehtiyatın mənim üçün çox vacibdir, – deyib əlindəki vərəqlərdən romanının ilk cümlələrini diktə etməyə başladı. Nöqtəsi, vergülü bilinməyən bu qarma-qarışıq cümlələri – rabitəsiz fikir yığınını kompüterə köçürən Nəzrin çaşqınlıq içində idi. İnstitutda təhsil aldığı beş il ərzində Azərbaycan dilinin qrammatikasının qayda-qanunlarını dərindən öyrənmiş bu qızın ən sevimli məşğuliyyəti bədii kitab oxumaq olmuşdu. Azərbaycan və dünya klassiklərinin demək olar ki, bütün məşhur əsərlərini mütaliə etmişdi. Qarşısındakı "yazıçı" isə düzgün cümlə qura bilmirdi. Onun söylədikləri bədii ədəbiyyatın heç bir janrına uyğun gəlmirdi. Ortayaşlı bu adama – onu işlə təmin etmiş redaktora bunları necə desin? Birdən sözləri xoşuna gəlmədi?

Artıq yarım saat idi ki, Yadigar əlindəki vərəqlərdən oxuyur, Nəzrin yazırdı. Saat 9-da o, son cümləsini deyib işini yekunlaşdırdı.

– Hə, Nəzrin, mənim işim bununla bitdi, indi sənin işin başlayır. İndicə yazdıqlarını cümləbə-cümlə diqqətlə redaktə edib, qaydaya salıb mənə təhvil verəcəksən, mən də onları oxuyacağam.

– Yadigar müəllim, mətn o qədər qarışıqdır ki... Nə nöqtəsi var, nə vergülü. Hadisələr personajlarla uzlaşmır. Rabitəsizlik var...

– Bəs sənin işin nədən ibarətdir? Onları sən qaydaya salmalısan da, – redaktor onun sözünü kəsdi.

– Mən? – Nəzrin heyrətə gəldi.

– Bəs nə? Səni işə götürəndə nə demişdim?

– Sizi başa düşmədim, Yadigar müəllim, – Nəzrin təəccüblə müdirinin üzünə baxdı.

– Burda başa düşməməli nə var ki? Mənim tələsik sənə yazdırdığım cümlələri sən Azərbaycan dilinin qrammatika qaydalarına uyğun şəkildə nizama salmalısan.

Nəzrin iki aylıq gərgin axtarışlardan sonra, nəhayət, böyük çətinliklə tapdığı işi itirməmək üçün daha heç nə demədi.

– Neçə kömpüter vərəqi alındı? – deyə müdir soruşdu.

– Beş.

– Hə, deməli nüvəmiz hazırdır. Qaldı onu ətə-qana doldurmaq, canlandırmaq, bəzəmək işi. Sənə bir həftə vaxt verirəm. Hazırlayacağın mətn ən azı 30 vərəq olmalıdır.

Redaktor bunu deyib otaqdan çıxdı. Çaşqınlıq içində qalan Nəzrin yazdıqlarını diqqətlə oxumağa başladı və dəhşət içində öz-özünə etiraf etdi ki, bu söz yığınından mətn düzəltmək ondan ötrü çox çətin olacaq. Amma başqa çarəsi yox idi. Ona görə də işə başladı. İlk abzası bir təhər abıra salandan sonra anladı ki, bu, olduqca əziyyətli işi görməkdənsə, mətni özü yazsa, daha məqsədəuyğun olar. Həmin fikirlə cızma-qaraları əvvəldən-axıra kimi yenidən diqqətlə oxudu. Onları təhlil edib özü üçün 10 bənddən ibarət təxmini plan cızdı. Əsərin qəhrəmanlarının adlarını və süjet xəttini özü üçün müəyyənləşdirəndən sonra yazıya girişdi.

Bir azdan qapı açıldı, üzbəüz otaqda oturan şöbə müdiri, ortayaşlı Qəmər xanım içəri girdi. O, gülə-gülə soruşdu:

– Nəzrin, qızım, yaradıcılıq alovundasan?

Nəzrinin yanaqlarının pörtdüyünü, çaşqınlıq içində olduğunu görüb sualı sual dalınca verdi:

– Müdir təzə əsər yazır?

– Hə. – Nəzrin təəssüf qarışıq peşmançılıqla cavab verdi, sonra isə soruşdu:

– Nədən bildiz?

– İki ildir bu redaksiyada işləyirəm, səndən sonra həmin

cızma-qaralar mənim üstümə gələcək.

– Doğrudan?

– Bəs nə bilmişdin? Hələ məndən sonra redaktor müavini Aqil müəllim də öz düzəlişlərini edəcək. – Qəmər xanım Nəzrinin heyrətini görüb güldü: – Sənə mətni neçə vərəqə çatdırmaq tapşırılıb?

– 30-a.

– Mən isə ondan ən azı 60 vərəq düzəltməli olacağam. Səndən sonra cümlələri ətə-qana doldurmaq, onları səlisləşdirmək mənim boynuma düşür.

– Siz ancaq bununla məşğul olursuz?

– Yox, redaksiyanın işləri başdan aşır. Bu, əlavə işdir. Müdirin sözündən çıxmaq olmaz, yoxsa işini itirə bilərsən. İş tapmaq da ki, özün bilirsən, çox çətindir.

– Bəs Aqil müəllim nə edəcək?

– O da bizim qəlibə saldıqlarımızdan əsər düzəldəcək. Bədii təsvirlərlə, dialoqlarla onu zənginləşdirəcək. Bütün bunları başa çatdırıb, təxminən 100 səhifəlik bu əsəri Yadigar müəllimə təhvil verəcəyik. O, oxuyub düzəlişlər edəcək, tənqidi qeydlərini bizə bildirəcək, biz də bütün bunları nəzərə alıb əsərə əlavələr edəcəyik.

Nəzrin heyrət içində Qəmər xanımı dinləyirdi. Ağlına sığışdıra bilmirdi ki, yaradıcılıq aləmində belə şey ola bilər. Eşitdikləri onu təəssüfləndirmişdi.

– Bəs Yadigar müəllim o biri kitablarını necə yazıb?

– Elə beləcə.

– Redaksiyada bunu bilirlər?

– Özü elə bilir ki, heç kəsin bundan xəbəri yoxdur. Amma burda heç kəsdən heç nə gizlin qalmır.

– Belə kitab onun nəyinə lazımdır? Görəsən nə məqsədlə belə edir?

– Şöhrət naminə. Bir-iki aydan sonra kitab çap olunanda təmtəraqla onun təqdimatını keçirəcək, qəzetlərdə, jurnallarda bu barədə yazacaqlar, televiziya ilə göstərəcəklər.

Hələ məktəb illərindən hekayələr yazan, tələbəlik dövründə isə bu işə ürəkdən bağlanan, həyəcan və sarsıntılarını bədii düşüncələrə çevirərək, vərəqlərə köçürməyi xoşlayan Nəzrini Qəmər xanımın sözləri sanki yuxudan ayıltdı. İndicə kompüterdə yazdığı bu cızma-qaralarla öz hekayələrini müqayisə edəndə kövrəldi. Çoxlu hekayələri olsa da, bu vaxta kimi onlardan ancaq bir neçəsi işıq üzü görmüşdü. Redaksiyalar ona yazılarını dərc edəcəklərini vəd edir, amma bunu aydan-aya, ildən-ilə ötürürdülər. Yadigar Qasımlı kimilərinin hekayə və povestləri isə ədəbi orqanların gülünə çevrilmişdi. O, yazıçı imicini çoxdan qazanmışdı.

Bu ədalətsizliklə heç cür barışa bilməyən Nəzrin ikili hisslər arasında qalmışdı. Bir hiss ona vaxtında başqa bir iş tapmağın vacibliyini pıçıldayır, başqa bir hiss isə cibində siçan oynadığını xatırladırdı. İkinci hiss üstün gəldi, çünki kirayə pulunu vermək vaxtı yaxınlaşırdı. Son manatlarını xərcləyirdi. Kimdənsə borc pul almaq isə ona daş qaldırmaqdan da çətin görünürdü.

Qəmər xanım otaqdan çıxan kimi qələmi işə düşdü. Çoxdan beynində dolaşan, rahatlığını əlindən alan bir mövzu sanki "məni yaz" deyə içində şivən qoparmışdı. Hər şeyi unudub öz aləminə qapıldı. İlk dəfə idi ki, povest yazırdı. Adətən qələmə sarılanda ətrafındakı hər şeyi unudan, az qala oturduğu yerə pərçimlənən Nəzrinin nahar fasiləsinin nə vaxt gəlib çatdığından xəbəri olmadı. Başı yazıya elə qarışdı ki, günorta kabinetindən çıxıb harasa getməyə hazırlaşan Yadigar Qasımlını da görmədi. Redaktor onun pəjmürdə halını, əyilib vərəqlərə nə isə yazdığını, qələminin sürətlə

işlədiyini görəndə özündən razı halda gülümsədi:

– Hə, Nəzrin, deyəsən işə başlamısan.

Onun səsinə başını qaldıran Nəzrin:

– Bəli, Yadigar müəllim, – deyə sakitcə cavab verib yenidən öz dünyasına daldı.

Həmin gün redaksiyanı hamıdan gec tərk elədi. Gedib evə çatanda axşam saat 9 idi. İştahı olmadığından mətbəxə keçmədi. Əslində orada yeməyə bir şey yox idi. Divanda oturub televizoru qoşdu. Baxmağa maraqlı heç nə tapmayıb bir azdan onu keçirdi. Əli heç nəyə yatmadığından çarpayısına uzandı. Gözlərini yumub yatmaq istədi. Amma yox, deyəsən yuxu gözlərindən qaçaq düşmüşdü. Çarpayısında narahat halda bir xeyli qurcalandıqdan sonra yata bilməyəcəyini anlayıb çantasından əlyazmalarını çıxararaq, povestin ardını yazmağa girişdi.

Həmişə belə olurdu. Qələmini işə salan kimi, hər şey yadından çıxırdı. İndi də kimliyini, harada olduğunu, nə ilə məşğul olduğunu, bir sözlə, bütün varlığını unudub özündən biixtiyar təsvir etdiyi hadisələrin axınına düşdü. O, povestinin qəhrəmanlarının taleləri ilə yaşayır, onların kədərlərinə acıyır, uğursuzluqlarına təəssüflənir, sevincləri ilə fərəhlənirdi. Bu, ondan ötrü adi hal sayılırdı. Nəzrini ətrafındakı insanlardan, həmyaşıdlarından, doğmalarından fərqləndirən bu xüsusiyyəti idi. Yalnız yazdığı zaman özü olurdu. Yalnız bu vaxt üzünə daxili məmnunluq ifadəsi yayılırdı. İndi də belə idi, içini tərpədən, onu çalxalayan, rahatsız edən duyğularını vərəqlərə boşaldırdı.

Dan yerinin ağarmasından, səhərin açılmasından xəbəri olmadı. Zəngli saat səsinə diksindi. Səhər saat 7 idi. Bütün gecəni işlədiyindən vaxtın necə keçdiyindən xəbəri olmamışdı. Jurnal stoluna əyilərək yazmaqdan sağ böyrü ağrıyırdı.

Mətbəxə keçib çaydanı qazın üstünə qoydu. Sonra isə saçlarını daramağa başladı. Güzgüdə gözlərinin şişdiyini görəndə kefi pozuldu. Çaydan fit çalanda qazı söndürüb çay dəmləmək istədi. Amma çay qabının boş olduğunu görüb qanıqara halda soyuducunu açdı, orada yeməyə bir şey tapmayıb bağladı. Əslində, yemək istəmirdi, fikri yazdıqlarının yanında qalmışdı. Adəti idi, bir mövzuya girişdimi, onu tamamlayana kimi gərginlik içində olur, heç cür sakitlik tapmırdı. Beynindəki hadisələrin əsirinə çevrilir, onlarla nəfəs alırdı.

Əlyazmalarını çantasına qoyub işə getmək üçün qapıdan çıxdı. Redaksiyaya çatanda yadına düşdü ki, redaktorun tapşırığını yerinə yetirməyib. "Bu gün gərək onun cızma-qaraları ilə məşğul olum", – deyə özünə qəti söz verdi.

Dediyinə əməl elədi. Bütün günü başını qaldırmadan müdirin tapşırığını yerinə yetirməklə məşğul oldu. Axşam evə getmək vaxtı çatanda cəmi 6 vərəqlik yazını abıra sala bildiyini anladı. Əslində bu, az iş deyildi, çətini başlamaq idi. Qarşıda hələ dörd günü vardı. Bu müddət ərzində ona tapşırılmış 30 vərəqlik yazını mütləq ərsəyə gətirməli idi, başqa çarəsi yox idi.

Nəzrindən ötrü bu iş biyara getmək qədər ağır idi. Ümumiyyətlə, ömrü boyu ürəyi yatmayan işə əli yatmazdı. Ələlxüsus da ki, yazı-pozuda.

"Həftəbecər" qəzetinin redaksiya həyatına hələ tam uyğunlaşmamışdı. Buradakı səs-küyə, müxtəlif yaşlı jurnalistlərin mübahisələrinə, zarafatlarına da öyrəşməmişdi. Sakit, bir qədər çəkingən olduğundan insanlarla çətinliklə təmas qura bilirdi. Uşaqlıqdan belə öyrəşmişdi, daxili inamsızlıq hissi ona daim mane olurdu.

Yadigar Qasımlı Nəzrini təsadüfən özünə köməkçi götürməmişdi. İşə düzəlmək üçün redaksiyaya müraciət edən

gənclərin anket göstəricilərini gözdən keçirmək onun ən çox xoşladığı iş idi. Nəzrinin anketindən qızın hekayələr yazdığını, bir neçəsinin dərc olunduğunu öyrənəndə, bu sahədəki bacarığını əyani şəkildə yoxlamaq və ondan öz əsərlərinin redaktəsində istifadə etmək qərarına gəlmişdi. Qızın maddi vəziyyətinin heç də yaxşı olmadığını, kirayədə yaşadığını, son iki ay ərzində işsiz qaldığını biləndə arxayın olmuşdu ki, o, yeni iş yerindən ikiəlli yapışacaq.

Həftənin sonunda Nəzrin səliqə ilə çap olunmuş 30 vərəqdən ibarət yazını redaktorun stolunun üstünə qoydu. Onu təhvil verəndə elə bildi çiyinlərindən ağır bir yük götürüldü. Kabinetinə qayıdıb sevinclə povestinin ardını yazmağa girişdi.

Yadigar isə maraqla "əsərinin" ilkin variantını oxumağa girişdi. Bu, onun sevimli məşğuliyyəti idi. Başqa heç bir işdən bu qədər zövq almırdı. Şəhərin müxtəlif yerlərində bir neçə ticarət obyekti olan, pula pul deməyən bu adamdan ötrü onun çap olunmuş "kitab"ları övladları qədər əziz idi. Daxilən o, yazıçı idi. Beyni ən müxtəlif mövzularla dolu olurdu. Onları nizama salıb, ardıcıl şəkildə yazmağa isə nə səbri, nə hövsələsi, nə də qabiliyyəti çatırdı.

Özündən razı olan, hətərən-pətərən danışığı, bir mövzudan o birinə hoppanmağı ilə tabeliyindəki işçiləri yoran bu adam dözülməz xasiyyəti ilə adamları bezdirdiyini ağlına da gətirmirdi. Əksinə, ona elə gəlirdi ki, Allah ona bir çox sahələrdə istedad verib. İxtisasca iqtisadçı olan Yadigar öz sahəsini nə qədər yaxşı bilirdisə, ədəbiyyatdan, yazı-pozudan bir o qədər uzaq idi. Əsl biznesmen kimi hər şeyə pul müstəvisində baxır, pul gücünə yazıçı kimi məşhurlaşmağın çətin olmadığını dərk edib istedadlı, bacarıqlı, qabiliyyətli insanların beyin məhsullarının istismarı sayəsində addım-addım irəliləyir, pillə-

pillə qalxırdı.

Nəzrinin redaktəsini oxuyan Yadigar onun rəvan nəql-etmə qabiliyyətini, cümlələrinin səlisliyini, söz ehtiyatının zənginliyini görüb uşaq kimi sevindi. Qızın bədii təsvir vasitələrindən gen-bol istifadə etməsi, yeri gəldikcə geniş yayılmış xalq deyimlərini, atalar sözlərini işlətməsi diqqə-tindən yayınmadı. İndiyə kimi onun ilk oxucularından heç biri öz vəzifəsinə bu qədər məsuliyyətlə, bu qədər ürəklə ya-naşmamış, işə belə can yandırmamışdı.

Yadigar ürəyində Nəzrinin qələminə qibtə etdi. "Bu cür istedadla nə əcəb babat bir işə düzələ bilməyib?" – deyə öz-özünə sual verdi. Əvvəl fikirləşdi ki, qızın maaşını qal-dırsın. Lakin sonra "Hələ tezdir, qoy qudurtmayım", – deyə fikrini dəyişdi.

Yadigar Qasımlının özəlliklərindən ən əsası onun son dərəcə simic olması idi. Bunu Qəzet evində bilməyən yox idi. Elə bu səbəb görə də onun redaktor olduğu qəzetdə heç kəs bir-iki ildən artıq duruş gətirmirdi. Son dərəcə tələbkar olmasına, sərt təbiətinə və qaba rəftarına çox az adam tab-laşa bilirdi. O, cüzi maaşla böyük həcmdə iş gördürmək ba-carığı ilə bir çox həmkarlarından seçilirdi. Ona görə də işə götürdüyü gənclər başqa yerdə yaxşı iş tapan kimi dərhal bura ilə vidalaşırdılar. Lakin bir şey də həqiqət idi ki, bu həddindən artıq tələbkar adamın rəhbərliyi altında çalışanlar tezliklə peşəkarlaşırdılar. "Həftəbecər" onlardan ötrü dayaq nöqtəsi rolunu oynayırdı, buradan çıxandan sonra asanlıqla özlərinə daha sərfəli iş yerləri tapa bilirdilər.

Bir azdan Aqil Ələsgərovu yanına çağıran Yadigar yazını ona uzadıb dedi:

– Aqil, dünən işə qəbul etdiyim gənc qızın ürəyi mənim əsərimə Qəmərlə səndən daha çox yanır. Gör necə məsuliy-

yətlə çalışıb! Siz isə bu işə həmişə başdansovdu yanaşırsız. Ürəyiniz yanmır, özünüzə əsla əziyyət vermək istəmirsiz. Al, oxu, Nəzrinin redaktəsinə fikir ver. İki ildir bu iş üçün sizə maaş verirəm, amma bunun müqabilində istədiyim nəticəni ala bilmirəm.

– Niyə elə deyirsən, Yadigar? Bir Allah şahiddir ki, sənin kitablarına Qəmər xanım da, mən də canımızı qoyuruq. Amma unutma ki, biz jurnalistik, yazıçı deyilik. Mövzuya jurnalist yanaşması ilə yazıçı yanaşması fərqlidir. Nəzrin isə yazıçıdır, bu, onun peşəsidir. Hələ tanınmasa da, ədəbi jurnallarda dərc olunan hekayələrini oxuyanlar, dəst-xəttini görənlər etiraf edirlər ki, gələcəkdə ondan yaxşı yazıçı olacaq.

– Bəsdir daha, mübahisə eləmə. Olan oldu, keçən keçdi. Heç olmasa bu dəfə bir az ürəklə işlə. Hələlik işi Qəmər xanıma verirəm, sonra onu sənə çatdıraram. Dünənki uşaqdan utan, – deyə Yadigar baxışları ilə ona qapını göstərdi.

Aqil daha heç nə demədən sakitcə otaqdan çıxdı. Bir həftə əvvəl işə götürdükləri Nəzrinə ürəyində acığı tutdu. "Deyəsən bu qız mənim çörəyimə bais olacaq", – deyə fikirləşdi. Sonra isə özünü danladı: "Elə yaxşı oldu sənə! Onu işə götür deyən sən deyildinmi? Yersiz gəldi, yerli qaç, buna deyərlər. Pisliyi kimdən gördün, yaxşılıq etdiyin adamdan".

***

Redaktorun otağında iclas gedirdi. Yadigar hara isə tələsirmiş kimi, dili topuq vura-vura, canfəşanlıqla danışırdı. Arada ağzından tüpürcək sıçrayanda, yaxınında oturan əməkdaşlar özlərini qorumaq üçün üzlərini kənara çevirirdilər. O isə hamını yorduğuna əhəmiyyət vermədən söhbətinə davam edir, redaksiyanın aylıq planı ilə bağlı mülahizələrini onlarla bölüşürdü. Eyni fikirləri dəfələrlə təkrarlayaraq, adəti üzrə

hamını özünü dinləməyə məcbur edirdi.

İlk dəfə redaksiyanın iclasında iştirak edən Nəzrin ömründə belə rabitəsiz, bu cür qarışıq nitq eşitməmişdi. Yaradıcılıq məsələlərinin müzakirəsinə həsr olunan bu yığıncaq, əslində, redaktorun monoloqundan ibarət idi. Danışmaq üçün söz verdiyi əməkdaşlarına iki-üç cümlədən artıq deməyə imkan vermədən Yadigar öz suallarını elə özü də cavablandırırdı.

Yazdığı nəsr kitablarının sorağı hər yana yayılan, vaxtaşırı televiziya verilişlərinin qonağı olan, adı dillərdə dolaşan Yadigar Qasımlının söz yığınından ibarət çıxışına candərdi qulaq asan Nəzrin səbir kasasının dolduğunu hiss edir, ancaq digər əməkdaşlar kimi, bu qəribə adamın mənəvi terroruna davam gətirməyə özünü məcbur edirdi. Ağzı köpüklənə-köpüklənə danışan Yadigar sanki söhbətinin yarımçıq qalacağından, fikirlərini tamamlaya bilməyəcəyindən qorxaraq sözlərinə ara vermirdi. Elə bil kimsə onu qovur, o isə canını qurtarmaq üçün qaçırdı.

Nəzrin redaktorun kifayət qədər savadlı və məlumatlı olduğuna da diqqət yetirdi. Lakin nitq qabiliyyətinin olmaması, bildiklərini çatdırmağa tələsməsi, bu səbəbdən də tez-tez söz üçün məəttəl qalması ona əsəbilik gətirirdi. Üstəlik, yerli-yersiz mübahisə etməsi və bir qayda olaraq, üstünlüyü əldən verməməyə çalışması işdə hamını dilxor edir, daimi gərginlik yaranmasına səbəb olurdu.

Nəzrin hiss edirdi ki, müdirinin bu xasiyyətinə öyrəşmək ondan ötrü çox çətin olacaq. Uşaqlıqdan qətiyyətli və inadcıl olan, haqqın tərəfini saxlayan Nəzrin müxtəlif yaşlardan olan həmkarlarının qəribə mütiliyini, Yadigarın bütün tənqid və iradlarına, yersiz atmacalarına, bəzən isə olduqca sərt və kəskin ifadələr işlətməsinə sakitcə qulaq asmalarını, buna etirazlarını bildirməmələrini qəbul edə bilmirdi.

Yadigarın danışığı eynilə diktə etdiyi "povest"ə bənzəyirdi. Ürəyində bu adamın mübtədası ilə xəbəri bilinməyən, rabitəsiz cümlələrinin yığınından süjet düzəldən, qəhrəmanlar yaradan həmkarlarına acığı tutdu: "Özünə hörmət edən kəs bu cür səviyyəsiz işlə məşğul olarmı?" Sonra isə özünü qınadı: "Bəs sənin qürurun hardadır? Niyə bütün bunlara dözürsən?"

Ürəyinin dərinliyində əmin idi ki, redaksiyada çox qala bilməyəcək. Müdiri onunla digər işçilərlə olduğu kimi danışsa, elə həmin gün buranı tərk edəcək.

Redaktorun səsi Nəzrini ağır düşüncələrdən ayırdı:

– Biz burda vacib məsələlərdən danışırıq, Nəzrin xanım isə diqqətlə qulaq asmaq, nəticə çıxarmaq əvəzinə rəsm çəkməklə məşğuldur.

Qələmlə qarşısındakı vərəqdə cızıqlar çəkən Nəzrin daşın onun bostanına atıldığını, hamının dönüb ona baxdığını görəndə pərt oldu, amma söz altında da qalmadı, istehza ilə cavab verdi:

– Yəqin çıxışınızın stenoqrammasını yazmalı idim.

Otaqda gülüş qopdu. Belə cavab gözləməyən redaksiya əməkdaşları bir-biri ilə baxışdılar. Redaktor pərtliyini gizlətmək üçün qızın sözlərini zarafata saldı:

– İndiki cavanları görürsüz də! Söz altında qalmırlar. On vərəqlik bir yazını iki gündür tamamlaya bilmir, amma cavab qaytarmaqda gör necə pərgardır!

– Bədii yazı yun sap deyil ki, boyaqçı küpünə salıb çıxarasan, – Nəzrin yenə də dilini dinc saxlaya bilmədi. Onun sərrast cavabı yenidən gülüşə səbəb oldu.

Yadigar sözü uzatmamağın, Nəzrinə baş qoşmamağın düzgün olacağını hiss edib söhbətin məcrasını dəyişdi.

Yığıncaq yekunlaşıb, işçilər otaqlarına dağılışanda Qəmər

xanım Nəzrinə yaxınlaşıb yavaşca dedi:

– Bir az ehtiyatlı ol, müdirə cavab qaytarmaq sənə baha başa gələcək. Yadigar Qasımlı bilirsən necə kinli adamdır?

– Kinli olub neyləyəcək ki? Mən işimi görəndən sonra o, mənə nə edə bilər?

– Özün görəcəksən, – qadın bunu mənalı şəkildə deyib otaqdan çıxdı.

Masasının arxasına keçən Nəzrin müdirinin "yazı" adlandırdığı cızma-qaraları çıxarıb onların üzərində işləməyə başladı. "Bu gün gərək işi tamamlayım, qoy məndə nöqsan tutmasın," – deyə özünə söz verdi.

Nahar fasiləsi zamanı da yerindən tərpənməyib işləyən Nəzrini axşam işin bitməsinə 10 dəqiqə qalmış müdir yanına çağırdı. O, yenicə tamamladığı yazını da götürüb redaktorun otağına daxil oldu.

Yadigar masasının üstünə səliqəsiz halda səpələnmiş vərəqlərdən başını qaldırmadan sərt halda soruşdu:

– Yazı hazırdır?

– Bəli, buyurun. – Nəzrin kompüterdə yenicə çap etdiyi yazını ona uzatdı.

Redaktor vərəqləri ondan aldı və qaşlarını çatıb diqqətlə oxumağa başladı. Divar saatı 6 dəfə zəng çalanda Nəzrin:

– Yadigar müəllim, siz yazını rahat oxuyun, mən gedim, saat 6-dır, – dedi.

Yadigar başını qaldırıb onu qəribə baxışlarla süzdü və:

– Nə deyirəm ki, get, – dedi, Nəzrin qapıdan çıxanda onun arxasınca mənalı tərzdə əlavə etdi, – qəribə qızsan. – Nəzrin cavab vermədi.

Həmin yığıncaqdan sonra Nəzrin redaktorun ona münasibətinin kəskin şəkildə dəyişdiyini hiss etməyə başladı. İşlə elə yüklənirdi ki, gün ərzində başını qaldırmağa vaxtı

olmurdu. Yadigar çapa hazırladığı növbəti kitabını Nəzrinə təkrar-təkrar oxutdurur, üzərində saysız-hesabsız düzəlişlər etdirirdi. Bu bezdirici və çürükçü iş qızı elə yorurdu ki, nə işdə, nə də evdə daha heç nə ilə məşğul ola bilmirdi. Son vaxtlar şənbə günlərində də ondan işə çıxmağı tələb edən redaktor az qalırdı onun bütün şirəsini dartıb çıxarsın. Bu minvalla dörd ay tamam oldu.

Bir gün redaksiyada Yadigar Qasımlının yenicə çapdan çıxmış "Geriyə yol" kitabını görəndə Nəzrin maraqla onu vərəqlədi. Nəfis tərtibatla çap olunmuş kitabın redaktoru Aqil Ələsgərov, korrektoru isə tanımadığı bir adam idi. "Mənə korrektorluğu da çox gördü", – deyə Nəzrin düşündü. Qəmər xanımın da adı heç yerdə getməmişdi. Bundan bir az da tutuldu. Əməkdaşlar növbə ilə müdirin otağına girir, onu təbrik edib çıxırdılar. Nəzrin isə nədənsə müdirini təbrik edə bilmədi. O, özünü təhqir olunmuş kimi hiss edirdi. Əslində korrektorluqdan zəhləsi gedirdi. Onun qürurunu toxunan zəhmətinə qiymət verilməməsi idi, bu haqsızlığı qəbul edə bilmirdi.

Ertəsi gün Beynəlxalq Mətbuat Mərkəzində Yadigar Qasımlının "Geriyə yol" kitabının təqdimat mərasimi oldu. Zala tanınmış jurnalistlər, yazıçı və şairlər, çoxlu qonaqlar yığışmışdı. Gələnlər arasında qəzet və jurnal redaktorları, yüksək vəzifəli şəxslər, parlamentin deputatları da var idi. Mərasimi bir neçə fotoqraf və operator kameralara çəkirdi. Çıxış edənlər Yadigar Qasımlının son kitabının məziyyətlərindən ağızdolusu danışır, bunun Azərbaycan ədəbi mühitində mühüm hadisə olduğunu dönə-dönə qeyd edirdilər. Bəzi natiqlər əsərin başqa dillərə tərcümə olunmasının vacibliyini diqqətə çatdırırdılar.

Aqil Ələsgərova söz veriləndə o, kitabın müəllifinin qeyri-

adi zəhmətkeşliyindən, onun öz əsərləri üzərində böyük məsuliyyətlə işləməsindən, az qala hər sözün, hər cümlənin üstündə əsməsindən səxavətlə danışdı və ona yeni yaradıcılıq uğurları arzuladı.

Ağzına kimi dolu olan zalda oturmağa yer tapmayan Nəzrin ayaq üstə dayanmışdı. Çoxlu sayda jurnalistlər kimi o da tədbiri qapı ağzından izləyirdi. Kitabının ərsəyə gəlməsində böyük zəhməti olan gənc əməkdaşının ayaq üstə qalması Yadigar Qasımlını əsla narahat etmirdi. O, masanın yuxarı başında oturub qalibanə baxışlarla, məmnunluqla zaldakıları süzür, ona ünvanlanan tərif yağışı yağ kimi canına yayılırdı.

Son zamanlar tez-tez müşahidə etdiyi, çoxunun mübtəla olduğu şöhrətpərəstlik xəstəliyi mətbuat evində daha qabarıq hiss olunduğundan ona tutulanlara burada ikili münasibət var idi. Qələm sahiblərinin bir qismi bu xəstəliyə tutulanları təbii qəbul edir, onlara hörmətlə yanaşırdısa, o biri qismi belələrindən uzaq olmağa, onların əhatə dairəsinə düşməməyə çalışırdı.

Amma bu da danılmaz idi ki, qrafomaniya, yəni istedadsız qələm sahiblərinin yazıçı kimi məşhurlaşmağa çalışması artıq dəb şəklini alıb, bu xəstəlik dərin köklər atıb, bir çoxlarının mənəviyyatına nüfuz edib. Bu köklər o qədər dərinə işləyib ki, onları oradan dartıb çıxarmaq çətinləşib. Bəzi insanların ad-san, şöhrət qazanmaq, diqqət mərkəzində olmaq üçün əl atdıqları üsullar Nəzrinə qəribə görünürdü. Yadigar Qasımlı onun nəzərində qrafomanların ən parlaq nümunəsi idi, bunu onunla tanış olduğu ilk gündən anlamış və həmin kəşf bu adamı onun gözündən salmışdı.

Zala yığışanların süni səmimiyyəti, saxta tərifləri Nəzrinə o qədər gülünc və mənasız, o qədər bayağı göründü ki, burada keçirdiyi vaxta heyfi gəldi. Ayaq üstə dayanmaqdan

yorulub əldən düşdüyündən tədbirin sonunu gözləməyə səbri çatmadı. Gəldiyi kimi səssiscə, heç kəsə hiss etdirmədən zalı tərk etdi. Küçəyə çıxanda dərindən nəfəs aldı, lakin yadına düşəndə ki, sabah iş yerində onu "məşhur yazıçı" Yadigar Qasımlının növbəti "əsəri" gözləyir, ürəyinə acı bir hiss yayıldı. Bu dəfə ona 50 vərəq həcmində yazı hazırlamaq tapşırığı verilmişdi. Bir neçə gün əvvəl redaktor "yeni əsərini" ona diktə etmişdi. İndi onu yenidən olduqca əzablı bir iş gözləyirdi: kompüterə köçürdüyü cızma-qaradan ötrü süjet xətti qurmalı, özgənin fikir və düşüncələrini nizama salmalı, hadisələri və obrazları bədii dildə qəlibə düzməli idi.

Birdən bu iş ona elə bezdirici, o qədər üzücü göründü ki, daş daşıyan adamlar kimi yorulub əldən düşdüyünü hiss etdi. Evə çatıb pilləkənləri zorla qalxdı, qapını açıb otağa girəndə ayaqları onu güclə çarpayısına çatdırdı. Necə yuxuya getdiyindən xəbəri olmadı.

Səhər oyananda bədəninin bütün əzalarının ağrıdığını hiss etdi. Baş gicəllənməsindən yerindən qalxa bilmədi. Handan-hana qızdırması olduğunu biləndə iki aylıq axtarışlardan sonra işə düzələndə necə sevinmişdisə, indi də evdə qalacağına bir o qədər şad oldu. Oynaqları sızıldayır, gözləri yumulurdu. Yarıyuxulu halda işə zəng çalmaq lazım olduğunu dərk etsə də, taqətsizlikdən stolun üstündəki telefonuna yaxın gedə bilmədi.

Günorta telefonuna gələn uzun-uzadı zəngi eşitsə də, ona cavab verməyə taqəti olmadı.

Axşama yaxın, nəhayət, bir balaca özünə gəldi. Ayağa qalxıb mətbəxdə çay qoyandan sonra telefonundakı buraxılmış zəngləri nəzərdən keçirdi. Aqil müəllimin bir neçə dəfə zəng çaldığını görüb onu yığdı. Xəstələndiyini, işə çıxa bilməyəcəyini ona bildirdi.

Qızdırması iki gün düşmədi. Üçüncü gün halı bir qədər düzəlsə də, zəiflikdən ayaq üstə dayana bilməyib "qoy özümə gəlim, işə gələn həftə çıxaram", – deyə qərara aldı.

Bir azdan redaktor zəng çaldı. Otağa onun zabitəli və kinayəli səsi yayıldı:

– Nəzrin xanım, istirahətiniz bitmədimi?

Müdirinin danışıq tərzi xoşuna gəlməsə də, bunu ona hiss etdirməmək üçün təmkinlə cavab verdi:

– Yadigar müəllim, mən redaksiyaya zəng çalmışam. Sizi narahat etməmək üçün Aqil müəllimə vəziyyətimi demişəm. Soyuqdəyməm var, qızdırmam keçməyib, hələ özümə gəlməmişəm.

– Bülleten açdırmısanmı?

Qəfil verilən sualı eşidənə kimi Nəzrin bu barədə düşünməmişdi. Elə ağrıyırdı ki, həkim çağırmaq və ya klinikaya gedib özünə xəstəlik kağızı açdırmaq heç ağlına da gəlməmişdi. İndi redaktor ona bülleteni xatırladanda təəssüflə etiraf etdi:

– İnanın mənə, Yadigar müəllim, özümü elə pis hiss edirdim ki, bülleten açdırmaq da yadımdan çıxıb.

– Mənə nağıl danışma, bir az ciddi olmaq lazımdır. Bu gün daha keçdi, sabah mütləq işə çıx, işlər tökülüb qalıb. Məni eşitdinmi?

Müdirin özündən razı halda, amiranə tərzdə danışması xətrinə dəydi. Tabeliyindəki əməkdaşının səhhəti ilə bağlı narahatlığını bildirmək əvəzinə onun xəstələnməyini şübhə altına alması, üstəlik də bu cür kobud danışması kefinə soğan doğradı. Ona qarşı inamsızlıq göstərdiyinə görə redaktora acığı tutdu. Birdən ağlına gələn fikirdən ona qəribə bir qətiyyət gəldi. "Cəhənnəm olsun bu iş, daha ora getməyəcəyəm", – deyə özünə söz verdi. Bu qərarından ürəyində məmnun

qaldı. Məvacibi cəmi-cümlətanı 200 manat idi. Onun da 100 manatını kirayəyə verir, yerdə qalanını ərzağa və nəqliyyata güclə çatdırırdı. Bilirdi ki, gördüyü işin müqabilində bu, cüzi maaşdır. Yenidən iş axtarmalı olacağını düşünəndə bundan qanı qaralsa da, qərarında israrlı olduğuna özünü inandırdı.

Dərhal sosial şəbəkə hesabında elan yazdı: "Savadlı filoloq kurs işləri, referatlar, məruzələr yazır. Keyfiyyətə zəmanət verir. Maraqlananlar aşağıdakı telefonla əlaqə saxlaya bilərlər". Özünün telefon nömrəsini qeyd etdi.

Heç yarım saat keçməmiş zəng gəldi, qız səsi idi:

– Mənə iki günə 20 səhifəlik referat yaza bilərsinizmi?

– Hansı mövzuda?

– Müasir Azərbaycan yazıçılarının yaradıcılığında vətənpərvərlik mövzusu.

Bir neçə gündən kirayə haqqını ödəməli olduğunu, köhnə iş yerindən isə maaşını hələ də almadığını, oradan çıxacağı təqdirdə həmin pulu itirə biləcəyini düşünəndə Nəzrin ömründə ilk dəfə işbaz kimi danışdı:

– Deyilən vaxtda referatınızı məndən təhvil götürə biləcəksiniz. Keyfiyyətindən də əsla narahat olmayın. Amma bir şərtim var: qonorarı əvvəlcədən ödəməli olacaqsınız.

– Neçəyə yazırsınız?

– 50 manata.

– Problem yoxdur, ünvanınızı deyin.

Həmin söhbətdən təxminən bir saat sonra qapı döyüldü. Zəngin geyinmiş gözəl bir qız idi.

– Nəzrin xanım sizsiniz? – o, mehribancasına gülümsədi. Referatı ilə bağlı Nəzrinə lazımi qeydlərini bildirdikdən sonra ona 50 manat uzatdı, – mənim adım Səidədir.

– Bazar günü elə bu vaxt gəlib referatınızı götürərsiniz.

– Onu kompüterdə çap etsəniz, sizə 20 manat da əlavə edərəm.

Bu sözləri eşidəndə Nəzrin uşaq kimi sevindi, çünki onsuz da referatı birbaşa kompüterə yazacaqdı. "Sabah bütün günü kitabxanada məşğul olaram, birisi gün isə evdən çıxmayıb referatı yazıb qurtararam", – deyə fikirləşdi. Səidə onunla vidalaşıb gedəndə Nəzrin bədənindəki ağrıların keçib getdiyini hiss etdi.

Son üç gündə birinci dəfə yemək barədə düşündü. Qayğanaq bişirib ləzzətlə yedi, sonra isə həvəslə mənzilinin səliqə-sahmanı ilə məşğul olmağa başladı.

Ertəsi gün səhər redaksiyaya gedib işdən çıxmaq barədə ərizəsini katibəyə verdikdən sonra kitabxanaya yollandı. Yenicə oraya çatmışdı ki, telefonuna redaktor zəng çaldı. Bu dəfə onun səsinin mülayim olması Nəzrinə təəccüblü göründü:

– Nəzrin xanım, nə baş verib? Niyə işdən çıxırsız? Bəlkə xətrinizə dəymişəm?

O, soyuqqanlılıqla cavab verdi:

– Heç nə baş verməyib, Yadigar müəllim, özümə uyğun başqa bir iş tapmışam.

– Sizə öyrəşmişik axı, Nəzrin xanım. Kollektiv xətrinizi istəyir. Mən də sizdən razıyam. Təzə-təzə bir-birimizin xasiyyətinə uyğunlaşmağa başlamışdıq. Bəlkə maaş sizi qane etmir? Bu aydan maaşınızı qaldırmaq fikrim var idi. Düzünü deyin, nə olub?

Yadigar Qasımlının dünənki amiranə, özündən razı danışıq tərzindən əsər-əlamət qalmamışdı.

Nəzrin onun bu cür dəyişəcəyini gözləmirdi. O, söhbəti uzatmamaq məqsədilə sözünü qəti dedi:

– Daha sizdə işləməyəcəyəm, Yadigar müəllim. Məni bağışlayın, indi çox məşğulam, sağ olun, – deyib redaktorun

cavabını gözləmədən telefonu söndürdü.

Kitabxana bağlanana kimi referat üçün material toplayan Nəzrin oradan çıxanda artıq qaranlıq düşmüşdü. Yaşadığı binanın tininə çatanda orada var-gəl edən müdiri Yadigar ilə onun müavini Aqili görüb təəccübləndi. Nəzrinin gəlib çıxması hər ikisini sevindirdi. Salamlaşdıqdan sonra qızı sual yağışına tutdular. Nəzrin çaşıb qalmışdı. Onların bu canfəşanlığı, əl-ayağa düşmələri, ötən aylar ərzində görmədiyi mehribanlığı qızı təəccübləndirsə də, əslində səbəbi bəlli idi. Ucuz fəhlə tapıb, insafsızcasına işlətmiş, tez də itirmişdilər. Bu itki ilə heç cür razılaşmaq istəmirdilər.

Yadigar Qasımlı dilxorluğunu gizlədə bilmirdi. Adətən sərt ifadələr işlətməkdən çəkinməyən bu adamın danışıq tərzi də dəyişmiş, yumşalmışdı. Səylərinin əbəs olduğunu, Nəzrinin öz qərarından dönməyəcəyini başa düşəndə o, nəhayət, ciddi tərzdə dedi:

– Yaxşı, Nəzrin xanım, öz şərtlətini de. Mən onları yerinə yetirməyə hazıram.

Bu dəfə Nəzrin əsəbi halda cavab verdi:

– Mənim heç bir şərtim yoxdur. Sadəcə olaraq sizinlə işləmək istəmirəm, bu iş məndən ötrü maraqsızdır. Gəlin bununla da söhbəti tamamlayaq.

– Bəlkə səninlə müqavilə bağlayaq? İstəyirsənsə, heç işə çıxma. Evdə oturub işləyə bilərsən, indi bu üsul dəbdədir. Etdiyin redaktə işi üçün nə qədər qonorar tələb edirsənsə de, onu əvvəlcədən ödəməyə də hazıram.

– Məni bağışlayın, Yadigar müəllim, deyəsən biz bir-birimizi heç zaman başa düşməyəcəyik. – Nəzrin bu sözləri səbirsiz halda deyib blok qapısına sarı gedəndə Yadigar Qasımlı onun arxasınca qışqırdı:

– Özün bil, amma peşman olacaqsan! – Sonra əlavə etdi,

– Vaxtın olanda redaksiyaya dəy, hesabdardan maaşını al.

Nəzrin ona cavab verməyib bloka girdi. Bədənini çoxdan hiss etmədiyi bir yüngüllük bürümüş, ürəyinə xoş bir duyğu yayılmışdı. O, daha Yadigar Qasımlının işçisi deyildi, ondan heç bir asılılığı yox idi. Bu fikrin xoş təsiri altında beynində Səidənin sifarişinin planını cızmağa başladı. Yadigar Qasımlının əndərəbadi, kəllə-mayallaq cümlələri üzərində gördüyü zəhlətökən redaktə işindən sonra bu cür referat yazmaq ona su içmək qədər rahat görünürdü. Evə çatan kimi kompüterini açıb işləməyə başladı.

Bazar günü deyilən vaxtda gələn Səidə səliqə ilə çap olunmuş referatın o üzünə, bu üzünə baxıb, səhifələrinə diqqətlə göz gəzdirdikdən sonra ona əlli manatlıq əskinas uzadıb dedi:

– Halal adam olduğunuz o saat görünür. Amma bu qədər düzünə olmayın, Nəzrin xanım. Hazırda Bakıda heç kim 100 manatdan aşağı qiymətə referat yazmır.

Sağollaşanda o, üzünü heyrətlə bir ona, bir pula baxan Nəzrinə tutdu:

– İstəsəniz, sizə sifarişçilər tapa bilərəm.

– Pis olmazdı, – deyə Nəzrin cavab verdi və mehribanlıqla gülümsədi. Bu yaraşıqlı və səmimi qız onun ürəyində xoş hisslər oyatmışdı.

İki gün sonra Səidə ona zəng çalıb dayısının redaktor olduğu incəsənət yönlü jurnalda iş təklif etdi. "Həftəbecər" qəzetinin yerləşdiyi mərtəbədə nəşr olunan həmin mətbu orqanına öyrəşmək Nəzrindən ötrü çətin olmadı. İki illik müvəqqəti işlərdən, ələlxüsus qrafomaniya xəstəliyinə tutulmuş Yadigar Qasımlının redaksiyasında çalışandan sonra, nəhayət, ruhuna uyğun yaradıcı iş tapdığı üçün məmnun qaldı.

***

Nəzrinlə İnci eyni binanın ayrı-ayrı mərtəbələrində çalışırdılar. Doğması kimi çox tez isnişdiyi, minnətdarlıqla andığı bu qadının səsini hər gün telefonda eşitməyəndə Nəzrinə elə gəlirdi ki, nə isə itirib. Həftədə bir dəfə onun işlədiyi redaksiyaya baş çəkməyəndə özünə yer tapmırdı. Hər bazar günü mütləq vaxt tapıb onun evinə gedir, yır-yığış işlərində kömək edirdi. İncinin evinə özü də bilmədən çox tez öyrəşmişdi. Özünü qayğısız uşaq kimi hiss etdiyi bu evin qapısını ərklə açır, İncidən heç nə soruşmadan səliqə-sahmanla məşğul olur, xörək bişirirdi. Ev sahibinin yükünü bir az da olsa yüngülləşdirməyi özünün mənəvi borcu hesab edirdi.

İnci də həyatına gözlənilmədən daxil olmuş, doğma övladı kimi bağlandığı bu qızın ona sevincli anlar yaşatmasına öyrəşmişdi. Onun hər gəlişi ilə özünün tənha həyatına bir naxış, bir gözəllik gətirdiyini dərk edən qadın taleyin bu gözlənilməz iltifatından razı idi. Lakin daxilindən gələn bir səs ona bir şeyi hey pıçıldayır, rahatlığını pozurdu. İnci tərsliyə düşüb doğma evindən perik düşmüş bu qızı öz evinə, onun həsrətini çəkən valideynlərinin yanına qaytarmağı özünə borc bilirdi. Nəzrinin ata-anasının nələr çəkdiyini təsəvvür etdikcə özünə yer tapa bilmirdi.

Həftələr, aylar keçdikcə yavaş-yavaş söhbətlərin məcrasını Nəzrinin ailəsinin üstünə yönəldən İnci hər dəfə də güclü etirazla qarşılaşırdı. Bir dəfə o, çəkinə-çəkinə yenidən həmin məsələdən söz salanda Nəzrin doluxsundu:

– İnci xanım, sizdən çox xahiş edirəm, bir də ailəmlə bağlı mənə təsir göstərməyə çalışmayın.

– Axı onlar valideynlərindir, sənin üzərində haqları var. Sən onların yeganə övladısan.

– Düşünməyin ki, mən valideynlərimə nifrət edirəm. Əslində, atamı da, anamı da çox sevirəm. Onlara bir şey olsa,

dözə bilmərəm. Lakin mən daha o evdə yaşaya bilmərəm, bunu bacarmaram.

– Bəlkə bir qədər düşünəsən? Hər şeyi dərindən saf-çürük edəsən?

– Bu iki ildə çox fikirləşmişəm. Dərk etmişəm ki, daha heç zaman əvvəlki Nəzrin ola bilmərəm. Valideynlərin borcu yalnız dünyaya uşaq gətirməkdən ibarət deyil. Övladlarını həyata bağlamaq, onlara yaşamaq eşqi təlqin etmək, xoşbəxtlik bəxş etmək onların borcudur. Uşaqlarını öz cılız hisslərinin qurbanına çevirməməlidirlər. Mən həyatı yenicə sevməyə başlayıram. İndi-indi ürəyimdə sevinc közərtiləri yaranır. Bilsəniz, daim qorxu, səksəkə içində yaşamaqdan, dava-dalaş səsi eşitməkdən necə yorulmuşdum. – Nəzrin İncinin düz gözlərinin içinə baxdı. – Onların məni özlərinə yeganə tamaşaçı tapdıqları üçün belə etdiklərini, daha əvvəlki kimi dalaşmayacağını deyəndə, siz tamamilə haqlı idiniz. Nə yaxşı ki, evdən getməyə iradəm çatdı. Qoy bir-birinə olan hisslərindən baş çıxarsınlar, ya bütün normal ailələrdə olduğu kimi yola getsinlər, ya da birdəfəlik ayrılsınlar.

İnci yaşına görə müdrik olan bu qızın məntiqi qarşısında deməyə söz tapmadı. Həmin gündən daha bu barədə ona heç nə demədi. Valideynlərinin acılar yaşatdığı bu gənc qızla özü arasında ruh birliyi olduğunu kim bilir, neçənci dəfə öz-özünə etiraf etdi. Yaşıdlarına oxşamayan, dəbə uyğun geyinib-gecinməyən, əyləncələr xoşlamayan, elə bir dostu, sirdaşı olmayan, yazmaqdan savayı heç nəyə xüsusi meyil salmayan Nəzrinə ürəyində acıdı.

Bir vaxtlar özünün də belə olduğu yadına düşəndə onu daha dərindən anlamağa çalışdı. Özünü könüllü şəkildə tənhalıqla cəzalandıran bu qızın belə olmasının əsl səbəbkarının Sahil olduğunu düşünmək ona əzab verirdi. Ona acılar

yaşatmış bu adamın öz övladına qarşı soyuq münasibətini heç cür anlaya bilmirdi.

Sahildən qəlbən inciyib institutdan işdən çıxdıqdan sonra rayonda valideynləri ilə bərabər keçirdiyi illər gözləri qarşısında canlananda birdən onu ağlamaq tutdu. Təklikdən yaxa qurtarmaq üçün yenidən Bakıya necə qayıtdığını xatırladı.

TƏNHALIQDAN QAÇIŞ

Anası Düriyyə vəfat edən üç gündən atası Fizəddin də gözlərini əbədi yumdu. Uzun illər boyu daim qulluqlarında durduğu əzizlərini itirən İnci dünyada tək-tənha qaldığını bütün çılpaqlığı ilə anladı. Qardaşlarına bilə-bilə bu xəbəri çatdırmadı – onlardan qəlbən incimişdi. Adillə Eldara son vaxtlar dəfələrlə zəng çalaraq qocaların gözlərinin yollarda qaldığını desə də, heç biri rayona gəlməmiş, valideynlərindən xəbər tutmamışdı. Rus qızları ilə evlənib doğma yurdu unudan, başları öz ailələrinə qarışan, biri Rusiyanın İrkutsk, o birisi isə Çelyabinsk şəhərində yaşayan bu iki doğmasına hər vasitə ilə təsir göstərməyə çalışsa da, onlarla gah şirin sözlərlə, gah acı kəlmələrlə danışsa da, səyləri baş tutmamışdı.

Əvvəllər ildə, iki ildə bir dəfə vətənə qayıdan, arada valideynlərinə pul göndərən qardaşlar son iki il ərzində rayona gəlməmələri bir yana, heç zəng çalıb valideynlərinin hal-əhvalını da soruşmurdular. Onların bu qəribə etinasızlığı qarşısında gücsüz qalan İnci qəlbinin bütün sevgisini, diqqət və qayğısını sağlamlıqlarını itirib ona möhtac qalan atası ilə anasına sərf etmişdi. Uşaq kimi köməksiz qalmış bu iki doğmasına qulluq etməkdən bezməmişdi. Saçları ağappaq

ağarmış, son illər xeyli mülayimləşmiş qocaların həsrət dolu gözlərindəki kədəri dağıtmaqdan ötrü əlindən gələni etmişdi.

Adlı-sanlı müəllim kimi tanınan İnciyə həm rayon mərkəzindən, həm də onun kəndlərindən son vaxtlara kimi elçiliyə gələnlər var idi. Lakin xəstə valideynlərini taleyin ümidinə buraxıb ərə getməyi insafı qəbul etməmişdi. Onun bu fədakarlığını bilən qohum-əqrəbası, iş yoldaşları, şagirdləri üçün İnci əsl qəhrəmanlıq nümunəsi idi.

İllər ötdükcə taleyin bütün zərbələrinə mətinliklə dözən İnci, onun sınaqlarından çıxmaq yollarını da öyrənmişdi. Qisməti ilə barışmış, doğulub boya-başa çatdığı böyük evin sahibinə çevrilmişdi. Bakıdakı iş yerindən öz ərizəsi ilə çıxıb rayondakı köhnə iş yerinə – oxuduğu məktəbə qayıdışı ilə onu tanıyanların hamısına sonsuz sevinc bəxş etdiyini anlayaraq bunun müqabilində bütün qəlbi ilə onların etimadını qazanmağa çalışmışdı.

Dərman qoxulu, ağrı-acılarla dolu atalı-analı günlər ona çoxlu qayğılar gətirsə də, bir şey vardı ki, İnci tənha deyildi. Evdə onu iki doğmasının nəfəsi isidirdi. Onların xəstəlikləri ilə bağlı şikayətlərinə qulaq asıb təskinlik verməkdən, aptekdən dərman almaqdan bezmirdi. Maaşının yarıdan çoxu dava-dərmana gedir, yerdə qalanı ərzağa güclə çatırdı. Daxili bir hiss daim ona arxaya qəpik-quruş atmağı əmr edirdi. O da həmin hissə tabe olub hər ay məvacibinin kiçik bir hissəsini çətin gün üçün kənara qoyurdu. Valideynləri vəfat edəndə həmin pul onun karına gəldi. Yas mərasimlərini – üçünü, cümə axşamlarını, qırxını borcsuz verən İnci öz ehtiyatlılığından razı qaldı.

Evdən əl-ayaq yığışmış, yas məclisləri arxada qalmışdı. Bir həftə idi ki, İnci təkliyin, yalqızlığın məngənəsində çırpınırdı. Ömründə qorxu nə olduğunu bilməyən o, indi qaranlıq

düşəndə vahimə içində özünə yer tapa bilmirdi. Səhərə kimi hər yerdə işıqları yanılı qoysa da, gözlərinə yuxu getmirdi. Yalnız dan yeri ağarıb, otağa sübh şəfəqləri yayılanda qorxu hissi onu tərk edir, nəhayət, yuxuya gedirdi.

Bir dəfə valideynlərinin otağındakı paltar şkafını yığışdıranda evin sənədləri saxlanan taxta qutunu səliqəyə salmaq üçün içindəkiləri stolun üstünə tökdü. Onların arasında üstünə "İnciyə çatacaq" sözləri yazılmış iri zərfi görəndə anasının tanış xəttini tanıdı. Zərfin içində dörd qatlanmış bir məktub var idi. Həyəcanla orada yazılanları oxumağa başladı.

"İnci! Gözümüzün nuru, canımız-ciyərimiz! Sən bu məktubu oxuyanda biz həyatda olmayacağıq. Dünyada elə sözlər yoxdur ki, onlar bizim ikimizin sənə olan minnətdarlığını ifadə edə bilsin. Sən heç bir övladın öz valideynləri üçün edə bilmədiyini etdin, ömrünü, gəncliyini bizə həsr etdin. Sənin borcundan biz heç zaman çıxa bilməyəcəyik.

Bilirik ki, ürəyindən həmişə Bakıya qayıtmaq, elmi işini davam etdirmək keçib, amma bizə görə bu arzundan vaz keçmisən. Birdən həmin fikrə düşsən, qərarını dəyişmə. Sənin istedadını kim bilmir? Biz son illər əlimizə keçən qəpik-quruşu səndən ötrü yığmışıq. Lazımi sənədləri şkafın paltar asılan tərəfindəki iri gözdə, taxtanın altında gizlətmişik. Yəqin ki, bu vəsait babat bir ev almağa çatar. Bizə etdiyin bütün yaxşılıqların əvəzini Allah sənə yetirsin! Sənə verdiyimiz əziyyətləri, ürək ağrılarını bizə halal elə!

Səni sevən Fizəddin və Düriyyə"

Məktubu birnəfəsə oxuyan İnci sarsılıb nə edəcəyini bilmədi. Həmişə qənaətlə dolanmış valideynlərinin ondan ötrü pul yığdıqlarını ömründə ağlına gətirə bilməzdi. Məktubu öpüb bağrına basdı.

Köhnə şkafın iri gözü ağzına kimi pal-paltarla dolu idi. Onların hamısını çıxarıb divanın üstünə yığdı. Sonra əlini alt taxtaya çəkdi. Onu qaldıranda boz rəngli zərf gördü. İçində əmanət kitabçası, notariusda təsdiqlənmiş vəsiyyətnamə və etibarnamə var idi.

"Biz – Fizəddin və Düriyyə Mehdiyevlər halal qazancımızdan yığdığımız 50 min manat pulu qızımız İnci Mehdiyevaya..."

İnci ardını oxuya bilmədi, yaş gözlərinə pərdə çəkdi. O, uşaq kimi hönkürdü. Valideynlərinin bu qayğısı, bu böyük məhəbbəti qarşısında ağlamaqdan başqa heç nəyə gücü çatmadı.

Həmin hadisədən bir ay sonra Bakıya yola düşdü. Bir vaxtlar kirayədə qaldığı evə gəlib onun sahibinə mənzil almaq istədiyini dedi. İncini tanıyan, onun sadəliyinə və insanpərvərliyinə bələd olan Zəhra xala Sovetskidəki qohum-əqrəbası ilə bərabər axtarışlara başladı. Nəhayət, xudmani bir ev tapdılar, üstəlik təmir etdirməkdə də ona kömək etdilər.

Qusardakı evlərini qıfıllayıb, açarı qonşuya verib Bakıya köçən İnci yeni həyata qədəm qoydu. Uzun illərin ayrılığından sonra qayıtdığı, gənclik xatirələri ilə dolu olan Bakı onu yenidən öz qoynuna aldı. Ömrünün 42-ci baharını yaşayan, həyatda sığına biləcək bir kimsəsi olmayan, iki qardaşı ola-ola kimsəsizlik acısı çəkən, ailə qurmadan yaşlaşan İnci ömrünün irəlidəki illərini keçirəcəyi şəhərin gur həyat ritminə, səs-küyünə, izdihamlı küçələrinə və parlaq işıqlarına yenidən uyğunlaşmalı idi. Daha elmlə məşğul olmayacaqdı, instituta heç vaxt qayıtmayacaqdı. Bunu qəti qərara almışdı. Fikri ədəbi redaktə ilə əlaqədar babat bir iş tapmaq idi.

Köçdüyü bir həftədən sonra qəzetlərdən birində oxuduğu elanda mədəniyyət yönlü jurnala savadlı ədəbi işçi tələb

olunduğu yazılmışdı. Ünvanı öyrənib ora yola düşdü. 60-65 yaşlarında olan baş redaktor İncini bir xeyli sorğu-suala tutandan sonra fikrini gizlətmədi:

– Sizin kimi savadlı filoloqla işləmək bizim üçün böyük fəxrdir. Günü sabahdan işə çıxa bilərsiz.

İnci sevincindən quş olub uçmaq istəyirdi. Tanışları onu qorxutmuşdular ki, şəhərdə iş tapmaq çox çətinləşib. Ona görə də belə tezliklə tapdığı yeri itirməmək üçün elə ertəsi gün işə çıxdı. İlk gündən mehriban kollektivə düşdüyünü anlayan İnci beləcə yenidən şəhər həyatına öyrəşməyə başladı.

İki gün sonra redaktorun stolunun üstündəki kitab İncinin diqqətini cəlb etdi.

– Baxmaq olarmı? – deyə soruşdu.

– Əlbəttə, buyurun.

"Elmə həsr olunmuş həyat" adlı kitabın üz qabığından ona Həbib Zöhrabbəyovun gülümsər gözləri baxırdı. Müəllifinin Sahil Hüseynov olduğunu biləndə, maraq ona güc gəldi, oxumaq üçün kitabı redaktordan istədi.

Redaktor gülə-gülə dedi:

– Halal olsun Sahil Hüseynova. Bilmirəm onu tanıyırsız ya yox, savadlı alimdir. Bu kitabı da ürəklə, məhəbbətlə qələmə alıb. Mən onu birnəfəsə oxumuşam. İki gün əvvəl Milli Kitabxanada monoqrafiyanın təqdimatı idi. Zal ağzına kimi adamla dolu idi.

Evə çatan kimi hər şeyi unudub kitabı oxumağa başlayan İnci Həbib müəllimin çətinliklər içində keçən həyatı, onun uzun illərdən bəri apardığı gərgin axtarışlar barədə olan bu kitabın olduqca səmimi yazıldığını öz-özünə etiraf etdi. Müəllif uzun illər əvvəl Nazim Axtılı haqqında Həbib müəllimin arxivindən maraqlı faktlar tapdığını da xüsusi qeyd etmişdi.

“Səhvini düzəldib. Şükür sənə, İlahi!” – deyə İnci sevinclə öz-özünə pıçıldadı.

Rayondakı dərman qoxusu, acılar və ayrılıqlar qarışmış tənha həyatından sonra Bakı ona xilaskar kimi görünürdü. Şəhərin səs-küyü, buradakı insan seli, hər yanda ucalan göydələnlər onu daha özündən çıxarmırdı. Daim dolub-boşalan, səkiləri daralan küçələrə, adam dolu avtobuslara, qulaqbatırıcı maşın siqnallarına etinasız olmuşdu. Son illər əslində bu tünlük, bu səs-küy üçün darıxmışdı. Bunlar ona tənhalığını nisbətən unutdururdu. Ən əsası o idi ki, gecələr daha qaranlıqdan qorxmur, rahat yatırdı.

Qəlbinin içində dəfn elədiyi sevgisi ona əzab verməsin deyə xatirələrə dalmağı özünə qadağan etmişdi. Ona çoxlu acılar yaşatmış, sədaqətinə xəyanətlə cavab vermiş, şöhrətə qul olmuş bir insana ürəyini verdiyinə görə özünü heç cür bağışlaya bilmirdi. Beyni ilə ürəyi arasında qalmışdı. Biri ona Sahili pisləyir, gözündən salır, o biri həsrətini, qubarını artırırdı. İkinci hiss o qədər güclü idi ki, ürəyinə başqa heç kəsi yaxın qoya bilmirdi. Doğmaları, tanışları onu ərə verməkdən ötrü nələr etməmişdilər. İnciyə ürək açanlar, onunla ailə qurmaq istəyənlər az olmamışdı. Bəziləri onu özündən razı, hədsiz qürurlu hesab edirdi. Amma heç kəs bilmirdi ki, ürəyindəki göynərti, oradakı əbədi sızıltı ona aman vermir. O, unuda bilməmək xəstəliyinə tutulmuşdu. Bu, çarəsiz xəstəlik idi.

Əslində, rayondan Bakıya köçməsinin əsas səbəblərindən biri dost-tanışını onu ərə vermək, xoşbəxt etmək qayğısından azad etmək idi.

***

İnci son vaxtlar redaksiyaya, yanına gələn adamların əksəriyyətinə bədii əsər personajı kimi baxırdı. Adi həyatda

belə insanların olduğuna inanmaq çətin idi. Az qala hər gün qarşısına yeni "qəhrəmanlar" çıxırdı. Onlardan biri 70 yaşlı Əjdər dayı idi. Bu mehriban və gülərüz qoca ilk dəfə öz cızma-qaralarını şeir adı ilə ona təqdim edəndə İncinin üzündəki heyrət ifadəsini görüb demişdi:

– Şeirlərim sizi qorxutmasın. Mən kəndçi babayam, Quba rayonundanam. Düz-əməlli savadım da yoxdur. Amma istəyirəm qoltuq cibimə sığışan bir kitab çap etdirim. Kəndə-kəsəyə çıxanda, məscidə gedəndə dost-tanışa onu göstərib öyünüm.

– Axı bunlara şeir demək olmaz, adi söz yığınıdır, – İnci təəccüblə gah qocaya, gah da əlyazmalarına baxmışdı.

– Bilirəm, amma istədiyim odur ki, sən onları düzüb-qoşasan, sonra da mənim adımdan kitab hazırlayasan. Şəklimi, tərcümeyi-halımı da oraya əlavə edərsən. Bu işin müqabilində sənə 200 manat pul ödəyəcəyəm.

– Ay Əjdər dayı, kitab sizin nəyinizə lazımdır? Bu yaşda şair olmaq istəyirsiz? – deyə maraqla soruşmuşdu.

– Hə, istəyirəm, nə olsun ki! Yaşıdlarımdan bir qədər seçilərəm də!

Cavabı eşidəndə onu gülmək tutmuşdu. Bu iddialı qocanın arzusunu yerinə yetirməmək üçün o, başqa hər cür ağır iş görməyə hazır idi. Amma ehtiyac adlı gözəgörünməz düşmən ona pıçıldayırdı ki, belə fürsəti əldən qaçırmaq olmaz. 200 manat əslində az pul deyildi. Bu, ona ehtiyaclarının bəzilərini ödəməyə imkan verəcəkdi. Ona görə də razılaşmışdı.

Əjdər dayının əlyazmaları birinci sinif şagirdinin cızma-qaralarından bir o qədər fərqlənmirdi. Onlardan yalnız başlıqları götürmüş və hər başlığa uyğun təzə şeir yazmağa başlamışdı. Bir aydan sonra telefonla zəng çalıb işin hazır olduğunu bildirmişdi. Əjdər dayı danışdıqları vaxtda pulu

gətirmiş, gələcək kitabının əlyazmalarını götürüb sevinə-sevinə onu çap etdirmək üçün hansısa nəşriyyatda işləyən tanışının yanına yollanmışdı. İki həftədən sonra qoca redaksiyaya gəlib sevinclə kitabını İnciyə hədiyyə etmişdi. Bu, 30 şeirdən ibarət, əl boyda kitab idi.

Əjdər dayı özündən razı halda redaksiyanı tərk edəndən sonra İnci maraqla kitabı vərəqləmişdi. Burada çap olunmuş öz şeirlərini bu dəfə oxucu kimi nəzərdən keçirəndə ürəyinə xəfif kədər yayılmışdı.

Bir neçə ay sonra Əjdər dayı əlyazmasız-zadsız redaksiyaya gəlib İnciyə şəstlə yeni kitab sifariş eləmişdi. Bu dəfə o, 60 şeirdən ibarət kitab çap etdirmək istədiyini bildirmişdi. Həmin işin müqabilində 400 manat pul ödəyəcəyini vəd vermiş, İnci də razılaşmışdı. Belə bir iş üçün 400 manat kiçik qonorar deyildi. Hər ikisi sözünə əməl etmiş, nəticədə deyilən vaxtda kitab işıq üzü görmüşdü.

Həmin vaxtdan iki il keçirdi. "Qocaman şair"in budəfəki gəlişi əvvəlkilərə bənzəmirdi. O, əlindəki balaca kitabı şəstlə stolun üstünə qoyub İnciyə dedi:

– Bu, mənim üçüncü kitabımdır. Yenicə çapdan çıxıb, yüz səhifədən ibarətdir.

Əjdər dayının bu dəfəki danışıq tərzi əvvəlkilərdən fərqlənirdi. İndi o, təkəbbürlü görünürdü. Həm hərəkətlərində, həm də baxışlarında qəribə bir özündən razılıq ifadəsi duyulurdu. Bunu hiss etmək çətin deyildi. Onun soyuq rəftarı İncinin kefini pozsa da, kitabı əlinə alıb vərəqləməyə başladı. İlk səhifələrdə "şairin" əvvəlki iki kitabında çap olunmuş şeirləri yerləşdirilmişdi. Sonrakı səhifələrdə isə 40-a yaxın "yeni şeiri" verilmişdi. Müəllifin mənasız söz yığınından ibarət cızma-qaraları, nöqtə-vergülünə belə toxunulmadan, olduğu kimi çap olunmuşdu.

İnci kitabı stolun üstünə qoyanda Əjdər dayı özündən razı halda dedi:

– Bilirsən bu kitabın redaktoru kimdir? Qasim Saruxanov.

– Bildim. Nə əcəb o, belə bir işə qol qoyub?

İstedadlı şair kimi tanınan Qasim Saruxanovun qələminə də, savadına da İnci yaxşı bələd idi. Lakin onun belə qeyripeşəkar iş ortaya qoymasına, ağsaqqal "şairin" şeirlərinə əl vurmadan kitaba daxil etməsinə, bu şəkildə çapına razı olmasına təəccüb etdi. Həmkarının bu hərəkətini, öz redaktor imicini düşünməməsini heç cür başa düşə bilmədi. Əjdər dayı güldü:

– Niyə də razılaşmasın? 600 manat pul alıb məndən.

İnci eşitdiklərinə inanmadı.

– Nə qədər? 600 manat? Kitabdakıların əksəriyyəti mənim sizdən ötrü yazdığım şeirlərdir. Təzə əlavə olunanlara Qasim qətiyyən əl vurmayıb axı.

Qoca onunla razılaşmadı:

– Qulp qoyma. Mən onun işindən çox razı qaldım. Gör necə sanballı kitab alınıb!

İnci hirsini güclə boğdu:

– Əjdər dayı, sizin bu kitabınız başı çıxan birinin əlinə keçsə, o saat biləcək ki, burda iki müəllifin şeirləri toplanıb. Əvvəlkilər bişmiş şeirlərdir, sonrakılar isə şeirdən başı çıxmayan birinin cızma-qarasıdır. Nə əcəb kitabın bu halda çapa getməsinə razılıq verdiz?..

– Yaxşı kitabdır, hamının da xoşuna gəlib, – Əjdər dayı ona sözünü bitirməyə imkan vermədi. – İndi istəyirəm dördüncü kitabımı sən boynuna götürəsən. – O, ciddi görkəm aldı. – Ancaq əvvəlkilər kimi zəif olmasın ha! Bu dəfə çalışmaq lazımdır ki, vətənpərvərlik şeirləri üstünlük təşkil etsin.

Bu sözlər İncini özündən çıxardı. Qəzəbini güclə boğaraq

kinayə ilə soruşdu:

– Nə əcəb bu məsuliyyətli işi Qasim Saruxanova tapşırmadınız? O sizin üçün yaxşı kitab yazardı.

– Onun vaxtı yoxdur, əlində başqa kitablar var.

Bu sözləri eşidəndə İnci səsini qaldırdı:

– Gedin burdan, Əjdər dayı, Allah xatirinə, gedin, özünüzə başqa bir redaktor tapın. Qoy o, sizin arzularınıza uyğun bir kitab ərsəyə gətirsin. Mənim isə vaxtım yoxdur, mən məşğulam.

– Havayı istəmirəm ki! Pul verəcəyəm də!

Qocanın danışıq tərzi İncinin səbir kasasını doldurdu:

– Lazım deyil mənə sizin pulunuz! Xahiş edirəm, bir də mənim otağımın qapısını açmayın. Xahiş yox, tələb edirəm, bir də yanıma gəlməyin!

Onun belə qəzəblənəcəyini gözləməyən qoca kitabını qoltuğuna vurub otaqdan çıxdı. İnci əlləri ilə başını tutub öz-özünə pıçıldadı: "Allah, sən mənə səbir ver!"

Qanı qaralmış halda, kim bilir, neçənci dəfə özünü danladı. Ehtiyac üzündən Əjdər kimilərinə intellektini satmağa məcbur olduğuna görə özünə nifrət etdi. Bir az inciklik, bir az qəzəb, bir az kədər, bir az nifrət, bir az da üsyan qarışıq hisslər onu titrətdi. Bu hisslər ürəyində dərin şırımlar açır, yerləri göynəyirdi. Onların arasında inciklik hissi üstünlük təşkil edirdi. Kimdən inciyirdi? Yalnız özündən!

Yadına Həbib Zöhrabbəyovun tez-tez təkrar etdiyi sözlər düşdü: "Çalışın, istedadlı adamlara kömək edin. İstedadsızlar onsuz da özlərinə yol açacaqlar". Dünyagörmüş Həbib müəllim necə də haqlı idi! İnci onunla oxşar tale yaşayan Nəzrini xatırladı. Onun da bu çətinlikləri yaşamaması, bu əzablara qatlaşmaması, istedadını boş yerə xərcləməməsi üçün əlindən gələni etməyə hazır idi. Dərin təfəkkürü,

yazıçılıq məharəti ilə nəinki yaşıdlarından, hətta bir çox tanınmış qələm sahiblərindən seçilən bu qızın eynən onun kimi ehtiyac çəkdiyini, bir vaxtlar onun buraxdığı səhvləri təkrar etdiyini görüb yol göstərməyə çalışır, hekayələrinin işıq üzü görməsindən ötrü səy göstərirdi.

ƏDƏBİ OĞURLUQ

Bir dəfə nahar fasiləsi zamanı İnci xanımdan hal-əhval tutmağa gələn Nəzrin onun otağında televiziya ekranlarında bir neçə dəfə gördüyü şair Ülkər Nikbinlə rastlaşdı.

– Tanış ol, Ülkər, bu Nəzrindir. "İncəsənət" jurnalında işləyir. Gənc yazıçıdır, gözəl hekayələri var, – deyə İnci xanım onu qonağına təqdim etdi.

– Bu gözəl qız sizin nəyinizdir? – deyə Ülkər maraqla soruşdu.

– Mən onun qızıyam, – deyə Nəzrin gülə-gülə cavab verdi.

Bu sözlərdən İncinin ürəyinə elə doğmalıq yayıldı ki, onun masasına yaxınlaşan Nəzrini qucaqlayıb yanağından öpdü.

– Sizə oxşayır, – deyə Ülkər səsləndi. Sonra isə əlavə etdi: – Deməli "İncəsənət" jurnalı da bizimdir. Günü sabah sizə təzə şeirlərimdən gətirəcəyəm, çap edərsiz, – deyə o, ərklə danışdı.

– Sizi dünən televiziyada gördüm, şeirlərinizə qulaq asdım, – Nəzrin gülə-gülə dedi.

– Şeirlərim xoşuna gəldimi? – qonaq maraqlandı.

– Çox! – deyə Nəzrin cavab verdi.

– Qızınızdan sirrimiz olmayacaq ki... Mən kitabın pulunu gətirmişəm. – Ülkər Nikbin çantasından çıxardığı zərfi masanın üstünə qoydu:

– Sayın.

– Ehtiyac yoxdur. – Bunu deyib İnci zərfi dərhal siyirtməyə qoydu.

Qadın bir azdan sağollaşıb gedəndə Nəzrinin gözünə masanın üstündəki kitab dəydi. Onu götürüb baxdı:

– Ülkər Nikbin: "Sənlə sənsiz". Poetik başlıqdır.

Sonra kitabın titul vərəqinə nəzər saldı:

– Redaktoru siz deyilsiz? – deyə təəccüblə soruşdu.

– Xeyr, mən deyiləm, – İnci xanım könülsüz halda cavab verdi.

– Bəs sizə pulu nəyə görə ödədi? – Nəzrin maraqla soruşdu.

– Məndən borc almışdı, – İnci xanımın söhbətdən yayınmaq istəməsi Nəzrini təəccübləndirdi. Kitabı açıb oradan bir şeir oxumağa başladı:

Bu gecə sənincün qəribsəmişəm,
Bu gecə nədənsə dərdliyəm yaman...

Birdən heyrətlə:

– Bu ki, sizin şeirinizdir! – deyə səsləndi.

– Yanılırsan, mən şeir yazmıram, heç vaxt da yazmamışam, – İnci bu sözləri həyəcanla dedi və onun bu həyəcanı Nəzrinə qəribə göründü. Cavab verməyib, kitabı vərəqləməyə başladı. Qızın keçirdiyi gərginliyi, onun çaşqınlığını görən İnci araya söz salmaq istədi, lakin Nəzrinin bütün diqqəti kitaba yönəlmişdi. Onun səhifələrini çevirirdi.

– "Səni unutmağa bir həyat yetməz..." – Bu sözləri ucadan oxuyanda Nəzrinin yadına bir neçə ay əvvəl İnci xanımın şkafını səliqəyə salarkən orada paltarlar arasında gizlədilmiş, qara məxmər parçaya bükülmüş qalın dəftər düşdü. Onda marağı güc gəlmiş, açıb onu vərəqləmişdi. Dəftərin başdan-başa şeirlərdən ibarət olduğunu görəndə işini atıb

onları oxumağa girişmişdi. Səliqəli, xırda xəttlə yazılmış həmin şeirlər onu yaman duyğulandırmışdı. Onların İnci xanımın qələmindən çıxdığı şübhəsiz idi, qadının xəttini yaxşı tanıyırdı. Həm də oxuduğu misralarda yaxşı bələd olduğu bu qadının ruhu duyulurdu.

Onun tənhalığının səbəbinin nakam məhəbbət olduğunu Nəzrin çoxdan anlamışdı. Bu şeirlər həmin təxminləri təsdiq edirdi. Onlar elə təsirli, elə düşün-dürücü idi ki, dəftəri yerinə qoyandan sonra da xeyli müddət təsiri altında olmuşdu. Lakin ürək edib bu barədə İnci xa-nıma bircə kəlmə də deyə bilməmişdi. İndi həmin şeirlərin Ülkər Nikbin imzası ilə dərc olunduğunu görəndə o, bunun nə demək olduğunu anlayıb sarsıldı. Özündən razı halda, iş-baz kimi danışan bayaqkı bər-bəzəkli, ənlik-kirşanlı qadının meşşan görkəmi gözləri qarşısında canlandı. Onun hərəkət-lərində heysiyyatına toxunan nələrinsə olduğunu yalnız indi anladı. Qəhərlə İnci xanımdan soruşdu:

– Niyə? Axı niyə? Nə səbəbə?

Əslində bunlar sualdan çox cavaba bənzəyirdi. Bu gənc qız qarşısındakı qadını ittiham edirdi. Haqlı olaraq onu di-vara dirəmişdi.

İnci özünü sakit apardı, guya heç nə başa düşmədi:

– Sənə nə olub, Nəzrin? Nəyin səbəbini soruşursan?

– Mənimlə həmişəki kimi səmimi olun, İnci xanım, nə olar, yalvarıram sizə. Şeirlərinizi Ülkər Nikbin kimilərinə necə rəva görürsüz? Belə dərin məzmunlu şeirləri niyə o cür dayaz adamlara qıyırsız? – Nəzrinin sözlərində etiraz dolu inciklik hiss edən İnci onu sakitləşdirməyə çalışdı:

– Sakitləş, Nəzrin. Qulaq as, gör nə deyirəm. Mən öm-rümdə şeir yazmamışam. Bu, hardan ağlına gəldi?

– Siz yalan danışmağı bacarmırsız, İnci xanım, indicə

diliniz deyənləri üzünüzün ifadəsi təkzib etdi. Mənə düzünü deyin, o cür gözəl şeirləri bu cür düşük qadına satmağa sizi nə məcbur etdi?

– Sən yanılırsan, Nəzrin. Kitabdakıların mənə heç bir aidiyyatı yoxdur, onlar Ülkər Nikbinin şeirləridir, – İnci sakitliyini qoruyub saxlayır, onu inandırmağa çalışırdı. Nəhayət, Nəzrin dözə bilmədi:

– Mənim günahımı bağışlayın, evinizdə bir özbaşınalıq etmişəm. Paltar şkafınızı qaydaya salanda əlimə dəftəriniz keçdi. Şeirlərinizi oxumamağa iradəm çatmadı. Siz mənə evinizi etibar etmisiz, mən isə oğru kimi burnumu hər yerə soxmuşam. Amma bundan peşman deyiləm. Tanışlığımızın ilk günündən düşünürdüm ki, sizin kimi savadlı və həssas bir insan hisslərini vərəqlərə köçürməyə bilməz.

– Həmin dəftər Ülkərə məxsusdur, onu mənə özü verib, – İnci onu inandırmağa çalışdı.

– Hə, siz də onu qara məxmərə büküb qiymətli xatirə kimi şkafınızda gizlətmisiz! Məni sadəlövh hesab etməyin. Həm də sizin xəttinizi mən yaxşı tanıyıram, – Nəzrin bu sözləri bir qədər incik tərzdə dedi.

İncinin ürəyində ikili hiss oyanmışdı. Bir hiss ona pıçıldayırdı ki, sirrindən heç olmasa bir adamın xəbər tutması yaxşıdır. O, sevinirdi ki, bu adam məhz duyğulu qız olan Nəzrindir. O biri hiss isə yalanının üstünü qəfil açmış bu qızdan onu soyutmağa, etibardan salmağa çalışırdı. O, tutulmuş halda dedi:

– Yaxşısı budur, bu söhbəti unudaq. Elə bil heç bu barədə danışmamışıq. Gəl bir də bu mövzuya qayıtmayaq. Bu, ikimiz üçün də yaxşı olar.

Nəzrin bu sözləri eşidəndə ayağa qalxdı və İncinin bu vaxta kimi görmədiyi qəribə bir ifadə ilə, soyuqqanlılıqla

ona baxdı. Bu baxışlar İnciyə Sahili xatırlatdı. Uzun illər əvvəl Sahil onu eynən belə süzmüşdü. Onda olduğu kimi, indi də qəfildən başını ağrı tutdu.

– Sizi bilmirəm, amma mən bunu unuda bilmərəm, sağ olun, – deyib Nəzrin otaqdan çıxdı. İnci onun bu gözlənilməz gedişindən özünü itirib bir xeyli çaşqınlıq içində qaldı. Sonra birdən onu xəcalət hissi bürüdü, özünə acığı tutdu. Heç vaxt belə utanmamışdı.

Böyük şəhərdə tək-tənha, qohumlardan, doğmalardan uzaqda yaşamağın çətinlikləri ilə tez-tez üzləşən İnci bunlar az imiş kimi, son vaxtlar baş ağrılarından da əziyyət çəkirdi. Əvvəllər "miqrendir" deyib buna əhəmiyyət verməsə də, ağrılarının çoxaldığını, həm də bunun adət halını aldığını görəndə narahat olmuş, ehtiyat üçün evində qəpik-quruş olmadığı haqqında düşünməyə başlamışdı. Kiçik maaşı yeməyinə, dava-dərmanına güclə çatan İnci qorxu içində haçansa xəstəxanaya düşə biləcəyini ağlına gətirəndə məyus olurdu. Bir vaxtlar valideynləri sağ olanda maaşından ehtiyat üçün pul yığdığını yada salır, Bakıya köçəndən çətin gün üçün bir manat da ata bilmədiyini düşünüb pərişan olurdu. Daxilindən gələn bir səs səhhətində problemlər olduğunu ona tez-tez xatırlatsa da, çıxış yolu tapa bilmirdi.

Təsadüfən bir məclisdə yaxından tanış olduğu Ülkər Nikbinin qrafoman olduğunu dərhal anlamışdı. Onun bunu gizlətməməsi İnciyə qəribə təsir bağışlamışdı.

– Sizdən nə gizlədim, İnci xanım. Mənim hər şeyim var, heç nəyə ehtiyacım yoxdur. Bəziləri kimi pulu sağa-sola xərcləməkdənsə kitab çapına sərf etmək daha yaxşıdır. Tanınmağı kim istəməz? İndi yaxşı bir şeir kitabı çap eləmək istəyirəm.

İnci onun nə dediyini anlamayıb təəccüblə qıza baxanda,

o, izah eləmişdi:

– Mənə elə gəlir ki, siz şeir yazırsınız.

– Nədən bildiniz? – İnci maraqla soruşmuşdu.

– Baxışlarınızdan.

– Bəyəm şairlərin fərqli baxışları olur?

– Əlbəttə. Əsl şairlərin baxışları mənalı və dərin olur.

– Maraqlıdır, – deyə İnci gülmüşdü.

– Nədənsə ürəyimə damdı ki, siz gəncliyinizdə şeirlər yazmısınız, amma onları heç yerdə çap etdirməmisiniz.

Dəbdəbəli geyinmiş bu gözəl xanımın səmimiyyətlə dediyi sözlərlə razılaşmamaq çətin idi. İnci də etiraf etmişdi:

– Hə, sandıq ədəbiyyatı üçün bir az yazmışam.

– Onları mənə satarsınızmı? – Ülkərin bu sualından özünü itirən İnci çaşqınlıq içində qalmışdı. Onun bu halını görən Ülkər gülmüşdü:

– Cavab verməyə tələsməyin, mən gözləyərəm.

Həmin gün onlar məclisdən bir yerdə çıxmış, yol boyu ordan-burdan xeyli söhbət etmişdilər. İki gün sonra Ülkər İncinin iş yerinə gəlib həmin mövzunu təzələmiş, "mənim dediyim barədə düşündünüzmü?" – deyə qadına birbaşa sual vermişdi.

Əslində, İnci bu barədə çox fikirləşmişdi. Uzun illərdən bəri bircə sətir belə şeir yazmayan birisi üçün bu, göydəndüşmə təklif idi.

İncinin fikrə getdiyini görən Ülkər onu çətinlikdən qurtarmışdı:

– 200 səhifəlik şeir kitabına 3 min manat pul ödəyəcəyəm. Bu təkliflə razısınızsa, mənə xəbər eləyin.

O, çantasından vizit vərəqini çıxarıb stolun üstünə qoymuşdu:

– Burda mənim telefon nömrəm, həm də e-mail ünvanım

var. Zənginizi gözləyəcəyəm, – deyib onunla sağollaşıb getmişdi.

İnci üçün bu, olduqca sərfəli sövdələşmə idi. İnsafən, 3 min manat kiçik məbləğ deyildi. Xəstəxanaya düşəcəyi təqdirdə bu pul onun karına gələ bilərdi.

İki gün sonra Ülkər onun zəngini gözləmədən redaksiyaya gəlmiş, İncinin razı olduğunu biləndə sevinclə beh vermiş, qalanını kitab çapdan çıxandan sonra çatdıracağını demişdi.

İnci səliqə ilə qalın dəftərə köçürdüyü şeirlərinin üzünü çıxarıb, onları ürək ağrısı ilə Ülkərə vermiş, o da qısa müddətdə "Səninlə sənsiz" adlı nəfis bir kitab nəşr etdirmiş, orada öz şəklini və haqqında məlumatı da yerləşdirmişdi.

Ehtiyac üzündən bu işi görməyə məcbur olan İnciyə öz hərəkəti mənəvi əzab vermişdi. Qəlbinin səsi, həyəcanları, kövrək duyğuları olan, hər sətrində ürək çırpıntıları duyulan həmin şeirləri satmaq ona ağır təsir etmiş, doğma balasını yad əllərə verən ananın keçirdiyi hissləri keçirmiş, günlərlə həmin sarsıntıdan özünə gələ bilməmişdi. Amma reallıq ona başqa şeylər demişdi. O, ürəyində öz-özünü sorğu-suala çəkmişdi:

"– İnci, sən bu şeirləri çap edəcəksənmi?

– Yox!

– Onları kiməsə göstərəcəksənmi?

– Yox!

– İnnən belə şeir yazacaqsanmı?

– Yox!

– Elə isə təəssüflənmə! Sənə pul lazımdır, malını sat, pulunu al. Allahına şükür elə ki, alıcı tapmısan. Yoxsa sənin sentimental şeirlərin kimə gərəkdir? Həm də bir həsir, bir də Məmmədnəsir olduğunu yadından çıxarma. Satmağa ayrı ayrı nəyin var, ay yazıq?"

Özünü nə qədər sakitləşdirməyə çalışsa da, günlərlə ürəyinin sızıltısı keçməmişdi. Qiymətli nə isə itirənlər kimi qərarsız olmuşdu. Onun bu itkisi müqayisəyə gəlməz idi.

***

İş yerinə qayıdanda Nəzrin həyəcanla fikirləşdi: "Birdən İnci xanım izi azdırmaq üçün dəftəri məhv etmək istəyər". Bu fikirdən ürəyi sıxıldı. Qadının xasiyyətinə yaxından bələd olduğundan onun belə edə biləcəyinə şübhə etmədi.

Saat 12 idi. Qəzet evində iş vaxtı adətən saat 6-da qurtarırdı. İlk ağlına gələn o oldu ki, vaxt itirmədən həmin şeir dəftərinin üzünü çıxartdırmalıdır. Rastlaşdıqları gündən bəri İncinin evinin açarı onda, Nəzrinin evinin açarı isə İncidə idi. Boş vaxtı olan kimi, İncigilə gedib qadın işdən qayıdanadək yemək bişirməyə adət etmişdi. Bir yerdə şam edəndən sonra öz evinə qayıdardı.

Nəzrin hövlnak otaqdan çıxdı. Küçədə ilk rastına çıxan taksiyə minib İncigilə yola düşdü. Sürücüdən onu gözləməyi xahiş edib bu doğma evin qapısını ilk dəfə oğru kimi açdı. Ürəyi sinəsində bərk çırpınır, onun guppultusunu qulaqları ilə eşidirdi. Əlləri həyəcandan əsə-əsə şkafdakı paltarların içində gizlədilmiş dəftəri götürüb tez evdən çıxdı. Qapıda onu gözləyən taksiyə oturub sürücüdən Nizami metrosuna sürməyi xahiş etdi. Həmin ərazidə surətçıxarma yerləri çox idi. Dəftərin bütün səhifələrinin surətlərini bir-bir çıxartdırandan sonra yenidən evə qayıtdı. Əmanəti yerinə qoyub, paltarları səliqə ilə yerləşdirib, evdə izlərinin qalıb-qalmadığını dönə-dönə yoxladıqdan sonra iş yerinə qayıtdı.

Yalnız bundan sonra dərindən nəfəs aldı. Ürəyi zərblə döyünürdü. Bütün varlığını həyəcan bürümüşdü. Bir qədər sakitləşəndən sonra İncinin şeirlərinin surətləri olan qovluğu

açıb, onları səylə, sonsuz maraqla oxumağa başladı. Həmişə başqalarından səxavətlə, ağızdolusu danışan, özünə gələndə isə son dərəcə xəsis olan, həyatından söz açmağı xoşlamayan İncinin ondan ötrü sirr dumanına bürünmüş həyatını o, indi diqqətlə bu şeirlərdən öyrənməyə çalışır, hər misrasını, hər sözünü sanki mikroskop altında təhlil edirdi. Oxuduqlarında nə ad vardı, nə də ünvan, amma onlarda böyük məhəbbətin əks-sədasını duymamaq mümkün deyildi. Nəzrin kövrəlir, göz yaşlarına hakim ola bilmirdi.

Həmin gün başqa heç bir işlə məşğul ola bilmədi, yalnız şeirlərin hamısını oxuyub qurtardıqdan sonra evə yollandı. Yol boyu da, ev işləri ilə məşğul olanda da onlar haqqında düşündü. Başqa heç nə barədə fikirləşmək iqtidarında deyildi. Şeirlərdən sızan dərin hisslər onu titrədirdi. Onların kiminsə adından çap olunması ən azı insafsızlıq idi. Həm də Ülkər Nikbin kimi simasız birinin adından.

"İnci xanım incisə də, mənimlə münasibətləri kəssə də, bu işi belə qoya bilmərəm. Belə haqsızlığı necə rəva görəsən? Buna mənim insafım yol verməz. Ülkər Nikbin kimi qrafomanlar mütləq öz cəzalarını almalıdırlar. Yoxsa cəmiyyət yalana, oğurluğa bürünər, haqqı nahaqdan, yaxşını pisdən, əyrini düzdən ayırmaq çətin olar", – bu, onun daxili Məninin səsi idi, həmin səs ona qərarının düzgün olduğunu deyirdi.

Öz-özünə plan cızdı. Sabahdan etibarən şeirləri kompüterdə çap etməyə başlayacaqdı. Gündə iki saat bu işlə məşğul olsa, bir neçə günə kimi tamamlayacaqdı. İnci xanımın şeirlər kitabını nəşr etməyi qarşısına məqsəd qoymuşdu. Kitabın redaktoru özü olacaqdı. Bu fikirdən qızı həyəcan bürüyürdü. Qəmli sevincinə qarışmış məsuliyyət hissi onu bir an da tərk etmirdi. Kitabın tərtibatını artıq özlüyündə müəyyən etmişdi, orada mütləq İnci xanımın şəklini, onun haqqında

redaksiya məqaləsini də yerləşdirməyi düşünürdü. Ön sözdə kitabın necə yaranması barədə məlumat verməyi qət etmişdi. Bu fikir onu elə aludə etmiş, özünə elə çəkmişdi ki, həyatına yeni məzmun, yeni məna gəlmişdi.

Şövqlə işə girişən, redaksiyanın tapşırıqlarını tələmtələsik yerinə yetirib təhvil verdikdən sonra, növbəti əlyazmaları kompüterin yaddaşına köçürən Nəzrin indidən gələcək kitabın sevincləri ilə yaşayırdı. Artıq ona ad da fikirləşmişdi: "Sahilsiz dəniz". İncinin şeirlərində tez-tez təkrarlanan bu ifadə ürəyinə çox yatmışdı. Orijinallıq naminə müəllifin soyadını göstərməməyi qət etmişdi. Təkcə adı olacaqdı: İnci.

Kitab nəşr etdirmək elə bir problem deyildi. Bakıda onlarca özəl nəşriyyat fəaliyyət göstərirdi, pulu olanlar istədiyi yerdə istədiyi kitabı çap etdirə bilirdilər. Problem yalnız pul tapmaqdan ibarət idi.

Bir gün işdən icazə alıb səhərdən axşama kimi şəhərdəki müxtəlif nəşriyyatlara baş çəkdi. Təxminən 200 səhifəlik kitabın 500 nüsxəsinin neçəyə başa gələcəyini öyrəndi. Bunun üçün ən azı min beş yüz manat tələb olunduğunu eşidəndə sarsıldı. Nəzrindən ötrü bu, böyük məbləğ idi. Bəs bu qədər pulu haradan tapacaqdı? Maaşı yeməyinə, qaldığı evin kirayəsinə güclə çatırdı. Çalışıb aylarla qənaət eləsə də, həmin məbləği heç bir ildə də yığa bilməyəcəkdi. Lakin nə qədər bədbinliyə qapılsa da, kitab üzərində işini yarımçıq qoymurdu. Redaksiya tapşırıqlarını yerinə yetirən kimi, İncinin şeirlərinin üzərində çalışırdı. Qadının savadına, poetik təxəyyülünə, söz oynatmaq məharətinə bələd olduğundan qrammatika səhvlərinə yol verməməyə çalışır, az qala hər nöqtənin, hər vergülün üstündə əsirdi.

Artıq bir ay idi ki, kitabı kompüterdə yığıb səhifələmiş,

çap edib dönə-dönə oxumuş, düzəlişlər etmişdi. 265 səhifəlik kitabın PDF variantı artıq çapa hazır idi. Baş çəkdiyi, danışıqlar apardığı nəşriyyatlardan "Ümid"in üstündə dayanmışdı. Buranın qiymətləri nisbətən ucuz idi. Digər nəşriyyatlar 200 səhifəlik kitabı 1500 manata çap edirdilərsə, "Ümid"də 265 səhifəlik kitab həmin qiymətə başa gəlirdi. Bəs əlahəzrət pulu haradan tapmalı? Bu fikir Nəzrinə rahatlıq vermirdi.

Ağlına əlavə yazı-pozu işləri görməkdən başqa heç nə gəlmirdi. İşsiz qaldığı aylarda kurs işləri, referatlar yazmaqla birtəhər dolanmışdı. İşə düzələndən sonra isə onu həddindən artıq yoran, vaxtını alan bu işlə məşğul olmaqdan vaz keçmişdi. Lakin həyat onu yenidən sınağa çəkirdi. Geri çəkilməyə, aciz olmağa haqqı yox idi. Kitabın nəşrindən ötrü tələb olunan vəsaiti alnının təri ilə qazanmalı olduğu ona gün kimi aydın idi. Nəhayət, yenidən internetdə elan verməк qərarına gəldi.

Qəzet evindəki iş yerindən və İnci xanımın evindən başqa demək olar ki, heç yana getməyən, qapalı həyat tərzi keçirərək öz hekayə və povestlərinin dünyasında yaşayan Nəzrin son hadisədən sonra həyatında bir çat əmələ gəldiyini ürəyinin bütün dərinliyi ilə hiss edirdi.

Bu çat onu gözəgörünməz qüvvə ilə İnci xanımdan uzaqlaşdırırdı. Aralarında sanki bir sədd yaranmışdı. Birdən-birə onları haqlayaraq əvvəlki isti münasibətlərinə soyuqluq gətirən axırıncı hadisəyə görə ürəklərində bir-birini ittiham edirdilər. İncikliyi aradan qaldırmağa isə heç biri ürək etmir, ilk addım ata bilmirdi. Lakin bu, qəribə küsülülük idi. Ona mərhəmət hissinin qarışmasına baxmayaraq, ikisinə də xas olan, əslində onları yaxınlaşdıran inadcıllıq indi nədənsə onları bir-birindən uzaqlaşdırmaqda idi. İki ildə son dərəcə yaxınlaşmış bu iki insan, həmin qəfil soyuqluğun acısını hər

gün hiss edirdi.

Bir gün redaksiyada Nəzrinə muştuluq verdilər ki, "Yaradıcı gənclik" ictimai birliyinin elan etdiyi nəsr yazıları müsabiqəsində onun "Unutdu" adlı hekayəsi birinci yerə layiq görülüb. Bu barədə respublika qəzetlərində məlumat dərc edilmiş, birinci yer üçün mükafatın həcminin 700 manat olduğu vurğulanmışdı. Nəzrin sevincindən qanad açıb uçmaq istəyirdi. Həmkarlarının gözündən bu azdanışan, həmişə təmkinli görünən qızın sevinci yayınmadı. Təvazökarlığı və sadəliyi ilə hamının hörmətini qazanmış bu gənc qələm sahibinin ehtiyac çəkdiyini bildiklərindən onun xoş əhval-ruhiyyəsi hamını mütəəssir etdi.

Mükafat alması münasibətilə həmin gün onu çoxları təbrik etdi. Anası Lalə də onların arasında idi. O, telefonda qızına sonsuz sevincini bildirdi:

– Təbrik edirik səni! Belə mükafatlardan çox alasan! Nəzrin, atanla sənin uğurlarına çox sevinirik! Sən çox istedadlısan. Bunu hamı etiraf edir. Sənin çün elə darıxırıq! Sənsiz evimiz suyu sovulmuş dəyirmana dönüb. Amma sənə muştuluq vermək istəyirəm, artıq işə düzəlmişəm. Yanımızdakı məktəbdə müəllim işləyirəm. Bütün günü uşaqlarla oluram. Gərək çoxdan evdən çıxaydım. Atanla biz daha dalaşmırıq, əslində, demək olar ki, heç danışmırıq da. Ancaq yemək vaxtı bir-birimizə bir-iki kəlmə söz deyirik. Sənin evdən getməyində günahkar olduğumuzu ikimiz də anlamışıq. Bu səhvi bir-birimizə bağışlaya bilmirik. – Anası sözlərinə bir qədər ara verib, Nəzrinin səsini eşitmək istədi. Nəzrin isə dillənmirdi. – Başını çox ağrıtmayım, sənə uğurlar arzulayıram. Əminəm ki, həyatda bizim buraxdığımız səhvləri təkrar etməyəcəksən. Bilsən sənin xoşbəxtliyini necə arzulayırıq! Sən çox ağıllı və yaşına görə müdrik qızsan. Bacarsan, bizi

bağışla, qızım...

Nəzrin bu iki il ərzində ilk dəfə anasını sona kimi dinlədi. Onun doğma səsi üçün çox darıxsa da, telefonda cavab vermədi. Atası isə ona bircə dəfə də zəng çalmamışdı. Onun xasiyyətinə bələd idi: hisslərini heç vaxt büruzə verməzdi.

İşdən sonra evə gələn Nəzrin stolunun üstündə qızılgül dəstəsini və çox sevdiyi, İnci xanımın adətən bayramlarda hazırladığı limonlu tortu görəndə kövrəldi. Gül dəstəsi onun ürəyinə qəribə bir sevinc gətirdi. Zərfin içindəki vərəqdə "Təbrik edirəm" sözləri yazılmışdı. Zəng çalıb qadına minnətdarlığını bildirmək istəsə də, ürək eləmədi, daxilindən gələn bir səs ona mane oldu. Çay qoyub özü üçün süfrə düzəltdi. Tortdan böyük bir dilim kəsib, təzə dəmlədiyi çayla ləzzətlə yeməyə başladı.

Ertəsi gün "Ümid" nəşriyyatına yollandı. Direktor Fuad Hətəmov 50-55 yaşlarında kişi idi. Özgənin kitabından öt-rü bu qədər canfəşanlıq edən, özünü oda-közə vuran gənc qələm sahibi Nəzrinə qarşı onda və köməkçilərində rəğbət hissi oyanmışdı. Nəzrinin mükafat alması xəbəri onlara da çatmışdı. Direktor qızı görəndə onu təbrik edib otağına dəvət etdi.

Nəzrin özü ilə gətirdiyi pulu masanın üstünə qoydu:

– Fuad müəllim, mən 1200 manat pul yığa bilmişəm. İcazə versəniz, qalan məbləği kitab çap olunandan sonra ödəyərəm.

Naşirin cavabı onu çox sevindirdi:

– Əlbəttə, Nəzrin xanım. Qalan məbləği imkanın olanda ödəyərsən. Sənin necə dürüst adam olduğun sirr deyil. Onu da bilirik ki, aldığın mükafatı bu kitaba xərcləyirsən.

Nəzrin ona cavab vermədi. Kitabın son variantını təqdim edib direktorla sağollaşdı. İşə yollananda Nəzrin taleyin son vaxtlar ona qarşı iltifatlı olduğu barədə düşünür, sevincini

gizlədə bilmirdi. Düzlüyü hər şeydən üstün tutan o, şöhrətpərəstlik azarına tutulan, İnci xanım kimi istedad sahiblərinin sayəsində məşhurlaşan Ülkər Nikbin kimilərinin simasızlığı barədə düşünür, içində belələrinə qarşı dəhşətli bir nifrət hissinin alovlandığını duyurdu.

Başqalarının fikirlərini oğurlayan, özgə misralarını, hətta şeirlərini mənimsəyən bu cür qrafomanlar haqqında azçox təsəvvürü var idi. Lakin özgə kitablarına sahib çıxmaq istəyən həyasız adamların varlığından xəbərsiz idi, bu barədə təsəvvürü belə yox idi. İndi belə bir insan – Ülkər Nikbin adlı harın və meşşan biri, Nəzrindən ötrü əsl məktəb, əsl qürur mənbəyi olan bir insanın yazdıqlarını özününküləşdirmişdi. Yox, yox, Nəzrin bu haqsızlığa yol verməyəcək! Dünya özü ondan üz çevirsə də, o, dediyindən əl çəkməyəcək!

SAHİLSİZ DƏNİZ

İyirmi gündən sonra Fuad müəllim ona zəng çalıb kitabın hazır olduğunu xəbər verəndə Nəzrini qəfil həyəcan bürüdü. Kitab çap etdirmək fikrinə düşdüyü gündən ilk dəfə ağlına gələn suallar onun rahatlığını əlindən aldı. Kimsə ilə məsləhətləşmədən, öz ürəyinin hökmü ilə gördüyü bu iş necə qarşılanacaq? Ədəbi ictimaiyyət bunu necə dəyərləndirəcək? İnci xanımın reaksiyası necə olacaq?

Sonuncu sualdan diksindi. Son üç ay ərzində ilk dəfə idi ki, İnci xanımın bu məsələyə münasibətinin necə olacağı fikri onu bu dərəcədə məşğul edirdi. "İnci xanım bunu mənə heç vaxt bağışlamayacaq!" Bu fikir onu dəhşətə gətirdi. İlk dəfə özünə bərk acığı tutdu: "Niyə bu boyda özbaşınalıq etmisən? Sənə bu haqqı kim verib? Özgənin şeirlərini çap etməyə sənin nə ixtiyarın var? Özünü nə hesab edirsən? Adam

bu qədər özündən razı olarmı?”

Gözlənilmədən onu çulğalayan bədbinlikdən özünü itirdi. Qəribə bir ümidsizlik hissi varlığını bürüdü. Əməlinin düzgün olmaması fikri onun bütün rahatlığını əlindən aldı. Birdən-birə bədəninin əzaları sustalmış kimi oldu. Bir xeyli həmin əhval-ruhiyyənin təsiri altında olandan sonra, nəhayət, özünü ələ aldı. Hər şeyə rəğmən kitablara yiyəlik etməli, tirajı nəşriyyatdan evə daşımalı idi. Kitabları hansı mağazalara verməyi müəyyənləşdirməli, onların satışı ilə birbaşa özü məşğul olmalı idi.

Fuad müəllim onu nigarançılıqdan xilas etdi:

– Nəşriyyatımızın maşını var. Sizə fəhlə də verərik. Yol xərcini ödəsəniz, kitabları istədiyiniz ünvana daşıyarlar.

Nəzrin minnətdarlığını bildirərək bir saatdan nəşriyyatda olacağını bildirdi və dediyinə əməl etdi. Kitablar yüklənmiş “Qazel” markalı maşına minib sürücüyə yaşadığı evin ünvanını dedi.

Bağlamalar mənzilin ensiz dəhlizinin yarısını tutdu. Buradan onları satılmaq üçün hissə-hissə şəhərin kitab mağazalarına paylamalı olduğu yadına düşəndə ürəyini bir qorxu bürüdü: “Birdən satılmasa?” Artıq uzun illərdən bəri müəlliflər öz kitablarının satışı ilə özləri məşğul olurdular. Bu, ölkənin hər yerində belə idi. Sabahdan bu işlə ciddi məşğul olmağı qarşısına məqsəd qoydu.

***

Kitabın çapından hələ bir həftə keçməmişdi, amma artıq bir neçə qəzetdə yeni nəşrlə bağlı resenziyalar dərc olunmuşdu. Müxtəlif mətbu orqanları Nəzrinin yazdığı “Ön söz əvəzi”ni olduğu kimi çap etmişdi. Orada hər şey aydın yazılmışdı. Ülkər Nikbinin “Səninlə sənsiz” kitabındakı şeirlərin

oğurluq olduğunu biləndə əsl müəllifi oxuculara tanıtdırmaq məqsədi ilə bu kitabı nəşr etmək fikrinə düşən, özünün böyük imtahan qarşısında qaldığını etiraf edən kitabın redaktoru İnci xanımdan bu gözlənilməz addıma görə onu bağışlamağı xahiş edirdi.

Bir müddət sonra kitab gözlənildiyindən də böyük əks-səda doğurdu. Hər yerdə ondan danışır, Nəzrinin bu xeyirxah niyyətini dəyərləndirirdilər. Respublikanın aparıcı qəzetlərindən birində çap olunmuş "Plagiat" məqaləsi isə sözün əsl mənasında sensasiyaya çevrildi. Orada tanınmış tənqidçi Mustafa Heydərov plagiatın son vaxtlar ədəbiyyata vurduğu ağır zərbələrdən danışır, sonra isə Ülkər Nikbinin "çoxşaxəli yaradıcılığını" təhlil edirdi. Onun kimilərinin şaxələnməsinə şərait yaradan yaradıcı insanları şiddətli tənqid atəşinə tutan müəllif İnciyə də irad bildirirdi. O, öz əsərlərini başqalarına satan qələm sahiblərini prinsipsiz və iradəsiz adamlar adlandırırdı. Kitabdakı şeirlərə gəldikdə isə onlardakı poetik ovqatdan, sənətkarlıq xüsusiyyətlərindən, dərin obrazlılıqdan, fikir və qafiyələrin gözəlliyindən söhbət açırdı.

Həmin məqalə cəmiyyətdə partlayan bomba təsiri yaratdı. Kitab sürətlə satılmağa başladı. Hər gün mağazalara çanta ilə kitab daşımaq Nəzrinin gündəlik işinə çevrildi. Onlarla bağladığı müqavilələrdə satışdan əldə olunacaq pulların İnci Mehdiyevaya ödənilməli olduğu qeyd edilmişdi.

Günlərin bir günü Ülkər Nikbin Nəzrinin iş yerinə gələndə, bundan bütün kollektiv xəbər tutdu. Qapıdan səs-küylə içəri girən, qışqıra-qışqıra Nəzrini hədələyən qadın qəzəbini heç cür cilovlaya bilmirdi. O, qapını çırpıb səsini qaldırdı:

– Bura bax, Nəzrin! Sən belə qudurmusan? Deyəsən kimi qaraladığını bilmirsən. Deməli İnci ilə birləşib mənə tələ

qurmusuz, hə? Belə fikri var idisə, şeirlərini niyə mənə satırdı? Şeir satan qəhət idi məgər? Adam bu qədər ikiüzlü olarmı? Pulumu alıb yeyəndə bu barədə niyə düşünmürdü, hə? Heyif ki, iş yerində yoxdur, yoxsa biabır eləmişdim onu. Qorxusundan evdən çıxa bilmir deyəsən. Eybi yoxdur, mənə də Ülkər Nikbin deyərlər. Bu işi belə qoysam, mən-mən olmaram! Sən isə qulaqlarını aç, məni yaxşı eşit! Bu iş sənə baha başa gələcək!

Qadın, Nəzrinə ağzını açmağa macal vermədən, birnəfəsə onu da, İncini də hədələyib, səs-küylə gəldiyi kimi, səs-küylə də çıxıb getdi. Bir azdan otaq səsə gələn redaksiya əməkdaşları ilə doldu. Redaktordan başqa hamı burada idi. Onlar Nəzrini müdafiə edir, haqlı olduğunu deyirdilər. Qız isə heç kimi eşitmirdi. "Görəsən İnci xanım niyə işə çıxmayıb?" – deyə düşünürdü. Bayaq qadının çalışdığı redaksiyaya baş çəkəndə ona İnci xanımın son günlər işə çıxmadığını demişdilər.

Axşam işdən sonra Nəzrin İnci xanımgilə yollandı. Barışmaq, yenidən onun etibarını qazanmaq qədər indi onu heç nə maraqlandırmırdı. Boynunda böyük borcları olan bu qadından üzr istəmək, təqsirindən keçməsini xahiş etmək arzusu ilə tanış məhəllənin başlanğıcındakı dar dalana yaxınlaşanda birdən başına dəyən ağır zərbədən yerə yıxıldı. Qəfil qışqırıq səsinə qonşu həyətdən bayıra çıxan İmran dayı Nəzrini o saat tanıdı. Huşsuz halda yerə sərilmiş qızın başının üstünə əyilib həyəcanla nəvəsini səslədi:

– Yüyür, bala, İnci xanıma xəbər ver!

Eşitdiyi xəbərdən qorxub hövlnak evdən çıxan İnci Nəzrini asfaltın üstündə hərəkətsiz halda görəndə boğuq səslə:

– İmran qardaş, "Təcili yardım"a zəng çalmaq lazımdır! Tez olun, yalvarıram sizə! – deyə qışqırdı. Nəzrinin başını

yerdən qaldırıb ehmallıca dizləri üstə qoyanda əlləri qana boyandı. Bundan sarsılıb göz yaşlarına qərq oldu.

***

Nəzrin özünə gələndə başının üstündə dayanmış ucaboy, qaragöz oğlanı görüb duruxdu. Üzbəüz evdə yaşayan, eyvanı eyvanına baxan qonşusu ilə aralarında çoxdan salam-kəlam vardı. İndi onu ağ xalatda çarpayısının yanında görəndə güclə eşidiləcək səslə:

– Mən hardayam? – deyə soruşdu.

– Xəstəxanadasınız, cərrahiyyə şöbəsində, – oğlan gülümsəyib cavab verdi.

– Niyə? – Nəzrin təəccübləndi.

Başındakı ağrıdan qeyri-ixtiyari gicgahına əlini aparanda başının tənziflə sarındığını bildi. Göz qapaqları sözünə baxmırdı...

...Arxasına baxmadan, sürətlə gedən qadına heç cür çata bilmirdi. Nəzrin az qala qaça-qaça onun ardınca yeriyir, var gücü ilə qışqırır, ayaq saxlaması üçün yalvarırdı. Ancaq gedənin kimliyini heç cür xatırlaya bilmirdi. Yaddaşını işə salıb qadının nəçi olduğunu yadına salmaq istəyir, amma buna nail ola bilmirdi. Ağlı ona qadına yetişməsə, həyatında nə isə, bağışlanmaz bir səhv baş verəcəyini deyirdi. Bunu başa düşdüyündən addımlarını yeyinlədirdi. Nəhayət, taqətsiz halda yolun ortasında yerə çökdü və həmin an gedənin İnci xanım olduğunu anladı. Bundan dəhşətə gəlib var gücü ilə bağırdı:

– İnci xanım!

– Mən burdayam, Nəzrin! – Səs lap yaxından gəldi. Nəzrin gözlərini açanda yanında oturmuş İnci xanımı gördü, solğun dodaqlarına xəfif təbəssüm qondu. Çarpayısının ayaq tərəfində dayanmış həmin gənc həkim dilləndi:

– Gördünüzmü, yenə sizi çağırırdı. Ona görə sizi içəri dəvət elədim. Xəstə nəyinizdir?

– Hər şeyim. – Bu sözləri İnci qəhərlə dedi.

Nəzrin onun sözlərini lap uzaqdan eşitdi və göz qapaqlarının ağırlaşdığını hiss etdi.

Bir azdan yenidən gözlərini açanda İnci Nəzrinin əlini ovuclarında sıxdı:

– Məni yaman qorxutdun.

Nəzrinin səsi elə bil quyunun dibindən gəlirdi:

– Sizi daim yuxuda görürdüm. Məndən elə qaçırdız, heç cür çata bilmirdim, – deyə Nəzrin kədərlə gülümsədi. – Elə bilirdim mənimlə heç vaxt danışmayacaqsız.

– Canım mənim! – İnci bu sözləri deyəndə gözləri yaşardı. – Sənə bir şey olsaydı, mən buna dözə bilməzdim.

– İnci xanım, mənim özbaşınalığımı bağışlayırsınızmı? – Nəzrin neçə vaxtdan bəri onu incidən sualı nəhayət, verdi.

– Keçənə güzəşt deyərlər, olan oldu, keçən keçdi, – İnci onu sakitləşdirdi.

– Kitablarınızın satışını bir neçə mağaza təşkil edib. Siz gərək həmin mağazalara gedib müqaviləyə qol çəkəsiz.

– Nə müqavilə?

– Hə, kitabın satışından gələn pulu almaqdan ötrü.

– Sən nə danışırsan, Nəzrin? Nəşriyyata getmişdim. Fuad müəllim sənin fədakarlığın barədə mənə danışdı. Ödədiyin məbləği də dedi. Qonorar sənə çatmalıdır, mən isə nə nəşriyyata gedənəm, nə də müqaviləyə qol çəkən.

– İnci xanım, sizdən başqa o pulu heç kəs ala bilməz. Müqavilədə də elə göstərilib.

– Mənsiz müqavilə bağlanıb?

– Məndə sizin şəxsiyyət vəsiqənizin surəti var idi. Yalandan xəstəxanada yatdığınızı deyib sizin yerinizə müqaviləyə

qol çəkdim... – Nəzrin günahkar tərzdə başını aşağı saldı.

– Səndə işlər var imiş! – İnci bu sözləri yarızarafat, yarıciddi dedi.

Həkim Nəzrinə başındakı tikişlərin dərin olduğunu, üstəlik beyin silkələnməsi keçirdiyini, bir müddət xəstəxanada yatmalı olduğunu bildirəndə o, başına dəyən zərbənin ağrısını yenidən hiss etdi.

Xəstənin vəziyyəti bir qədər yaxşılaşanda baş vermiş cinayəti araşdıran müstəntiqə onunla görüşüb sorğu-sual etməyə icazə verildi. Nəzrindən Ülkər Nikbinlə bağlı suallara cavab verməyi xahiş edən müstəntiq ondan baş verən hadisəni dönə-dönə, bütün təfərrüatı ilə soruşdu. Başına gələnlərin həmin qadının sifarişi olduğu Nəzrinə gün kimi aydın olsa da, o, hər cəhdlə müstəntiqi bu iddiadan, bu ağır ittihamdan çəkindirməyə çalışdı. Hər gün gəlib eyni suallarla onu yoran hüquq işçisinə nəhayət, yazılı izahat verdi. Orada baş vermiş hadisənin öz ehtiyatsızlığı olduğunu, ayağı büdrəyib yerə yıxıldığını göstərərək, bu məsələyə görə daha onu narahat etməməyi tələb etdi.

Ülkər Nikbini nə cür mənəvi zərbəyə məruz qoyduğunu o, xəstəxanada özünə gələndə bütün dərinliyi ilə başa düşmüş, bu cəzanı da könüllü olaraq qəbul etmişdi. İndi onlar heç-heçə olmuşdular, daha Nəzrin yalançı şairi biabır etdiyinə görə vicdan əzabı çəkməyəcəkdi.

Bir neçə gün sonra Ülkər Nikbin palataya daxil olanda Nəzrin təəccübündən yatağında dikəldi. Bir əlində qızılgül dəstəsi, o biri əlində yekə çanta olan Ülkər Nikbin ona yaxınlaşıb icazə almadan stulda oturdu.

– Salam, Nəzrin.

– Salam.

– Necəsən?

– Sayənizdə yaxşıyam, – Nəzrin bunu acı kinayə ilə dedi.

– Mən o alçağa demişdim ki, səni eləcə qorxutsun, inan mənə. Allaha and olsun, mən heç də qəddar adam deyiləm.

– Görünür, – Nəzrin yenə həmin tərzdə cavab verdi.

– Sənsə mərd qızsan, məni satmadın. Bunun üçün sənə minnətdaram. – Bunu deyib çantasından çıxardığı zərfi Nəzrinin balışının altına soxdu. Qız özünü soyuqqanlı göstərməyə çalışdı.

– Nə qədərdir?

– Beş min manat.

– Belə az? İnsan həyatının dəyəri bu qədərmi ucuzdur?

– Azdırsa, əlavə edə bilərəm, – qadın təşvişə düşdü.

Nəzrin balışın altından zərfi çıxarıb sahibinə qaytardı:

– Götürün.

– Niyə? – qadın pərt oldu.

– Ay Ülkər xanım, siz hər işi pulla görməyə adət etmisiz. Amma həyatda elə şeylər var ki, onlar nə satılır, nə də alınır. Mən sadəcə rəva görmədim ki, barənizdə cinayət işi açılsın.

Ülkər Nikbin zərfi ona qaytarmaq istəyəndə, onun əlini itələyib gülümsədi:

– Əslində biz sizinlə heç-heçəyik.

– Amma mən bu pulu xərcləyə bilməyəcəyəm. – Qadın kövrəldi və ilk dəfə Nəzrin onun səmimiyyətinə inandı.

– Sizə bir məsləhət verim. İnci xanımla ədavət saxlamayın, bu işdə onun heç bir gunahı yoxdur, kitabı mən ondan xəbərsiz çap eləmişəm.

– Bilirəm, – Ülkər bunu yavaşca deyəndə Nəzrin sözünə davam etdi:

– Mərdəkandakı uşaq evində talesiz uşaqlar var. Biz İnci xanımla hərdən onlara baş çəkirik. Nə olar, ayın-oyun alıb onları ziyarət edin. Qırılmış könülləri şad etsəniz, Allaha da

xoş gedər.

Ülkər Nikbin ayağa qalxdı:

– Sağ ol, mütləq gedərəm.

– Orda səkkiz yaşlı bir qız var – Nigar Sultanova. Ona mənim salamlarımı çatdırın. Amma xəstə yatdığımı deməyin.

YENİ SINAQ

Anasının səsi həyəcanlı idi. Bunu Nəzrin dərhal hiss etdi, ürəyini narahatlıq bürüdü.

– Nəzrin, eşit, gör nə deyirəm. Atan bu gün maşını ilə qəza törədib. Vəziyyəti olduqca ağırdır... Dedim ki, xəbərin olsun...

Qəfil xəbərdən özünü itirib divana çökən Nəzrin bir an nə edəcəyini bilmədi. Haçandan-haçana özünə gəlib qəhərlə soruşdu:

– İndi hardadır?

– "Təcili yardım" xəstəxanasında.

Yenicə xəstəxanadan çıxan, baş ağrıları hələ tam keçməmiş Nəzrini həyat yenidən sınağa çəkirdi. O, saata baxdı: gecə saat 12 idi. Əslində, vaxtın ondan ötrü elə bir əhəmiyyəti yox idi. Necə geyindiyini, özünü taksi ilə "Təcili yardım" xəstəxanasına necə çatdırdığını bilmədi.

Üçüncü mərtəbədə yerləşən cərrahiyyə şöbəsinin qarşısında, qohum-əqrəbanın əhatəsində olan anasının gözləri ağlamaqdan şişmişdi. Nəzrini görəndə özünü onun üstünə atdı. Nəzrin qəhərləndi:

– Hadisə necə baş verib?

– Rayondan ezamiyyətdən qayıdırdı. Qəfildən qabağına piyada çıxıb. Onu vurmamaq üçün maşını döndərəndə, zərblə yolun kənarındakı ağaca çırpılıb. "Təcili yardım" maşını

ilə bura çatdırıblar. Üzərində cərrahiyyə əməliyyatı gedir. Həkimlər hələ içəridən çıxmayıblar. Görək nə deyirlər.

Nəzrin hələ də nə baş verdiyini tam anlaya bilməmişdi. İki ildən artıq görmədiyi, səsini eşitmədiyi atasının ona nə qədər əziz, nə qədər doğma olduğunu indiki kimi heç vaxt dərindən dərk etməmişdi. Yeganə övladına qarşı diqqətcil olmasa da, onu heç vaxt əzizləyib oxşamasa da, dillə ifadə oluna bilməyən doğma hisslər onu atasına bağlayırdı. İndi onun ağır vəziyyətdə olduğunu, başının üstündə ölüm təhlükəsinin dolaşdığını düşünmək qızı mütəəssir etdi. Qohumların suallarına könülsüz cavab verən Nəzrin anasından soruşdu:

– Sənə kim xəbər verdi?

– Hadisə yerində olan polis müvəkkili atanın telefonundan mənə zəng çalıb dedi.

Cərrahiyyə şöbəsinin qarşısında onlardan başqa da xeyli adam var idi. Hamının üzündə təşviş duyulurdu. Yığışanlar yavaş səslə danışsalar da, dəhlizdə həyəcan dolu, boğuq bir uğultu dolaşırdı. Saatlar ötdükcə, baxışları əməliyyat otağının qapısında donub qalmış Nəzrinin həyəcanı get-gedə artırdı.

Bir azdan qapı açıldı, yaşlı həkim yorğun halda:

– Sahil Hüseynovun ailə üzvlərindən burda kim var? – deyə soruşanda Lalə ilə Nəzrin cəld ona yaxınlaşdılar.

– Mən həyat yoldaşıyam, bu isə qızıdır. Doktor, Sahilin vəziyyəti necədir? – deyə Lalə həyəcanla soruşdu.

Nəzrin bütün diqqətini həkimin ağzından çıxan sözlərə yönəltdi. Həkim onları sakitləşdirdi:

– Əməliyyat yaxşı keçdi, həyatı üçün təhlükə yoxdur. Amma təəssüf ki, hər iki böyrəyi əzilib, fəaliyyətini itirib. Onu müvəqqəti olaraq dializ aparatına qoşmuşuq. Özünə

gələn kimi Urologiya xəstəxanasına yola salacağıq. Xəstəyə təcili olaraq böyrək köçürülməlidir.

– Dializ aparatı ilə o, neçə gün yaşaya bilər? – Lalənin səsi əsdi.

– Narahat olmayın, bir xeyli vaxt.

– Donor tapmaq mümkün olurmu? – Nəzrin həyəcanını güclə boğdu.

– Çətinliklə olur, – həkim cavab verdi.

– Böyrək köçürmə əməliyyatları yəqin nadir hallarda keçirilir, – Nəzrin bu sözləri ümidsizliklə dedi.

– Elə deyil, Urologiya İnstitutu bu sahədə püxtələşib. Amma yaxşı olar ki, əməliyyatı aparacaq həkimi özünüz tapasınız. Yəqin bilməmiş olmazsız, böyrək köçürülməsi bahalı əməliyyatdır.

Həkim onların çaşqınlıq içində olduğunu görüb sözünü tamamladı:

– İndi burda olmağınızın heç bir əhəmiyyəti yoxdur. Onsuz da bir-iki gün xəstə ilə görüşməyə sizə icazə verilməyəcək. Yaxşısı budur, Urologiya İnstitutu ilə əlaqə saxlayın.

Bu sözlərdən sonra həkim onlarla xudahafizləşib getdi.

Nəzrin indiki vəziyyətdə anasını tək qoymağı insafına sığışdırmadı. Onlar taksi ilə evə yollandılar.

İki ildən artıq bir vaxtda ayağı dəymədiyi doğma evlərinə belə ağır hisslərlə, belə üzgün halda qayıdacağını o, heç vaxt təsəvvür etməzdi. Anası mətbəxə keçib çayniki qazın üstünə qoyanda Nəzrin öz otağının qapısını açıb içəri boylandı: burada heç nə dəyişməmişdi, iki il əvvəl necə idisə, eləcə idi. 20 kvadratmetrlik bu balaca otaqdakı çarpayısını, yazı masasını, divardan asılmış kitab rəflərini görəndə kövrəldi. Amma təsəvvür edəndə ki, yenidən bu evdə, bu otaqda yaşayır, havası daraldı. Özünü böyüyüb yuvasına yerləşməyən

quş kimi hiss etdi. O, boya-başa çatdığı doğma evinə sığmırdı. İki il əvvəl bu divarlar arasında baş verənlər, keçirdiyi sarsıntılar, sonra qəfil ağlına gələn fikir nəticəsində evi tərk etməsi yadına düşdü. Valideynlərinin növbəti dalaşma səhnəsinin həyatında buraxdığı dərin izlər hələ də yaddaşından silinməmişdi. Bu izlər ona anası ilə aralarında yaranmış soyuqluğu aradan qaldırmağa mane olurdu.

Elə bu kədərli düşüncələrlə otağının qapısını yavaşca örtüb, mətbəxdə əlləşən anasına köməyə getdi. Sonra çay süzüb qonaq otağındakı jurnal stolunun üstünə qoydu. Divanın bir tərəfində Lalə, o biri tərəfində isə Nəzrin oturdu. Onlar sanki bir-birinin üzünə baxmağa qorxurdular. İki illik ayrılıqdan sonra belə soyuq görüşü heç biri təsəvvür etməzdi. Lakin zaman öz işini görmüş, iki doğma adamın arasına gözəgörünməz hasar çəkmişdi. Həmin hasarı aşmaq onlar üçün çox çətin idi. Bir xeyli sakitcə oturdular. Bir azdan pəncərələrdən süzülən dan yerinin qızartıları otağı işıqlandırmağa başladı. Səhər açılırdı. Nəzrin narahat halda saata baxıb ayağa qalxdı.

– Mən getməliyəm, əynimi dəyişib özümü işə çatdırmalıyam. Redaktorumuzdan xəstəxanaya zəng çalmağı xahiş edəcəyəm. Sən dincəl, mənim zəngimi gözlə. Narahat olma, axşama kimi bir qərara gələrik.

Nəzrin anası ilə tələsik sağollaşıb evdən çıxdı. Lalə onu saxlamadı, qəmli baxışlarla ötürdü. Küçəyə çıxanda birdən Nəzrini ağlamaq tutdu. Doğma evinin ona bu qədər yadlaşacağını, anasının yanında özünü bu qədər narahat hiss edəcəyini ağlına da gətirməzdi. Üstəlik, atasının köməksiz halda, həyatla ölüm arasında çarpışdığını təsəvvür edəndə onu bədbinlik bürüdü.

İşin başlanmasına hələ bir neçə saat vardı. Amma o, evə

getmək istəmirdi. Fikirdən evdə başına hava gələcəkdi. Əynini dəyişməyə də həvəsi yox idi. Nəzrin səhərin ayazında üşüyə-üşüyə yeriyir, atası üçün həkim və donor tapmaqdan ötrü beynində plan cızırdı. Özü də bilmədən ayaqları onu Sovetski küçəsinə, İnci xanımın evinin yanına gətirib çıxaranda birdən özünə gəldi. Mütərəddid halda ətrafına göz gəzdirəndən sonra zəngi çaldı.

İnci xanım qapını açanda Nəzrinin pəjmürdə halını, kədərli görkəmini görüb tələşlə soruşdu:

– Nə olub, Nəzrin? Nə baş verib? Rəngin niyə qaçıb?

Qızın cavab vermədiyini görəndə əlindən yapışıb arxasınca dartdı, onu divanda oturtdu.

– Bir şey olmayıb ki? Niyə cavab vermirsən, Nəzrin? – Qadın elə canıyananlıqla soruşdu ki, qız göz yaşlarını saxlaya bilmədi.

– Anamla bütün gecəni "Təcili yardım" xəstəxanasında keçirmişik. Atam maşını ilə qəza törədib. Vəziyyəti çox ağırdır. Hər iki böyrəyi sıradan çıxıb, dializ aparatına qoşublar. Həkim deyir ki, ona təcili böyrək köçürülməlidir, yoxsa...

Nəzrin sözünü bitirməmiş İncinin ağappaq ağarıb hərəkətsiz halda divana çökdüyünü görəndə özünü itirdi. Qadının əllərinin buza döndüyünü görəndə əl-ayağa düşdü. İnci onu sakitləşdirməyə çalışdı:

– Qorxma, indi keçər. Çantamı aç, orda dərman var, – dedi.

Doğrudan da, dərman içəndən bir qədər sonra özünə gəldi. Bundan sevinən Nəzrin getməyə hazırlaşanda İnci onu dilə tutub çörək yeməyə məcbur etdi.

Evdən bir yerdə çıxdılar. İnci vacib işi olduğunu deyib taksiyə mindi, Nəzrin isə avtobusla əks istiqamətə – Qəzet evinə yola düşdü. İşinin başlanmasından bir saat vaxt keçirdi.

Nəzrin başına gələnləri redaktoru Kamil müəllimə danışıb

təcrübəli uroloq axtardıqlarını ona bildirdi.

– Sən bilirsənmi belə əməliyyat neçəyə başa gəlir? – deyə Kamil müəllim ondan soruşdu.

– Xeyr, heç təsəvvürüm də yoxdur.

– Ən azı 20 min manata. – Redaktorun dediyi rəqəmi eşidəndə Nəzrindən haray qopdu:

– Siz nə danışırsız!

– Bəs nə bilmişdin? Həm də əsas problem böyrək tapmaqdır. Həmişə donor olmur ki!

– Bəs mən nə edim? Bu qədər pulu hardan tapım? – Nəzrin ümidsiz halda müdirinin üzünə baxdı.

– Nə deyə bilərəm, Nəzrin? Bu, çətin və bahalı əməliyyatdır. Pulsuz heç kəs yaxın düşməz. İncimə, istəsəm də sənə kömək edə bilməyəcəyəm.

Nəzrin yenidən həyatın sərt üzü ilə qarşılaşmışdı, zərif çiyinlərinin qatlaşa bilməyəcəyi problemlərlə çarpışmalı idi. Nə etsin? Anasına zəng çalıb redaktorun sözlərini olduğu kimi ona çatdırdı.

Anası onu sakitləşdirdi:

– Pul problem deyil, qızım. Ürəyini sıxma. Üç otaq nəyimizə lazımdır? Onu satıb xudmani bir ev alarıq, təki əməliyyat uğurlu keçsin.

– Ana, sən belə tələsik ev sata bilərsənmi?

– Günü bü gün qəzetlərdə elan verərəm. Ona kimi qohum-əqrəbadan borc istəyərəm.

Bu sözlər Nəzrinə bir qədər toxtaqlıq verdi. Vəziyyətin onun zənn etdiyi qədər ağır olmadığını anlayıb bir az sakitləşdi.

Günortaya yaxın İnci xanım zəng çaldı:

– Nəzrin, Kamil müəllim bir şey edə biləcəkmi?

– Xeyr, o, bu işi boynuna götürmədi. Bir azdan anamla

instituta gedəcəyik.

– Mənim tanışım Qədir Əhmədov böyrək institutunda işləyir. Tanınmış cərrahdır, tibb elmləri doktoru, professordur. Mənim adımdan ona yaxınlaşarsız. Çox yaxşı adamdır, o, sizə kömək edəcək.

Sevincdən Nəzrinin gözləri doldu. İnci xanım yenə onu çıxılmaz vəziyyətdən qurtarırdı. Qadına minnətdarlığını bildirib, onun sözlərini telefonla anasına çatdırdı, ona dərhal Urologiya İnstitutuna gəlməyi tapşırdı. Yarım saat sonra ana-bala Qədir Əhmədovun kabinetində əyləşmişdi. Professor onlara İnci xanımın xahişini yerə sala bilməyəcəyini bildirdi. "Təcili yardım" xəstəxanasından köçürülmüş Sahil Hüseynovun xəstəlik tarixi ilə yaxından tanış olduğunu deyəndən sonra gülə-gülə əlavə etdi:

– Bəxtinizdən donor tapmışıq.

Nəzrinlə anası sevinclərini gizlədə bilmədilər. Cərrah sözünə davam etdi:

– Əməliyyat nə qədər tez aparılsa, bir o qədər yaxşıdır. Hər günün, hər saatın öz hökmü var. Xəstənin hərtərəfli müayinəsindən sonra əməliyyata başlaya bilərik. Amma gərək hər ikiniz yazılı razılıq verəsiniz. Sabah fəsadlaşma və ya donor böyrəyinin uyğunlaşmaması baş versə, bizi ittiham etməyəsiniz.

– Əməliyyatın xərcini indi ödəməliyik? – Bu sualı Nəzrin qorxa-qorxa verdi.

– Donor insaflı adamdır, əməliyyat tam, həm də müvəffəqiyyətlə başa çatandan sonra pulunu alacaq.

– Məbləği bilmək olarmı? – Lalə sevincək soruşdu.

– 20 min manat.

– Xəstə əməliyyatdan təxminən neçə müddət sonra tam sağala bilər? – Nəzrin maraqlandı.

– Bir ay ərzində.

– Donorla görüşə bilərikmi? – Lalə soruşdu.

– Buna ehtiyac yoxdur. Həm də donor öz adının aşkarlanmasını istəmir. Bu, onun haqqıdır. Ehtiyac üzündən böyrəyini satanlar son zamanlar çoxalıb. Deyəsən evinin kreditini ödəyə bilmədiyinə görə bu fikrə düşüb. Amma bir böyrəklə yaşayanlar az deyil, – həkim onları arxayın saldı.

Əslində, indi nə Nəzrini, nə də Laləni böyrəyini satan naməlum adam maraqlandırırdı. Onları iki böyrəyini itirmiş, həyatı tükdən asılı olan doğmalarının taleyi düşündürürdü.

Professorun kabinetindən çıxanda anasının üzündə ümid işartıları görən Nəzrin onunla mehribanlıqla vidalaşdı:

– Səhər tezdən xəstəxanada görüşərik.

– Hə, Nəzrin, mən evə gedim. Elanla bağlı zəng çalanlar olacaq. İnşallah, hər şey yaxşı olar.

Nəzrin Qəzet evinə çatanda birbaşa İnci xanımın işlədiyi mərtəbəyə qalxdı. Ona anasının və özünün minnətdarlığını bildirmək istəyirdi. Lakin qapısının bağlı olduğunu görəndə zəng çalmaqdansa, axşam evinə gedib onunla görüşmək qərarına gəldi. İş yerində neçə gündən bəri yarımçıq qalmış məsələləri həll etmək istəsə də, əli heç nəyə yatmadı. Özünü məcbur edib yazı-pozuya diqqət yetirə bilmirdi. Daxildən gələn qəribə bir həyəcan bütün varlığını sarımışdı. Atasının üzü gözlərinin önündən getmir, ona hədsiz narahatlıq gətirirdi. Nə çay içə, nə yemək yeyə bilirdi. Sanki bunları etsəydi, xəstəxanada, həyatla ölüm arasında çarpışan atasının qəlbinə toxunacaqdı.

İşdə qərar tuta bilməyib yenidən xəstəxanaya qayıtdı. Pilləkənlərin başında professor Qədir Əhmədovla rastlaşanda o, tənbehedici tərzdə dedi:

– Bayaq dedim axı, sizin indi burda olmağınızın xəstəyə

heç bir xeyri yoxdur. Gedin evə, birisi gün əməliyyatdan sonra görüşərik.

Nəzrin onun sözlərinə əməl edib pilləkənlərlə aşağı düşdü.

Axşam İnci xanımgilə yola düşdü. Bu vaxtlar o, adətən evdə olurdu.

İçəri girəndə qapının ağzındakı iri yol çantasını görüb təəccübləndi:

– Xeyir ola, İnci xanım, səfərə hazırlaşırsınız?

Nəzrinin qəfil gəlişindən özünü itirən İnci onu bir qədər həyəcanla qarşıladı. Bu, qızın diqqətindən yayınmadı.

– Moskvaya yola düşürəm. Məni yaradıcılıq ezamiyyətinə göndərirlər. İki həftədən sonra qayıdacağam. Əslində, səni belə çətin vəziyyətdə köməksiz qoyub getmək istəməzdim. Amma neyləmək olar? Atanın vəziyyəti necədir? Professorla görüşə bildinmi?

– Narahat olmayın, İnci xanım. Mənə görə işinizi atmayacaqsız ki! Onsuz da əlinizdən gələn hər şeyi etmisiz. Sizin tanışınız olan professor bizi çox səmimi qəbul etdi. Artıq donor da tapıb. Birisi gün əməliyyatdır.

İnci gülümsədi:

– Hər şey yaxşı olacaq, mən buna əminəm. Zəng çalıb tez-tez səndən xəbər tutacağam.

– Qoy sizi yola salım, – Nəzrin əl-ayağa düşdü.

İnci ona sözünü tamamlamağa imkan vermədi:

– Tək deyiləm, mənimlə daha bir qadın yola düşür. Onun əri bizi öz maşını ilə hava limanına yola salacaq. İndi taksi məni onlara aparacaq.

Nəzrin həyatının ayrılmaz hissəsinə çevrilmiş bu qadını qucaqlayıb ağlamsındı:

– İndidən sizin üçün darıxıram. Orda çox qalmayın ha!

– Söz verirəm. – İnci şən səslə cavab verdi.

Nəzrin onu taksiyə mindirib evə qayıtdı. İki günlük gərginlikdən sonra elə yorulmuşdu ki, yalnız yatmaq, yorğunluğunu çıxarmaq barədə düşünürdü.

DONOR

Sahil gözlərini açanda ağ xalatda, ağ papaqda qarşısında dayanmış cüssəli, yaraşıqlı həkimin gülər üzünü dumanlı halda gördü. Bu, onun üzərində əməliyyat aparmış cərrah Qədir Əhmədov idi. Onun nə dediyini əvvəlcə başa düşmədi. Tibb bacısı Sahilin qolundakı damara iynə vururdu.

Bir azdan gözlərini örtmüş xəfif duman dağılanda həkimin nə dediyini anlamağa başladı.

– Əməliyyatınız uğurlu keçdi. Hər şey qaydasındadır. Müayinələrinizin cavabı bizim gözlədiyimizdən də yaxşıdır. Təcrübəmdə ilk dəfə deyil ki, qadın böyrəyini kişi bədəninə və ya əksinə, kişi böyrəyini qadın bədəninə köçürürəm. Amma donor böyrəyinin pasiyentin orqanizminə belə qısa zamanda uyğunlaşmasına təcrübəmdə ilk dəfədir rast gəlirəm.

– Necə? Mənə qadın böyrəyi köçürmüsüz?

– Bunun elə bir əhəmiyyəti yoxdur.

– Sağ adamın böyrəyini? – Çəkinə-çəkinə soruşdu.

– Bəli, sağ-salamat adamın.

– Donoru necə tapdız?

– Biz tapmadıq, o bizi tapdı. Allah yetirdi. Zəmanədir də, ehtiyac qapılar açdırır.

– Doktor, donorun neçə yaşı var? – Bu sual ilk dəfə ağlına gəldi. Qəza törədəndən, ona donor böyrəyi köçürüləndən bəri yalnız öz səhhəti haqqında, ağrılarını azaltmaq barədə

düşünmüşdü. İndi eşidəndə ki, ona kiminsə sağlam böyrəyi köçürülüb, bundan kövrəldi.

– Qırx beş, – həkim cavab verdi.

– Məndən bir yaş kiçikdir, – bu sözləri deyəndə Sahilin səsi titrədi. Utanıb həkimdən daha heç nə soruşmadı.

Ona baş çəkməyə gəlmiş Nəzrinlə Laləni görəndə həyəcandan hər şey yadından çıxdı, üzünə xoş bir ifadə yayıldı. Son vaxtlar belə sevindiyini xatırlamırdı. Ürəyinin dərinliyində xəstəxanaya düşdüyündən məmnun idi. Bu gərgin hadisələr baş verməsəydi, kim bilir, qızı ilə bir də haçan görüşəcəkdi.

İlk dəfə əməliyyatdan sonra özünə gələndə çarpayısının qarşısında stulda oturmuş Nəzrini görəndə gözlərinə inanmamışdı. Sonrakı günlərdə bu xoşbəxtlik hissini Nəzrin ona dönə-dönə yaşatmışdı.

– Donorun adı, familiyası nədir? Nəçidir? Onunla haçan görüşmək olar? – Sahil bu sualları qızı ilə arvadına verdi.

– Professor dedi ki, donor adının gizlin qalmasını istəyib. Deyəsən kredit borcu var, evi əlindən çıxmasın deyə böyrəyini satıb vəziyyətdən çıxmaq qərarına gəlib, – deyib Lalə evdən gətirdiyi yeməyi çantadan çıxardı.

Eşitdiyi sözlərdən Sahilin ürəyi sıxıldı. Borcunu ödəmək üçün böyrəyini satmaq məcburiyyətində qalan tanımadığı qadına acıdı. Onun bu faciəsində özünü günahkar saydı. Başqa bir fikir isə onu sakitləşdirməyə çalışdı: "Sən olmasaydın, böyrəyini başqa birisinə satacaqdı. Sənin burda nə günahın var? Həm də, indi bələləri azdımı? İnsanlar bəzən elə çətinliklərlə rastlaşırlar ki, başqa çıxış yolları olmur". Amma nədənsə bu fikir ona təskinlik vermədi.

Bir azdan professor xəstəyə baş çəkmək üçün palataya

girəndə Sahil bayaqkı sualları ona da verdi:

– Professor, deyin görüm, mənim donorum kimdir? Adı, familiyası nədir? Mən onunla görüşmək istəyirəm.

– Təəssüf ki, bu, mümkün deyil. Donor öz adının məxfi saxlanmasını tələb edib. Əvvəlcədən şərti belə olub.

– Onun vəziyyəti necədir? Özünü necə hiss edir? – Sahil günahkar tərzdə soruşdu.

– Şükür Allaha, yaxşıdır. Artıq evinə yola salmışıq.

– Böyrəyini neçə manata satıb?

– 20 min manata.

– Pulu ödəmisiz? – Sahil boğuq səslə arvadına müraciət elədi.

– Xeyr, bir həftədən sonra ödəyəcəyik. Belə razılaşmışıq.

Professor gedəndən sonra Sahil üzünü arvadına tutdu:

– Pulu hardan tapacaqsan?

– Evimizi satışa çıxarmışam. Mənə müxtəlif variantlar təklif edirlər. İkiotaqlı xudmani bir evlə dəyiş-düyüş etmək şansımız da var. Bir-iki günə kimi məsələ həll olunmalıdır. Baş tutsa, yaxşı olar.

Sahil daha heç nə demədi. Adının gizlin qalmasını istəyən bir qadının böyrəyini bədənində gəzdirməsi fikri onu xəcil edirdi. Pulsuzluq ucbatından yarımcan olmuş, bilə-bilə sağlamlığını tanımadığı bir xəstəyə qurban vermiş naməlum qadın onun bütün rahatlığını əlindən almışdı. Nədənsə özünü təhqir olunmuş kimi hiss edirdi.

Bir həftə hiss olunmadan ötdü. Sahil daha özünü yaxşı hiss edirdi, artıq sərbəst yeriyir, öz-özünü idarə edirdi. Əvvəlcədən şərtləşdikləri kimi, Lalə bu gün pulu donora çatdırmalı idi.

Səhər saat 10-da Lalə ilə Nəzrin palataya daxil olanda

həkim də burada idi. Lalə onlarla salamlaşdıqdan sonra üzr-xahlıq etdi:

– Professor, pulu gətirə bilmədim. Evimizi satın almaq istəyən adam məndən iki gün möhlət istəyib.

Həkim onu gərginlikdən qurtardı:

– Yaxşı ki, gətirməmisiz. Donorun pulu hələlik qalsın. İki gündür ona zəng çalıram, cavab vermir. Amma iki min manat pulu bu gün xəstəxananın kassasına köçürün.

Hamı təəccüblə həkimə baxdı:

– Necə yəni cavab vermir? – Lalə soruşdu.

– Hər dəfə dəstəkdə "Telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir" sözləri eşidilir.

Heç biri deməyə söz tapmırdı. Sahil yalvarıcı tərzdə həkimə dedi:

– Qədir müəllim, çox xahiş edirəm, məni bu gərginlikdən qurtarın. Donorun kim olduğunu mənə söyləyin.

– Xahiş edirəm mənə əlavə suallar verməyin, – həkim belə deyib palatadan çıxdı.

***

Xəstəxanadan çıxıb evə gələn Lalənin fikrindən böyrəyini satmış naməlum qadın heç cür çıxmırdı. Onun pul almaq ərəfəsində telefon zənglərinə cavab verməməsi olduqca təəccüblü idi. Birdən ağlına gəldi ki, bu adam hər kimdisə, Sahili yaxından tanıyır. Həmin fikirdən onu qəribə bir həyəcan bürüdü.

Beynini dağıdan, ürəyinə təlatüm salan suallara cavab tapa bilmədiyinə görə özünə acığı tutdu. Həyatında qəfil tufan qoparmış, onsuz da pozulmuş sakitliyini darmadağın etmiş həmin naməlum qadın haqqında düşünməməyə nə qədər

cəhd göstərsə də, bu, alınmırdı. O, kölgə kimi, xəyal kimi gəlib gözlərinin qarşıdında dayanırdı.

Evini onunla dəyiş-düyüş etmək istəyən ailə iki gün əvvəl zəng çalıb yaxın günlərdə köçmək niyyətində olduğunu bildirmişdi. O vaxta kimi əşyaları yığmaq lazım idi. Amma Lalənin əli heç nəyə yatmırdı. Günü-günə satmaqda davam edirdi.

Lalə ərinin iş otağına keçdi. Kitab rəflərindən, iki şkafdan, yazı masasından və bir stuldan ibarət bu balaca otağa o, təsadüfi hallarda girərdi. Sahil yazı-pozularına, kitab-dəftərinə toxunmağa nə ona, nə də Nəzrinə icazə verərdi. Saysız-hesabsız qəzet və jurnallar, kağız parçaları, səhifələri qatlanmış, aralarına yaddaş vərəqləri qoyulmuş kitablarla qalaqlanmış masasından yalnız Sahilin özünün başı çıxırdı. Bircə kitabı o yan-bu yan olanda hirslənərdi. Ona görə də Lalə stola yaxın düşməz, həftədə bir dəfə otağın tozunu alar, ayda bir dəfə isə pəncərə şüşələrini silərdi.

Ərinin saatlarla özünə qapanması, çağırmayınca otağından çıxmaması çox vaxt onu hirsləndirərdi. O, qohum-əqrəbaya əsla qarışmazdı. Anası vəfat edəndən onun bu xasiyyəti daha da qabarıq üzə çıxmışdı. Toylara, ad günlərinə, ailə şənliklərinə getməmək üçün Sahil min cür bəhanə uydurar, Lalə də bunu onun işinin çoxluğu ilə əlaqələndirərdi.

"Sahilin kitablarını necə daşıyacağam?" Laləyə bu, qarşıdakı köçmək prosesində ən çətin iş kimi görünürdü. Döşəmədən tavana kimi düzülmüş rəflərdəki kitabları Sahilin necə səbirlə vərəqlədiyi yadına düşdü. Şkaflardan birinin qapısını açdı: burada saysız-hesabsız qovluqlar səliqə ilə üst-üstə yığılmışdı. Şkafın içinin tozla örtuldüyünü görəndə əvvəlcə buna əhəmiyyət vermədi. "Onsuz da köçəcəyik", – deyə

düşündü. Amma sonra nə fikirləşdisə, mətbəxə keçib oradan nəm əski ilə qayıtdı. Əski qapqara qaralanda "kim bilir, qovluqların altında nə qədər toz var", – deyə fikirləşib onları düzüldüyü kimi səliqə ilə, üst-üstə yerə yığdı. "Qovluqları birdəfəlik yeşiklərə yığım", – deyə öz-özünə pıçıldadı. Sonuncu qovluğu qaldıranda altından qara rəngli iri bir zərf sürüşüb yerə düşdü. Zərfi açanda orada rəngi saralmış məktublar olduğunu gördü. Birini oxumağa başlayanda elə bil onu elektrik cərəyanı vurdu.

"Salam, mənim Sahilim! Bilsən səndən ötrü necə darıxmışam... Bilsən Bakını, tanış küçələri necə görmək istəyirəm... Bilsən burda həyatım necə sönük, necə mənasız keçir...

Bu gün sənə bir etiraf edəcəyəm, amma söz ver ki, məndən inciməyəcəksən. Bilirsənmi, Sahil, əslində sən mənim ikinci və sonuncu məhəbbətimsən. İlk məhəbbətimi mən onuncu sinifdə oxuyanda öz rəfiqəmə qurban vermişəm. Verməyib nə edəcəkdim? Rəfiqəm sevdiyim oğlana dəli kimi vurulmuşdu. Mən rəfiqəmi ona sevdirmək məcburiyyətində olmuşam. Ürəyim qısqanclıqdan od tutub yana-yana onları görüşdürmüşəm. Dilim rəfiqəmin onu necə sevdiyini deyəndə ürəyim "Səndəndəmi çox istəyir?" – deyə soruşardı. "Sus, sənə söz verilmir", – deyə ürəyimə acığım tutardı. Oğlan həssas, onu sevən, sədaqətli bir qız arzuladığını deyəndə, rəfiqəmin məhz belə bir qız olduğunu söyləyərdim. Ürəyim isə "O ki, mənəm, heç kəs səni mənim qədər sevə bilməz", – deyərdi. Onlar görüşəndə mən qısqanclıqdan dodaqlarımı dişləyərdim. Gecə yatağa uzananda öz-özümə əmr edərdim: "Unut, unutmalısan!" Səhər oyananda özümə ilk sualım "Unutmusan, ya unutmamısan?" – olardı. Gündüzlər başım qarışar, elə bilərdim ki, unutmuşam, yaman sevinərdim. Axşamlar

isə hər şey yenidən təkrar olunardı. Ancaq bütün bunlara baxmayaraq, unutdum. Elə unutdum ki, daha yadıma da düşmür.

Sənlə tanış olanda yenicə sakitləşmişdim. Suyu bulanıb durulmuş bulaq kimi idim. Heç yana getmək, heç kəslə yaxınlıq etmək istəmirdim. Əgər yadındadırsa, əvvəllər məni heç kinoya da apara bilmirdin. Amma sən məni özünə elə bağladın ki, həyata sənin gözlərinlə baxmağa başladım. Sənin sevincinlə sevindim, sənin kədərinlə kədərləndim. Sən mənim ömrümün mənasına çevrildin. İndi mənim üçün dünya yalnız səndən ibarətdir. Məndən ötrü səni əvəz edəcək, sənin yerini verəcək başqa bir insan mövcud deyil. Mənim kədərli və mənasız həyatıma varlığınla nələr gətirdiyini təsəvvür edə bilməzsən. Bunu anlamaq üçün sənin sinəndə gərək mənim ürəyim döyünə. Bilirəm ki, bundan sonrakı həyatım səndən ötrü və sənin naminədir. Sənə bir şey olsa, sən məni unutsan və ya tale bizi ayırsa, mən buna dözə bilmərəm. Sən varsansa, mən varam! Sən mənim ömrümün və məhəbbətimin Sahilisən. Səndən o yana heç nə yoxdur. Sən, sən və sən! Dünya Sənlərdən ibarətdir.

Səni çox yordum. Mənim üçün darıx, nə olar... Mənim kimi darıx!

Sənin İncin".

Lalə məktubu bədəni uçuna-uçuna, əlləri əsə-əsə oxudu. Gözlərini pərdə kimi örtən yaş gildir-gildir yanaqları aşağı axır, axırdı. O, bir məktubdan digərinə keçir, onları dönə-dönə, diqqətlə oxuyur, özü də bilmədən oxucusuna çevrildiyi məhəbbət romanının səhifələrini çevirə-çevirə ürəyində bir boşluq əmələ gəldiyini hiss edirdi. Qısqanclıq hissi bədəninin bütün əzalarına yayılırdı. Bir-birini dünyalar qədər

sevən iki adamın gənclik məhəbbəti ilə dolu məktublar onun varlığını alt-üst edir, bu vaxta qədərki ömrünün dəyərini azaldır, gələcəyə olan ümidlərini öldürürdü. Təzadlı hisslər içində çabalayırdı. Bu qeyri-müəyyənlikdən qurtulmaq ondan ötrü çox çətin idi. Necə hərəkət edəcəyini, nə cür qərar çıxarmaq lazım olduğunu bilmirdi.

Qarşısındakı məktublar ona bu vaxta kimi məlum olmayan bir həqiqəti anladırdı: Sahil onu heç vaxt sevməyib. Bir yatağı bölüşmək məhəbbət deyil. Əgər ürəklər uzaqdırsa, bədən yaxınlığı nə edə bilər? Deyən, gülən, şən və coşqun təbiətli Lalə Sahilin ürəyinə hakim ola bilmədi. Onlar hər barədə bir-birinin əksidirlər. Ürəyi yaşamaq eşqi ilə dolu olan Lalə gəzintiləri, əyləncələri, qonaqlıqları necə xoşlayırdısa, Sahil özünə qapanmağı bir o qədər sevirdi. Nəzrin doğulandan sonra isə Lalə ilə Sahilin münasibətlərindəki gərginlik artmağa başladı.

Birgə keçirdikləri bu illər ərzində daxili səsi tez-tez ona pıçıldayırdı ki, yanındakı bu sakit, dalğasız dənizin içində bir tufan gizlənib. "Ola bilməz ki, bu qədər yaraşıqlı kişinin məndən əvvəl sevdiyi qadın olmasın. Dünyasında ola bilməz! Sevməyən adam lirik şeirlər yaza bilərmi?" – deyə hərdən öz-özünə sual verirdi. Sahilin ilk və yeganə şeir kitabını tez-tez vərəqləyir, oradakı misralardan nə isə öyrənməyə çalışırdı. Bu şübhə illər boyu onun ürəyində boy verirdi. Lakin təsəvvür etmirdi ki, tələtümlü həyatı birdən-birə bu cür dəyişə bilər. Nəzrinin evdən getməsi ilə onların çəkişmələri zahirən azalsa da, gərginlikdən hələ də qurtula bilməmişdilər.

Hər dəfə Sahilin keçmişi barədə düşünəndə qısqanclıq iti bıçaq kimi Lalənin ürəyinə sancılırdı. İndi, bu məktubları oxuyandan sonra o, ərinin soyuqluğunun, daha doğrusu,

ona qarşı etinasızlığının əsl səbəbini anladı. “Görəsən niyə qovuşmayıblar? Onlara kim mane olub? Sahil evlənəndən sonra görəsən əlaqələri olubmu?” Bu kimi saysız-hesabsız suallar içində çabalayan Lalə bir şeyi də öz-özünə etiraf etdi: “Sahil mənə olan soyuqluğunu irsən qızına da keçirib. Atası mənə qarşı necə biganədirsə, balası da elədir”. Bu fikir onun son ümidlərini də tar-mar elədi. Acı-acı öz-özünə etiraf etdi ki, arzuladığı, həsrətində olduğu əsl sevgi ona heç zaman qismət olmayacaq. Bundan da dəhşətlisi isə odur ki, Nəzrinlə onun arasında əvvəlki isti ana-bala münasibətləri bərpa olunmayacaq.

III FƏSİL

İNCİÇİÇƏYİ

YUXU VƏ REALLIQ

Küçənin o tayında, iki doqquzmərtəbəli evi birləşdirən tağın altında əlində inciçiçəkləri ilə dolu zənbil tutmuş bir qız dayanmışdı. Adətən, burada rus qarıları çiçək satardı. İlk dəfə idi ki, gənc qızın çiçək satdığının şahidi olurdu. Özündən biixtiyar yolunun səmtini dəyişib ona yaxınlaşdı.

– Mənə bir dəstə verin, – deyib çiçəkləri qoxladı.

Qız əyilib zənbilindən bir qom çiçək götürüb ona uzatdı. Başını qaldıranda Sahil heyrətindən yerindəcə donub qaldı: onun qarşısındakı İnci idi.

– İnci?.. Sənsən?..

Qız təəccüblə ona baxıb heç nə demədi.

– Məni tanımadın? – Sahil onun gözlərinin içinə baxdı.

– Yəqin məni kiminləsə səhv salırsız. – Bunu deyib qız ona yaxınlaşan qadına sarı döndü. – Sizə neçə dəstə lazımdır?

Qadın gedəndən sonra Sahil qızın əlindən yapışdı:

– İnci, bu mənəm, Sahil. Doğrudanmı məni tanımadın? Yəni mən o qədər dəyişmişəm?

Qız əlini onun əlindən çəkib sakitcə:

– Mən İnci deyiləm, – deyib ona yaxınlaşan iki qıza zənbildən çiçək seçməkdə kömək elədi.

Sahil özünü itirib nə edəcəyini bilmirdi. İnci niyə belə edirdi? Etinasız baxışları, soyuq səsi az qalırdı onu dəli eləsin. Qızlar çiçək alıb gedəndən sonra yenidən dilləndi:

– İnci, bir mənə baxsana! Yenə tanımadın?

Bu dəfə qız cavab vermədi. Zənbilini götürüb, ona gözünün ucu ilə soyuq bir nəzər salıb, etinasız halda yol ayrıcına tərəf getdi. Pərtliyindən özünü itirmiş Sahil bayaq qızın verdiyi çiçək dəstəsini göstərib çaşqın halda:

– Pulunuzu götürün, – dedi.

– Qoy məndən sizə hədiyyə olsun, – deyə qız kinayə ilə gülümsədi.

– Xeyr, mənə sizin hədiyyəniz lazım deyil. Alın pulunuzu, – deyib Sahil ona 10 manatlıq əskinas uzatdı.

– Məndə xırda yoxdur, gedin xırdalayıb gətirin.

– Onda bir dəqiqə gözləyin. – Bunu deyib Sahil onların beş addımlığındakı ərzaq mağazasına girdi. O, küçəyə çıxanda qız getmişdi. Sahil həyəcanla ətrafına boylandı. Birdən onun iki tin qabaqda getdiyini görüb həmin tərəfə qaçdı. Lakin elə həmin anda qız yanında dayanan avtobusa mindi. Sahil uzaqlaşan avtobusun arxasınca var-gücü ilə bağırdı:

– İnci!!!...

...Qaranlıq palatada qan-tər içində yuxudan ayılan Sahil bir xeyli harada olduğunu anlaya bilmədi. Yuxu ilə reallıq arasında azıb qalan o, nəhayət, özünə gəldi. Ağlına qəfil gələn fikirdən bütün bədəni əsdi: Böyrəyini ona verən naməlum qadın İncidir! Həyatının ən çətin anlarında, canının tükdən asılı olduğu bir vaxtda özünü çatdırmış, nağıllardan sıyrılan qəhrəman kimi sözün əsl mənasında onu ölümdən qurtarmış və gəldiyi kimi də səssiz-səmirsiz aradan çıxmışdı. Sahil özünü döyülüb söyülmüş uşaq kimi hiss etdi. İncinin xeyirxahlığında alçaldıcı nə isə var idi. O, Sahilin boynuna heç vaxt ödəyə bilməyəcəyi, ağırlığı altından çıxmağın mümkün olmadığı bir borc qoymuşdu. Pulla, malla, var-dövlətlə ölçülə bilməyən bu borcun əzabı ömrü boyu onu ağrıdacaqdı.

Sahil həyatının qurtulduğuna, üstündən ölüm təhlükəsinin

sovuşduğuna daha sevinmirdi. Əksinə, sağ qaldığına görə qəlbinin dərinliklərində təəssüflənirdi. Bu şəfa ona dünyada ən əziz adamının sağlamlığı bahasına başa gəlmişdi. Böyrəyini ona verən İnci özü də bilmədən Sahilin qürurunu sındırmışdı. "Sevdiyi qadının böyrəyini ömrü boyu bədənində daşımağa məhkum olmuş bir kişinin mənliyi nə ola bilər?" – deyə özünə sual verdi. Ürəyinin içində nə isə inildədi. Anladı ki, bundan sonra neyləsə də bu inilti onu tərk etməyəcək. "Mən ikili həyat yaşamağa məhkumam. Bir həyatım ailəmə, o biri həyatım isə İnciyə bağlıdır. Bu iki bağı kəsib atmağa nə qüvvəm, nə də iqtidarım çatacaq".

İndicə sağollaşıb palatadan çıxan qızının qayıdıb gəldiyini görəndə təəccübləndi:

– Nə olub, Nəzrin?

– Sənə hədiyyə gətirmişdim, amma verməyi unutdum. Düşündüm ki, sənինçün maraqlı olar, – Nəzrin bunu deyib çantasından çıxardığı kitabı atasına verib getdi.

Sahil kitabın üstündəki "Sahilsiz dəniz" sözlərini qeyri-ixtiyari təkrar edib onun titul vərəqini açanda diksindi. Şəkildən ona İnci baxırdı. Başını balışdan qaldırıb yatağının içində dikələrək orada yazılanları su kimi içməyə başladı. "Redaktor sözü"nü oxuyub qurtaranda özünü müttəhimlər kürsüsündəki kimi hiss etdi. Uzun illər əvvəl Həbib Zöhrabbəyovun əlyazmalarını onun qızından satın alması, onların əsasında elmi məqalələr yazması yadına düşdü.

Onun İnci ilə ayrılığının səbəblərindən biri məhz həmin əlyazmalar olmuşdu. Şöhrət düşkünü olan Sahilə onda elə gəlirdi ki, bu, normal haldır. Amma indi, İnci haqqında məhəbbətlə, onun şeirlərini satın almış Ülkər Nikbin haqqında isə nifrətlə söhbət açan kitabın redaktoru Nəzrin Hüseynovanın – onun doğma qızının sözləri neştər kimi ürəyinə sancıldı. Özgənin şeirlərinə şərik çıxan qadın haqqında belə qəzəblə yazan

redaktor görəsən atası haqqında nə fikirləşərdi?

Alnından puçur-puçur tər axan Sahil, İncinin şeirlərini oxumağa başladı. Onların əksəriyyətini əzbər bilirdi. Bunlar adi məhəbbət lirikası deyildi, hər misrası insanı düşündürür, hər bəndindən həyat fəlsəfəsi süzülürdü. Tanış şeirlər onun varlığını alt-üst etdi. Sədaqətlə xəyanətdən, xeyirxahlıqla bədxahlıqdan, doğru ilə yalandan, məhəbbətlə nifrətdən bəhs edən misraları oxuduqca tələbəlik illərinin acılı-şirinli xatirələri, İnci ilə bağlı əvvəllər ən əhəmiyyətsiz sandığı anlar belə yaddaşında əks-səda verirdi.

Özünün ilk kitabının əsl redaktoru İnci olduğu halda onu yox, Zümrüdü redaktor təyin etməsi, institutda işləməyə başlayarkən şöbə müdiri vəzifəsini xainliklə İncidən qamarlaması bircə-bircə yadına düşdü. Bütün bunlar ona vicdan əzabı verdi. Ömrü boyu bu qədər sarsılmamışdı. Ən dəhşətlisi o idi ki, indi bu hissləri ona yaşadan onun öz övladı, doğma qızı idi.

Peşmançılıq qarışmış əzab hissi onu köməksiz uşağa çevirdi. İncinin qəlbinə vurduğu yaraların necə dərin olduğunu bütün varlığı ilə duydu. Buraxdığı səhvləri heç zaman düzəldə bilməyəcəyini bir daha dərk edəndə ümidsizliklə yerinə uzanıb, gözlərini bərk-bərk yumdu.

***

Sahil sağalmışdı, artıq özünü yaxşı hiss edirdi. Sonuncu müayinələri başa çatmışdı. Nəhayət, evə gedəcəkdi. Lalə ilə Nəzrinə dünəndən tapşırmışdı ki, arxasınca gəlməsinlər, onu evə bibisi oğlu Həsən öz maşınında gətirəcək.

Palatasında çarpayısına uzanıb ağır düşüncələrə qərq olan Sahil son vaxtlar həyatında baş vermiş hadisələri beynində təhlil edirdi. Onların arasında ən ağrılı anlar "donor" məsələsi ilə bağlı idi. "Donor"unun müəmmalı şəkildə qeybə çıxması onu üzürdü. Kim bilir, əvvəlcədən razılaşdıqları kimi "naməlum

qadın" pulu onlardan alsaydı, bəlkə də bu xoşagəlməz vəziyyət yaranmayacaqdı. Bəlkə o vaxt Sahilin və onun ailə üzvlərinin ürəyinə şübhə dammazdı. Məsələni qəlizləşdirən, hamını çıxılmaz vəziyyətə salan bu qəribə "yaxşılıq" idi.

Bir azdan palatanın qapısı açıldı və Sahilin həkimi – professor Qədir Əhmədov içəri girdi. O, Sahillə gülə-gülə salamlaşıb bu dəfə ona həmişəkindən fərqli olaraq, mülayimcəsinə müraciət etdi:

– Necəsiz, professor? Evə getmək istəyirsiz?

İlk dəfə idi ki, o pasiyentinə belə müraciət edirdi.

Sahil qəmli-qəmli gülümsədi. Onun saqqal basmış, arıqlamış üzündə gəzən iztirabın xəfif kölgəsi həkimin gözündən yayınmadı. O, Sahilin çarpayısının qarşısındakı stulda oturub onun nəbzini yoxladı, sonra isə qan təzyiqini ölçdü.

– Bir narahatlığınız yoxdur ki?

– Xeyr, – deyə Sahil cavab verdi, sonra isə əlavə etdi, – Keçirdiyiniz uğurlu əməliyyat, çəkdiyiniz əziyyət üçün çox sağ olun.

Həkim mehribanlıqla onun üzünə baxdı:

– Bilirəm ki, nigaran gedirsiz. Əslində, mən də həmin vəziyyətdəyəm. Nə çəkdiyinizi hiss edirəm. Təcrübəmdə heç zaman belə bir şey baş verməyib. Bilirəm ki, qürurunuza toxunulub. Əslində məsələ məndən ötrü də qaranlıq qalıb. Gərək əvvəldən bu işə razılıq verməyəydim. Amma vəziyyətiniz ağır idi, bir-iki gün də keçsəydi, sizi xilas edə bilməyəcəkdik. Doğrusu, elə bilirdim həmin xanım bu əməliyyata maddi ehtiyac üzündən razılıq verib. Ağlıma da gəlməzdi ki, o, sizi xilas etmək üçün bunu edib. Yəqin ki, siz onun kim olduğunu məndən də yaxşı bilirsiniz. Tanımadığınız adam bunu etməzdi.

– Siz bilə-bilə onun telefonunu mənə vermirsiz, – Sahil bu sözləri ümidsizliklə dedi.

– İnanmırsız ki, telefonu cavab vermir? Baxın, bu da onun

nömrəsi. Sizin yanınızda zəng çalıram.

Həkim nömrəni yığanda dəstəkdə operatorun səsi eşidildi: "Telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir".

– Gündə on-on beş dəfə zəng çalıram, hər dəfə də bu sözləri eşidirəm. Mənə elə gəlir ki, artıq bu nömrə mövcud deyil, – həkim onu inandırmağa çalışdı. – Hər ehtimala qarşı nömrəni sizə yazım. – O, nömrəni bir kağız parçasına yazıb ona uzatdı.

– Mən bundan sonra qalan ömrümü necə yaşayım? – Sahilin səsi titrədi. Onun bu halı həkimi mütəəssir etdi. O, ayağa qalxıb əlini Sahilin çiyninə qoydu:

– Mənsə sizə qibtə edirəm, inanın mənə. Sizi həyatda özü qədər, bəlkə də özündən çox sevən bir adam var. Bundan böyük xoşbəxtlik olarmı? Məncə buna görə yaşamağa dəyər.

Sahil ayağa qalxıb həkimlə üz-üzə dayandı. Ona nə isə demək istədi, amma nə fikirləşdisə, susdu.

Həkim onu qucaqladı, otaqdan çıxarkən:

– Sizə yaxşı yol, bir də xəstələnməyin, – dedi.

Həkimin bayaqkı sözləri Sahili sanki həyata qaytardı, sönmüş ümidlərini közərtdi. Acı nisgil, şirin həsrət qarışmış sonsuz sevgi və minnətdarlıq hissi ilə İncini xatırladı. Onu elə arzuladı, ondan ötrü ürəyi elə uçundu ki, gözləri yaşardı. İncini görmək, səsini eşitmək, varlığını duymaq üçün o, həyatından keçməyə razı idi. İlk dəfə ümidlə düşündü: "İnci Bakıdadır. Onu axtarıb tapacağam. Mütləq tapacağam!" Bu fikirdən ürəyinə xoş bir hiss yayıldı. Dünən Lalənin gətirib qoyduğu çantanı çarpayının altından çıxardı, xəstəxana paltarını soyunub idman kostyumunu əyninə keçirdi. O qədər arıqlamışdı ki, bədəni kostyumun içində üzürdü. Bir azdan bibisi oğlu Həsən gülə-gülə palataya daxil oldu.

Evdə onu Lalə ilə Nəzrin qarşıladı. Qızının döşlük taxıb mətbəxdə vurnuxmasını görəndə çox sevindi. Qonaq otağındakı stolun üstü ləziz yeməklərlə dolu idi.

Sahil bir əli ilə arvadını, o biri əli ilə qızını qucaqladı:

– Məndən ötrü nə qədər əziyyətlərə qatlaşdınız! – dedi.

– Səhərdən heç nə yeməmişik, səni gözləyirik. Acından bir təhər olmuşuq, – deyə Lalə onu süfrəyə dəvət etdi.

Son iki ildə ilk dəfə idi ki, onların kiçik ailəsi yenidən bir yerdə süfrə arxasına otururdu. Hər üçünün ürəyi sevinclə çırpınırdı. Onlar ordan-burdan danışır, sanki iki ilin ayrılığını, eləcə də son bir ayın ağrı-acısını unutmaq istəyirdilər. Sonra çay süfrəsi açıldı.

Axşama kimi evdə qəribə bir canlanma hökm sürdü. Bir-biri üçün darıxmış bu üç adam aralarına qəfil girmiş yadlığı aradan qaldırmaq üçün əllərindən gələni etsə də, əslində onların hər birinin ürəyi həyəcandan sıxılırdı. Hansısa bir hiss bu xoşbəxt anların əbədi olmadığını pıçıldayırdı.

Hava qaralanda Nəzrinin getməyə hazırlaşdığını görən Sahilin də, Lalənin də kefi pozuldu. Bunu Nəzrin o saat hiss etdi, lakin özünü o yerə qoymadı. Valideynləri də ona heç nə demədilər. Bunun üçün ürəyində onlara minnətdar idi. Hər üçü güclə düzələn münasibətlərinin yenidən korlana biləcəyindən ehtiyat edirdi.

***

Xəstəxanadan sonra öz evinə, adi həyat ritminə öyrəşmək Sahidən ötrü çox çətin idi. Bir yerdə qərar tuta bilmirdi. Adətən boş vaxt tapan kimi kitabları, əlyazmaları ilə baş qarışdıran o, indi saatlarla televizorun qarşısında otursa da, ekranda baş verənlərin heç birini görmürdü. Fikri uzaqlarda dolaşır, qəribə bir narahatlıq, anlaşılmaz həyəcan ondan əl çəkmirdi. İşə bir aydan sonra çıxacaqdı, hələlik evdə qalmalı, sağlamlığını bərpa etməli idi.

Tənbəl addımlarla iş otağına keçib qovluqlarını yığdığı kitab şkafının alt gözünü açıb üstünə "Arxiv" yazılmış qovluqdan

qara rəngli zərfi götürüb, orada gizlətdiyi məktubları çıxardı. Sonuncunun tarixinə baxdı: 1 aprel 1985. Bu, o idi: son məktub. Onun həyatını çalxalamış, təbiətini dəyişdirmiş, bir qədər təmkinli, bir qədər səbirli etmiş məktub. Əslində bu təmkinin, səbirin içində ürək sızıldadan bir göynərti var idi.

Nəm çəkmiş məktubu əlinə alanda həmin göynərti təkrar olundu. Sanki ürəyi nəyə isə, kəsici bir şeyə toxunub yaralandı: yıxılıb dizi qanayan uşaq ağrıdan necə sızıldayırsa, o da eynilə həmin hissi keçirdi. Çoxdan əlinə almadığı, oxumağa ürək eləmədiyi, unutmaq istədiyi məktubu zərfdən çıxardı.

Ötən illər ərzində kim bilir, neçənci dəfə onu cırıb atmaq istəmiş, amma heç cür əli gəlməmişdi. Tez-tez özözünə deyirdi ki, İnci ilə bağlı bütün izləri yox etməlidir, onu xatırladacaq heç nə qalmamalıdır. Amma nədənsə bunu edə bilməmişdi. Məktubu məhv etməklə nəyə nail olacaqdı ki? Onu oxumağa başladı.

"Salam, mənim Sahilim! Necəsən? Yəqin ki, həyatın sevinc və fərəh içində, dostlarının əhatəsində davam edir. Bilirəm ki, öz dünyandan məni çıxarmısan, orada mənə yer saxlamamısan, yerimi artıq özgələri tutub. Bu, şübhəsiz, belə də olmalı idi. İkimiz də bunu istəyirdik, amma etiraf etməyə qorxurduq. Həyat özü bu hökmü verdi. Biz həlli çətin görünən tənliyi asanlıqla həll etdik.

Bütün ili Bakı həsrəti ilə yaşamışdım. Yuxuma daim tanış küçələr, tanış yerlər girirdi. Hərdən öz-özümə deyirdim: kaş quş olub bircə günlüyə Bakıya uçaydım, həsrətində olduğum pəncərədən içəri boylana biləydim. Görəydim nə ilə məşğulsan, üzünün doğma cizgilərinə doyunca tamaşa edəydim, səsini dinləyəydim. Mən hər şey üçün darıxmışdım: Bakı üçün, sənin başdan-başa kitablar olan səliqəsiz otağın üçün, evinə uzanan yollar, səkilər üçün, köhnə tanışlar, dostlar üçün. Bunlar səni görmək, sənin yanında olmaq üçün bir bəhanə

idi. Əslində, səndən başqa heç nəyi, heç kimi arzulamırdım.

Amma bir illik ayrılıqdan sonra beş ay Bakıda olub nə Bakını gördüm, nə də səni. Məndən elə uzaq, mənə elə yad və soyuq idin ki! Bura qayıtmazdan əvvəl Baksovetdən aşağıda yerləşən, həmişə bir yerdə getdiyimiz kafeyə girib bir stəkan kakao və bir kökə aldım. Acdığıma görə yox, tez-tez sənlə üz-üzə oturub kakao içdiyimiz bu kafeni yaddaşıma köçürmək üçün pəncərənin qabağındakı stolun arxasında oturdum. Udduğum hər tikə boğazımda qurğuşuna dönürdü, onları güc-bəla ilə içəri ötürürdüm. Sonra dənizkənarı parka gedib köks ötürə-ötürə dənizə, sahildə hay-haray salan qağayılara tamaşa etdim. Sən bu zaman hardasa öz aləmində, məndən uzaq dünyanda, öz qayğılarının əhatəsində idin. Varlığımın daha səni narahat etmədiyini düşünmək son dərəcə əzablı idi.

Gözəl Bakı bu dəfə qəddarcasına sinəmə çalın-çarpaz dağ çəkdi. Mən ürəyimi bürümüş kədərdən qurtulmaq üçün çar Solomonun sözlərini öz-özümə təkrar edirdim: "Hər şey keçəcək". Sonra özümü sakitləşdirirdim. "Bu da keçəcək, bu da unudulacaq, qış ötüb yaz gəldiyi kimi, kədərim də yerini sevincə verəcək", – deyə öz-özümə təsəlli verirdim. Ayaq üstə necə dayanmışdım, yollardan necə keçirdim? Çəkdiyim acılara necə tab gətirirdim? Məndə hər şeyə dözməyə taqət haradan idi?

Rayona qayıdanda bərk xəstələndim. Qızdırma içində alışıb-yandığıma sevinirdim. Çünki xəstəlik mənim üçün yeganə çıxış yolu idi. Başıma gələnlərə dözməyə, ağzımı açıb söz danışmağa, gözlərimi açıb adamların üzünə baxmağa taqətim yox idi. Bu, son idi. Son – fiziki yoxluq deyil, Sahil. Son – ümidlərin qurtaracağı, arzuların dayanacağıdır. Mən də bu dayanacaqda idim. Buna baxmayaraq, gözüm qapıda qalmışdı: görəsən onu açıb içəri girən olacaqmı? Əlbəttə, məni ancaq sən maraqlandırırdın. Mənim üçün başqaları elə bir əhəmiyyət kəsb etmirdi.

Məni hər şey kövrəldirdi. Fikirləşirdim ki, əgər bu müddətdə toyum olsa və ya ölsəm, bundan sənin xəbərin olmayacaq. Nə vaxtsa yadına düşüb məni soraqlayanda bir də eşidəcəksən ki, İnci yoxdur, çoxdan ölüb, qəbrinin üstündə ot bitib. Bu, tamamilə mümkün şeydir.

Nə etməli, biz ayrı-ayrı adamlarıq. Mənim istəyim də, nifrətim də həmişə ifrat dərəcədə olur. Mənimçün orta həddyoxdur. Əgər sevirəmsə, bütün dünyanı unuduram, daha heç nəyin mənim üçün əhəmiyyəti olmur. Sənlə də belə oldu: Sən, Sən və ancaq Sən. Başqa mənim üçün heç nə mövcud deyildi, heç özüm də yox idim. Doğmalar, dostlar arxa plana keçmişdi. "Mən" adlı heç nə tanımırdım, yalnız "Sən" vardın. Dünya başdan-başa Səndən ibarət idi. Bəs sən mənim ürəyimdən xəbərsiz idinmi? Təmkinimə təəccüb etmirdinmi? Sənə ünvanlanan hər sözdən için-için ağlamışam, sənə zillənən hər baxışdan alovlanmışam. Dəli kimi səni qarabaqara izləmişəm. Bədbəxtliyim ondadır ki, ruhən xəstə adamlar kimi məni yalnız bir fikir məşğul edir, qalan şeylərin mənim üçün heç bir əhəmiyyəti olmur. Özümü tamamilə, sonunacan unuduram. Sən isə şöhrəti sevgidən üstün tutdun.

Ömrümün yol ayrıcında özümə söz verirəm: nə zəng edəcəyəm, nə də məktub yazacağam. Təki sənin üçün yaxşı olsun. Təki günlərin xoş keçsin. Demirəm ki, mənim üçün asan olacaq, amma sənin yolunda qara daş olmaq istəmirəm. Səni tamamilə unuda biləcəyəmmi, bilmirəm. Hələ ki, ağırdır. Amma dünyada mümkün olmayan heç nə yoxdur. Mənimlə eyni institutda işlədiyinə görə özünü narahat hiss edirdin. Bunu etiraf etmək istəməsən də, ikimiz də bunun belə olduğunu bilirdik. Sakitliyini pozduğum, prinsipiallığımla səni bezdirdiyim üçün indi xəcalət çəkirəm. Sənin dəyişməyini, ad-san qazanmaq naminə dostluğumuzu da qurban verməyə hazır olduğunu dərk etmək mənim üçün çox çətin idi. Mənim

sevdiyim, ürəkdən bağlı olduğum Sahil daha yoxdur, onun yerini soyuq bir qrafoman tutub. Mən bunu qəbul edə bilmədim.

Uzun müddət çalışıb edə bilmədiyimi sənin dəyişməyin elədi. Ağlıma gəlməyən başıma gəldi. İşdən çıxdığımı bilə-bilə sən mənimlə danışmağa söz tapmadın. Soyuq gözlərindən səbirsizlik yağırdı: mənim nə vaxt çıxıb gedəcəyimi gözləyirdin. Ağır bir yük altında qalan adamlar kimi narahat idin. Çox sağ ol ki, çətinliklə də olsa həqiqəti mənə anlada bildin. Qəlbimi sənə bağlayan gözəgörünməz telləri qırıb yerə atdın. Buna uzun müddət heç cür nail ola bilmirdim, sən kömək etdin. Əgər belə olmasaydı, illərdən bəri əziz yadigar kimi saxladığım, hər gün dönə-dönə baxdığım şəkillərini sənin masanın yeşiyinə qoya bilməzdim. Eh, sınan qəlbə şəkillər nə edə bilər?

Mənim varlığımı alt-üst edən, ürəyimə neştər kimi sancılan sözlərini unuda bilmirəm. Amma son məktubumda bir şeyi etiraf etməyə bilmirəm: səni mənim qədər sevən olmayıb, olmayacaq da! Sənin ən kiçik sevincin mənim ən böyük səadətim olub. Dilimdən heç zaman adın düşməyib. Elə bir saat olmayıb ki, yadımdan çıxasan, fikrimdən, xəyalımdan çəkiləsən.

İndi bir adam axtarıram ki, başımı dizlərinə qoyub ağlayım, başıma gələnləri ona danışım, bundan sakitlik tapım. Ancaq heç kəsim yoxdur, heç kəsim! Həyatımda bircə sən vardın, səni də itirdim. Sən məni itirdiyin kimi! Hə, Sahil, bir daha görüşməyəcəyik. Heç zaman! Əlvida!"

Sahil başını stolun üstünə qoyub gözlərini yumdu.

***

Valideynlərindən ayrılıb küçəyə çıxanda birdən Nəzrinin ürəyi kədərdən sıxıldı. Bayaq evdə, doğmalarının yanında da eynilə bu cür, nəyi isə itirib tapa bilməyən uşaq kimi olmuşdu. Ümumiyyətlə, son bir neçə gündə bu əhval-ruhiyyə ondan

əl çəkmirdi. Həmişə belə vaxtlarda İnci xanımgilə yollanardı. Amma o, hələ də Moskvadan qayıtmamışdı. Bu iki həftə ərzində arada bir-iki dəfə zəng çalıb ondan hal-əhval tutmuş, atasının vəziyyəti ilə maraqlanmışdı. Hansısa bir tərcümə layihəsi ilə əlaqədar yubandığını, yaxın vaxtlarda Bakıya qayıdacağını bildirmişdi. Son dəfə zəng çalanda gülə-gülə xəbər almışdı:

– Sənə Moskvadan nə gətirim, Nəzrin?

– Mənə heç nə lazım deyil, İnci xanım, özünüz tez gəlin. Sizdən ötrü çox darıxıram, – deyə Nəzrin ağlamsınmışdı.

Son dəfə iki gün əvvəl danışmışdılar. İnci xanım ona Bakıya bir həftədən sonra dönəcəyini bildirmişdi. Bir həftə Nəzrinə bir il kimi görünmüşdü. İndi həmin söhbəti xatırlayıb elə qəribsədi ki, kövrəlib özünə yer tapmadı. Birdən ürəyindən İnci xanımın evini görmək keçdi. "Qoy gedim, bir az yır-yığış edim. Yəqin evi toz basıb. İnci xanım gəlib evi tozlu görməsin", – deyə düşünüb tələsik addımlarla sevimli ünvana yollandı.

Həyət qapısının aralı olduğuna təəccübləndi. Evin qapısına açar salanda onun da açıq olduğunu görəndə ürəyini həyəcan bürüdü. Ehtiyatla dəhlizə girib zalın qapısını aralayanda, divanda yorğan-döşəkdə uzanmış İnci xanımın heyva kimi saralmış üzünü görüb yerindəcə dondu. Arıqlayıb tanınmaz hala düşmüş qadının görkəmindən kövrəldi. Qəfil gəlişi ilə onu qorxutmamaq üçün qapını taqqıldadıb:

– İnci xanım, – deyə yavaşca səsləndi.

Qadın gözlərini açıb, üzünə nikbin ifadə verib gülümsədi, heç nə olmamış kimi qalxıb yerinin içində oturdu.

– Bu sənsən, Nəzrin? Nə yaxşı ki, gəldin.

Nəzrin yaxınlaşıb onu qucaqladı, yastığını düzəldib rahat uzanmağa kömək etdi.

– Sizə nə olub? Bəs deyirdiz bir həftədən sonra gələcəksiz?

– Nəzrin bunu tənbehedici tərzdə dedi.

– Əslində, bir həftədən sonra qayıtmalı idim. Amma fikrimi dəyişməli oldum. Moskvanın havası bu dəfə mənə düşmədi, yaman xəstələndim. Həyatım boyu bu cür ağır qrip keçirməmişdim. Gördüm ki, bərk ağrıyıram, işimi bitirməmiş geri döndüm, – qadın bu sözləri elə təqsirkar tərzdə dedi ki, sanki xəstələnməklə nə isə bir qəbahətə yol vermişdi.

– Bəs mənə niyə zəng çalmadız? – Nəzrin ağlamsındı.

– Səni narahat etmək istəmədim.

– Sizi iki günə ayağa qaldıracağam. İndi sizə zoğal mürəbbəsi ilə çay içirdəcəyəm. Sonra da sulu xəngəl bişirib tərlədəcəyəm.

Belə deyib o, mətbəxə keçdi. Bir azdan evi təzə dəmlənmiş çayın qoxusu bürüdü.

GÖZLƏNİLMƏZ GÖRÜŞ

Nəzrin gedəndən sonra Sahilin şən əhval-ruhiyyəsindən əsər-əlamət qalmadı. O, təbəssümü üzündə donub qalmış, aciz uşaq kimi özünü itirib nə edəcəyini bilməyən Laləyə heç nə deməyib öz otağına keçdi. Ürəyi sıxılan qadın qapının arasından ərinin bağlı şkafın qabağında əyildiyini görüb son qətiyyətini də itirdi. Onun qovluqların altından qara zərfi çıxardığını görəndə vanna otağına keçdi. Duşun altına girdi ki, əri hıçqırtısını eşitməsin. Suyun bumbuz olduğuna fikir verəcək halda deyildi. Onu ürəkdən üşüdən, damarlarını donduran səbəb başqa idi.

Qaranlıq düşəndə otağından çıxan Sahil güclə eşidiləcək qəmli səslə arvadına dedi:

– Gedim bir az gəzişim, ürəyim yaman sıxılır.

– Bəlkə mən də gəlim? – Lalə bu sözləri çəkinə-çəkinə dedi.

– Sən dincəl, mən tək qalmaq istəyirəm. – Sahil cavab gözləmədən ayaqqabılarını geyindi.

Lalə özünü sındırmadı, eynən həmin pəjmürdə halda ona cavab verdi:

– Get gəz, havada eynin açılar, gecə rahat yatarsan.

Cavid prospektindən gəzə-gəzə Nərimanov heykəlinin ətrafındakı bağa gəlib çatanda Sahil yorulub dincini almaq istədi. Lakin skamyaların hamısı tutulmuşdu. Təkcə yuxarı başdakı bir skamyada bir cavan qadın tək oturmuşdu. Bunu görcək, ora yaxınlaşdı:

– Xanım, burda oturmağa icazə verərsizmi?

– Əlbəttə, buyurun, – qadın gülə-gülə cavab verib əlindəki telefonla danışmaqda davam etdi.

Burnuna bahalı fransız ətrinin xoş qoxusu dəyəndə Sahil dönüb maraqla yanındakı qadını süzdü. Onun Ülkər Nikbin olduğunu biləndə nədənsə həyəcanlandı. Qadın telefon danışığını tamamlayanda üzünü ona tutdu:

– Sizi tanımadım, dövlətli olacaqsız, Ülkər xanım.

Qadın təəccübləndi:

– Məni hardan tanıyırsız?

–Yadınızdadırsa, biz bir dəfə görüşmüşük. Mən professor Sahil Hüseynovam.

– Hə, yadıma düşdüz. Məni plagiatçılıqda günahlandıran alim.

– İncikliyiniz keçməyib? – Bu sözləri Sahil elə səmimi dedi ki, qadın yumşaldı.

– Keçməyib neyləyəcəyəm? Son vaxtlar məni ittiham edənlər o qədər çoxalıb ki, daha vecimə də deyil. Amma sizin tələbə yoldaşınız yaman qəlbiqara adam imiş. Kaş ona rast gəlməyəydim.

Onun bu sözləri yana-yana dediyini görən Sahil özünü bilməzliyə vurdu:

– Nə olub ki? Olmaya İnci xanım sizin xətrinizə dəyib?

– Guya bilmirsiz nə olub... – qadın rişxəndlə onu süzdü.

– Doğrudan bilmirəm. Düzünü bilmək istəsəz, mən bir ay xəstəxanada yatmışam, ordan bu gün çıxmışam. Neçə vaxtdır dünyadan xəbərim yoxdur.

– Hə?... Allah şəfa versin. Yəqin əməliyyat olunmusuz.

– Elədir.

Sahil susub daha nə deyəcəyini bilmədi. Amma nədənsə onunla rastlaşdığına çox sevindi.

Deyəsən Ülkər Nikbinin ürəyi dolu idi, boşaltmağa adam axtarırdı.

– Allah kimi necə cəzalandırmalı olduğunu yaxşı bilir, – deyə o, burnunun altında söyləndi.

– Kimi nəzərdə tutursuz? – Sahil maraqla soruşdu.

– Sizin tələbə yoldaşınız İncini.

– Nə baş verib? Olmaya aranız dəyib? – O, təəccübləndi.

– Verdiyim pullar onun burnundan gəlsin! Görüm heç halal-xoşu olmasın!

Sahil özünü heç nə başa düşməyən kimi göstərdi.

Ülkər bir qədər susduqdan sonra davam etdi:

– Mən imam nəslindənəm, bizim ahımız yerdə qalmır. Necə qarğış eləmişəmsə, tutub İncini. Dünən axşam onu burda görmüşəm, ayaq üstə ölürdü.

– İncini görmüsüz? – Sahil həyəcanını güclə boğdu. – Yəqin evi yaxındadır... – Son sözləri Sahil etinasız deməyə çalışdı, amma səsi titrədi. Xoşbəxtlikdən qadın bunu hiss etmədi.

– Odey, o görünən ikimərtəbəli yaşıl binanın həyətində yaşayır, – deyə Ülkər oturduqları yerdən aydın görünən aşağı məhəllədəki evi nişan verdi, sonra isə acıqla əlavə etdi, – Görüm onu heç sağalmasın!

Sahil onun sözlərinə əhəmiyyət vermədi. O, sevindiyindən

nə edəcəyini bilmədi. Bir vaxtlar zəhləsi getdiyi bu qadın indi ona xilaskar kimi göründü. Onun qarğışları isə qulaqlarında xeyir-dua kimi səsləndi. Qınayan olmasaydı, qadını qucaqlayıb öpərdi. Ayağa qalxıb sevinclə onunla vidalaşdı:

– Bilsəniz sizdən necə razıyam! Bilsəniz məni necə sevindirdiz! Allah sizi var eləsin!

Qadın təəccüblə onu süzüb soruşdu:

– Nəyə görə məndən razısız?

– Hər şeyə görə! – Bu sözləri deyib Sahil yerindən qalxdı, tələsik addımlarla bağdan çıxıb Ülkərin nişan verdiyi səmtə üz tutdu.

– İnciçiçəyi istəmirsiz? – Yolun kənarında dayanmış qoca rus qadını yavaş səslə ondan soruşdu. Sahil zənbili inciçiçəyi dəstələri ilə dolu olan qadına sevinclə baxıb:

– Əlbəttə istəyirəm, – deyə cavab verdi.

– Dəstəsi bir manatdır.

Qadın bu sözləri üzrxahlıqla dedi. Sanki demək istəyirdi ki, bahadırsa, almaya bilərsən.

– Burda neçə dəstə var?

– İyirmi, – deyə qadın cavab verdi.

– Zənbili satmırsız?

Belə sual gözləməyən qarı əvvəl karıxdı, sonra nə fikirləşdisə, gülə-gülə dedi:

– İstəsəniz sataram, zənbilə iyirmi manat verərsiz.

Sahil cibindən əlli manatlıq əskinas çıxarıb ona uzatdı.

– Mənim xırdam olmayacaq, – deyə qarı səsləndi.

– Lazım deyil, özünüzə saxlayın, – deyib Sahil çiçək dolu zənbili qarıdan alıb az qala qaça-qaça yolun sağ tərəfinə keçdi.

Arxasınca qarının minnətdarlıq dolu sözlərini eşitdi: "Allah səni sevindirsin! Allah səni muradına yetirsin! Allah verən əlini var eləsin! Heç vaxt dərd görməyəsən!"

Bayaq ona nişan verilən, divarlarına yaşıl rəng çəkilmiş

ikimərtəbəli binaya çatanda üzbəüz evin qarşısında dayanmış yaşlı kişidən soruşdu:

– İnci xanımın evi hansıdır?

– Odey, üstündə 2 rəqəmi olan onun evidir, – deyə kişi mehriban səslə cavab verdi, sonra isə – İnci xanım evdədir, – deyə əlavə etdi.

Sahil həyət qapısına əl vuran kimi açıldı. Həyətə girib, oradan evin qabağına keçəndə ürəyinin sinəsində guphagup saldığını, ayaqlarının həyəcandan əsdiyini hiss etdi. Özünü güclə ələ alıb, qapını yavaşca döydü. Amma deyəsən onu eşitmədilər. Evdən danışıq səslərinin gəldiyini görüb ehtiyatla qapını açıb dəhlizə girdi.

İçi boşqablarla dolu məcməyi ilə mətbəxdən çıxan Nəzrin əlində çiçək zənbili tutmuş atasını görəndə özünü necə itirdisə, qab-qacaq əlindən yerə düşüb çilik-çilik oldu. Səsə içəridən hövlnak çıxan İnci dəhlizdə Sahillə üz-üzə gələndə ağappaq ağarıb yıxılmamaq üçün divara söykəndi. Nəzrin heyrətlə gah qapı ağzında donub qalmış atasına, gah da dodaqları səyriyən İnci xanıma baxır, nə edəcəyini bilmirdi.

Bir tərəfdən arıqlayıb tanınmaz hala düşmüş İncini görüb sarsılan, digər tərəfdən isə qızını burada görəcəyini ağlına belə gətirməyən Sahil özünü tamam itirdi. Hər üçü çaşqınlıq içində idi. Heyrətlə bir-birinin üzünə baxırdılar. Nəhayət, Nəzrin özünü ələ aldı. Üzünü İnci xanıma tutub qəhərlə dedi:

– Hə, indi anladım. Deməli, donor sizsiz. Biz də neçə vaxtdır baş sındırırıq. – O, bir an susdu, sonra isə göz yaşlarına qərq oldu: – Niyə? Niyə axı? Niyə belə etdiz? Bu qədər yalan olarmı? Mən sizin qədər heç kəsə inanmamışam axı. Nədən belə iş tutduz?

O, nə isə demək istəyən qadına danışmağa imkan vermədi:

– Aman Allah! Dünyada mənim qədər sadəlövh ikinci adam varmı? Mən necə də səfehəm! Sizin səmimiyyətinizə

necə də inanmışam. Sizsə məni balaca uşaq kimi aldatdız.

Nəzrin incik baxışlarını atasının üzündə saxlayıb acı-acı əlavə etdi:

– Sizin Sahiliniz mənim atam imiş. Deməli, mənim kim olduğumu da bilirdiz.

Sahil həyəcanla gah qızına, gah da İnciyə baxır, nə edəcəyini bilmirdi.

Nəzrin daha heç nə demədi, qonaq otağından çantasını götürüb onların üzünə baxmadan qapıdan çıxdı.

Onun getməsi ilə araya üzücü bir sükut çökdü. Sahillə İnci bir-birinin üzünə baxmağa qorxurdular. Uzun illərdən sonra baş tutan bu görüşün bu cür olacağını ağıllarına belə gətirə bilməzdilər. Hər biri xəyalında romantik bir görüş səhnəsi yaratmışdı. Reallıq isə onlara həyatın gözlənilməz hadisələrlə dolu olduğunu, hər şeyin insanın arzu etdiyi kimi olmadığını bir daha xatırlatdı.

Nəhayət, sükutu İnci pozdu. Sahilin əlindəki zənbilə işarə edib:

– İnciçiçəkləri açıb, deməli may gəlib, – dedi. Sonra isə yaxınlaşıb Sahilin əlində tutduğu zənbildən bir qom çiçək götürərək qoxladı. – Aman Allah, necə də gözəl qoxudur! – O, kədərlə Sahilə baxdı: – Mənim inciçiçəklərinə olan sevgimi unutmamısan.

– Nəyi unutmuşam ki! – Sahilin səsi titrədi. O, ilk görüşə gedən yeniyetmə kimi həyəcan içində idi.

İnci onun bu halını duyub yavaş, amma amiranə səslə dedi:

– Keç içəri.

Sahil ayaqqabılarını soyunub qətiyyətsiz halda zala daxil oldu. İnci Sahilə divanda yer göstərib, özü kresloda oturdu.

Uzun illərin ayrılığından sonra ilk dəfə üz-üzə oturmuşdular. Amma bir-birinin gözlərinin içinə baxmağa cürət etmirdilər. Təsadüfən nəzərləri toqquşanda, tez onları yayındırırdılar.

Heç biri danışmağa ürək etmirdi. Beləcə, sükut içində, narahatlıqla bu üzücü sükutun gətirdiyi ağırlığın nə vaxt bitəcəyini gözləyirdilər. Bir-birinin üzünün cizgilərini gözlərinin ucu ilə, çəkinərək nəzərdən keçirirdilər. İllər boyu həsrətində olduqları, əzablı istəklə gözlədikləri bu görüşün bu qədər qəmli olacağını heç biri təsəvvür etməzdi.

İncinin bir qədər yaşlanmış solğun sifəti Sahili kədərləndirirdi. İnci də Sahilin ovurdları batmış arıq üzünə baxır, gözlərindəki əvvəlki odlu işartını axtarır, amma tapa bilmirdi.

Deməyə söz tapmırdılar. Nədən başlayıb nədə qurtaracaqları barədə düşünürdülər. Dəqiqələr isə uzandıqca uzanırdı. Hər ikisi bu əzablı anlara son qoymaq istəyir, amma bunun öhdəsindən heç cür gələ birmirdi. Nəhayət, Sahil yayğın baxışlarını İncinin üzündə cəmləşdirdi, uzun-uzadı onu süzdü. Bir cüt qara göz uzun, sıx kirpiklərin arasından Sahilə baxırdı. Doğmadan doğma, əzizdən əziz bir cüt göz.

Onların baxışları toqquşdu. Bu illər ərzində onlar üçün necə də darıxmışdı. Qaranquş qanadlarına bənzəyən qaşlar bu gözlərə qəribə bir məna verirdi. İncinin qarabuğdayı, arıq sifətini məlahətli, cazibədar edən qaşlarını çatıb, kirpiklərini çalıb danışması idi. Onun gözlərindəki dərinliyə, onlardakı ifadənin gözəlliyinə heyran idi Sahil. İndi uzun ayrılıqdan sonra həmin ifadəni yenidən görməyə çalışır, amma buna nail ola bilmirdi. Gözlər, qaşlar, kirpiklər həmin idi, amma gözlərin ifadəsi dəyişmişdi. O isti, o doğma və əziz baxışlar yox idi onlarda. Sahilə tanış olmayan, onu üşüdən, ağrıdan, ümidsiz edən bir ifadə baxırdı bu gözlərdən.

Bu dəfə nəzərləri bir xeyli toqquşdu. Sınayıcı baxışlar elə bil bir-birinin ürəyini oxumaq istəyirdi.

Bayaq sevincindən qanadlanıb uçmaq istəyən, özünü az qala qaça-qaça İncinin evinə çatdıran Sahilin cəsarətindən əsər-əlamət qalmamışdı. İndi o, bu zərif qadının qarşısında

müttəhim kimi müti halda oturmuşdu. Birdən ağlına gəldi ki, sükutu mütləq o pozmalıdır, heç olmasa ona görə ki, kişidir.

– Nəzrini hardan tanıyırsan, İnci?

– Bu, taleyin işidir. Təsadüfən tanış olmuşuq. Amma indi o, mənə canımdan əzizdir.

– Onun mənim qızım olduğunu bilirdinmi?

– Yox, bilmirdim, bunu sonradan anladım.

– Onda mənə zəng çalan sən idin, elə deyilmi?

– Hə.

Bu kiçik dialoqdan sonra bir xeyli heç biri dinmədi. Nəhayət, Sahil özünü ələ aldı:

– Çox dəyişmisən, İnci! – Bu sözləri deyəndə onu tər basdı. Sonra nədənsə qulaqlarına kimi qızardı və narahat halda oturduğu yerdə qurcalandı.

– Sən də, Sahil!

İncinin səsi o qədər soyuq idi ki, bundan Sahilin olan-qalan cəsarəti də itdi.

– Mənim ünvanımı sənə kim verdi?

– Bunun nə əhəmiyyəti var? Əsas odur ki, səni tapdım. – Sahil suala sualla cavab verdi. İncinin dərinə getmədiyini görəndə bir qədər ürəklənib onun əlini əlləri arasına aldı. İnci bu gözlənilməz təmasdan özünü itirib, əlini yavaşca geri çəkdi. Bunu elə etdi ki, sanki Sahilin inciyəcəyindən ehtiyat edirdi. Sahil də tutuldu, pərtliyini gizlətmək üçün soruşdu:

– Həyatında nə kimi dəyişiklik var?

– Valideynlərimi dəfn elədim. Bu dünyada yalqız qaldım. Onlardan sonra doğma evimiz məni sıxdı. Divarlar üstümə gəlirdi. Hər gecə atamla anamı yuxuda görürdüm, az qalırdı başıma hava gəlsin. Məcbur olub Bakıya köçdüm.

– Neçə ildir Bakıdasan?

– Səkkiz ildir.

– Bu səkkiz ildə bircə dəfə mənə zəng çala bilmədinmi?

– ...

– Niyə cavab vermirsən?

– …

– Məni bağışlamamısan?

– İndi bu sözlərin nə əhəmiyyəti var? Sən ailəli adamsan, öz həyatın, öz qayğıların...

– Niyə indiyə kimi ailə qurmamısan?

İnci qəribə baxışlarla onu süzüb ağır-ağır cavab verdi:

– Axtardığımı hələ tapmamışam. – Bunu deyib o, yerindən qalxdı: – Qoy gedim çay qoyum.

Sahil onun əlindən yapışıb, yerində oturtdu:

– Çay lazım deyil. Mən bu görüşü 25 il gözləmişəm. Otur, mənimlə söhbət elə. – O, yalvarıcı baxışlarını İnciyə dikdi, sonra isə onun əllərini dodaqlarına aparıb öpdü. – Elə bir gün olmayıb ki, yadımdan çıxasan. Hər gün bir arzu ilə yatıb oyanmışam: səni unuda bilim. Bircə gün yadımdan çıxsaydın, özümü xoşbəxt sanardım. Səni düşünməmək, səni xatırlamamaq üçün nələr etmədim... Amma səni yadımdan çıxara bilmədim, bunu bacarmadım. Bircə an boş vaxtım olan kimi gəlib fikirlərimə hakim kəsilmisən. Sənin lə bağlı ən kiçik anlar, ən əhəmiyyətsiz şeylər də mənim üçün qiymətlidir. Heyf ki, insan bir şeyi itirməmiş onun qədrini bilmir. Gərək səni itirəydim ki, mənim üçün nə qədər dəyərli olduğunu anlayım.

– Bu sözlər nəyə lazımdır? Niyə keçmişi yada salırsan? – İnci bunları kədərlə dedi, amma onun sözlərində etirazdan çox təəssüf var idi. Sahil bunu o dəqiqə duydu.

– Nə olar, məni dinlə. Xahiş edirəm, sözlərimə qulaq as, səmimiyyətimə inan. Bu illər ərzində mənimçün bir şey aydın oldu ki, dünyada ən böyük faciə ürəyindəkiləri bir kimsəylə bölüşə bilməməkdir. İnsan hər adama dərdini danışa bilmir, İnci, hər kəs səni duymur, səni başa düşmür. Bir damın altında olmaq, doğmalıq demək deyil. Dünyanın o başındakı

adam bəzən sənə bütün əzizlərindən yaxın olur.

İnci acı-acı güldü:

– Elə danışırsan ki, guya dünyada səndən bədbəxt adam yoxdur. Ailən, rahat mənzilin, yaxşı işin, adın, sanın… Xoşbəxtlik üçün insana daha nə lazımdır? Adam naşükür olmaz.

– Əgər insan özünü daim tənha, kimsəsiz hiss edirsə, ona necə xoşbəxt deyəsən? Ailəmə olan sevgi mənim içimdəki boşluğu doldura bilmədi. Bir zamanlar sən mənim varlığıma bir həyat eşqi, bir coşqunluq gətirmişdin. Onda həyat necə də gözəl idi. Onda mən doğrudan da xoşbəxt idim. Amma bu, mənə az göründü.

– Danışma, Sahil, sus, heç nə demə, şadlığına şitlik eləmə. Sən tənhalığın nə olduğunu bilməzsən. Tək-tənha dörd divar arasında qalmağın, qaranlıq evdə kimsəsiz olmağın, dərdini danışmağa bir bəndə tapmamağın nə demək olduğunu sən hardan biləsən? – İnci bu sözləri qəhərlə elə dedi ki, Sahilin susmaqdan başqa çarəsi qalmadı.

25 il... İncini son dəfə gördüyü vaxtdan 25 il keçirdi. "25 il..." – deyə ürəyində pıçıldadı. Bu kəlmələrin içindəki ağrı-acı, həsrət və intizar, qəm və kədər onu sızıldatdı. 25 günün ayrılığına dözə bilməyən o, 25 ilin əzabına necə qatlanmışdı? Bu illəri necə yola vermişdi?

Sahil gözlərini İncinin solğun bənizindən ayıra bilmirdi. Onun rəngi avazımış qarabuğdayı çöhrəsinin doğma və əziz cizgilərini dönə-dönə nəzərdən keçirir, sanki hafizəsinə həkk etməyə çalışırdı. Ürəyinin dərinliyində xəfif bir qorxu dolaşır, ona bu görüşün sonsuz olmadığını, nə vaxtsa bitəcəyini pıçıldayırdı. Bu pıçıltı idi onu qərarsız edən, varlığını titrədən. Bu zərif, incə qadının qarşısında bu ucaboy, enlikürək kişi özünü elə zəif, elə köməksiz hiss edirdi ki!

Sahilin baxışlarındakı qəribə ifadə İncinin gözlərindən

yayınmadı. Onun bu halı məktəbdən "iki" alıb evə gələn uşağın öz anası qarşısında aldığı vəziyyətə oxşayırdı. İncinin dodaqlarına təbəssüm qondu. Uzaq illərin xatirələri qəlbini titrətdi. Ürəyindən Sahilin dən düşmüş qıvrım saçlarında əl gəzdirmək arzusu keçdi. Bundan bədəni uçundu. Dünyalar qədər sevdiyi, bir an belə unuda bilmədiyi, bu yaxın olduğu qədər uzaq adam, həyatda yeganə varlıq idi ki, onun qarşısında ciddiyyətini, qətiyyətini itirirdi.

Qarşısında oturub günahkar baxışlarla baxan, diqqət, nəvaziş uman, rədd olunmaqdan qorxan, amma ona doğru ilk addım atmağa cəsarət etməyən bu gözəl, yaraşıqlı kişi həyatda onun yeganə arzusu idi. Lakin İncinin öz hissləri qarşısında aciz olmağa haqqı yox idi. Sahil onun məhəbbətini dəyərləndirməmiş, onu şöhrətə qurban vermiş, sonra da taleyini başqa qadınla bağlamışdı. Onun öz evi, öz həyatı var idi, bütün bunlardan əlavə o, Nəzrinin atasi idi.

Bunları düşünəndə iradəsini zəiflətməyə meyilli bayaqkı hisslər onu tərk etdi, onların yerini müdriklik tutdu. İnci acı-acı düşündü ki, daha yaşlaşıb. Keçirdiyi həyəcanlar, üzləşdiyi itkilər ona soyuqqanlı olmağı öyrədib. Ona görə də sakit biganəliklə Sahili süzdü.

İncini gördüyü andan var gücü ilə təmkinli görünməyə çalışan Sahil onun etinasız baxışlarına tab gətirə bilmədi. İçində bir üsyan baş qaldırdı. Birdən hissləri tələtümə gəldi, İncini necə qucaqladığını, onun üzünü öpüşlərə necə qərq etdiyini anlamadı. Bu, bir anda, bir göz qırpımında baş verdi. Lakin birdən onu soyuq tər basdı: qucağındakı qadın yarpaq kimi yüngül idi. Qollarının arasındakı 25 il əvvəlin İncisi deyildi. İncinin müqavimət göstərməməsi ona qəribə göründü. Nəfəs almadığını, üzündə həyat əlamətlərinin olmadığını, rənginin heyva kimi saraldığını görəndə dəhşətə gəldi. Özünü itirib nə edəcəyini bilmədi. Boğuq səslə qışqırdı:

– İnci! İnci! Sənə nə oldu? Səsini çıxar! Məni qorxutma, nə olar...

Sahil var-qüvvəsi ilə İncinin çiyinlərini silkələdi. Handan-hana gözlərini açan İnci zəif səslə:

– Mənə su ver, – dedi.

İncinin üzündə yenidən həyat əlamətləri görünəndə özünə gəlib dərindən nəfəs alan Sahil onu divana uzadıb mətbəxə qaçdı. Stəkana krandan su doldurub geri qayıdanda İnci yarıuzanmış halda başını balışa söykəyib qüssəli baxışlarını naməlum nöqtəyə zilləmişdi. Suyu içib onu sakitləşdirməyə çalışdı:

– Qorxma, keçib getdi.

Sahil həyəcandan hələ də özünə gəlməmişdi. İncinin bədəninin bircə anın içində cansızlaşması, sonra isə bumbuz olması onu əməlli-başlı qorxutmuşdu.

Onlar bir xeyli dinməz oturdular. Nəhayət, Sahil son günlər onu üzən, rahatlığını əlindən alan sualı dilinə gətirdi:

– Niyə belə etdin, İnci? Axı niyə? Fikrin ömrümün axırına kimi məni cəzalandırmaqdır?

– Nəyi deyirsən, Sahil? – İnci özünü o yerə qoymadı.

– Özün yaxşı bilirsən nəyi deyirəm.

– Gəl ötüb keçənləri yada salmayaq. Yaxşısı budur, danış görüm institutda nə var, nə yox? İşlərin necədir? Eşitdim professor dərəcəsi almısan.

Sahil kədərlə gülümsədi:

– Mən hər şeyimi qurban verərdim, təki sən yanımda olaydın.

İnci zarafata saldı:

– Sən lap roman qəhrəmanları kimi danışırsan.

Sahilin gözləri yaşardı:

– Kaş belə olaydı.

Onun həyəcanı İnciyə də sirayət etdi. İstər-istəməz səsinin

ahəngini dəyişməli oldu. Sahil həyatını alt-üst etmiş bu qadının qarşısında özünü çox aciz hiss edirdi. Onun səsi titrədi:

– Niyə məni çıxılmaz vəziyyətə saldın? Mənə belə qurban lazım deyildi. Eşidirsənmi? İndi mənə görə bir böyrəklə yaşamağa məhkumsan.

İnci səsini qaldırdı:

– De görüm, mən sənin vəziyyətinə düşsəydim, sən necə hərəkət edərdin? Yoxsa məndən böyrəyini əsirgəyərdin? Cavab ver. Burda qeyri-adi nə var axı? Bir böyrəklə yaşayan adamlar azdırmı?

– Bu məsələ gizlin qalsaydı, ailə üzvlərimin xəbəri olmasaydı, yenə bir təhər dözərdim. Amma mən daha onların üzünə baxa bilməyəcəyəm. Bu əzab məni ömrümün sonuna kimi təqib edəcək.

İnci onu sakitləşdirməyə çalışdı:

– İnsan unutqan olur, Sahil. Hər şey yaddan çıxır. Zaman hər şeyi yerinə qoyur. Sən də, ailə üzvlərin də bir müddət sonra böyrək söhbətini unudacaqsız. Buna görə özünə əzab verməyə dəyməz. Bir şeydə haqlısan ki, mən yalan danışmamalı idim. Qədir Əhmədovla şərtimiz belə olmuşdu ki, əməliyyat uğurla nəticələnən kimi, gəlib pulu alacağam. Amma yalan danışmaqdan başqa çarəm yox idi. Ona görə də telefon nömrəmi dəyişməyə məcbur oldum. Mən ona necə izah edəydim ki, səndən pul ala bilmərəm? Bunu başa düşürsənmi?

Sahil bu sözlərin müqabilində deməyə söz tapmadı.

Əqrəblər saat 12-ni göstərəndə İnci onu tələsdirdi:

– Gecdir, Sahil, get daha.

– Gedim? Hara gedim axı? – Sahil bu sözləri elə üzgün, elə çarəsiz halda dedi ki, sanki qalmağa yeri-yurdu olmayan qərib yolçu idi.

– Evinə get, ocağını soyutma. – İnci iki ildən bəri ona rahatlıq verməyən sualı nəhayət, dilinə gətirdi: – Niyə Lalə ilə

yola getmirsən?

Sahil qəfil sualdan özünü itirdi. İnci onun cavabını gözləmədən sözünə davam etdi:

– Siz öz qalmaqallarınızla, dava-dalaşınızla Nəzrinin ürəyinə sağalmaz yaralar vurmusuz. Yeganə övladınızı sevincdən, həyat eşqindən məhrum etmisiz. Sən ki, qəlbsiz adam deyildin, niyə belə dəyişdin? İnana bilməzdim ki, övladından məhəbbətini əsirgəyə bilərsən. Heç vaxt ağlıma gəlməzdi ki, sən ömür-gün yoldaşına əl qaldıra bilərsən, heç vaxt!

– Bunları sənə Nəzrin deyib?

– Hə, Sahil. Sizin ona nə cür acılar yaşatdığınızı mənə o danışıb. Bəlkə yalan deyib? Bəlkə özündən uydurub?

Sahil başını əlləri ilə tutub gözlərini yumdu, handan-hana ağır-ağır dilləndi:

– Yox, yalan deməyib. Lalə ilə ilk gündən xasiyyətimiz tutmadı. Biz onunla ayrı-ayrı adamlarıq. Bir-birimizi anlaya bilmirik. Ailə həyatı məni xoşbəxt edə bilmədi. Yəqin günah məndədir. Nəzrinə gəldikdə isə, onu həyatımdan çox istəyirəm, amma öz hisslərimi büruzə verə bilmirəm. Neynim, mən hamı kimi deyiləm. Başqaları üçün adi görünən şeylər bəzən mənə daş qaldırmaq qədər çətin görünür. Nəzrin balaca olanda Lalə ilə lap çox dalaşırdıq. Aylarla küsülü qaldığım, hətta evdən getdiyim vaxtlar olub. Bu münasibətlər mənim Nəzrinlə soyuq davranmağıma gətirib çıxardı. Elə bil heyfimi qızımdan çıxırdım. Özüm də bilmədən məndə komplekslər yaranmağa başladı. Sonralar, istəsəm də sevgimi büruzə verə bilmədim. Bilsən, buna görə ürəyimdə nə qədər əzab çəkmişəm!

Sahil qəhərini boğa bilmədi. Başını İncinin dizləri üstünə qoyub uşaq kimi ağladı. Bunu gözləməyən, Sahili belə kövrəldə biləcəyini ağlına gətirməyən İnci tutulub nə edəcəyini bilmədi. Bu dəfə o, özünü təmizə çıxarırmış kimi danışdı:

– Sən ki bilirsən, mən "dava uşağı" olmuşam. Bunun nə demək olduğunu mənim kimi ailə davalarının qurbanları yaxşı bilir. Bəzi valideynlər düşünmədən övladlarını bədbəxt edir, onların həyat sevgisini, gələcəyə olan inamlarını öldürürlər. Əslində mənim bu gün talesiz olmağımın bünövrəsi ailəmdə qoyuldu. Bunu atamla anam bilməyərək etdilər. Sonra illər boyu bunun ağrı-acısını özləri çəkdilər. Amma nə olsun ki? Heç nəyi dəyişə bilmədilər. Bir dəfə qırılan tale çətin düzəlir.

Sahilin səsi əsdi:

– Nəzrin evdən gedən gün həyat məndən ötrü mənasını itirdi. Bu günahımı heç zaman yuya bilməyəcəyəm.

– Lalənin nə çəkdiyini təsəvvür edirəm, – İnci Sahilə təsəlli vermək əvəzinə ürəyini bir az da ağrıtdığını dərk etsə də, bunu deməyə bilmədi.

Dizlərinin Sahilin göz yaşlarından islandığını hiss edib bundan mütəəssir olan İnci onun başını qaldırıb köksünə sıxdı. Bunu bir ana nəvazişi ilə, məhrəmanə etdiyinin fərqinə vardı. Sahil də bunu duydu. Təsəlli uman köməksiz uşaq anasına necə qısılırsa, o da eləcə İnciyə sığındı.

Onlar bir xeyli beləcə, danışmadan bir-birinin ürəklərinin səsinə qulaq kəsildilər. Heç biri bu qəribə sükutu pozmağa ürək eləmirdi.

Bir azdan Sahil başını İncinin köksündən qaldırdı:

– Sənə qarşı etdiyim haqsızlıqların cəzasını az qala hər gün çəkirəm. Yəqin ömrümün axırına kimi belə olacaq. Sənin də həyatını korladım, özümün də. Bilsən bunu dərk etmək necə ağırdır! Amma bu acı həqiqətlə yaşamağa məhkumam.

– Uzun illər boyu rayonda həsrətlə sənin mənə baş çəkməyə gələcəyin günü gözləmişəm, Sahil. Ürəyimin dərinliklərində həmişə bir ümid olub. O ümid sənin bir gün məndən ötrü darıxıb evimizə gələcəyinə, qapını açıb içəri girəcəyinə məni inandırıb. Aylarla, illərlə gözüm yollara dikilib. Sənsə

gəlmək bir yana qalsın, heç zəng də çalmadın...

– Hə, düz deyirsən, İnci. O cəsarət məndə olmadı. Düzü, həmişə sənin məni bağışlamayacağından qorxmuşam. Biz kişilər çox vaxt özümüz də bilmədən saxta qürurumuzun qurbanına çevrilirik. Üzr istəməyi şənimizə sığışdırmırıq. Mən də istisna deyiləm. Amma elə bir gün olmayıb ki, sənlə ayrılığın nə cür əzab olduğunu hiss etməyim. Bir şey həqiqətdir ki, insan həyatı boyu yalnız bir dəfə əsl məhəbbətlə qarşılaşır. Ona çatan xoşbəxt olur, itirən isə ömür boyu həsrətini çəkir.

İnci cavab vermədi. Artıq hər ikisi toxtamışdı. Vaxtın necə keçib getdiyinə əhəmiyyət vermədən, iki köhnə dost kimi tələsmədən söhbət edirdilər. Saata baxmamağa çalışırdılar, indi onların saatdan böyük düşməni yox idi. Hərə öz ürəyində danışsa da, bu səsi hər ikisi eşidirdi:

"– Getmək istəmirəm.

– Mən də getməyini istəmirəm.

– Səndən ayrılmaq elə çətindir!

– Səndən də!

– Nə olar, qoyma gedim.

– Lalə nigarandır, indi yəqin ağlına min şey gəlir.

– Düz deyirsən.

– Nəzrin nə fikirləşər?"

Son sual hər ikisinin ağlına eyni vaxtda gəldi. İnci onun ağırlığından qurtulmağa çalışdı:

– Bu iki ildə Nəzrinə övladım kimi öyrəşmişəm. Taleyin işlərini görürsənmi? Evdən getdiyi gün onunla necə rastlaşdım! İlahi, o mənim ömrümü necə bəzədi, mən ona necə bağlandım! Nəzrinin sənin qızın olduğunu biləndə mən nələr çəkdim! Necə dərin duyğulu qızdır. Necə gözəl hissləri var. Onun hekayələrini oxuyan adam necə istedad sahibi olduğunu o saat duyur.

– Sənin ona elədiyin yaxşılığı heç vaxt unuda bilmərik.

– Əslində, mən ona yox, o mənə yaxşılıq edib. Nəzrin kimsəsiz həyatımı öz hərarəti ilə isidib. Hər dəfə ona baxanda səni xatırlamışam.

İncinin bu sözlərini eşidəndə Sahil kövrəldi:

– Deməli, mənə nifrət etmirsən. Ən çox bundan qorxurdum.

– Kaş bunu bacaraydım. Sevginin gözləri kor, qulaqları kar olur, o, ancaq yaxşı şeyləri yadda saxlayır, Sahil, – İnci təəssüf qarışıq kədərlə bunları deyib ayağa qalxdı. Sahil heç nə demədən qapıya sarı getdi.

***

Uzun illərdən bəri başındakı ağrılardan əzab çəkən İncinin ağrıları bəzən elə güclü olurdu ki, dərmanlar da köməyinə çatmırdı. Böyrəyi Sahilə köçürüləndən narahatlığı çoxalan İnci qonşusu Səlimə xalanın qızı Saranın tanınmış həkim olduğunu bildiyindən xəstəxanadan çıxdıqdan sonra müayinə üçün onun yanına getməyi qət etmişdi. Sara diqqətlə onu müayinə etmiş, tomoqrafiyanın nəticələrini görəndə mütəəssir olmuşdu.

– İnci xanım, ziyalı xanımsız. Gərək sizə hər şeyi olduğu kimi deyim. Beyninizdə şiş var. Düzdür, hələlik böyük deyil, amma onu vaxtında götürtməsəniz, həyatınız üçün təhlükə yarana bilər.

– Şiş böyüməyə də bilər, elə deyilmi? – İnci ümidlə soruşmuşdu.

– Eyni vəziyyətdə qala da bilər, böyümək ehtimalı da var. Amma risk etməyə dəyməz. Mən məsləhət görərdim ki, vaxt itirmədən cərrahiyyə əməliyyatına girəsiniz.

İnci əməliyyat olunmaq fikrini özünə yaxın qoymamışdı. Kimdənsə eşitmişdi ki, belə əməliyyatlar heç də həmişə uğurla nəticələnmir. Bıçaq altına girməkdənsə, Allahın verdiyi

ömrü yaşamaq yaxşıdır, harda qırıldı, qırıldı. Həmin fikirlə barışmışdı. Bilirdi ki, belə əməliyyatdan sonra ona qulluq gərək olacaq. Kimi var idi ki, qulluğunda dayansın? O, bu dünyada yalqız idi. Bəs Nəzrin? Son iki ildə ürəkdən bağlandığı bu qız da bir vaxtlar atası etdiyi kimi, onu boş qürurunа qurban vermişdi. Sevgisini dəyərləndirməmiş, bir bəhanədən üz çevirib getmişdi.

Uzun illərin ayrılığından sonra peyda olmuş Sahilin onun xəstəliyindən xəbər tutmasını istəmir, bunu özünə təhqir sayırdı. "Mənə onun dilənçi payı lazım deyil", – deyə özözünə təkrar edirdi.

Vəziyyətinin ağırlaşdığını hiss edib, ertəsi gün işə gedərək, öz hesabına üç ay vaxt götürdü. Tələsik yır-yığış edib rayona yola düşdü. Həmişə ağrıyanda doğma yurdun havası ona şəfa verər, orada özünə gələrdi. Bu dəfə də ürəyində həmin ümid var idi.

***

Sahil ağır addımlarla bloka girib mənzilinin zəngini basmaq istəyəndə qapı açıldı, Lalə kandarda göründü. Onun ağlamaqdan şişmiş gözlərini, qanı qaçmış səyriyən dodaqlarını görəndə Sahil kövrəldi. Ərinin pəjmürdə halı, ümidsiz baxışları Lalənin nəzərindən qaçmadı. Onlar içəri keçib divanda yanaşı oturdular. Sahil sağ əli ilə arvadını qucaqlayıb özünə çəkdi. Ərindən gələn xoş qadın ətrinin xəfif qoxusu Laləni titrətdi. O, ağlamamaq üçün canını dişinə tutdu.

Səhərə kimi yata bilməyən Sahil bütün günü otağından bayıra çıxmadı. Lalə işə getdiyindən çay belə içmədi. Dünənki görüşün təsirindən hələ də qurtula bilməmişdi. Bütün gecə və gün ərzində düşündükdən sonra, nəhayət, qəti qərara gəldi: hər şeyi açıb Laləyə, sonra da Nəzrinə danışmalıdır. Deməlidir ki, bundan sonra o, İncisiz yaşaya bilməz. Gəncliyində

buraxdığı səhvi gec də olsa düzəltməlidir. Onun da, İncinin də xoşbəxt olmağa haqları var. Heç olmasa bundan sonrakı həyatlarını birgə keçirə bilərlər.

Lalənin axşam rəfiqəsinin oğlunun ad gününə gedəcəyi yadına düşəndə tez geyinib evdən çıxdı. Ürəyini bu vaxta qədər duymadığı qəribə bir sevinc hissi bürümüşdü. Bədənində heç bir ağrı hiss etmirdi. Dünənki həyəcan və sarsıntılar sanki baş verməmişdi. İncinin balaca, xudmani evi, oradakı qəribə səliqə-sahman, qəlbə işləyən rahatlıq, sevdiyi, uzun illər boyu unuda bilmədiyi qadının üzünün doğma cizgiləri elə hey gözünün qarşısında canlanır, maqnit kimi onu cəzb edirdi. Başqa heç nə barədə düşünə bilmirdi. Ayaqları onu həmin sehrli ünvana – İncinin evinə çəkib aparırdı. "Yox, bu dəfə mən ürəyimin hökmü ilə hərəkət edəcəyəm. Nə desə də, nə etsə də, ona qulaq asmayacağam. Biz evlənməliyik, mən Lalədən boşanmalıyam. İncinin razılığını alan kimi, gedib ərizə yazacağam, zaksın müdiri dostum İlqardır. Xahiş edəcəyəm, bizi tez ayırsın".

O, dünənki ünvana nə vaxt çatdığını bilmədi. Qapıdan qıfıl asıldığını görəndə narahat oldu. İncidən dünən telefon nömrəsini almadığını yalnız indi xatırladı. Küçədə bir xeyli vargəl edəndən sonra buradan uzaqlaşdı. Şəhərdə dolaşıb yenidən həmin məhəlləyə qayıdan Sahil, ürəyinə dolan həyəcanı heç cür özündən uzaqlaşdıra bilmədi. Qanadları qırılmış kimi ümidsizcəsinə evə qayıtdı.

***

Bir ay ərzində Sahil dəfələrlə eyni yolu gedib-gəldi. Hər dəfə də qapıdakı qıfılı görüb peşman halda geri döndü. Sonuncu dəfə oradan aralananda qonşu həyətin qapısı açıldı və oradan yaşlı bir qadın çıxdı. Bu, Səlimə xala idi. O, Sahilin qəm dolu gözlərinə baxıb canıyananlıqla dedi:

– Oğlum, görürəm, İnci üçün narahatsan. O, rayona gedib. İnanmıram belə tez qayıda.

– Niyə gedib, sizə bir şey deməyib? – Sahil dodaqlarının səyridiyini hiss etdi.

– Niyə getdiyini demədi. Amma halı heç xoşuma gəlmədi. Mən onu heç belə görməmişdim. Qonşularla bircə-bircə sağollaşdı, dedi ki, havasını dəyişmək istəyir.

Sahilin həyəcan içində olduğunu, rənginin avazıdığını görən Səlimə xala yenə nəsə demək istədi, amma nə fikirləşdisə, susdu. Onunla sağollaşıb qapını örtdü.

Yenicə məhəllədən çıxmaq istəyirdi ki, arxasınca qadının səsini eşidib geri döndü:

– İnci xanım naxoşdur, bərk naxoşdur...

Sahil sarsılıb heç nə deyə bilmədi. Həmin gecə o, səhəri dirigözlü açdı. Sübh tezdən Laləni oyadıb vacib iş dalınca rayona getməli olduğunu deyərək, evdən çıxdı. Dünəndən sifariş verdiyi taksi onu gözləyirdi. Rayonda İncini tapmaq çətin olmayacaqdı. Bilirdi ki, o, bir vaxtlar oxuduğu 1 saylı məktəbdə işləyib. İncinin söhbətlərindən evinin məktəbin arxasındakı küçədə olduğu yadında qalmışdı. Taksi sürücüsünə ünvanı da belə vermişdi.

Taksi Sahili deyilən ünvana çatdıranda səhər saat 9-un yarısı idi. O, küçədə top-top oynayan iki qız uşağına yaxınlaşıb soruşdu:

– İncinin evi hardadır, bilmirsiz?

– Odey, o boz qapılı evdir, – deyə yaşca böyük qız dilləndi.

Sahil həyatı boyu heç zaman belə həyəcan keçirməmişdi. Qarşıdakı görüşün təsirindən ayaqları əsirdi. Evə yaxınlaşıb zəngi çaldı, amma səs çıxmadı, deyəsən işləmirdi. Qapını ehmallıca açıb həyətə keçdi. İkimərtəbəli evin ikinci mərtəbəsinə aparan pilləkənlə yuxarı qalxdı. Şüşəbənd eyvanda kimsə görünmürdü. Güclə eşidiləcək səslə çağırdı:

– İnci!

Onun səsini deyəsən özündən başqa heç kəs eşitmədi. Eyvana açılan üç qapıdan birinin yarıörtülü olduğunu görüb, ona sarı getdi. Qapını tıqqıldadanda içəridən zəif səs gəldi:

– Kimdir? Gəl içəri!

Səs İnciyə məxsus idi. Sahil içəri girəndə gördüyü mənzərədən elə sarsıldı ki, əlindəki çanta yerə düşdü. Dərman qoxulu otaqdakı çarpayıda uzanmış İncinin üzünün rəngi üstünə örtdüyü ağ mələfənin rəngindən əsla seçilmirdi. Bir ay əvvəl gördüyü İncidən əsər-əlamət qalmamışdı. Onun arıqlayıb tanınmaz hala düşmüş üzündə yalnız iri qara gözləri və uzun kirpikləri əvvəlki idi.

Sahil göz yaşlarını saxlaya bilmədi. Çarpayıya yaxınlaşıb İncinin üzünü öpüşlərə qərq etdi.

– Sənə nə olub, İnci? Niyə xəstələnmisən? Böyrək vermək sənə düşmədi, eləmi? Niyə belə elədin? Mənə yazığın gəlmədimi?

İnci kədərli təbəssümlə onun üzünə baxıb:

– Xoş gördük, Sahil, – dedi. Sonra isə əlavə etdi: – Sənin evimizə gəlişini uzun illər arzulamışam. Nəhayət, gəlib çıxdın. Axır ki, tapdın buranı.

Bu sözlərin müqabilində nə isə deməyə Sahilin iqtidarı çatmadı. Əlini uzadıb stulu özünə sarı çəkmək istəyəndə, gözü stolun üstündəki epikrizə sataşdı. "Beyin şişi", "metostaz" sözləri onu dəhşətə gətirdi.

– Ola bilməz! İnanmıram! Həkimlər yanılıblar. Dünyasında ola bilməz! – deyə var gücü ilə bağırdı. Əli ilə divarı necə vurdusa, ağrıdan inildədi.

İnci çarpayısının içində dikəlib balışına söykəndi:

– Sakit ol, Sahil. Reallıqla barışmamağa haqqımız yoxdur. Mən çoxdan xəstəyəm, lap çoxdan. Uzun illərdir baş ağrısından əziyyət çəkirəm.

– Bəs sənə kim baxır? Yeməyini, içməyini kim verir? – Sahil narahatlıqla soruşdu.

– Burda hamı qayğıma qalır... – İnci sakitcə cavab verdi.

– Belə xəstə ola-ola niyə həyatını təhlükəyə atdın? Böyrək əməliyyatına girməsəydin, yəqin ki, bu hala düşməzdin.

– Əksinə, səni xilas edə bilməyim mənim ömrümü uzatdı. Bilsən buna nə qədər sevinirəm. Bir də ki, xəstəlik mənim beynimdədir, böyrəklərim isə sap-sağlamdır.

Sahil xəstəliklə tək-tənha mübarizə aparan İnciyə baxır, nə edəcəyini bilmirdi. Onun ağrılarını azaltmaq, ömrünü uzatmaq üçün hər şey etməyə razı idi. İndi ona desəydilər ki, İncini xilas etməkdən ötrü canı gərəkdir, düşünmədən verərdi.

Sahilin pəjmürdə halını, keçirdiyi gərginliyi görüb bundan mütəəssir olan İnci onu sakitləşdirməyə çalışdı:

– Təzəcə xəstəxanadan çıxmısan. Özünə bu qədər əzab vermə. Allah hər kəsə öz taleyini verib. Mənim qismətimə də belə ömür düşüb. Yaxşısı budur, sakitləş, yol gəlmisən, gedib mətbəxdə çay qoy, bir yerdə içək.

Bu sözlər Sahili özünə qaytardı. Yataqdakı xəstəyə yemək-içmək lazım olduğu yadına düşdü. Bir azdan o, mətbəxdə çay dəmlədi, onu stəkanlara süzüb gətirdi.

Çay dəsgahından sonra Sahil Bakıdakı həkim dostları ilə zəngləşməyə başladı. İncinin epikrizini onlara oxuyub ağrılarını necə yüngülləşdirmək, xəstəliyini necə müalicə etmək lazım olduğunu xəbər aldı. Həkimlərdən bir neçəsinin rəyi üst-üstə düşdü. Xəstə mütləq dəniz sahilində dincəlməlidir. Yaxın dostu, beyin institutunun aparıcı həkimi olan Mahmud isə İncini müayinə üçün təcili Bakıya gətirmək lazım olduğunu dedi.

Ertəsi gün taksi ilə Bakıya yola düşdülər. Beyin mərkəzində iki gün çəkən müayinələrdən sonra Mahmud dostunu ağır düşüncələrdən ayırıb dedi:

– Sahil, xəstəni ancaq möcüzə xilas edə bilər. Onu dəniz sahilində sakit bir yerə apar. Allahın işlərini bilmək olmaz, bir də gördün sağaldı. Ümidini üzmə.

Bu sözlər Sahilə qətiyyət verdi. O, son ümidinin ünvanına yollandı. Bilgəhdə, dəniz kənarında kirayəyə verilən xudmani bir ev tapıb İnci ilə təcili oraya köçdü. Bu, bir otaqdan və bir açıq eyvandan ibarət birmərtəbəli ev idi. Təmirsiz olsa da, yaşamaq üçün burada hər cür şərait var idi. Telefonla Laləyə bir neçə həftəliyə məzuniyyətə getdiyini bildirdi, ondan ötrü narahat olmamağı tapşırdı. İnstitutdan isə öz hesabına bir aylıq məzuniyyət götürdü.

Onların bağa köçdüyü gün dəniz elə sakit, hava elə mülayim idi ki, sentyabr günəşinin ilıq şüalarının xoş tumarını üzündə hiss edən İnci pəncərənin qabağında oturduğu kreslodan qalxıb asta addımlarla eyvana çıxdı. Məhəccərə söykənib dənizin sularında oynaşan günəş şüalarına həsrətlə tamaşa etdi. Həyətdə samovarla əlləşən Sahil bunu görəndə sevincindən gözləri yaşardı. Son günlər ərzində ilk dəfə idi ki, İnci onun köməyi olmadan, təkbaşına hərəkət edirdi. O, bunu gördüyünü İncidən gizlətmək üçün özünü məşğul kimi göstərdi.

Bir azdan İncinin sevinc dolu səsi eşidildi:

– Sahil, ürəyim əncir istəyir. Nə olar, mənimçün əncir dər.

Eyvanın qarşısındakı əncir ağacının üstündəki sapsarı meyvələri Sahil yalnız indi gördü. Tez bir boşqab meyvə dərib yudu, sonra İncinin qabağına qoydu. Onun ləzzətlə bir neçə əncir yediyini görəndə "İlahi, sənə şükür!" – deyə pıçıldadı. İncinin üzünə uzaq gənclik illərindəki o tanış, doğma ifadə qonanda uşaq kimi sevinib, onu qolları üstə qaldırıb fırlandı. Bu gözlənilməz hərəkətdən başı hərlənən İnci əlləri ilə onun boynundan bərk-bərk yapışdı.

Bir azdan Sahil qaynatdığı samovarı aynabəndə qaldırdı. İncinin çiyinlərini yun adyalla örtüb, qabağına çay qoydu.

Sonra süfrəyə bişmiş kartof, pendir, yağ gətirdi. İncinin bütöv bir kartofu iştahla yediyini görəndə ağlamamaqdan ötrü özünü zorla ələ aldı. Onlar qaranlıq düşənə kimi söhbət etdilər.

Sahil otaqdakı yeganə çarpayıda İnciyə yer düzəltmişdi. Özünə onun yanında, döşəmədə yer saldı. Bunun üçün içindəki pambığı didik-didik olmuş köhnə döşəyin üstünə şkafdan tapdığı yun adyalları sərib mələfə ilə örtdü.

İşığı keçirdi. Hərə öz yerində uzandı. Sahilin başını yastığa qoyması ilə yuxuya getməsi bir oldu. Bir azdan otağa onun xorultusu yayıldı. Səhərdən ayaq üstə olan, özünü ondan ötrü oda-közə vuran Sahilin saqqal basmış arıq üzünə ay işığında tamaşa edən İnci qəlbinin bütün incə telləri ilə bağlı olduğu bu adamın ona niyə bu qədər doğma, bu qədər əziz olması barədə düşünürdü.

Ondan bir addımlıq məsafədəki bu insanın həsrəti ilə keçirdiyi uzun illərin ağrı-acısının əzablı tamını yenidən hiss edirdi. Taleyin amansızlığına acığı tuturdu. İndi əlini uzatsa çatacaq qədər yaxında olan Sahil yazığı gəldiyindənmi, yoxsa halına acıdığındanmı onun hər nazına dözürdü. Bu, sevgi deyildi, sədəqə idi. Yaşa dolmuş, arıqlayıb tanınmaz hala düşmüş İncini sevməkmi olar?

Üstündəki adyalı sürüşüb yerə düşmüş Sahilin çılpaq kürəkləri, tüklü sinəsi, dən düşmüş qıvrım saçları onun ürəyini həyəcanla doldurdu: "Mən bu dünyadan nakam köçməyə məhkumam. Sevginin nə demək olduğunu bilmədən həyatdan gedəcəyəm".

Bu fikir onu iliklərinə kimi üşütdü. Bir an dəli bir istək beynini dumanlandırdı. Könlündən Sahilin qoynuna girmək, onun bədəninin hərarəti ilə isinmək həvəsi keçdi. Lakin bu, bircə an çəkdi. Xəstəlikdən tanınmaz hala düşdüyü, eybəcərləşdiyi yenidən yadına düşdü. Buna bir daha əmin olmaqdan ötrü yerindən qalxıb, yıxılmamaq üçün divardan tuta-tuta

vanna otağındakı güzgünün qabağına keçdi. Oradan gözləri çuxura düşmüş, ovurdları batmış, bir dəri, bir sümük olan birinin baxdığını görəndə sinəsini dağıdan hönkürtünü güc-bəla ilə boğub, özünü yatağına çatdırdı.

***

Sentyabr sona çatıb, yerini oktyabra versə də, xoşbəxtlikdən havalar xoş keçirdi. Uşaq kimi İncinin qayğısına qalan, dava-dərmanını vaxtında içdirən Sahil səhərdən axşama kimi vurnuxurdu. Onun yemək bişirməsi, otağın döşəməsini silməsi, paltar yuması İnciyə əzab verir, bu qayğıkeşliyi, hədsiz fədakarlığı görüb mütəəssir olurdu.

Sahilə yük olmasından xəcalət çəkdiyinə görə tez-tez özünü məcbur edib yatağından qalxır, taqətsizliyinə qalib gələrək, evdənəisəbirişgörməyəçalışırdı.Bunugörəndə Sahilsevincini gizlədə bilmirdi. Bağa köçəndən İncinin halının hər gün bir az yaxşılaşdığını, rəng-rufunun tədricən yerinə qayıtdığını görən o, ürəyində Allahın bu iltifatına şükür edirdi. İndi əhvalruhiyyəsi bütünlüklə İncinin özünü necə hiss etməsindən asılı idi. Ağrıyırdısa, Sahil özünə yer tapa bilmirdi. Özünü yaxşı hiss edəndə onun bütün varlığından xoşbəxtlik yayılırdı.

Cəmi iki dəfə evdən çıxmışdı. Aptekdən dərman, mağazadan ərzaq alıb tez də geri qayıtmışdı. Çörək, tərəvəz və qatıq satanlar hər gün məhəlləyə gəlirdilər, bu da onun işini xeyli asanlaşdırırdı.

Bir dəfə mağazaya gedib qayıdan Sahil İncinin yatıb qaldığına təəccübləndi. Adətən ayıq yatan, hər xışıltıdan oyanan İnci həmin gün saat 9 olmasına baxmayaraq, hələ də oyanmamışdı. Bunu görəndə Sahil təşvişə düşdü. Əlindəki çantanı mətbəx stolunun üstünə qoyub, yerdə, yatağının kənarında oturdu. İncinin aram-aram nəfəs aldığını görəndə sakitləşdi. Tək-tük dən düşmüş xurmayı saçları balışın üstünə dağılmış

İnci ona gənclik çağını xatırlatdı. Qaranquş qanadına bənzəyən, əl dəyilməmiş qaşları, uzun kirpikləri, kiçik burnu, yarıaçıq dodaqları elə gözəl idi ki, onlara etinasız qalmaq mümkün deyildi. İncinin yataqdan sallanan əlini ovucları arasına alıb nəvazişlə öpdü. Bu təmasdan oyanan İncinin gözlərində uzun illər əvvəlin o doğma ifadəsini görəndə kövrəldi.

– Sənə bu yaxşılıqlarının əvəzini necə qaytaracağam? – İnci mehribancasına soruşdu.

– Əvəz barədə düşünürsən? Onda sağal, nə olar, tez sağal.

Bu sözləri Sahil az qala yalvarışla dedi. Elə dedi ki, onun səmimiyyətinə inanmamaq çətin idi. Bu sözlər İnciyə güc verdi, son aylar ərzində ilk dəfə başında ağrı hiss etmədi. Daim gözləri qarşısında olan duman çəkilib getmişdi. Beynində qəribə bir aydınlıq var idi.

Onun halındakı bu dəyişiklik Sahilin nəzərindən qaçmadı. Həkim dostu Mahmudun "Xəstəni ancaq möcüzə xilas edə bilər" sözləri yadına düşdü. İncinin gümrah halda yatağını düzəldib, vanna otağına keçdiyini görəndə "Yəqin möcüzə baş verib", – deyə sevinclə düşündü.

***

Eyvandakı stolun arxasında bərabər oturub səhər yeməyi yeyən Sahillə İnci elə hey nədənsə danışır, köhnə xatirələri yada salır, hər kiçik şeydən uğunub gedirdilər.

– Həyətdə manqal var, sənə kabab bişirəcəyəm. İndi gedib bazardan quzu əti alacağam. – Sahil bu sözləri deyəndə İnci təəccübləndi:

– Hardan bildin ki, ürəyimdən kabab keçir?

– Sənin lə ürək qonşusu deyilik? – Sahil zarafatla cavab verdi.

Kabab hazırlığı Sahilin bir neçə saat vaxtını aldı. Kənd bazarından alıb gətirdiyi əti doğrayıb basdırma edəndən sonra

köhnə manqalı darta-darta eyvanın qabağına gətirdi. Şişləri yaş əski ilə sildi, badımcan, pomidor yudu, soğan doğradı. Bu işləri elə sevinclə görürdü ki, sanki bütün həyatı onlardan asılı idi. Arabir gözünün ucu ilə eyvanda oturmuş İnciyə də nəzər yetirirdi. Onun oxuduğu kitabın üstünə vərəq qoyub nə isə yazdığını görəndə ürəyində ümid işığı közərdi. İlk dəfə idi ki, onun əlinə qələm aldığını görürdü.

Kabab hazır olanda saat 4-ün yarısı idi. Sahilin bu işdə səriştəsi özünü göstərdi. İnci yağ daman bişmiş tikələri ləzzətlə yedikcə, Sahil qanad açıb uçmaq istəyirdi.

Sonra o, bankomatdan pul çıxarmaq üçün şəhərə yollandı, bir də qaranlıq düşəndə qayıtdı. İçəri girəndə evdə qadın əlinin gəzdiyini o saat hiss elədi. Stolun üstündə stəkanda üç qızılgül var idi, onları İnci həyətdən dərmişdi. Döşəmə yuyulmuş, çarpayı səliqə ilə yığışdırılmışdı. Təzə dəmlənmiş kəklikotu çayının xoş ətri otağı bürümüşdü.

Onun içəri girməsi ilə hamamın qapısının açılıb İncinin oradan çıxması bir oldu. Çimib yanaqları qızarmış İncinin uzun saçları çiyinlərinə tökülmüşdü. Əynindəki qısaqol, dizdən aşağı, güllü çit don zərif bədənini kip tutmuşdu. Donu o saat tanıdı. Tanımaya bilməzdi. Beşinci kursda oxuduqları vaxt Sahil evdə xəstə yatanda İnci onun yanına həmin donda gəlmişdi. Qarşısındakı sanki həmin İnci idi: gənc, zərif, gözəl İnci.

Onu görəndə İnci gülümsündü və ağappaq dişləri göründü. İlahi, bu gülüş üçün Sahil necə darıxmışdı!

– Paltarı tanıdın? – İnci gülə-gülə soruşdu. Cavab gözləmədən gəlib onun qabağında fırlandı. – Bu donu çox sevirəm. Bilsən onu necə əzizləyib saxlamışam. Heç bilmədim onu niyə özümlə götürdüm. Rayonda pal-paltarımı yığışdıranda elə bil əlimə yapışdı. İnana bilməzdim ki, əynimə olar. Arıqlamağımın bir şeyə olsa da xeyri dəydi.

İnci nə isə deyir, amma Sahil cavab verməyib heyranlıqla

onu süzür, deməyə söz tapmırdı. Bu don onu 25 il əvvələ qaytarmışdı. Qarşısındakı tələbəlik illərinin unudulmaz xatirələri ilə bağlı olduğu, xəyallarında rişə salmış, ürəyinin ən dərin guşəsində özünə əbədi yer eləmiş İnci idi. Ömründə heç kəsi belə sevməmişdi. Lalə ilə münasibətlərinin, Zümrüdlə bağlılığının, eləcə də başqa ötəri sevgilərinin heç biri ruhunu onun kimi tərpətməmişdi. Yalnız İnci onu belə həyəcanlandıra, hisslərini təlatümə gətirə bilərdi. O, iradəsini toplamaq, hisslərini cilovlamaq istədi, lakin gücü çatmadı. İncinin belindən yapışıb gözlərinin içinə baxdı:

– Mən heç vaxt, heç kəsi sənin qədər sevməmişəm. Məni həyatda heç kəs sənin qədər xoşbəxt edə bilməz.

– Məni də!

Sahil İncinin sözlərini eşidəndə qulaqlarına inanmadı.

– Nə dedin? Bir də təkrar elə.

– Sən mənim hər şeyimsən, Sahil. – İnci bu sözləri pıçıltı ilə onun qulağına dedi.

Ay işığı pəncərədən otağa süzülərək, bu iki canlı sarmaşığın üzünü işıqlandırırdı...

ETİRAF

Nəzrin son vaxtlar baş vermiş hadisələrin təsirindən hələ də özünə gəlməmişdi. Onun həyatını dəyişmiş, ümidlərini alt-üst etmiş həmin gün İnci xanımgildən çıxıb evinə gələndə çantasından telefonunu çıxarmaq istəyən Nəzrin orada ağ vərəqə bükülmüş pul və üstündə yazı olan kağız parçası görmüşdü. İncinin xətti idi: "Nəzrin, iki həftə əvvəl mənə kitabın satış pulunu ödədilər. Xərclədiyin 1500 manatı sənə qaytarıram. Əlbəttə, çəkdiyin zəhmətin müqabilində bu, cüzi puldur. Amma bilirəm ki, qalanını götürməyəcəksən. Qalan pula mən sağalanda bir yerdə gedib Nigara telefon alarıq.

Çoxdan onun arzusundadır. Pul şkafda, dəftərin arasındadır".

"Pulu nə vaxt qoydu?" – Nəzrin təəccüblənşmiş və yadına düşmüşdü ki, o, mətbəxə keçəndə çantasını İnci xanımın yanındakı stulun üstünə qoymuşdu. Bu, atası gəlməzdən əvvəl baş vermişdi.

Qəribə bir biganəliklə pulu divanın üstünə atıb mızıldanmışdı: "Telefonu özünüz alarsız".

Əlində inciçiçəkləri ilə dolu zənbil olan atasını İnci xanımın evində gördüyü an keçirdiyi sarsıntı, üstündən bir neçə gün ötməsinə baxmayaraq, hələ də onu tərk etməmişdi. Atasını görəndə İnci xanımın ağappaq ağarması yadından çıxmırdı. Qızı ilə burada qarşılaşacağını ağlına gətirməyən atasının özünü itirməsini, həyəcan dolu baxışlarla qadını süzməsini də tez-tez xatırlayır, bütün bu baş verənlərdə alçaldıcı nələrsə görür, bunları həzm edə bilmirdi.

İnci xanımın böyrəyini könüllü olaraq atasına bağışlamasını o, xəyanət kimi başa düşür, bunu bağışlaya bilmirdi. Həmin gündən daim anasını gözləri önündə canlandırır, bu hərəkəti ona qarşı düşünülmüş qəsd kimi qəbul edirdi. Evlərində şahidi olduğu dava-dalaş səhnələri təkrar-təkrar gözləri önündə canlanır, onların hamısının baiskarının İnci olduğu fikrinə gəlirdi. Anasına yazığı gəlirdi. İllər boyu ərindən az ağrı-acı çəkibmiş kimi, üstəlik övladı da onu tərk etmiş, dərdləri ilə təkbaşına qoyub özünə sakit yuva qurmuşdu. Bütün bunları götür-qoy etdikcə, Nəzrinin özünə acığı tuturdu. Amma, nədənsə, anasına zəng etməyə, evə gedib ona ürək-dirək verməyə cəsarət eləmirdi.

Anasına acılar yaşatdığına görə atasına olan qəzəbi də keçib getmirdi. Təkcə buna görəmi? Əslində onun uşaqlığını əlindən aldığına, qəribə soyuqluğu ilə yeganə övladını özündən uzaqlaşdırdığına görə ona olan acığı soyumamışdı. Onun İnci xanıma dikilmiş həyəcan dolu baxışları yadına düşəndə

hirsindən bilmirdi neyləsin. Bu qadınla atasını dərin hisslərin birləşdirdiyini düşünmək istəməsə də, bunun belə olduğu ona gün kimi aydın idi. Ömründə heç zaman atasının o cür baxdığını görməmişdi. "Yaxşı ki, anamın bunlardan xəbəri yoxdur, bilsə, ürəyi dözməz", – deyə öz-özü ilə danışırdı.

Qarşıdan şənbə və bazar günlərinin gəlməsi Nəzrini sevindirdi. İki gün evdən çıxmadan, özünə qapanaraq dərin düşüncələrə daldı. Bazar günü axşam qeyri-ixtiyari əli masanın üstündəki "Sahilsiz dəniz" kitabına uzandı. Onu götürüb ilk rastına çıxan şeiri oxumağa başladı:

Mən belə olmazdım, sən olmasaydın,
Halıma, günümə yazığım gəlir.
Səni dəli kimi sevdiyim üçün
Özümdən özümün acığım gəlir.

Neçə aydan bəri dəfələrlə oxuduğu, az qala əzbərdən bildiyi bu sətirlər ilk dəfə idi ki, onu belə dərindən təsirləndirirdi. Şeiri həyatında böyük sevgi yaşamış bir insanın yazdığı şəksiz idi. Nədənsə onların müəllifinə ilk dəfə ürəyi yandı. Sonra Nəzrin digər şeirlərə keçdi:

Çıx qarşıma, çıx, əzizim,
Uzat mənə qollarını.
Yollarımız ayrılandan
Gözləyirəm yollarını.

Oxuduğu hər sətir, hər söz ürəyini sızıldatdı. Belə misralar ötəri hisslərdən yarana bilməzdi. Onların dərin duyğulardan rişələndiyi aydın idi.

Birdən İnci xanımın tənhalığının əsas səbəbinin atası olduğunu bütün çılpaqlığı ilə hiss etdi, qadına ürəyi yandı. Sonra isə özünün xudpəsəndliyindən utandı. İnci xanımın onu evinə gətirdiyi, qayğısına qaldığı gün yadına düşdü. Böyük

şəhərdə onu itməkdən, yox olmaqdan xilas etmiş bu adamdan niyə üz döndərdiyini anlaya bilmədi. Yaxşılıq edib atasını sözün əsl mənasında ölümün pəncəsindən, üstəlik də böyük xərclərdən xilas etmiş bu qadına minnətdar olmaq əvəzinə ondan inciməsi birdən özünə qəribə göründü. İlk dəfə İncinin şeirlərini oxuyanda oradakı hisslərin dərinliyinə, onların gözəlliyinə heyran olan o deyildimi? Şeirləri oxuduqca gözlərindən gildir-gildir yaş axıtmamışdımı? Günlərlə onların təsiri altında olmamışdımı? Bu şeirlər onu İnci xanıma daha da möhkəm bağlamamışdımı? Ürəyində dərin duyğular yaşayan bu qadına həsəd aparmamışdımı? Bəs indi ona niyə nifrət edirdi? Yalnız atasına görəmi?

Tək-tənha yaşayan İnci xanıma sirr dumanına bürünmüş həyatı haqqında dəfələrlə sual verməsinə baxmayaraq, onun adəti üzrə gülümsəyərək, söhbətdən yayınmasını xatırladı. Sonra isə divanda yorğan-döşəkdə uzanmış İnci xanımın solğun sifəti yadına düşdü. İlk dəfə ağlına gəldi ki, o, cərrahi əməliyyatdan sonra hələ özünə gəlməyib, qayğıya ehtiyacı var. Narahatlıq hissi ürəyini bürüdü: "Görəsən evdə tək neynir? Ağrıları keçibmi? Bəlkə əməliyyat ona düşməyib? Necə də daş qəlbli adamam. Mənə bu qədər yaxşılıqlar etmiş bir insanın ürəyini qırmışam. Çətin ki, İnci xanım məni bağışlasın".

Nəzrinə elə gəldi ki, havası çatışmır. Bayaqdan qaranlıq otaqda oturduğunu anlayıb işığı yandırdı. Amma ona əzab verən xəcalət hissinin doğurduğu bədbin əhval-ruhiyyə heç cür keçib getmirdi. Saata fikir verməyib, evdən çıxıb hava almaqdan ötrü yaxınlıqdakı bağa yollandı.

O, hər gün işə məhəllələrindəki çoxmərtəbəli binaların arasında salınmış bu bağdan keçib gedirdi. Pəncərəsinin qabağında olmasına baxmayaraq, iki il ərzində hələ bir dəfə də olsun burada dincəlməmişdi.

Ətrafdakı gözəllik ilk dəfə diqqətini cəlb etdi. Burada növbənöv bəzək ağacları xüsusi zövqlə əkilmişdi. Onların dibində ağ və göy rəngli zanbaqlar kopa-kopa açmışdı. Payızın nəfəsi toxunmuş ağacların sarıya çalan yarpaqlarının gözəlliyi göz oxşayırdı.

– Axşamınız xeyir.

Tanış səs eşidib başını qaldıranda yaşadığı evlə üzbəüz binada yaşayan qonşusu, xəstəxanada tanış olduğu ucaboy, yaraşıqlı həkimin, Cavidin gülə-gülə ona yaxınlaşdığını gördü.

– Necəsiz, Nəzrin xanım? Özünüzü necə hiss edirsiz? – deyə o, mehribanlıqla soruşdu.

– Təşəkkür edirəm, doktor, – deyə Nəzrin ona təbəssümlə cavab verdi.

– Sizdən nə əcəb, Nəzrin xanım? Bu bağda gəzdiyinizi birinci dəfədir görürəm. Gün hayandan çıxıb?

– Siz deyəsən bura tez-tez gəlirsiz, – Nəzrin maraqlandı.

– Hər gün. Hər dəfə də sizin pəncərələrinizə baxıram. Heç eyvana da çıxmırsız, – Cavid bu sözləri elə dedi ki, onun səsindəki giley özü də bilmədən Nəzrinin bir az əvvəlki kədərini dağıtdı. Oğlanın səmimi danışıq tərzi, mehriban təbəssümü onun əhvalını dəyişdirdi. Bayaqkı bədbinliyini bu vaxta qədər ona tanış olmayan xoş bir duyğu əvəz elədi.

– Doğrudan? Heç bilmirdim, – deyə o, gülə-gülə cavab verdi.

– Bura köçdüyünüz gündən uzaqdan-uzağa sizi izləyirəm, – deyə Cavid etiraf etdi. Bu sözləri elə tərzdə dedi ki, Nəzrin ona inanmaya bilmədi.

Bir azdan onlar özləri də hiss etmədən “siz”dən “sən”ə keçdilər.

– Niyə tək yaşayırsan, Nəzrin?

Birbaşa verilmiş bu sual nədənsə qızı özündən çıxarmadı. Adətən iş yoldaşları, tanışları ona həmin sualı verəndə

özündən asılı olmayaraq hirslənər, cavabdan yayınardı. Lakin bu dəfə belə olmadı, əksinə, həmin sualın verilməsinə sevindi.

– Cavid, quş balalarına fikir vermisənmi? Onlar bir az böyüyən kimi, öz yuvalarına sığmırlar. İnsanlar da elədir. Öz balaca, dar yuvalarından uçub genişliyə, azadlığa can atırlar. Mən də istisna deyiləm, – bu sözləri Nəzrin elə şən səslə, elə qayğısızcasına dedi ki, onun əhval-ruhiyyəsi müsahibinə də sirayət etdi. Cavab Cavidi qane etdiyindən, daha bu barədə ondan heç nə soruşmadı. Bu dəfə Nəzrin ona sual verdi:

– Bəs sən niyə təksən?

– Nə bildin ki, təkəm? – Cavid sanki onu imtahana çəkirdi. O, Nəzrinin tutulduğunu görəndə onu çətin vəziyyətdən qurtarmaq qərarına gəldi. – Deməli, mənə qarşı biganə deyilsən. Yoxsa nə bilirdin ki, mən tək yaşayıram? Sənin diqqətini cəlb etmək üçün o qədər çalışmışam ki... Eyvana çıxıb-girməkdən yorulmuşam.

– Bilirəm, – deyə Nəzrin güldü və Cavidin ona heyranlıqla baxdığını görüb ürəyində qəribə bir həyəcanın baş qaldırdığını hiss etdi. İlk dəfə idi ki, belə hala düşürdü.

Aralarında asanlıqla yaranmış səmimi ünsiyyətə hər ikisi şad idi. Uzun illərin dostları kimi söhbət edirdilər. Heç biri evə getmək istəmirdi. Nəzrin son günlərin ağırlığının keçdiyinə, beynindəki acı fikirlərin buxarlanıb uçduğuna ürəyində sevinirdi. Əslində, bu evə köçdüyü gündən bu oğlan aybaay, həftəbəhəftə, günbəgün, saatbasaat hiss olunmadan onun həyatına daxil olmuşdu. Ürəyində etiraf etməsə də, Cavid çoxdan onun diqqətini cəlb etmişdi.

Pəncərəsi pəncərəsinə, eyvanı eyvanına baxan bu gəncin yaşıdlarından fərqli həyat tərzi keçirdiyini o, uzaqdan-uzağa hiss edirdi. Nəzrin kimi o da gec yatırdı. Yaşadığı binada gecələr işiqlar ən gec onun pəncərəsində sönürdü. Evi qonaqlı-qaralı deyildi. Nəzrin onun eyvanda idmanla məşğul

olmasına gözünün ucu ilə baxmağa adət etmişdi. Bu yaraşıqlı gəncin onunla tanışlığa sevinməsi Nəzrindən ötrü gözlənilməz idi. Ürəyində qəribə bir sevincin doğulduğunu hiss edirdi.

Nəhayət, bayaqkı sualını təkrar etdi:

– Mənə demədin axı, niyə təksən?

– Valideynlərim iki kiçik qardaşımla Cilov adasında yaşayırlar. Oradan işə gedib-gəlmək mənimçün çətin olduğuna görə bu evi almışıq. İkiotaqlıdır, – deyə o, cavab verdi.

– Mənsə kirayədə qalıram, mənzilim birotaqlıdır, – Bu sözləri Nəzrin qayğısızcasına dedi və ilk dəfə kirayədə yaşamağın məmnunluğunu duydu. Cavidi onun cavabı qane etdi və bu, qızın əhvalını bir az da açdı.

Heç biri saata baxmırdı. Onlar boşalmış bağda gəzişir, vaxtın uzanmasını arzulayırdılar.

Bağdakı saat 11 dəfə bərkdən çalınanda onlar evə getmək lazım olduğunu anladılar.

Cavid Nəzrini düz evinin qapısına qədər ötürdü. Ayrılanda:

– Yəqin ki, bir gün məni qonaq çağırarsan, – deyib, gülə-gülə onunla sağollaşdı.

Evə girən Nəzrin dərhal dəhlizdən asılmış güzgünün qarşısına keçdi. Ənlik, kirşan bilməyən üzünün cizgilərinə diqqətlə göz yetirdi. Yığıb boynunun arxasında sancaqladığı qıvrım saçlarını açıb çiyinlərinə tökdü. “Heç də kifir de-yiləmmiş” – deyə güzgüdəki əksinə gülümsündü. “Sabah gedib ətir, dodaq boyası alacağam. Belə olmaz, gərək özümə fikir verim”, – deyə düşündü. Çarpayısına uzanan kimi gözləri yumuldu, rahat və dərin yuxuya getdi.

TUFANDAN SONRA

Sahillə İncinin xoşbəxtliyi düz bir həftə çəkdi. Bu bir həftə ərzində nə etdikləri, nə yedikləri, haçan yatıb, nə zaman durduqları yadlarına düşmədi. Onlar ilk dəfə sevginin dadını hiss edən yeniyetmələr kimi bir-birindən aralana bilmir, sanki uzun illərin həsrətli ayrılığını, dözülməz ağrı-acısını canlarından çıxarmaq istəyirdilər. Sahil telefonunu söndürmüşdü ki, kimsə onu narahat etməsin. Bununla böyük qəbahətə yol verdiyini, hərəkətinin yaşına və vəzifəsinə yaraşmadığını bilsə də, ailə dəyərlərini ayaqladığını dərk etsə də, daxilindən gələn bir hiss onu belə şeylərə əhəmiyyət verməməyə çağırırdı.

Gecikmiş səadət özləri də bilmədən onları cavanlaşdırmışdı. Həyatın əsl mənasının qəlbdən gələn məhəbbətdən ibarət olduğunu öz talelərində yaşamış, onun ağrı-acılarını doyunca dadmış bu iki insan üçün bir yerdə olmaqdan böyük xoşbəxtlik yox idi. Gənclik illərində olduğu kimi şeirləşir, zarafatlaşır, hər boş şeydən qəhqəhə çəkib gülürdülər. Ağıllarına gəlmirdi ki, dünyanı unudub özləri üçün ayrıca bir dünya qurublar. Söz-söhbətdən, tənə-qınaqdan uzaq, səssiz, rahat və zəngin dünya.

Susamış adam səhrada bulaq tapanda necə sevinirsə, uzun illərin həsrətli ayrılığından sonra bir-birinə qovuşmuş bu iki si də ürəklərinin təşnəsini soyudur, taleyin bu qəribə iltifatı qarşısında deməyə söz tapmırdılar. 25 illik ayrılıqdan sonra bir-birinə yenidən qovuşmuş Sahillə İnci keçmişlə gələcəyin yol ayrıcında dayandıqlarından xəbərsiz halda qəmli ürəklərində baş qaldıran sevinc közərtilərinin kövrək istisinə qızınırdılar.

Bir həftə dənizdə tufan səngimədi. Nəhəng dalğalar sahilə çırpılaraq vahiməli səslər çıxarır, ürəkləri qorxu ilə

doldururdu. Hava qəfil soyuduğundan onlar evdən demək olar ki, bayıra çıxmırdılar. Oktyabrın ortalarından bağ evləri boşalmağa başlamış, yaşadıqları məhəlləyə qəribə bir sakitlik çökmüşdü. Lakin onlardan ötrü bütün bunların heç bir əhəmiyyəti yox idi.

Tufan bir həftədən sonra yatdı. Dəniz yenidən öz məcrasına qayıdıb, havanın açıldığını görəndə İnci təklif etdi:

– Gəlsənə dəniz sahilinə gedək, bir az gəzişək.

– Sənə soyuq olmaz ki? – Sahil narahat oldu.

– Əynimi qalın edərəm.

Onlar geyinib kəndin içi ilə dəniz sahilinə üz tutdular.

Nəm çəkmiş qumun üstü ilə yeriyərək, ləpələrin səsinə qulaq asa-asa, qol-qola yeriyən bu iki adam bir-birini dinləməkdən doymurdu.

Birdən Sahilin yadına düşdü ki, son həftə ərzində İnci bir dəfə də olsun dərman qəbul etməyib. Bunu xatırladanda İnci güldü:

– Nə tez yadına düşdü?

– Bəs sənin yadına niyə düşməyib?

– Mən də sənin tayınam da.

Sahil çoxdan ona əzab verən sualı verməyə bilmədi:

– İnci, mənim günahımı bağışlayırsanmı?

– Hansı günahını? Günahın birdimi, ikidimi? – İnci güldü.

Sahilin üzünün ifadəsinin dəyişdiyini görəndə onu sancdı:

– Deynən ki, xəyanətlərimi bağışlayırsanmı?

Bir qədər susduqdan sonra kədərlə dedi:

– Məhəbbətin qəribə gücü var, Sahil. O, pis nə varsa, hamısını unutdurur. Ancaq yaxşı şeyləri, xoş anları yadda saxlayır. Bu illər ərzində sənինlə bağlı ancaq gözəl xatirələrlə yaşamışam. Yaddaşım başqa heç nəyi saxlamayıb.

Birdən o, söhbətin məcrasını dəyişdi:

– Nəzrin üçün burnumun ucu göynəyir. Onu elə görmək

istəyirəm! Sənin qədər sevdiyim yeganə adamdır. Onun mənə nifrət etdiyini düşünəndə dünya gözlərimdə daralır. Səninlə Lalə ona az acılar yaşatmamısız. Bu azmış kimi, mən də etibarsız çıxdım. Gərək sənin qızın olduğunu anladığımı ona vaxtında deyəydim. Sözlərimi qəribliyə salma, Sahil, mənə sona kimi qulaq as. Nəzrinə sözlərimi çatdır. De ki, son iki ildə həyatımın yeganə sevinci o olub. Nəzrin mənim tənhalığımı bəzəyib. Ona övladım kimi bağlanmışam. Sənə olan sevgimi o, anasına xəyanət kimi qəbul edib. Çətin ki, məni bağışlaya. Bu fikir məni çox ağrıdır.

Evin kandarına çatanda İnci ayaq saxladı:

– Səndən bir xahiş etmək istəyirəm. Nə olar, yox demə. Söz ver ki, daha heç vaxt Lalənin xətrinə dəyməyəcəksən. Bir qadının xoşbəxt olması üçün yalnız onu sevmək kifayət edir. Sənin qayğına qalan, səndən ötrü özünü oda-közə vuran Lalədir, bunu unutma. Yaşlaşacaqsan, qocalıq qapını döyəcək, onda sənə Lalə kimi heç kim lazım olmayacaq.

Sahil ona qəribə nəzərlərlə baxıb, heç nə demədi. Onun soyuqdan tir-tir əsdiyini görüb dərhal yatağa saldı, tez çay içirtdi. Bir qədər özünə gəldiyini görəndə sakitləşib yanında uzandı. Sağ əli ilə İncini qucaqlayıb başını onun balışa səpələnmiş saçlarının üstünə qoydu. Bu ipək kimi saçların çox sevdiyi ətri başını gicəlləndirdi, nə vaxt yuxuya getdiyini bilmədi.

AYRILIQ

Radionun səsi onun diqqətini cəlb etdi: “Hörmətli poeziya həvəskarları! Çoxsaylı dinləyicilərimizin xahişini nəzərə alaraq sizə İncinin şeirlərini təqdim edirik. İfa edir Əminə Yusifqızı”.

Əminə xanımın məlahətli, nüfuzedici səsi otağa yayıldı:

Az istədim, çoxum getdi,
Kaman çəkdim, oxum getdi,
Varım getdi, yoxum getdi,
Bu sınaq nə sınaq imiş?

Bu sözlər Nəzrini titrətdi. Şeir sanki ona ünvanlanmışdı. Əslində bu misraların haçan, hansı hisslərlə yazıldığı ona məlum idi. Lakin bu an onları özünə götürdü. Qəribə bir hiss bütün damarlarına yayıldı. Peşmançılıqla üzgünlüyün, xəcalətlə qüssənin birləşərək əmələ gətirdiyi bu duyğu onu silkələdi.

Birdən İnci xanımı görmək, onunla söhbət etmək, səsini eşitmək üçün ürəyi uçundu. Ondan ötrü elə darıxdı ki, özünə yer tapa bilmədi. Ömründə heç zaman heç kimdən ötrü belə darıxmamışdı. Bu qadının yanında həmişə özünü rahat, qayğısız, şad hiss edər, əhvalı yaxşılaşardı. Hər dəfə onunla söhbət edəndə ürəyi qəribə nikbinlik hissi ilə dolardı.

İnci xanım ondan ötrü yalnız xilaskar deyildi. Həyatının ən çətin məqamında ona kömək əli uzatmış, təkcə evini deyil, ürəyini də etibar etmiş ən əziz, ən doğma varlıq idi. Dünyagörüşü, həyata baxışları, düşüncələri ətrafındakılardan çox fərqli olan bu qadına oxşamağa çalışan Nəzrin özü də bilmədən onun təsiri altına düşmüşdü. Özündən asılı olmayaraq, onun danışıq tərzini də götürdüyünü dəfələrlə öz-özünə etiraf edir və əslində buna sevinirdi. Təmkininə, mülayim səslə danışmasına, suallara çoxu kimi dərhal deyil, düşünüb cavab verməsinə heyran idi. Lakin bu qadına bu qədər bağlanmasının əsl səbəb İncinin xeyirxahlığı idi. Ayda bir dəfə oyuncaqlar, şirniyyatlar alıb Mərdəkandakı uşaq evinə getmək onun iş cədvəlinə daxil idi.

Bir dəfə dəhlizdə iri bağlamalar görən Nəzrin onların uşaq evi üçün alındığını eşidəndə özü də ora yollanmışdı. Müxtəlif yaşlı uşaqların İnci xanımı necə sevinclə qarşıladıqlarının

şahidi olan Nəzrin valideynlərini itirmiş və ya onlar tərəfindən atılmış bu kimsəsiz uşaqlara özü də bilmədən öyrəşmişdi. İnci xanıma qoşulub oraya getməyi özünə borc bilirdi.

Qadının uşaqların hər birinə xüsusi diqqət yetirməsi, onlarla söhbət etməsi, səbirlə dinləməsi Nəzrini mütəəssir edirdi. Hər dəfə Mərdəkana gedib-gələndən sonra ürəyində atası ilə anasına qarşı qəzəbinin azaldığını hiss edirdi. Valideyn qayğısından və nəvazişindən məhrum edilmiş bu uşaqları görəndən, onların fərəhsiz həyatları ilə yaxından tanış olandan sonra o, tez-tez ürəyində ata-anasına qarşı çox tələbkar, sərt və kəskin olduğunu etiraf edirdi. Onun həyata baxışını dəyişən bu səfərlərə görə İnci xanıma minnətdar olsa da, nədənsə bunu büruzə verməməyə çalışırdı.

Uşaqlardan biri – 8 yaşlı Nigar İnci xanıma daha çox bağlı idi. Onlar gedib-gələnə kimi, bu gözəl qızcığaz qadının böyründən çəkilmirdi.

Bir neçə ay əvvəl uşaq evinin müdirəsi Fəxrəndə xanımla İnci xanımın arasında olmuş, o vaxt əhəmiyyət vermədiyi bir söhbət nədənsə indi yadına düşdü. Onda Nəzrin Nigarla foyedə, İnci xanım isə Fəxrəndə xanımla onun kabinetində oturmuşdu. Açıq qapıdan onların söhbəti gəlib qulağına çatırdı.

– İnci xanım, hər dəfə siz gəlib-gedəndən sonra Nigar o qədər ağlayır. Sizin yerinizdə olsaydım, onu övladlığa götürərdim. Tək qadınsız, yaşlananda sizə hayan olar.

– İnanın ki, mən də ona öz balam kimi bağlanmışam. Onu məmnuniyyətlə himayə edərdim. Amma səhhətim buna imkan vermir, ciddi problemlərim var.

Sonra Nigar Nəzrini darta-darta həyətə aparmış, o da həmin söhbəti unutmuş, bir də xatırlamamışdı. İnci xanımın dediyi "səhhətim buna imkan vermir" sözləri indi birdən yadına düşdü. Axırıncı dəfə onu görəndə rənginin ağappaq olduğunu, son dərəcə arıqladığını indi xatırladı.

Atasını görəndə sarsılıb oradan getdiyi vaxtdan bir ay keçirdi. Bu bir ay ərzində bircə dəfə də olsun İnci xanımın halını düşünməmişdi. Köməksiz halda divanda uzanmış, çay dəmləməyə belə taqəti olmayan bu əziz adamının evində tək-tənha olduğunu təsəvvür edəndə onu xəcalət təri basdı. Özgə övladını təklikdən və aclıqdan, böyük şəhərdə insan seli içində yox olmaqdan xilas etmiş bu qadının yaxşılığına o, yamanlıqla cavab vermiş, xəstə vəziyyətdə atıb getmiş, öz xudpəsəndliyinin əsiri olmuşdu. İlk məhəbbətin şirin dadı, Cavid ilə aralarında başlanmış roman ona hər şeyi unutdurmuşdu.

Nəzrin utandığından bilmədi neyləsin. Tez özünü otaqdan bayıra atdı. Taksi tutub Sovetski məhəlləsinə yola düşdü. 20 dəqiqəlik yol boyu İnci xanımı ilk dəfə gördüyü andan bir ay əvvələ kimi baş vermiş hadisələr gözləri qarşısında kino lenti kimi canlandı.

Evə çatıb pəncərələrdən asılmış tül pərdələrin arxasında sarı rəngli qalın pərdələri görəndə narahatlığı çoxaldı. Bu günlüklərin bağlandığını ilk dəfə görürdü. Açarla həyətin, sonra isə evin qapısını açanda kəskin dərman qoxusu üzünə vurdu. Stolun üstündə bir neçə dərman var idi. Toz basmış döşəmə, içəridəki rütubət qoxusu həyəcanını artırdı.

Telefonunu çıxarıb İnci xanıma zəng çaldı. Zəng çatmırdı. Nəzrin gicgahlarındakı damarların gərildiyini hiss edib divanda oturdu, əlləri ilə başını tutdu.

Dərin düşüncələrdən özünə yer tapa bilməyən Nəzrinin ağlına birdən uşaq evi gəldi. Bazar günlərində İnci xanım ayın-oyun alıb ora yollanardı. Vaxtı olanda Nəzrin də ona qoşulardı.

Ürəyində ümid qığılcımları közərən Nəzrin avtobusla metroya, oradan isə şəhərətrafı avtobusların dayanacağına yollandı. Yol boyu İnci xanımın qarşısında necə böyük günah

işlətdiyi, bu günahı yumaq üçün ona illər lazım olacağı barədə düşünür, özünü heç cür bağışlaya bilmirdi.

Beləcə, qarışıq fikirlər içində Mərdəkana çatan qız uşaq evinin zalında divanda oturub Nigara nə isə danışan, mehriban baxışlarla baxan Ülkər Nikbini görəndə gözlərinə inana bilmədi. Nəzrini görəndə uşaq əllərini yana açıb onun qabağına qaçdı.

– Bəs İnci xanım niyə gəlməyib? – deyə nigaran səslə soruşdu.

– İnci xanım xəstələnib, – bunu Nəzrin təəssüflə dedi.

Uşağın mütəəssir olduğunu görəndə onun üzündən öpdü:

– Nigaran olma, tezliklə sağalacaq.

Sonra Ülkər Nikbinə yaxınlaşdı:

– Ülkər xanım, sizə minnətdaram.

Ülkər güldü:

– Əksinə, mən sənə minnətdaram. Bilsən Nigara necə öyrəşmişəm.

Nigar qadına sığındı:

– Mən də.

Nəzrin kövrəldi:

– İnci xanım buna çox sevinəcək. – Bunu deyəndə səsi əsdi.

***

... – İnciçiçəyi gətirmişəm, istəyirsənmi?

Pəncərənin qabağında dayanmış qoca rus qarısını o saat tanıdı.

– Bu vaxt inciçiçəyi bitər? Oktyabr ayıdır axı.

– Təbiət bəzən çaşır. Bu gün gördüm solmuş yarpaqlar cana gəlib, aralarından inciçiçəkləri boylanır. Sən yadıma düşdün. Onları dərib gətirdim.

– Mənim ünvanımı sizə kim verdi? – təəccüblə qarıya baxdı.

– Mən Bilgəhdə yaşayıram. Səni neçə vaxtdır burda görürəm. Dünən sevgilinlə dənizə gedirdin.

– Nə bildiz ki, o mənim sevgilimdir?

– Həyat yoldaşını belə əzizləmirlər.

Sahil təəccüblə qarıya baxır, nə deyəcəyini bilmirdi.

– Hər dəfə məndən aldığın çiçəkləri ona bağışlayırdın, elə deyilmi? – Qarı otağa işarə elədi.

– Elədir.

– Al, bu dəstəni də ona ver. Amma bu dəfə pul lazım deyil, qoy məndən hədiyyə olsun.

Qarı belə deyib inciçiçəyi dəstəsini ona uzatdı və gəldiyi kimi qəfil getdi. Sahil çiçəklərlə içəri girib sevinclə səsləndi:

– İnci! Gör sənə nə gətirmişəm! Sənin sevdiyin inciçiçəklərini! İnci!!!

Öz səsinə özü oyandı. Bədəninin sol tərəfinin bumbuz olduğunu hiss edib həyəcanlandı. Sağ əlini İncinin üzündə gəzdirdi. Son həyat əlamətlərinin söndüyünü görəndə onu qucaqlayıb hönkürdü.

Çarpayının yanında yerə düşmüş vərəqi qaldırıb İncinin əyri-üyrü xəttlə, görünür, son qüvvəsini toplayaraq yazdığı şeiri oxudu:

Gəlir ömrün xəzanı,
Necə qəmli gərdişdi...
Həyatın qürub çağı
Nə yaman tez yetişdi.

Hanı qismət yazanım,
Nəyim qalıb, qoy desin.
Hünəri var, üzümə
Bu dünyadan doy desin.

Gəlsin yuxu yozanım,
Azaltsın acıları.
Nisgili yaman olur
Tüstüsüz bacaların.

Səslənir sübh azanı,
Kədər dolu, qəm dolu.
Ondan keçir taleyin
Kəsə yolu, kəm yolu.

Mən tək dərdli ozanı
Kim arayar, kim anar?
Yaş ağacam, kösöyüm
İçin-için odlanar...

Yerdəki yatağına üzüqoylu yıxılıb ümidsizliyə qapıldı. Nə edəcəyini bilmədən beləcə qəmli fikirlər içində çabalamaqdan başqa əlindən heç nə gəlmirdi.

***

Uşaq evindən çıxan Nəzrini ayaqları yenidən Sovetski məhəlləsinə, doğma ünvana gətirib çıxardı. Qapının yenə də bağlı olduğunu görəndə açarla onu açıb içəri keçdi. Özünə heç cür yer tapa bilmirdi. Qəribə bir həyəcan ürəyini məngənə kimi sıxırdı. Halsızlaşdığını hiss edib divana çökdü.

Dəhlizdə ayaq səsləri eşidəndə Səlimə xala olduğunu görüb kövrəldi:

– Səlimə xala, İnci xanım harda ola bilər?

Həmişə deyib-gülən bu şən, zarafatcıl qadın bu gün fikirli görünürdü. O, gəlib qızın yanında oturdu. Nəzrinin sualına cavab vermək əvəzinə ondan soruşdu:

– Çoxdan görsənmirsən, Nəzrin. İnci yatağa düşəndən bəri

hardasan?

Yer yarılsaydı, Nəzrin yerə girməyə hazır idi. Şapalaq kimi üzündə açılan bu sözlər onun ürəyini ağrıtdı. Utandığından cavab verə bilmədi. Susub başını aşağı saldı.

– İnci səni çox istəyirdi, lap çox. Ana öz balasını istəyən kimi. – Səlimə xala bunu deyib ayağa qalxdı, sakit addımlarla qapıya sarı getdi. Sonra nə fikirləşdisə, dönüb dedi:

– Vəziyyəti ağır idi, rayona getdi.

Nəzrinin dodaqları əsdi. Xəstəxanaya düşməsini xatırladı. Başına gəlmiş qəfil faciədən sonra özünə gələndə gözlərini açıb başının üstündə İnci xanımı görməsi, onun böyük məhəbbətlə qayğısına qalması yadına düşdü. Yatdığı iki həftə ərzində qadın hər gün ona baş çəkmiş, hər dəfə də yemək bişirib gətirmişdi. Bununla kifayətlənməmiş, xəstəxanadan çıxıb evə gedəndə də uşaq kimi onun qulluğunda durmuşdu. İndi bunlar yadına düşəndə kövrəldi. Ona ürəkdən bağlanmış, iki ildən artıq bir müddətdə hər nazına dözmüş, hər arzusunu yerinə yetirmiş bu insandan birdən-birə niyə üz döndərmişdi? Əvəz gözləmədən özünü ondan ötrü oda-közə vuran, redaksiyaların qapılarını üzünə açan, yaradıcı aləmdə tanınmasından ötrü çalışan bu insanın onun boynunda o qədər haqqı var idi ki! Bunları niyə unutmuşdu?

Birdən yadına İnci xanımın dediyi sözlər düşdü: "Adamlar pis və yaxşı olmurlar. Çox və ya az səhv buraxanlar olur. Buna görə münasibətləri pozmaq olmaz". Bu sözləri o, Nəzrinin valideynləri haqqında demişdi. Amma indi bunları özünə götürdü. "Dağ boyda ürəyi olan o cür insanı cılız hisslərimlə yaraladım. İlahi, mən necə nankor adamam. Özümdəm zəhləm gedir. Sən nifrətə layiqsən, Nəzrin!" Bu sözləri öz-özünə pıçıldadı. Havası çatmırdı. Ürəyi sıxılırdı.

Telefonu zəng çalır, o isə heç nə eşitmirdi. Aramsız çalınan zəng nəhayət, qulağına çatdı. Dəstəkdə anasının dəyişib

kallaşmış səsini eşitdi:

– Nəzrin, hardasan?

– İnci xanımgildəyəm, ana.

– Nəzrin, qızım, İnci xanım... – Qəhər Laləyə sözünün ardını deməyə imkan vermədi.

– İnci xanıma nə olub? – Nəzrin sarsılıb nə edəcəyini bilmədi.

– İnci xanım... daha yoxdur...

Nəzrinə elə gəldi ki, həyat dayandı, onun yerində boşluq yarandı:

– Nə? Nə dedin? Yox! Ola bilməz! İnanmıram!

– Atanla İnci xanımı gətiririk.

Nəzrin var gücü ilə bağırdı. Elə bağırdı ki, yenicə otaqdan çıxan Səlimə xala hövlnak içəri girdi. Onun arxasınca İmran dayı və o biri qonşular otağa daxil oldular.

Nəzrin zaman və məkan məhfumunu itirib əlləri ilə başını tutdu. Bu vaxta qədər ona tanış olmayan əzablı bir ağrı bədəninin bütün əzalarına yayıldı.

...İçəri girən yaşlı molla üzünü otaqdakılara tutdu:

– Cənazəni içəri gətirməliyik, rayona aparmazdan əvvəl mərhumə yarım saat öz evində olsun.

Sahillə Lalə otağa daxil olanda dəyişib tanınmaz hala düşmüş atasını görən Nəzrinin ürəyi sızıldadı. Yerindən qalxıb ömründə ilk dəfə onun boynuna sarıldı. Sahil qızını bağrına basıb hönkürdü.

SON

1979-2022

MÜNDƏRİCAT

Müəllif haqqında......3
Redaktordan......6

I Fəsil. Yol azan məktub

Azad sənətkar.....14
Həsrət.....21
Akasiya gül açanda.....31
Şeir sevdası.....44
İnciklik.....56
Təyinat.....66
Qəfil qərar.....73
Qisas.....84
Narahatlıq.....96

II Fəsil. Qrafomaniya

Cəza.....102
Doğma ruhlar.....116
Yazarlar aləmində.....129
Tənhalıqdan qaçış.....156
Ədəbi oğurluq.....166
Sahilsiz dəniz.....179
Yeni sınaq.....187
Donor.....196

III Fəsil. İnciçiçəyi

Yuxu və reallıq.....201
Gözlənilməz görüş.....218
Etiraf.....245
Tufandan sonra.....252
Ayrılıq.....254